
Ey insanlar! Ey müsəlmanlar!
Ey ağıl sahibləri!
BUDUR
İSLAM
Dr. Muhəmməd Hişəm Tahiri
BUDUR İSLAM

**Ey insanlar... Ey müsəlmanlar... Ey ağıl sahibləri...**

# Budur İslam !

***(Həqiqi İslamın mənasını izah edən müxtəsər risalə)***

**Müəllif:**

**Dr. Muhəmməd Hişam Tahiri**

***Tərcüməçi:***

*Sahib Xasayev*

**Mərhəmətli, Rəhmli Allahın adı ilə**

## Giriş

Bizi ən gözəl şəkildə xəlq edən Allaha həmd olsun! Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur, həqiqi ilah Odur və Onun heç bir şəriki yoxdur. Həmçinin şəhadət verirəm ki, Muhəmməd Onun qulu və Rəsuludur. Ona, onun peyğəmbər qardaşlarına, saleh və pak ailəsinə, səhabələrinə və Qiyamət gününə qədər yaxşı işlərdə onların yolunu tutub gedənlərə Allahın salavatı və salamı olsun!

Bundan sonra...

Həqiqətən də, İslam dini Adəm peyğəmbərin dinidir. Uca Allah Nuhu, daha sonra İbrahimi, Musanı, İsanı və onların arasında gəlib-getmiş digər peyğəmbərləri də bu dinlə göndərmişdir. Allahın razı qaldığı yeganə din məhz İslamdır. Uca Allah insanları bu məqsədlə yaratmış və Öz Elçisi Muhəmmədi də (sallallahu aleyhi və səlləm) bu dinlə göndərmişdir. İslam dini insanın fitrətinə, sağlam ağıla uyğun gələn və həniflik (təkallahlıq) üzərində qurulan asan bir dindir.

Tarix boyu bu din bəzən onu daşıyanlar, bəzən də İslam düşmənləri tərəfindən təhriflərə məruz qalaraq insanlara yanlış təqdim edilmişdir. Nəticədə haqqın ətrafını toz-duman və zülmət bürümüşdür. Bu səbəbdən insanların çoxu — xüsusən də Qərb və Şərq ölkələrində haqq dindən uzaq olanlar, hətta müsəlmanların bir qismi belə — İslamın həqiqi mənasını, onun göndərilmə qayəsini və dəvətinin əsasını tam dərk etmirlər.

Məhz bu ehtiyacı nəzərə alaraq, həqiqi İslamı tanıtmaq məqsədilə sual-cavab şəklində bu müxtəsər (qısa) risaləni qələmə aldım və onu haqqı, həqiqəti axtaran hər bir kəsə həsr etdim. Bu risalədəki fikirlərin böyük qismini tanınmış alim Əbdürrəhman əs-Sədinin (Allah ona rəhmət etsin) sözlərindən ixtisar edərək (seçərək) hazırladım.

Uca Allahdan bu işimizə xeyir-bərəkət verməsini diləyərək başlayıram.

## Sual 1: İslam nədir?

Müsəlmanların dini olan İslam, tövhid dinidir. Onun mənası sülh, əmin-amanlıq və boyun əymək (təslimiyyət) deməkdir. Bu da Allahı təkləşdirərək Ona təslim olmaq, şirkdən və müşriklərdən uzaq durmaq, həmçinin nifaqdan (münafiqlikdən) qurtulmaqla izhar olunur.

İslam, insanla Rəbbi arasındakı əlaqəni tənzimləyən əhatəli bir dindir. O, insana həm bəndə ilə Yaradan arasındakı bağı, tövhid elmini və dini etiqadları, həm nəfslə rəftarı, ibadətləri, əxlaqı və gözəl xislətləri, həm də cəmiyyətdəki digər insanlarla münasibətləri, o cümlədən davranış əhkamlarını öyrədir. Bir sözlə, İslam dini tək və şəriki olmayan Allaha ibadət üzərində qurulmuşdur. Uca Allah buyurub: **De: "Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O heç vaxt müşriklərdən olmamışdı." De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm. "De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa məbudmu axtaracağam?" Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz. Sonra isə dönüşünüz Rəbbinizə olacaq və O, ixtilafa düşdüyünüz məsələlər barədə sizə xəbər verəcəkdir. (Ənam 151-154 )**

Bu sualı mələklərdən olan elçi Cəbrayıl (aleyhissəlam), insanlardan olan elçi Muhəmmədə (sallallahu aleyhi və səlləm) ünvanlayaraq belə demişdir: ***"Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!"***

***Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə buyurdu: "İslam odur ki, Allahdan başqa ibadətə layiq heç bir ilahın olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə Kəbəni ziyarət edəsən".***[1]

[1] Buxari və Muslim. Əbu Hureyranın hədisindən. Bu ləfz Muslimin rəvayətindəndir. ibn Omarın atasından rəvayət etdiyi hədis.

## Sual 2: İslam dininin mənbəyi nədir?

İslamın mənbəyi Uca Allahdan nazil olan vəhyə əsaslanır. Bu mənbə ilahi xarakter daşıdığı üçün oradakı bütün xəbərlər, əmrlər və qadağalar birbaşa Uca Allah tərəfindəndir. İslamın əsas mənbələri aşağıdakılardır:

1.Qurani-Kərim

2.Peyğəmbərin (sallallahu aleyhi və səlləm) səhih və sabit sünnəsi

3.Müsəlman alimlərinin icması (yekdil rəyi)

Qeyd etmək lazımdır ki, bu icma yalnız qəti şər'i dəlillərə əsaslanır. Çünki insanların yalnız öz ağılları ilə Uca Allaha necə ibadət ediləcəyini dərk etməsi və şəxsi zövqlərinə yönələrək Allaha yaxınlaşması mümkün deyildir.Uca Allah buyurub: **Onlara: "Allahın nazil etdiyinə və rəsula tərəf gəlin"– deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəs edər"– deyirlər. Bəs ataları bir şey bilməyib doğru yola yönəlməyiblərsə, onda necə? (Maidə 104 )** Digər ayədə Uca Allah buyurub: **Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın. Rəbbinizdən sizə nazil edilənə tabe olun. Onu qoyub başqa dostlara uymayın. Siz necə də az öyüd-nəsihət dinləyirsiniz". (Əraf 2-3 ).** Uca Allah digər ayədə belə buyurub: **Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan rəhbərlərə də itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır". (Ən-Nisa, 59).** Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Mən sizə elə bir şeyi qoyub gedirəm ki, ondan tutunsanız, heç vaxt yolunuzu azmazsınız. Bu Allahın kitabıdır."***[2] Başqa hədisdə belə buyurub: ***"Ey insanlar! Mən sizlərə elə bir şey qoyub gedirəm ki, əgər ondan möhkəm yapışsanız, heç vaxt azmazsınız; Allahın kitabını və Peyğəmbərinin sünnəsini (sallallahu aleyhi və səlləm).*** [3]

[2] Muslim Cabir ibn Abullah rəvayət etmişdir.
[3] Həkim öz mustədrak əsərində ibn Abbasdan rəvayət etmişdir. Bu hədisin şahidi Əbu Hureyranın hədisdir.

## Sual 3: İslamın özünəməxsus üstünlükləri və xüsusiyyətləri nədir?

İslamın bir çox üstünlükləri və özünəməxsus xüsusiyyətləri vardır ki, onları müəyyən bir çərçivəyə salaraq tamamilə sadalamaq olduqca çətindir. Bunlardan ən mühümləri aşağıdakılardır:

**1.** İslam dini Uca Allah tərəfindəndir. O, bəşər övladının uydurduğu, yaxud insan ağlının və şəxsi zövqlərinin məhsulu olan bir din deyildir. Necə ki, Uca Allah  buyurub: "**Həqiqətən, Allah yanında haqq din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı ədavət üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrinə küfr edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir". (Ali İmran 19).**

***Səhradan bir bədəvi ərəb gələrək Allah elşçisinə (sallallahu aleyhi və səlləm) belə dedi: "Ey Muhəmməd! Bizim yanımıza sənin göndərdiyin elçi gəldi və dedi ki, sən Allahın səni elçi olaraq göndərdiyini iddia edirsən?! Allah elçisi (sallallahu aleyhi və səlləm) buyurdu ki, o doğru deyir. Kişi dedi: "O zaman de görüm, göyü kim yaradıb?" Allah elçisi (sallallahu aleyhi və səlləm) dedi ki, Allah. Kişi soruşdu: "Bəs yeri kim yaradıb? O, "Allah" deyə cavab verdi. Kişi dedi: "Bu dağları ucaldan və orada olanları yaradan kimdir? Allah elçisi (sallallahu aleyhi və səlləm) "Allah" deyə cavab verdi. Kişi dedi: "Səni yeri və göyü yaradan və bu dağları ucaldan Allaha and verirəm, səni Allahmı göndərib? Allah elçisi "bəli" dedi.***[4]

**2.** İslam bütün peyğəmbərlərin dinidir. Çünki Adəmin, Nuhun, İbrahimin, Musanın, İsanın və Muhəmmədin *(sallallahu aleyhim və səlləm)* dini məhz tövhid idi. Uca Allah buyurub: **"De: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!" (Ali İmran 84-85).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Peyğəmbərlər ataları (dinləri) bir, anaları (şəriətləri) ayrı olan qardaşlardır.***[5]

**3.** İslam fitrəti təmiz olanların dindir. O, bəşəriyyətin nəfsinə uyğun olan və onda sağlam insan fitrətinə zidd olan heç bir şey yoxdur. Uca Allah buyurub: "**De: "Allahın dininə sarılın! Allahdan**

[4] Muslim. Ənəs rəvayət etmişdir.
[5] Buxari və Muslim. Əbu Hureyra rəvayət etmişdir. Bu Muslimin hədisidir. Mənası odur ki, onların ibadət və müamilələrində kəmiyyət və keyfiyyət baxımından bir qədər fərqlidir olsa da, lakin din və etiqadları eynidir.

**daha gözəl dini olan kimdir? Biz yalnız Ona ibadət edənlərik!" (Bəqərə 138).** Uca Allah buyurub: "**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Ər-Rum, 30).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Hər bir doğulan uşaq fitrət üzrə doğulur. Bundan sonra onun ata-anası (yəhudi isə) onu yəhudi, (xristian isə) onu xristian, (məcusi isə) onu məcusi edirlər".***[6]

**4.** İslam dini sağlam insan ağlına uyğun olan bir dindir və onda təmiz ağıllara və elmi faktlara zidd olan heç bir şey yoxdur və İslamda heç bir şey ağıl və düşüncəyə zid deyil. Buna görə də İslam dini bizə düşünməyi əmr edir. Uca Allah buyurub: **"Sizə, sizləri xatırladan bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz?" (Ənbiya, 10).** Digər ayədə Uca Allah buyurub: **"Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə anlayasınız". (Bəqərə, 242).**

**5.** İslam dini bəşər ehtiyaclarına və insani tələblərə uyğundur. İnsanların dünyadakı işlərini nizamlayır və axirətdə onlar üçün nələrin olduğunu bəyan edir. Bu, bənzərsiz özəlliyi və böyük xüsusiyyəti olan kamil bir dindir. Elə buna görə də siz İslamda, etdiyiniz hər bir əməlin sadalandığını və əməl etdiyiniz və ya tərk etdiyiniz hər bir işin ədəbinin olduğunu görürsünüz. Uca Allah buyurub: "**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim" (Maidə, 3).** Əbu Zərr *(Allah ondan razı olsun)* belə buyurub: "***Allah elçisi (sallallahu aleyhi və səlləm) bizi tərk etdiyi (vəfat etdiyi) zaman göydə uçan elə bir quş yox idi ki, bizdə onun barəsində elm olmasın"***[7]**.**

**6.** O, dəyişikliyə və təhrifə məruz qalmaqdan qorunmuş bir dindir. Bəziləri onu dəyişdirməyə çalışsalar belə, onun əsli və mənbəyi qorunur; itib getməsi və ya ona nəsə əlavə edilməsi qeyri-mümkündür. Buraya həm onun mətni və vəhyi olan Qurani-Kərim, həm də onun izahı və bəyanı olan Peyğəmbərin Sünnəsi aiddir. Uca Allah buyurub: "**Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Batil ona nə önündən, nə də arxasından girişə bilər. O, müdrik, tərifəlayiq Allah tərəfindən nazil edilmişdir". (Fussilət, 41-42).** Digər ayədə buyurub: "**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil**

[6] Buxari, Muslim. Əbu Hureyranın hədisidir. Bu sözlər Buxarinin rəvayətidir.
[7] İbn Hibban öz səhihində rəvayət etmişdir.

**etdik və əlbəttə, Biz də onu qoruyacağıq" (Hicr, 9).** Ayədə keçən bu qorunma həm bu dinin qorunmasını həmçinin, onun əhlinin və hökmlərinin də Qiyamət saatına qədər qorunmasını gərəkdirir. Əgər yer üzündə olanların hamısı bu dinə qarşı bir yerə toplansalar, onlar nə islamı, nə də müsəlmanları yer üzündən bütünlüklə yox edə bilməzlər. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* bunu qəti şəkildə təsdiq edərək buyurmuşdur: ***"Ümmətimdən (Qiyamətə qədər) haqq üzərində üstün olan bir tayfa olacaqdır. Onları tərk edənlər və onlara müxalif olanlar onlara zərər verə bilməyəcəkdir. Bu, Allahın vədi gələnə qədər davam edəcəkdir."***[8]

**7.** İslam dini hər zaman və məkan üçün yararlıdır. Bu ona görədir ki, zamanın və məkanın dəyişməsinə baxmayaraq İslam dinində olan hökmlər sabit qalır. Həmçinin İslamda örflə bağlı hökmlər var və onların həlli üçün örfə və adət-ənənəyə qayıtmağı buyurur. Uca Allah buyurub: "**Sən bağışlama yolunu tut, yaxşı işləri əmr et və cahillərdən üz döndər!" (Bəqərə, 199).** Digər ayədə Uca Allah buyurub: "**Əgər (qatil öldürdüyü) qardaşının (varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda (varislər onunla) insafla davranmalıdır". (Bəqərə, 178 ).** Digər ayədə Uca Allah buyurub: "**Kişilərin qadınlar üzərində (şəriətə müvafiq) haqları olduğu kimi, qadınların da kişilər üzərində (şəriətə müvafiq) haqları vardır. (Bəqərə, 228 )** Digər bir ayədə Uca Allah buyurub: "**Anaların yeməyi və geyimi (şəriətə) müvafiq qaydada uşağın atasının üzərinə düşür." (Bəqərə, 233).** Bu mənada ayələr çoxdur. Həmçinin, Allah Rəsulu *(sallallahu aleyhi və səlləm)* öz sabit hökmlərini açıqlayaraq belə buyurub: ***"Tövbə kəsilmədikcə hicrət bitməz. Günəş batdığı yerdən çıxmadıqca da tövbə kəsilməz"***[9]**.**

**8.** İslam dini xeyirli, ədalətli və orta bir dindir. Onda nə şişirtmək və ifrata varmaq, nə də əksinə boşluğa və səhlənkarlığa yol vermək vardir. Həmçinin, İslamda özbaşınalıq və fəsad yoxdur. Uca Allah buyurub: "**Beləliklə, siz insanlara şahid olasınız, peyğəmbər də, sizə şahid olsun deyə Biz sizi orta bir ümmət etdik" (Bəqərə, 143).** Allah elçisi *(sallallahu aleyhi və səlləm )* belə buyurub: ***"Həqiqətən, din asandır. Kim dini çətinləşdirərsə, din ona qalib gələr. Düzgünlüyə riayət edin, (bacardığınız qədər) ona yaxınlaşın və müjdələyin.***

[8] Buxari. Muğirə ibn Şöbə rəvayət etmişdir. Bu Müslimin ləfzidir. Sovban rəvayət etmişdir.
[9] Əbu Davud və Nəsai sünən kubrada və Hakim rəvayət etmişdir. Buxari və Muslimin şərtlərinə muvafiqdir

***Səhər tezdən, günorta vaxtı və gecənin axırı Allahdan kömək diləyin"[10].***

**9.** Bu din, müəyyən bir cinsə, bölgəyə və ya sinfə deyil, bütün bəşəriyyətin maraqlarına xidmət edən bir dindir; əksinə, həm dünya, həm də axirət mənfəətlərini ehtiva edən hərtərəfli bir dindir."Uca Allah buyurub: "**Ey Adəm oğulları! Məscidlərə gedərkən (və ya ibadət vaxtı) gözəl libaslarınızı geyinin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevməz. De: "Allahın Öz qulları üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında, (xüsusilə də) Qiyamət günü yalnız möminlərə məxsusdur". Biz dərk edən qövm üçün ayələri belə izah edirik" (Əraf 31-32).** Eləcə də, Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Yeyin, için, sədəqə verin, geyinin, amma israf və təkəbbürlük etməyin".***[11]

**10.** İslam dini hər bir yaxşılığa təşviq edən, hər bir şərdən çəkindirən, ən uca ədəb-ərkanı öyrədən, ən kiçik şərin və fəsadın belə qarşısını alan bir dindir. O, pozitivliyi təşviq edir, xurafat və batil inanclardan uzaqlaşdırır. Bu din insanın Rəbbi ilə, özü ilə və başqaları ilə olan münasibətlərində fəal olmağı aşılayır.

Bu pozitivliyin təsirləri mömінin həm öz nəfsinə, həm də ətrafındakılara yansıyır; onu iman enerjisini müsbət və qurucu bir fəaliyyətə yönəltməyə sövq edir. Mömin reallıqdan uzaq, insanlardan təcrid olunmuş, öz baxışlarında xəyalpərəst olan və ya öz hücrəsinə qapanmış bir rahib deyildir. Əksinə, o, həm öz daxilinə, həm də ətrafındakı insanlara təsir edən, qarşılıqlı əlaqədə olan bir fəaliyyət adamıdır. Məhz bununla da yer üzünün inkişafı təmin olunur və saleh əməllər çoxalır. Uca Allah bu barədə belə buyurub: **De: "İstədiyinizi edin! Allah, Onun Rəsulu və möminlər əməllərinizi görəcəklər. Siz gizli və aşkarı bilən Allahın hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir" (Tövbə 105).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Güclü mömin zəif mömindən Allah üçün daha xeyirli və daha sevimlidir. Onların hər ikisində xeyir var. Sən, sənə fayda verən işlər görməyə həris ol. Allahdan kömək dilə***

[10] Buxari rəvayət etmişdir. Əbu Hureyranın hədisidir.
[1111] Buxari hədisi mualləq olaraq rəvayət etmişdir. (Mualləq hədis isnadının əvvəli hədis alimi tərəfindən silinən hədisdir. Mualləq hədisin bir neçə növü vardir. Bəzən hədis alimi o isnadın əvvəlini, bəzən səhabədən başqa bütün isnadı, bəzən də bir hissəsini silir). Və ibn Macə rəvayət etmişdir. Hədis Abdullah ibn Amrın hədisidir.

***və acizlik göstərmə. Başına bir iş gəlsə: “Əgər belə etsəydim, belə olardı.” – demə. Lakin de: “Allahın qədəri idi. O istədiyini etdi.” Çünki “əgər” demək şeytan əməlinə qapı açır”.***[12]

## Sual 4: İslam dini nəyə çağırır?

İslam dəvəti bütün dünyaya aiddir. O, müəyyən insanlarla, irqlə yaxud zamanla bağlı deyil. Bu dəvət iki əsas üzərində dayanır:

**Birincisi əsas**: İslam dini Allahı təkləşdirməyə, şirki tərk etməyə, küfrdən çəkinməyə, nifaqı aradan qaldırmağa dəvət edir. O nəinki insanı, hətta bütün kainatı məxluqlara qul olmaqdan qurtaran və yalnız məxluqatın və varlıqların Rəbbinə qulluğa çıxararaq azad edən dindir. Uca Allah buyurub: **“De: “Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə (tərəf) gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək”. Əgər onlar yenə üz çevirsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!” Ey Kitab əhli! Nə üçün İbrahim barəsində höcətləşirsiniz? (Halbuki,) Tövrat və İncil ancaq ondan sonra nazil edilmişdir. Məgər anlamırsınız? Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barədə höcətləşirdiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barədə höcətləşirsiniz? Allah bilir, siz isə bilmirsiniz! İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif (batildən haqqa tapınan) bir müsəlman idi və müşriklərdən də olmamışdır” (Ali İmran, 64-67).**

Bir gün Xalid ibn Səid ibn As *(Allah ondan razı olsun)* Allah elçisinin *(sallallahu aleyhi və səlləm)* yanına gəlib soruşdu: “Ey Muhəmməd, sən insanları nəyə çağırırsan?” O belə buyurdu: ***“Tək olan və şəriki olmayan Allaha və Muhəmmədin Allahın qulu və rəsulu olduğuna şahidlik etməyə, həmçinin, əvvəllər ibadət etdiyin, zərər və fayda verə bilməyən və ona ibadət edənlə-etməyəndən xəbəri olmayan daşları tərk etməyə çağırıram”. Bunu eşidən Xalid dedi: “Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq (haqq) məbud yoxdur və həqiqətən də, sən Allahın qulu və rəsulusan”. Allah elçisi (sallallahu aleyhi və səlləm) Xalidin İslama gəlməsinə çox sevindi***[13]***.***

**İkinci əsas:** İslam dini peyğəmbərlərə *(Allahın salamı onların üzərinə olsun)* tabe olmağa və bidətləri və dində sonradan ortaya

---

[12] Muslim rəvayət etmişdir. Əbu Hureyranın hədisidir.
[13] Hakim öz mustədrak əsərində və Beyhəqi dəlailu nubuvvət kitabında rəvayət etmişdir.

çıxan işləri tərk etməyə dəvət edir və bildirir ki, Uca Allaha nə şirklə, nə də bidətlə yaxınlaşmaq mümkün deyil. Əksinə şirk və bidət insanı Uca Allahdan uzaqlaşdırır. Uca Allah bu barədə buyurub: "**Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün qanuni edən şəriklərimi vardır?! Əgər (cəzanın gecikdirilməsinə dair) qəti Söz olmasaydı, aralarında dərhal hökm verilərdi. Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab vardır" (Əş-Şura, 21).** Digər ayədə Uca Allah buyurub: "**İnsanlar arasında heç bir elmi, doğru yol göstərəni və nur saçan bir kitabı olmadan Allah barəsində mübahisə edənlərdə vardır. Onlara: "Allahın nazil etdiyinə tabe olun!"– deyildikdə, onlar: "Xeyr! Biz atalarımızın getdiyi yolla tabe olacağıq!"– deyərlər. Əgər şeytan onları Cəhənnəm əzabına çağırırsa necə? Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən kəs ən möhkəm dəstəkdən yapışmış olar. İşlərin sonu Allaha qayıdır. Kim küfrü edərsə, onun küfrü səni kədərləndirməsin. Onların dönüşü Bizədir. Biz də onlara etdikləri əməllər barədə xəbər verəcəyik. Həqiqətən, Allah qəlblərdə olanları biləndir. Biz onlara (dünyada olan) nemətlərdən az bir müddət istifadə etməyə imkan verəcək, sonra da onları ağır bir əzaba (qatlaşmağa) məcbur edəcəyik" (Loğman 20-24).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Sizə Allahdan qorxmağı, (üzərinizdə başçılıq edən rəhbər) əzaları kəsilmiş həbəşi bir kölə olsa belə, ona eşidib itaət etməyi tövsiyə edirəm. Sizlərdən uzun ömür yaşayanlar çoxlu ixtilaflar görəcək. Bu səbəbdən də, sizə mənim və doğru yolda olan xəlifələrimin yolu ilə getməyi tapşırıram. Ondan möhkəm tutunun və azı dişlərinizlə yapışın. Sizi (dində) yeniliklərdən çəkindirirəm. Həqiqətən də, hər bir yeni iş bidətdir, hər bir bidət isə zəlalətdir".***[14]

Kim ibadətlərində Allah üçün ixlaslı olsa və Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* tabe olsa, həm elm, həm də əməl baxımından Uca Allahın razı qaldığı şəkildə gələr və ondan tələb olunanı yerinə yetirirmiş olar. Uca Allah ixlası və peyğəmbərə tabeçiliyi bir ayədə cəm edərək buyurmuşdur: "**Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, qoy yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətlərində heç kəsi Ona şərik qoşmasın!" (Kəhf, 110).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Rəbbim Allahdır de, sonra doğru yolda ol".***[15]

---

[14] Əbu Davud bu ləfzlə rəvayət etmişdir. İbn Macə və Tirmizi də rəvayət etmişdir. Hədis Həsən Səhihdir.
[15] Tirmizi rəvayət etmişdir. Hədis 2410. İbn Macə 3972. Sufyan ibn Abdullah əs Səqafinin hədisidir. Tirmizi demişdir: Hədis Həsən , Səhihdir.

Xülasə: İslam dini Uca Allaha ibadət etmək və Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* tabe olmaqdır. Bununla insan Yaradandan başqasına qul olmaqdan və peyğəmbər və elçi olmayan insanlara təqlid etməkdən və tabe olmaqdan azad olur.

## Sual 5: İslamın missiyası nədir ?

İslam dəvəti geniş və əhatəli olub, fərdin cəmiyyət ilə, özü ilə və Rəbbi ilə olan münasibətlərini tənzimləyir, onu axirətdən öncə bu dünyanın da səadətinə qovuşdurur. Bu dəvət həyatın müxtəlif sahələrində cəmiyyətləri islah edir, nəfsləri paklaşdırıb təmizləyir və insanda daxili bir nəzarət hissi oyadır ki, bunun sayəsində də cəmiyyətdə təhlükəsizlik və əmin-amanlıq hökm sürür. Üstəlik, bu dəvət ədəb-ərkan və gözəl əxlaqı özündə birləşdirməklə yanaşı, bəşər övladının bütün sahələrdəki dünyəvi maraqlarına da böyük önəm verir.

İslam dini həm mənəvi, həm də maddi sahədə xoşbəxtliyə nail olmağı hədəfləyir; o, mahiyyətcə həyatın özüdür. Onun təlimləri balanslı, bütün nəzəriyyə və hökmləri isə tam bir tarazlıq içindədir. O; fərdi, ailəni və cəmiyyəti formalaşdıran, bəşəriyyətin xeyrinə əsaslanan əsl tərəqqi, inkişaf və sivilizasiya quran bir dindir. Onun təlim və əxlaq prinsipləri sadəcə xəyali nəzəriyyələrdən ibarət deyil, əksinə, müsəlmanlar Allah Rəsulunun və onun Rəşidi xəlifələrinin dövründə o ideal cəmiyyəti canlı şəkildə yaşamışdılar. Müsəlmanlar məhz bu dəvət sayəsində xeyir-bərəkət əkmiş, ölkələri abadlaşdırmış və yer üzünün sərvətlərini qorumuşlar. Bu dəvətin xülasəsi Uca Allahın bu ayəsində ifadə olunur:“**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan fərqlənir. Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm ipdən yapışmış olar. Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir” (Bəqərə, 256 ).** Bu dəvətin əzəməti və gözəlliyi hətta müharibə dövründə belə açıq-aşkar görünüb. Səfvan ibn Əssəl *(Allah ondan razı olsun)* demişdir: “Bir gün Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* bizi kiçik dəstə ilə hərbi yürüşə göndərib belə buyurdu: ***“Allahın adı ilə gedin və Allah yolunda Allahın düşməni ilə vuruşun. Həddi aşmayın, xəyanət etməyin, ölülərin əzaların kəsməyin və uşaqları öldürməyin”***[16]

[16] Nəsai “Əssünən əlkubra” kitabında rəvayət etmişdir. Buna bənzər hədisi Buxari və Muslim də rəvayət etmişlər. Hədis Bureydanın hədisidir.

**Sual 6: İslamın qayəsi və hədəfi nədir ?**

Uca Allah İslamın qayəsini və hədəfini bildirərək buyurur: **“Ummilərə (yazıb-oxumağı bilməyən ərəblərə) özlərindən onlara Allahın ayələrini oxuyan, onları pis əməllərdən təmizləyən, onlara Kitabı və Hikməti (Quran və Sünnəni) öyrədən bir Peyğəmbər göndərən Odur. Halbuki onlar bundan öncə açıq-aydın azğınlıq içində idilər. (Allah səni) hələ onlara (yazıb-oxumağı bilməyən ərəblərə) qoşulmayan başqalarına da (elçi göndərmişdir). O, Qüdrətlidir, Hikmət sahibidir. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir” (Cümə 2-4).** Başqa ayədə belə buyurub: **“(Biz) müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir” (Nisa 165).** Həmçinin Uca Allah buyurub: “**Ey Kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə: “Bizə (Cənnətlə) müjdələyən və (Cəhənnəmlə) qorxudan kimsə gəlmədi”– deməyəsiniz deyə, sizə (haqqı) bəyan edən rəsulumuz (Muhamməd) gəldi. Artıq sizə müjdələyən və qorxudan bir peyğəmbər gəlmişdir. Allah hər şeyə qadirdir” (Maidə, 19).** Başqa ayədə buyurub: **“Ey Kitab əhli! Sizə kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən (və ya sizdən bir çoxunu bağışlayan) rəsulumuz gəldi. Artıq sizə Allahdan bir nur (Muhamməd və ya İslam) və açıq-aydın bir kitab (Quran) gəldi. Allah, Onun rizasını arayan kəsləri (Muhamməd və ya Quranla) əmin-amanlıq yollarına yönəldər, onları Öz izni ilə zülmətlərdən nura çıxarar və düz yola yönəldər” (Maidə 15).** Bu ayələrdə İslamın böyük məqsədləri və ali hədəfləri aydın şəkildə təzahür edir. Onların ən mühümləri bunlardır:

(1) İnsanları savadsızlıq mühitindən elm mühitinə çıxarmaq: Belə ki, onlar Uca Allahın kitabını oxuyur, öyrənir və öyrədirlər. Məhz buna görə də nazil olan ilk ayələr oxumağı, yazmağı, təfəkkür etməyi və öyrənməyi əmr etmişdir.

(2) Əxlaqı qüsurlardan təmizləmək baxımından insanları paklaşdırmaq (təzkiyə etmək), ailələri problemlərindən uzaq tutmaq, cəmiyyətlər arasında əlaqələr qurmaq və onları eqoizmdən (bədxahlıqdan) xilas etmək.

(3) İnsanları şeytana bağlılıqdan və nəfsin istəklərindən qurtarmaq: Belə ki, nəfslər islah olunub paklaşsın. Nə vəzifə ehtiraslarının, nə də nəfsin istək və şəhvətlərinin quluna çevrilməsin.

(4) Hüccətin bərqərar edilməsi: Məhəmməd peyğəmbərin (sallallahu əleyhi və səlləm) göndərilməsi peyğəmbərlərin gəlişinin kəsildiyi bir dövrə (fətrə dövrünə) təsadüf etmişdir. Beləliklə, Allah bu durğunluğu (mənəvi boşluğu) aradan qaldırmaq və həm Kitab əhlinə, həm də digərlərinə qarşı hüccəti (dəlili) bərqərar etmək üçün Onu elçi göndərdi. Onun vasitəsilə haqdan yayınanlara qarşı hüccət bərqərar edildi ki, artıq heç kəsin azmaq və ya azdırılmaq kimi üzrü qalmasın.

(5) Azğınlıqların (sapqınlıqların) təzahürü; belə ki, bunlar Uca Allah, Onun rəsulları və peyğəmbərləri, həmçinin Allahın dini və Allaha ibadət haqqında baş vermişdir."

(6) İnsanlar arasında yardımlaşma və mərhəməti bərqərar etmək: İrqçiliyi yox etmək, fərdlər və cəmiyyətlər arasında bağlar qurmaq və vətənləri uzaq, nəsilləri fərqli olsa belə, möminlərin qardaş olmasını təmin etməkdir. Uca Allah buyurub: "**(Biz) müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir". (Ən-Nisa, 165).** Allah elçisi ( sallallahu aleyhi və səlləm) belə demişdir: ***"Bir- birinizə həsəd aparmayın. Bir-birinizə kələk gəlmək məqsədilə malın qiymətini qaldırmayın. Bir-birinizə nifrət etməyin. Bir-birinizə arxa çevirməyin. Kimsə qardaşının alveri üstündən alver etməsin. Ey Allahın qulları! Qardaş olun (və ya Allahın qardaş etdiyi qullar olun). Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu köməksiz qoymaz və onu alçaltmaz. Təqva bax buradadır" deyərək üç dəfə sinəsinə işarə etdi, sonra buyurdu: "İnsanın müsəlman qardaşını alçaltması onun şər olması üçün kifayətdir. Hər bir müsəlmanın canı, malı və irzi digər müsəlmana haramdır."***[17]

7. İnsanları zülmdən qurtarmaq və zülmü aradan qaldırmaq. Zülmün hər üç növü haramdır. Allaha qarşı olan zülm şirkdir. İnsanlara qarşı olan zülm, onlara qarşı həddi aşmaqdır. Zülmün üçüncü növü isə insanın nəfsinə etdiyi zülmdür. Uca Allah buyurub: "**Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər" (Yunis 44 ).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Zülm etməkdən çəkinin, çünki zülm Qiyamət günü sahibi üçün zülmət olacaq. Xəsislikdən çəkinin, çünki xəsislik***

[17] Muslim rəvayət etmişdir. Buna bənzər hədisi İbn Ömər də rəvayət etmişdir.

***sizdən əvvəlkiləri həlak etdi və onları bir-birinin qanını axıtmağa və haramları  halallaşdırmağa sövq etdi.[18]***

8. Məxluqlar arasında mərhəmət yaratmaq. Bunun ən böyük forması, Uca Allahın rəhm edənlərin ən rəhmlisi olduğunu dərk etməkdir. Buna görə də biz bir-birimizə rəhm etməli və məxluqlara qarşı mərhəmət göstərməliyik. Uca Allah qisas ayəsində buyurub: **“Əgər (qatil öldürdüyü) qardaşının (varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda (varislər onunla) insafla davranmalı, (qatil də, qanbahasını) gözəl tərzdə ödəməlidir. Bu, Rəbbiniz tərəfindən bir yüngüllük və mərhəmətdir. Bundan sonra kim həddi aşsa, onun üçün ağrılı-acılı bir əzab vardır. Qisasda sizin üçün həyat vardır. Ey ağıl sahibləri! Bəlkə (bununla Allahdan) qorxasınız” (Bəqərə, 178-179).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: “***Rəhm edənlərə Ər-Rahmən (Mərhəmətli Allah) rəhm edər. Siz yerdə olanlara rəhm edin ki, göydə olan (Allah) sizə rəhm etsin. rahim (qohumluq əlaqəsi) Allahın Ər-Rahmən ismindən götürülmüşdür. Kim onu birləşdirərsə, Allah onu birləşdirər (onu Öz rəhmətinə, yardımına və yaxşılığına qovuşdurar). Hər kim də onu (qohumluq əlaqəsini) kəsərsə, Allah da onu (Öz rəhmətindən, yardımından və yaxşılığından) kəsər.[19]*** Bir kişi  dedi: “Ey Allahın elçisi, mən qoyun kəsirəm və mənim ona rəhmim gəlir.[20] Allah elçisi *(sallallahu aleyhi və səlləm)* təkrar edərək iki dəfə dedi: ***“Sən qoyuna rəhm etsən, Allah da sənə rəhm edər”.[21]***

## Sual 7: İslamda əməllər neçə qismdir ?

İslamın əməlləri yer baxımından üç qismə bölünür:

1) **Qəlb əməlləri**; Uca Allahı sevmək, Ondan qorxmaq, Ona dönmək və s.

2) **Dilin əməlləri;** Tövhid şəhadətini söyləmək, Quran oxumaq, zikr etmək və s.

3) **Əzaların əməlləri**; Namaz, oruc, həcc və s.

---

[18] Buxari ədəbul mufrad əsərində rəvayət etmişdir. hədis səhihdir

[19] Bu ləfz ilə Əbu Davud və Tirmizi rəvayət etmişdir. Abdullah ibn Amrın hədisidir. Hədis həsən səhihdir.

[20] Qoyuna kəsərkən bıçağı iti etmək, bıçağı ona göstərməmək, digər heyvanların gözü önündə kəsməmək, onu yanı üstə uzatmaq və bismilləh deyərək kəsmək ona rəhm etməkdən sayılır.

[21] Buxari “Əl-Ədəbul mufrad” əsərində rəvayət etmişdir. Şeyx Albani səhih demişdir.

Bu da özlüyündə İslamın böyüklüyünə dəlalət edir, çünki onun əməlləri insanı müəyyən bir şeydə deyil, bütünlüklə əhatə edir.

İslamın əməlləri hökm baxımından üç növə bölünür:

**Birinci növ: İslamda təməl olan əməllər.** Hansı ki, insanın müsəlman olması üçün bunların olması labüddür; "**Lə iləhə illallah Muhamməddən rasulullah"** şəhadətini tələffüz etmək, İslam və imanın rüknlərini iqrar etmək, ona uyğun əməl etmək, şirk və küfrdən uzaq olmaq və s.

**İkinci növ: Vacib əməllər.** Bu əməllər mömininin qəlbində imanı kamilləşdirir və Allah yanında təqvasını artırır. Məsələn: ata-anaya yaxşılıq etmək, doğru danışmaq, əmanəti yerinə yetirmək və s.

**Üçüncü növ: Müstəhəb əməllər.** Bu əməllərlə imanın müstəhəb kamilliyi hasil olur, qulun məqamı yüksəlir və bəndə bununla övliya dərəcəsinə çatır. İnsanın gözəl söz danışması, özünə aid olmayan işləri tərk etməsi və s. əməlləri buna misal çəkmək olar.

Bu əməllərdə insanlar eyni dərəcədə deyil. Uca Allah buyurub: "**Sonra, Kitabı qullarımızdan seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur" (Fatir 32).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Allahın mənimlə göndərdiyi elm və hidayətin misalı, torpağa yağan yağışa bənzəyir. Bu torpağın bir qismi münbit olduğu üçün suyu canına çəkir və çoxlu bitkilər və otlar yetişdirir. Elə torpaq var ki, qurudur, lakin suyu öz üzərində saxlayır və Allah onunla insanlara fayda verir, onlar bu sudan içir, heyvanlarını və əkin sahələrini sulayırlar. Bu yağışların düşdüyü elə bir yer də vardır ki, o hamar olduğundan nə suyu saxlayır, nə də bitki yetişdirir. Bu, Allahın dinini dərk edən, Allahın mənimlə göndərdiyi hidayət və elmdən faydalanan, onu öyrənən və başqasına öyrədən kimsə ilə, buna tərəf başını belə qaldırmayan, onu qəbul etməyən və başa düşməyən kəsin məsəlidir.***[22]

[22] Buxari 79, Buxari 2282. Hədisi Əbu Musa əl-Əşari rəvayət etmişdir. Bu Muslimin ləfzidir

## Sual 8: İslamda əməllərin qəbul olunma əsasları hansılardır?

İslamda insanların əməllərinin qəbul olunması, onların rəngi, vəzifəsi yaxud halı ilə bağlı deyil. Əksinə, əməllərin qəbul olunmasının iki əsası vardır. Baxmayaraq ki, hansısa əməldə əlavə şərtlərin olması mümkündür, lakin ümumi olaraq bütün əməllərdə əməlin qəbul olunmasının iki əsası vardır:

**Birinci əsas:** Əməldə Allah üçün ixlaslı olmaq (əməlləri xalis Allah üçün etmək). Uca Allah buyurub; "**Halbuki onlara, dini məhz Allaha məxsus edib, batildən haqqa yönələrək, namaz qılmaları və zəkat vermələri əmr edilmişdir. Doğru din də elə budur!" (Bəyyinə, 5).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Ey insanlar, Doğrudan da əməllər niyyətlərə görədir. Hər kəs etdiyi niyyətin savabına nail olacaqdır. Kimin hicrəti Allaha və rəsuluna olarsa, onun hicrəti Allaha və rəsulunadır. Kimin hicrəti əldə edəcəyi dünya mənfəətinə yaxud evlənəcəyi qadına görə olarsa, onun hicrəti də elə ona görədir."***[23]

**İkinci əsas:** Əməllərdə Peyğəmbərə (*sallallamu aleyhi və səlləm)* tabe olmaq, onun ardınca getmək. Uca Allah buyurub: "**Allahın Rəsulunda sizlər, Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə üçün gözəl örnək vardır. (Əhzab, 31)**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Kim bizim əmrimiz olmayan bir əməli edərsə, o rədd olunar"*****.** Digər hədisdə Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Kim bizim bu işimizə (dinimizə) ondan olmayan bir şey əlavə edərsə, o (əməl) rədd olunar.***[24] Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Kim mənim sünnəmdən üz döndərərsə, məndən deyil".***[25]

[23] Buxari və Muslim rəvayət etmişdir. İbn Omarın hədisidir. Bu Buxarinin ləfzidir.
[24] Buxari və Muslim. Aişənin *(Allah ondan razı olsun)* hədisidir
[25] İbn Xuzeymə öz səhihində rəvayət etmişdir. Abdullah iibn Amrın hədisidir.

## Sual 9: İslam elmləri hansılardır?

İslamın şəriət elmləri sayca çoxdur və onların xəbərlərdə doğruluğa, hökmlərdə isə ədalətə əsaslanır. Uca Allah buyurub: **“Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, (hər şeyi) Eşidəndir, Biləndir”.**[26]

Bu elmlər müxtəlif növlərə bölünür:

**Birinci növ:** Keçmiş xəbərlərlə bağlı elmlər; ifrata və nöqsana varmadan, faydasız mövzulara dalmadan və yalnız faydalı olanları zikr etməklə Adəm, Nuh, Hud, Saleh, İbrahim, Musa və İsa (əleyhimussalam) barəsindəki xəbərlər kimi.

**İkinci növ:** Gələcək xəbərlərlə bağlı elmlər; istər vəhyin nazil olduğu dövrə nisbətdə gələcək sayılan xəbərlər olsun (Məkkənin fəthi, İslamın yayılması və Rumluların öz dövründə Farslara qələbə çalması kimi), istərsə də axırzamanda baş verəcək gələcək xəbərlər olsun.

**Üçüncü növ:** Səmavi qeyb aləmi ilə bağlı elmlər; istər xəlq edilmə və yoxdan var edilmə ilə bağlı mövzular, istərsə də Cənnət və Cəhənnəmlə bağlı məsələlər olsun.

**Dördüncü növ:** Məxluqatla bağlı elmlər; istər göylərin və yerin yaradılışı, istərsə də onların arasındakı üfüqi ayələr (böyük nişanələr), göy cisimləri və yerdəki məxluqat olsun.

**Beşinci növ:** İnsanların əxlaqı, gözəl əxlaqla necə zinətlənmək və pis əxlaqdan necə çəkinmək barəsindəki elmlər.

**Altıncı növ:** İnsanların ibadətləri ilə bağlı elmlər; necə namaz qılmalı, zəkat verməli, oruc tutmalı, Allahı zikr etməli olduqları və s. məsələlər.

**Yeddinci növ:** Cəmiyyət, iqtisadiyyat, şəriət siyasəti (idarəçilik), həmçinin ailə, cəmiyyət və fərdin hökmləri ilə bağlı elmlər.

**Səkkizinci növ:** İstər yeyilən və içilən şeylərdə, istərsə də çirkin vəsflərdə olsun – murdar, pis və xoşagəlməz şeylərin bəyanı ilə bağlı elmlər.

**Doqquzuncu növ:** Uca Allah ilə bağlı elmlər. Bu növ ən əzəmətli növlərdən biridir, hətta Quranın üçdə biri bu mövzudadır. Bu elm

---

[26] Ənam 115

Yaradanın adlarını, vəsflərini (sifətlərini), fellərini və haqlarını tanıdır. Mələklərdən ibarət ordusu, nazil etdiyi kitabları, peyğəmbərləri və elçiləri ilə bağlı məsələlər də bu növə daxildir.

**Onuncu növ:** Dinlərlə, xüsusən də əsli səmavi olub, sonradan təhrifə uğrayan, dəyişdirilən və dəyişən dinlərlə, yaxud bəşəriyyət tərəfindən uydurulmuş dinlərlə bağlı elmlər.

Qurani-Kərimdə elmlərin növləri yüzü ötüb keçir və burada onların hamısını sadalamaq mümkün deyil. Bu barədə məlumat əldə etmək istəyən şəxs "Ulumul-Quran"a (Quran elmlərinə) aid hər hansı bir kitaba nəzər salsa, orada bunun müxtəsər və ya ətraflı izahını tapar.

İslam elmlərini (ümumi şəkildə) aşağıdakı dörd növə də bölmək olar:

**1. Mənbə elmləri (Ulumul-Məsadir):** Bunlar Uca Allahın əmr və qadağalarına aid olan xüsusi elmlərdir. Bu elmlər tamamilə Qurani-Kərimə və Nəbəvi Sünnəyə əsaslanır. Qurani-Kərimin təfsirinə bağlı qalmağı və Sünnənin öz xüsusi qaydaları çərçivəsində öyrənilməsini tələb edir.Bu qaydalardan biri də bu ümmətin sələflərinin (keçmiş saleh nəsillərinin) fəhminə tabe olmaqdır. Çünki onlar Allahın və Rəsulunun nəyi qəsd etdiyini insanların ən yaxşı bilənləridir.

**2. Qayə elmləri (Ulumul-Məqasid):** İslamın və imanın rüknləri üçün riayət olunmalı qayda və prinsiplərin öyrənilməsinə, həmçinin şəriət məqsədlərinə yönələn elmlərdir. Bu elm şəriətin qorunmasını vacib saydığı beş zərurətə (Dinin, nəfsin/canın, ağlın, malın və nəslin qorunmasına) işıq tutur.

**3. Alət elmləri (Ulumul-Alət):** Bura təfsir elmləri daxildir, çünki onların hamısı Allahın kəlamını anlamaq üçün bir alətdir (vasitədir). Qurani-Kərimi nazil olduğu kimi oxumağı təmin edən təcvid və qiraət elmləri; hədislərin sabitliyini (səhihliyini) və fəhmini müəyyən edən hədis elmləri; həmçinin ümumi mənada ərəb dilini anlamaq üçün alət rolunu oynayan nəhv (sintaksis), sərf (morfologiya) və bəlağət elmləri bura aiddir. Alət elmləri şəri mətnlərin dərk olunmasına töhfə verir və bizə Quran mətnlərini öyrənməyə, onları doğru və qaydalara uyğun şəkildə təfsir etməyə imkan yaradır.

**4. Humanitar (əlavə) elmlər.** Tarix, siyər (peyğəmbərin həyatı), qəzavatlar (məğazi), tarixi xəbərlər və bu qəbildən olan digər elmlər.

## Sual 10: İslamda insanın Rəbbi ilə əlaqəsi nədir?

İnsanın öz Rəbbi ilə olan əlaqəsi, yaradılanın onu yaradana olan ehtiyacında təzahür edir. Yaradılan nə qədər fərasət, zəka və ya güc sahibi olsa da, özünü yaradandan ehtiyacsız sayıla bilməz. Bu, ağıl sahibləri tərəfindən qəbul edilmiş dəyişməz, məntiqi bir qaydadır. Əgər bu məsələ fərasət sahibləri arasında birmənalı olaraq təsdiqini tapıbsa, deməli, biz qulun öz Ağasına və Mövlasına, məxluqun isə öz Yaradanına olan ehtiyacını mütləq dərk etməliyik. Bu istər onun başlanğıcı (ilk yaradılışı) və qayıdışı (axirəti) baxımından, istər həyatının davamlılığı baxımından, istərsə də xoşbəxtliyi və bədbəxtliyi baxımından olsun.

Məgər biz işçinin, gördüyü işin sonunda alacağı məvacibə görə iş sahibinə nə qədər ehtiyac duyduğunu görmürükmü? İnsanın (Rəbbinə olan) ehtiyacı, xəstənin həkimə, yaxud ac insanın yeməyə olan ehtiyacından qat-qat böyükdür. Çünki bu sadalananlardan hər hansı biri çatışmadıqda insanın itirəcəyi ən son şey (dünya) həyatı olar. Lakin insan öz Rəbbini itirərsə, Ona yönəlməzsə və Onu layiqincə tanımazsa, həm dünya, həm də axirət həyatını itirmiş olar. Hətta Allahın dinindən üz çevirdiyinə görə fərdi yaxud ümumi bir əzaba düçar ola bilər.Uca Allah buyurub: **“Bunların əməli Firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Rəbbinin ayələrini təkzib etdilər, Biz də onları etdikləri günahlara görə məhv etdik və Firon nəslini dənizdə boğduq. Onların hamısı zalımlar idi. Şübhəsiz ki, Allah yanında (yer üzündə yürüyən) canlıların ən pisi kafir olanlardır. Onlar iman gətirməzlər. Onlar, əhd bağladığın, sonra da hər dəfə öz əhdlərini (heç nədən) çəkinmədən pozan kimsələrdir”. (Ənfal, 54-56).**

İnsan İslamı qəbul etdikdə qəlbin hidayətini tapar; namaz qıldıqda nəfsin rahatlığını tapar; oruc tutduqda cansağlığı tapar; zəkat verdikdə paklıq (və bərəkət) tapar; əxlaqını gözəlləşdirdikdə isə (rəhmətdə) genişlik və sevgi qazanar. Deməli, din qulun öz Rəbbi ilə olan əlaqəsini gücləndirdiyi kimi, onun öz nəfsi və cəmiyyəti ilə olan münasibətlərini də qüvvətləndirir.

## Sual 11: İnsan islama necə daxil olur?

İnsanı İslama daxil edən şey sadəcə Yaradanın varlığına inanması və ya tutuquşu kimi mənasına varmadan sadəcə dil ilə “Lə iləhə illallah” şəhadətini tələffüz etməsi deyildir. Əksinə, qəlb və bədən əməllərində Uca Allahı ibadətdə təkləşdirmək (buna "Uluhiyyət

tövhid"i deyilir) mütləqdir. İnsanı İslama daxil edən amil – doğru etiqad, bu etiqada dəlalət edən açıq-aydın söz və onun tələblərinə uyğun olan əməldir; “Lə iləhə illallah” kəlməsinin mənası da məhz budur.

Bu kəlmənin mənası odur ki, onu söyləyən şəxs qəlbən və yəqinliklə Allahdan başqa heç kəsin ibadətə layiq olmadığını iqrar edir. Ondan başqa haqq məbud yoxdur, çünki Ondan başqa yaradan yoxdur. İnsan bu kəlməni deməklə ibadətdə, yaratmaqda, həmçinin Allahın ad və sifətlərində şərik qoşmaqdan (şirkdən) uzaq olduğunu bəyan edir. Elə isə bu kəlməni söyləyən kəs mütləq onun mənasını dərk etməli, tələblərini və onu dedikdən sonra üzərinə düşən məsuliyyəti bilməli, eyni zamanda bunu təsdiq edib boyun əyməlidir. Bütün bunlar Allaha imanın məzmununu qəbul etməyi və iqrar etməyi tələb edir. İnsan İslama daxil olarkən iki şəhadət kəlməsini dilə gətirməlidir; əgər hər hansı bir maneə səbəbindən buna gücü çatmazsa, buna dəlalət edən bir işarə etməlidir; buna da gücü çatmazsa, qəlbi ilə iqrar etməsi kifayətdir.Uca Allah buyurur: **“Halbuki onlara ancaq tək olan ilaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur. Allah (müşriklərin) Ona şərik qoşduqlarından uzaqdır!” (Ət-Tovbə, 31).** Həmçinin buyurub: **“Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!” (Bəqərə, 136)**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***İnsanlar “Lə İləhə İlləllah” şəhadətini deyənə, mənə və mənim gətirdiyimə iman gətirənə qədər onlarla vuruşmaq mənə əmr olunmuşdur. Əgər bunu etsələr, canlarını və qanlarını məndən qorumuş olarlar. Yalnız İslamın haqqı istisnadır. Onların haqq-hesabı isə Allaha aiddir”.***[27]

## Sual 12: İslam dininə görə müsəlman kimdir ?

İslamın nəzərində müsəlman – hətta zahirən olsa belə – İslamı izhar edən (ortaya qoyan) şəxsdir. Ona görə də ona müsəlman kimi rəftar olunur. Müsəlmanların sahib olduğu hüquqlar ona da aid edilir, müsəlmanların üzərinə düşən vəzifə və öhdəliklər onun da üzərinə düşür. Uca Allah buyurur: “**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələri bilən bir tayfa**

[27] Muslim 21 hədis . Əbu Hureyra rəvayət etmişdir.

**üçün belə izah edirik" (Tovbə, 11 ).** Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* də insanların zahirinə əsasən hökm verib bunu qəbul etmişdir. ***Əbu Səid Xudri rəvayət edir ki, bir kişi Peyğəmbərin ədalətinə tənə etdi. Bu zaman Xalid ibn Valid dedi: "Ey Allahın elçisi, onun boynunu vurummu?" Allah elçisi (sallallahu aleyhi və səlləm ) belə dedi: "Xeyr, ola bilsin ki, o namaz qılanlardan olsun". Xalid ibn Valid dedi: "Qəlbində olmayanı dili ilə söyləyən nə qədər namaz qılanlar var". Allahın elçisi (sallallahu aleyhi və səlləm) buyurdu: "Mənə insanların qəlbini araşdırmaq və qarnını yarmaq əmr edilməmişdir.***[28]

Uca Allah qatında məqbul olan əsl müsəlman isə həm zahirən, həm də batinən İslama daxil olan və imanın vacib olan kamilliklərini özündə təzahür etdirən kəsdir. Uca Allah buyurub: **"Bədəvilər: "Biz iman gətirdik!"– dedilər. De: "Siz (qəlbən) iman gətirmədiniz! Lakin: "Biz tabe olduq!"– deyin. İman hələ qəlbinizə daxil olmamışdır. Əgər Allaha və Onun rəsuluna itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz. Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir!" Möminlər ancaq Allaha və Onun rəsuluna iman gətirən, sonra şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! (İmanlarında) sadiq olanlar da məhz onlardır" (Hucurat, 14-15 ).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən salamatdırlar.***[29]

## Sual 13: İslam dininə görə mömin kimdir ?

İslamın nəzərində "mömin" ifadəsi bəzən hər hansı bir müsəlmana da şamil edilə bilər. Çünki bu iki məfhum ayrı-ayrılıqda zikr olunduqda, imanla İslam eyni mənanı ifadə edir. Bu baxımdan hər bir müsəlman həm də mömindir ( yəni iman gətirəndir ) Çünki o, İslamın rüknlərini iqrar etməklə bərabər, imanın rüknlərini də iqrar etdiyini ortaya qoymuşdur. Eynilə bunun əksi də doğrudur: hər bir mömin həm də müsəlmandır; çünki o, imanın rüknlərini iqrar etməklə yanaşı, İslamın rüknlərini də iqrar etdiyini nümayiş etdirmişdir.

[28] Buxari və Muslim
[29] Buxari və Muslim. Abdullah ibn Amrın hədisidir

Bu məfhumlar tək başına işləndikdə məhz bu məna nəzərdə tutulur. Uca Allah buyurub: “**Mömin olaraq həm kişilərdən, həm də qadınlardan yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çəyirdəyindəki oyuq qədər haqsızlıq edilməz. Yaxşı əməl sahibi olduğu halda özünü Allaha təslim edən və hənif İbrahimin dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi (Özünə yaxın) dost tutmuşdur” (Ən-Nisa, 124-125).**

Lakin "mömin" kəlməsi "müsəlman" kəlməsi ilə birlikdə (eyni mətndə) işləndikdə, bu zaman o, imanın qəlbə aid olan əməllərini yerinə yetirən kəsə aid edilir ki, bu da yalnız zahiri əməllərdən sonra hasil olur. Alimlər bunu belə ifadə edirlər: «Hər mömin müsəlmandır, lakin hər müsəlman mömin (kamil iman sahibi) deyildir». Uca Allah buyurub: “**Möminlər o kəslərdir ki, Allah anıldığı zaman qəlbləri qorxudan titrəyər, Allahın ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyərlər” (Ənfal, 2-3).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Mömin o kəsdir ki, insanlar öz malları və canları barədə ondan əmindirlər.”***[30] Başqa hədisdə belə buyurub: ***“Mömin o kəsdir ki, insanlar öz qanları və malları barədə ondan əmindirlər”.***[31]

## Sual 14: İslamda dərəcə baxımından insanlar neçə qismə bölünür?

İslamda insanlar Uca Allah qatında bərabərdirlər. Onlar yalnız imanlarına və əməllərinəgörə bir-birlərindən üstün olurlar və müəyyən dərəcələrə bölünürlər. Allah Öz Kitabında onları üç dərəcəyə ayırmışdır:

**Birinci dərəcə:** Xeyir işlərdə öndə gedənlər (Sabiqun bil-xayrat). Bunlar vacib və müstəhəb (bəyənilən) əməlləri yerinə yetirən, haramları, məkruhları və mübah (halal) olan şeylərin ehtiyacdan artığını tərk edən, həmçinin imanın kamil olmasına və onu tamamlamağa çalışan kəslərdir.

**İkinci dərəcə:** Sağ tərəf sahibləri (Əshabul-yəmin / Muqtasid). Bunlar yalnız fərzləri yerinə yetirmək və haramlardan çəkinməklə

[30] İbn Macə rəvayət etmişdir və bu ləfz onundur. Fədala ibn Ubeydin hədisidir. Şeyx Albani hədisin səhih olduğunu demişdir.
[31] Əbu Davud və Tirmizi rəvayət etmişlər. Əbu Hureyranın hədisidir. Tirmizi hədisin həsən-səhih olduğunu demişdir

kifayətlənən, imanlarını artırmağa və öz hallarını islah etməyə önəm verən kəslərdir.

**Üçüncü dərəcə:** Özünə zülm edənlər (Zalimun li-nəfsihi). Bunlar yaxşı əməllərlə pis əməlləri bir-birinə qatan kəslərdir; ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin.

Uca Allah bu təbəqələri bəyan edərək buyurur:**“Sonra Kitabı qullarımızdan seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar,kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur” (Fatir, 32).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***“Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Hər ikisində də xeyir vardır.***[32]

İnsanların İslamdakı mərtəbələri imanlarının artmasına əsaslanır. Belə ki, onlar iman elmlərinin azlığı və ya çoxluğu, yəqinliyin güclü və ya zəif olması baxımından bir-birlərindən fərqlənirlər. Həmçinin imanın ruhu və qəlbi sayılan qəlb əməllərində də – Allah sevgisi, Ondan qorxmaq, Ona ümid bəsləmək, Ona təvəkkül etmək və Ona yönəlmək (inabə) kimi məsələlərdə də bir-birlərindən üstün olurlar. Bununla yanaşı, fərz və nafilə olmaqla namaz, zəkat, oruc, həcc kimi bədən üzvlərinin əməllərində, eləcə də Allahın haqlarını və bəndələrin haqlarını yerinə yetirməkdə – yaxşılıq etmək, qohumlar, qonşular və dostlarla əlaqələri qorumaq  və məxluqata xeyirxahlıq göstərmək baxımından da insanlar arasında böyük bir fərq və üstünlük meydana gəlir.

## Sual 15: İslamda qurtuluş kəliməsi nədir?

İslamda qurtuluş kəlməsi tövhid şəhadəti olan “Lə iləhə illallah” dır. Bu, insanın İslama daxil olmasını və müsəlmanın Cənnətə girməsini təmin edən İslam kəlməsidir.

Bu kəlmə İslamda ixlas kəlməsidir; Allahdan başqasından uluhiyyəti (ilahlığı) nəfy etməyi (inkar etməyi) və məxluqatdan heç bir kəsin zərrə qədər də olsa ibadətə layiq olmadığını ehtiva edir. Buna görə də zahiri və batini ibadətlərdən heç biri Allahdan başqasına yönəldilə bilməz. Bu kəlmə uluhiyyətin tamamilə tək olan Allaha aid olduğunu isbat edir. Çünki hər bir baxımdan və hər bir halda sevgi,

[32] Muslim rəvayət etmişdir 2664. Əbu Hureyranın hədisidir.

rəğbət, qorxu, yönəlmə (inabə), boyun əymə və təvazökarlıqla ibadət olunmağa layiq olan yalnız Odur.

Bu şəhadətin (sahibini) qurtuluşa yetirməsi üçün onunla bərabər qəlbin iqrarı, dilin izharı və tələblərinə uyğun əməl mütləqdir.Uca Allah buyurub: “**Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver; o kəslər ki, Allah anıldığı zaman qəlbləri qorxuya düşər, başlarına gələnlərə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyərlər” (Həcc, 34-35).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Qiyamət günü mənim şəfaətimlə ən xoşbəxt olan insan, səmimi qəlbdən ixlasla “Lə iləhə illəllah” deyən kəsdir”.***[33]

Həmçinin, qurtuluşun bu kəlməni iqrar etməyə və onun tələblərinə uyğun əməl etməyə bağlı olduğunu göstərən dəlillərdən biri də Rəsulullahın (sallallahu əleyhi və səlləm) bu sözləridir ***“Hər kim Allaha şərik qoşmadan Onunla görüşərsə, Cənnətə daxil olar”.***[34] Digər hədisdə isə demişdir:***“Ümmətimdən kim Allaha şərik qoşmadan ölərsə, Cənnətə daxil olar”***[35]

## Sual 16: İslamda “Əşhədu ənnə Muhəmmədən rasulullah” şəhadətinin mənası nədir?

Peyğəmbərlik şəhadəti, yəni “Əşhədu ənnə Muhəmmədən rəsulullah” kəlməsi – Muhəmmədin (sallallahu əleyhi və səlləm) elçiliyini iqrar etmək, onun peyğəmbərliyini təsdiqləmək və Uca Allah tərəfindən göndərilmiş bir peyğəmbər və elçi olduğuna inanmaq deməkdir. Uca Allah buyurub: “**Muhamməd Allahın rəsuludur”. (Fəth, 29).** İsa peyğəmbər də verdiyi müjdədə belə demişdir: Uca Allah bu barədə xəbər verərək buyurub: “**(Ey Peyğəmbər! Xatırla ki,) bir zaman Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən mən, Allahın sizə göndərdiyi, məndən əvvəl (nazil edilmiş) Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə (sizi) müjdələyən bir elçisiyəm!” (Əs-Saff, 6 ).** Əhməd –

---

[33] Buxari 99 hədis
[34] Buxari 129 hədis . Ənəsin hədisindən
[35] Buxari 1180 hədis. Əbu Zərrin hədisindən. Muslim 92 ibn Məsudun hədisindən

Allah elçisi Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* adlarından biridir.

Bu Şəhadətin Tələbləri Nələrdir?

• Onun rəsulluğunun bütün bəşəriyyətə aid olduğunu qəbul etmək: Uca Allah buyurub: **"De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınıza göndərilmiş Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun ummi (yazıb-oxumaq bilməyən) Elçisinə, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz" (Əraf, 158 ).**

• Əmr etdiklərinə tabe olmaq, qadağan edib çəkindirdiyi əməllərdən uzaq durmaq: Uca Allah buyurub: "**Allahın Rəsulunda sizlərdən, Allaha və Axirət gününə ümidini bağlayanlar və Allahı çox zikr edənlər üçün gözəl örnək vardır" (Əhzab, 21).** Digər ayədə belə buyurub: "**Allahın rəsulu sizə nə verirsə,onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası şiddətlidir" (Həşr, 7).**

• Onun sonuncu peyğəmbər və elçi olduğuna inanmaq: Uca Allah buyurub. "**Muhamməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir" (Əhzab, 40)**

• İstər sözlə, istərsə də əməllə ona hər hansı bir əziyyət verməkdən çəkinmək: Bu, onun şəxsiyyətinə, şərəf və namusuna, gətirdiyi hidayət yoluna və dininə aid olan hər bir şeyə şamil edilir. Uca Allah buyurub: "**Allahın Rəsuluna əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır" (Tovbə, 61).**

•Söylədiyi bütün xəbərləri təsdiqləmək və əmr etdiyi hər şeyi qəbul etmək: Çünki o, özündən heç bir xəbər verməz, yalnız Uca Allahın vəhyi ilə əmr edər və ya qadağan edər.Uca Allah buyurub: **"O, havadan (istədiyini) danışmaz. Bu (Quran), ona nazil edilən bir vəhydir" (Ən-Nəcm, 3-4).**

## Sual 17: İnsanın müsəlman olması üçün tələb olunan İslamın əsasları hansılardır?

İnsanın müsəlman sayılması üçün mütləq olan əsaslar bunlardır: İslam və imanın rüknlərini iqrar etmək, tövhidi söz, qəlb və əməllə qəbul etmək, həmçinin İslamın gətirdiyi hökmlərdən, Qurani-Kərimdə və Rəsulullahın (sallallahu əleyhi və səlləm) sabit sünnəsində varid olan hər bir əmr və qadağadan razı olmaq. Uca Allah buyurub: "**De: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!" Kim İslamdan başqa bir din arayarsa, (bilsin ki,) o din ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar. İman gətirdikdən, (Allahın göndərdiyi) Rəsulun haqq olduğuna şahidlik etdikdən və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan kimsələri Allah necə doğru yola yönəldər? Allah zalım qövmü doğru yola yönəltməz" (Ali-İmran, 84-86).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Kim şəhadət versə ki, Allahdan başqa ibadətə layiq ilah yoxdur, Muhəmməd onun qulu və Rəsuludur, həmçinin, İsa Allahın qulu və Rəsulu, Məryəmə dediyi sözü və Onun yaratdığı ruhlardan bir ruhdur, Cənnət haqqdır və Cəhənnəm haqqdır, Allah o insanı əməlindən asılı olmayaraq Cənnətə daxil edər".***[36]

Ənəs ibn Məlik demişdir: "***Kim Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına şəhadət versə, qibləmizə yönəlsə, namazımızı qılsa, kəsdiyimiz heyvanın ətindən yesə, o kəs müsəlmandır və müsəlmanın haqqı çatan şeylərə onunda haqqı çatır və müsəlmanın üzərinə düşən şeylər onun da üzərinə düşür".***[37]

## Sual 18: İslamın əsasları hansılardır?

İslamın əsasları beşdir. Bunlar aşağıdakılardır:

**Birinci əsas:** "Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən rasulullah" şəhadəti.[38]

[36] Buxari öz səhih əsərində rəvayət etmişdir
[37] Buxari öz səhihində rəvayət etmişdir.
[38] (Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Və şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və elçisidir).

**İkinci əsas:** Namaz qılmaq

**Üçüncü əsas:** Zəkat verməkDördüncü

**Dördüncü əsas:** Oruc tutmaq

**Beşinci əsas:** Gücü çatan şəxs üçün Beyti (Kəbəni) həcc etmək.

Bu əsaslar bir çox ayələrdə və çoxsaylı hədislərdə varid olmuşdur.Onlardan biri də Uca Allahın bu ayəsidir: "**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Ət-Tövbə, 5).** Uca Allah buyurub: "**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. (Ət-Tövbə, 11)**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***İslam beş dayaq üzərində qurulub; Allahı təkləşdirmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq, həcc etmək".***[39]

Həmçinin Allah elçisi digər hədisdə beləbuyurub: "***İslam odur ki, Allahdan başqa ibadətə layiq heç bir məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə evi (Kəbəni) ziyarət edəsən".***[40]

## Sual 19: İmanın əsasları hansılardır?

İmanın altı əsası vardır:

**Birinci əsas:** Uca Allaha iman gətirmək; Onun Rəbb, Yaradan olduğuna, ən gözəl adlara (Əsmau-Husna) və ən uca sifətlərə sahibliyinə, həmçinin yeganə haqq məbud olduğuna və Ondan başqa ibadət edilən hər bir şeyin batilliyinə inanmaqdır.

**İkinci əsas:** Mələklərə iman gətirmək; onların nurdan yaradıldıqlarını, Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmadıqlarını və yalnız özlərinə buyurulanları yerinə yetirdiklərini iqrar etməkdir. Onlar yeməz-içməzlər, (daxili boşluqları yoxdur), onlara qadınlıq və ya kişilik vəsfi verilə bilməz.

[39] Buxari və Muslim rəvayət etmişdir. Buxari hədis 8, Muslim hədis 17. Bu ibn Ömərin *(Allah ondan razı olsun)* ləfzidir.
[40] Buxari 50 ci hədis Əbu Hureyranın hədisidir, Muslim 7 ci hədis. Bu ibn Omarın hədisinin ləfzidir.

**Üçüncü əsas:** Kitablara iman gətirmək; Uca Allahın kitablar nazil etdiyini, bu kitabların hidayət və xeyir ehtiva etdiyini iqrar etməkdir. Biz onlardan bəzilərini bilirik; İbrahimin səhifələri, Tövrat, İncil, Zəbur və Quran kimi.

**Dördüncü əsas:** Elçilərə (peyğəmbərlərə) iman gətirmək; Uca Allahın məxluqata doğru yolu göstərən, möminlərə müjdə verən və kafirləri xəbərdar edib qorxudan elçilər və peyğəmbərlər göndərdiyini iqrar etməkdir.

**Beşinci əsas:** Axirət gününə iman gətirmək; yenidən dirilməni iqrar etməkdir. Bu mərhələ ölümlə və bərzəx aləminə köçməklə başlayır, daha sonra Qiyamətin qopmasını və onun əlamətlərini iqrar etməklə axirət yurdu ilə davam edir, ardınca isə hesaba çəkilmək, bundan sonra gediləcək yer ya Cənnət, ya da Cəhənnəmdir.

**Altıncı əsas:** Qədərə iman gətirmək; Uca Allahın bizim əməllərimizi və sözlərimizi bildiyini, bunu biz yaradılmadan öncə bilməsini, Öz qatındakı bir kitabda (Lövhi-Məhfuzda) yazdığını, bunların var olmasını dilədiyini və həm qulu, həm də onun əməlini yaratdığını iqrar etməkdir. Onlardan biri də Uca Allahın bu ayəsidir: **“Yaxşı əməl heç də üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, mələklərə, (hər bir səmavi) kitaba və peyğəmbərlərə iman gətirməkdir” (Bəqərə, 177).**

Həmçinin, Cəbrayıl *(aleyhissəlam)* Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* “İman nədir?” deyə soruşduğu zaman, o buyurmuşdur: ***“İman, Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirməyin, həmçinin qədərin hamısına*** *(hər bir şeyin qədərlə baş verməsinə)* ***iman gətirməyindir”.*** *(Cəbrayıl da)* ***“Doğru söylədin!”*** *demişdir.*[41]

## Sual 20: İslamda ümumi qaydalar hansılardır?

İslamda ümumi qaydalar çox və müxtəlifdir, onlardan ən mühüm olanlar aşağıdakılardır :

[41] Buxari və Muslim. Buxari, hədis 4499. Muslim, hədis 10. Əbu Hureyranın hədisidir. Bu Muslimin ləfzidir.

1. İslamın əsası – ibadətdə Uca Allahı təkləşdirmək (tovhid) və əməllərdə, eləcə də örnək götürməkdə Allahın Elçisinə (sallallahu əleyhi və səlləm) tabe olmaq üzərində qurulmuşdur.

2. İslam – söz və əməldən, etiqad və davranışdan ibarətdir.

3. Dində olan bidətlərin (yeniliklərin) hamısı rədd olunur və çirkindir. Dünyəvi məsələlərdəki yeniliklərin isə yaxşısı yaxşı, pisi də pisdir. Buna dəlil Uca Allahın bu sözüdür: **"Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün qanuni edən şəriklərimi vardır?!" (Əş-Şuara, 21).**

Həmçinin, Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Həqiqətən ən doğru söz Allahın kitabı, ən doğru yol isə Muhəmmədin (sallallahu aleyhi və səlləm) yoludur. Ən şər əməllər dinə əlavə edilmiş yeniliklərdir. Dinə əlavə edilmiş hər bir yenilik bidət, hər bidət isə zəlalətdir. Hər bir zəlalət isə oddadır."[42].***

4. Yaxşılıq və təqva üzərində yardımlaşmaq, günah və düşmənçilikdə isə yardımlaşmağı tərk etmək bu dinin şüarlarındandır. Uca Allah buyurub: **"Yaxşılıq etməkdə və (Allahdan qorxub) pis əməllərdən çəkinməkdə bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilik etməkdə isə bir-birinizə yardımçı olmayın" (Maidə, 2).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Mən uşaq ikən əmilərimlə birlikdə Qureyşin fəzilət sahiblərinin and içməsinə şahid oldum. Mənə qırmızı dəvələr verilsəydi belə mən bu əhdi pozmağı istəməzdim."[43]***

5. İşlər məqsədlərə görədir (Əl-Umuru bi məqasidiha). Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Həqiqətən əməllər niyyətlərə görədir və hər bir insana (əməlinə görə) yalnız niyyət etdiyi verilər".[44]***

6. Yəqinlik şəkk-şübhə ilə aradan qalxmır (Əl-Yəqinu lə yəzulu biş-şəkk). Bir dəfə Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* namaz

[42] Nəsai bu ləfzlə rəvayət etmişdir. Hədisin əsli səhih Muslimdədir. Cabirin *(Allah ondan razı olsun)* hədisidir.
[43] İmam Əhməd özünün "Musnəd" əsərində Əbdürrəhman ibn Avfun "Musnəd"indən rəvayət etmişdir. Onu təhqiq edən isnadının səhih olduğunu demişdir.
[44] Buxari rəvayət etmişdir. Omarın hədisdir.

əsnasında dəstəmazının pozulduğunu zənn edən bir kişi barədə xəbər verdilər. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Səs eşitməyincə və ya iy duymayınca namazdan ayrılmasın" .***[45]

7. Mükəlləfiyyət (dini öhdəlik) yalnız güc və bacarıq nisbətindədir. Uca Allah buyurub: "**Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər" (Bəqərə, 233).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Mən sizə nəyi qadağan edirəmsə, ondan çəkinin. Nəyi sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin".***[46]

8. Çətinlik asanlığı gətirir (Əl-Məşəqqatu təclibut-təysir). Uca Allah buyurub: **"Kim (azad etməyə bir kölə) tapmasa, (qadını ilə) yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna gücü çatmayan kimsə altmış miskin yedirtməlidir" (Mucədilə, 4).**

İmran ibn Huseyn deyir ki, Məndə babasil xəstəliyi var idi. Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* namazı necə qılacağım barədə soruşdum və o belə dedi: ***"Namazı ayaq üstə qıl, əgər bacarmasan oturaraq qıl, onu da bacarmasan uzandığın vəziyyətdə qıl".***[47]

9. Zərər baş verməzdən öncə və yaxud baş verdikdən sonra aradan qaldırılmalıdır. Uca Allah buyurub: **"Nə bir ana, nə də bir ata öz övladına görə zərər çəkməməlidir" (Bəqərə, 233).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: "***Zərər toxundurmaq və ona zərərlə qarşılıq vermək olmaz.***[48]

10. Şəri dəlil olmayan məsələlərdə örf-adət əsas götürülür. Uca Allah buyurub: **"Sən bağışlama yolunu tut, yaxşı işləri əmr et və cahillərdən üz döndər!" (Əraf 199).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* arvadın əri üzərində olan vacib xərclərin miqdarını bildirərək belə demişdir: ***"Qadınların yeməyi və geyimi ürf-adətə müvafiq qaydada sizin (ərlərinin) üzərinizə düşür".***[49]

11. Əsl odur ki, insan möhtərəm varlıqdır; onun qanı, malı və namusu toxunulmazdır. Uca Allah buyurub: **"Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə (minik üstündə) daşıdıq,**

[45] Buxari və Muslim. Omarın hədisdir.
[46] Buxari və Muslim. Əbu Hureyranın hədisidir. Bu Buxarinin ləfzidir.
[47] Buxari
[48] Hədisi ibn Macə rəvayət etmişdir. İbn Abbasın *(Allah ondan razı olsun)* hədisidir. Alabani demişdir: hədis səhih liğeyrihidir.
[49] Muslim. Cabir ibn Abdullahın hədisidir.

**onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik". (İsra 70).** Sonradan küfr, şirk, zülm, həddi aşmaq və fasiqlik kimi şeylər olmadığı təqdirdə insan bu əsas üzərində qalmağa davam edir. Əbu Hureyrənin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə qarşı casusluq etməyin, bir-birinizdən üz çevirməyin, biriniz digərinin alveri üstündən alver etməsin. Ey Allahın qulları, qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz qoymaz və onu alçaltmaz".*** *Sonra üç dəfə:* ***"Təqva buradadır"*** *deyərək əli ilə sinəsinə işarə etdi. Sonra dedi:* ***"Bir kəsin şər əməl sahibi olması üçün müsəlman qardaşını alçaltması kifayət edər. Hər bir müsəlmanın qanı, malı və namusu digər müsəlmana haramdır".***[50]

12. İslamda müsəlmanlar hüquq və vəzifələrdə bərabərdirlər. Onların ən hörmətlisi və ən xeyirlisi isə ən təqvalı olanıdır. Uca Allah buyurub: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (Ondan) ən çox qorxanınızdır.(Hucurat 13)**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Ey insanlar, diqqət edin! Həqiqətən də, sizin Rəbbiniz birdir. Sizin atanız, dininiz və peyğəmbəriniz də birdir. Ərəbin qeyri ərəbdən, qeyri ərəbin də ərəbdən, eləcə də, qırmızı dərili insanın zəncidən, zəncinin də qırmızı dərili insandan təqvadan başqa heç bir üstünlüyü yoxdur.***[51]

Bu, qaydalar içində ən mühüm olan bəzi qaydalardır. Əlbəttə ki, islamın bütün qaydalarını qısa bir kitabda sadalamaq çətin olar. Kim bundan əlavə məlumat əldə etmək istəsə fiqhi qaydalar barədə yazılmış kitablara müraciət edə bilər.

---

[50] Muslim öz səhihində rəvayət etmişdir.

[51] İmam Əhməd öz müsnədində rəvayət etmişdir. Hədisi Əbi Nədrah Allah elçisindən eşidəndən rəvayət etmişdir. Hədisin isnadı səhihdir.

## Sual 21: İslamın qoruyub hifz etmək üçün gətirdiyi beş zərurət hansılardır?

İslamın qorunması, hifz edilməsi, təkmilləşdirilməsi və onu bulandıra, əskildə biləcək yaxud ona xələl gətirə biləcək hər bir şeydən uzaq tutulması üçün gətirdiyi beş zərurət aşağıdakılardır:

**Birinci zərurət:** Dini qorunması. Məhz buna görə Uca Allah cihadı və döyüşməyi əmr etmişdir. Uca Allah buyurub: **"Döyüş xoşunuza gəlməsə də, o, sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz". (Bəqərə 216)**

**İkinci zərurət:** Nəfsin (canın) qoruması. Uca Allah buyurub: **"Ey iman gətirənlər! Öldürülən şəxsə görə qisas almaq sizə vacib edildi". (Bəqərə, 178)**

**Üçüncü zərurət:** Namusun və nəslin qoruması. Uca Allah buyurub: **"İsmətli, (zinadan) xəbəri olmayan mömin qadınlara (zinada ittiham edərək) böhtan atanlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir". (Nur, 23)**

**Dördüncü zərurət:** Malın qoruması.  Uca Allah buyurub: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət müstəsna olmaqla, mallarınızı öz aranızda haqsız yerə yeməyin". (Nisa, 29)**

**Beşinci zərurət:** Ağlın qoruması.  Uca Allah buyurub: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, namaza yaxınlaşmayın" (Nisa, 43).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Allahdan başqa haqq məbudun olmadığına və mənim Allahın Rəsulu olduğuma şəhadət verənmüsəlmanın qanı bu üç hal istisna olmaqla halal deyildir: Evli zinakar, cana can (qisas) və dinini tərk edib camaatdan ayrılan.***[52]

[52] İmam Əhməd öz musnədində rəvayət etmişdir. Hədisi Əbi Nadrah Allah elşisindən eşidəndən rəvayət etmişdir. İsnadı səhihdir.

## Sual 22: İslam dini bu beş zərurəti hansı yollarla qoruyur?

İslamın bu beş zərurəti (əl-daruriyyat əl-xəmsə) qoruma üsulu heyranedici və möhtəşəmdir. Belə ki, İslam bu dəyərlərin məhv edilməsi və tələf olunması bir kənara, onların azalmasına və ya onlara hər hansı bir xələl gəlməsinə yol açan bütün vasitələri qadağan etmişdir.

Dinin qorunması üçün ona mənsub olanların dindən dönməsini (mürtədliyi) və dinlə lağ edilməsini qadağan etmişdir. Bu qadağa, bəzi dövlətlərlərin öz vətəndaşlarına müəyyən ölkələrə səfər etməyi qadağan etməsindən və buna bənzər digər məhdudiyyətlərdən daha önəmlidir.

Bununla belə, İslam insanları dinə girməyə məcbur etmir, əksinə, Onun çətiri altında yaşayan qeyri-müsəlmanların hər birinə seçim azadlığı tanıyır.  Uca Allah buyurub: **"Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan fərqlənir" (Bəqərə, 256).** Digər ayədə buyurub: **"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?" (Yunis, 99 )**

Eləcə də, canın qorunması üçün insanın özünü öldürməsini, başqasına qarşı həddi aşmağı, zülmü və düşmənçiliyi qadağan etmişdir. Hətta cana xəsarət yetirə biləcək hər bir şeyi, o cümlədən bir kəsin digərinə dəmir alətlə  işarə etməsini belə qadağan etmişdir. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Kim müsəlman qardaşına bir dəmir parçası ilə işarə edərsə, o kəs atasından və anasından olan doğma qardaşı olsa belə, əlindəkini yerə qoymayana qədər mələklər onu lənətləyər".***[53] Həmçinin məscidlərə və bazarlara silahla girməyi qadağan edilmişdir. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub:***"Kim məscidlərimizin və ya bazarlarımızın birindən üstündə ox olduğu halda keçərsə əli ilə oxların ucunu tutsun ki, onunla bir müsəlmana toxunub zərər verməsin".*** [54]

Eləcə də namusun qorunması və onun ləkələnməkdən hifz olunması üçün qeybəti, sözgəzdirməyi (nəmiməni) qadağan etmiş, böhtanın günahını böyütmüş və namusa şər atmağa görə cəza (hədd) təyin etmişdir. Hətta bir kişi hər hansı bir qadının və ya kişinin zina etdiyini görsə, şəriət ona bu barədə danışmağa icazə vermir, əksinə, özü dördüncü olmaqla bərabər yanında digər üç şahid də

[53] Muslim hədis 2616. Əbu Hureyranın hədisidir.
[54] Buxari və Muslim. Buxari 441 hədis, Muslim 2615 hədis. Əbu Musa əl-Əşarinin hədisidir.

olmayana qədər bunu gizli saxlamağı  əmr edir. Uca Allah buyurub: **"İsmətli qadınları (zinada) günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqdirlər. Ancaq bundan sonra tövbə edib özlərini islah edənlər müstəsnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir" (ən-Nur, 4-5).**

Nəslin qorunması və nəsillərin qarışmasının qarşısının alınması üçün zinanı və ona aparan yolları haram etmişdir. Uca Allah buyurub: **"Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və ayıb yerlərini (zinadan) qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və ayıb yerlərini (zinadan) qorusunlar" (ən-Nur, 30-31).** Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Ey Əli, anidən bir haramı gördükdə dönüb təkrar baxma! Çünki ilk baxış sənin (üçün əfv edilmişdir), amma ikinci baxış sənin əleyhinədir (günahdır)."***[55]

Uca Allah zinanın təhlükəsini bəyan edərək buyurub: **"Zinaya yaxınlaşmayın. Çünki o, iyrənc bir əməl və murdar bir yoldur!" (İsra 32).**

Malların qorunması üçün onların hifz olunmasını əmr etmiş, ticarətlə məşğul olmağa rəğbətləndirmişdir. İsrafı, xərcləmələrdə həddi aşmağı, qumarı, insanların mallarını gizlicə və ya batil yollarla yeməyi, həmçinin malları səfehlərə (ağılsızlara) verməyi qadağan etmiş və yetimlərin mallarının qorunmasını əmr etmişdir. Uca Allah buyurub: **"Yetimlərin mallarını (yetkinlik yaşına çatdıqda) özlərinə qaytarın və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınıza qatıb yeməyin. Şübhəsiz ki, bu, (Allah qatında) böyük günahdır". (ən-Nisa, 2).**

Ağılların qorunması üçün elmlənməyi əmr etmiş, cəhaləti və ağlı aparan və ya ona mənfi təsir göstərən hər bir şeyi qadağan etmişdir. Beləliklə, şərabı və hər bir sərxoşedici vasitəni haram buyurmuşdur. Uca Allah buyurub: **"Ey iman gətirənlər! Şübhəsiz ki, şərab da, qumar da, (ibadət üçün) dik qoyulmuş bütlər (və ya daşlar) da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız". (Maidə 90)**

---

[55] Əbu Davud və Tirmizi , İbn Hibban və Hakim öz səhihində rəvayət etmişdir. Bureydanın hədisidir. Muslimin şərtinə uyğundur. Səhihdir

Əbu Musa əl-Əşari *(Allah ondan razı olsun)* rəvayət edir ki, o belə dedi: "Ey Allahın Elçisi, biz elə bir yerdə oluruq[56] ki, orada baldan içki hazırlanır, ona əl-bitu[57] deyirlər. Arpadan hazırladıqları içkiyə isə əl-mizru[58] deyirlər. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Sərxoş edən hər bir şey haramdır"*** [59]

## Sual 23: İslamda məxluqatın yaradılmasında məqsəd nədir?

İslamda məxluqatın yaradılmasının ali məqsədi iki amillə bağlıdır:

**Birinci:** Elmi amil: Bu, bəndələrin öz Yaradanlarını tanımasıdır. Uca Allah buyurub: **"Yeddi (qat) göyü və yeri də onun misli qədər (yeddi qat) yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın elminin hər şeyi əhatə etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında nazil olar". (ət-Talaq, 12).**

**İkincisi:** Əməli amil: Bu, bəndələrin Allaha ibadət və itaət etmələridir. Uca Allah buyurub: **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir". (əz-Zariyat, 56-58)**

Uca Allah məxluqatı Özünə aid hər hansı bir nöqsanı tamamlamaq üçün yaratmamışdır; çünki O, mütləq kamillik sahibidir. O, məxluqatı Özünə kömək etsinlər deyə də yaratmamışdır; çünki O, mütləq qüdrət sahibidir və hər şeydən tamamilə ehtiyacsızdır. Uca Allah buyurub: **"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir". (Fatir, 15)**

Əksinə, Allah onları bir sınaq və imtahan olaraq yaratmış, xeyir və şər yollarını onlara öyrətmişdir ki, yaxşılıq edənləri mükafatlandırsın, gunah edənləri isə cəzalandırsın. Uca Allah buyurub: **"Biz insanı qarışıq nütfədən yaradaraq, onu sınağa çəkmək üçün eşidən və görən etdik. Biz ona haqq yolu göstərdik! (Bundan sonra o,) istər şükür etsin, istər nankor olsun". (İnsan, 2-3)**

---

[56] Allah elçisi *(Ona və ailəsinə Allahın salamı və salavatı olsun )* Əbu Musanı Yəmənə vali olaraq göndərmişdir.
[57] Bal şərabı ( ingiliscə: Mead ) balın su ilə, bəzən də meyvə növləri ilə fermentləşdirilməsi ilə hazırlanan spirtli içkidir
[58] Arpadan hazırlanmış spirtli içki növüdür.
[59] Buxari və Muslim

Başqa ayədə buyurub: **“Mülk Əlində Olan Allah (ən Əzəmətli), xeyiri və bərəkəti bol olandır. O hər şeyə qadirdir. Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır” (Mulk, 1-2).**

## Sual 24: İslam dini Uca Allahı tanımağa necə baxır?

İslamda Uca Allah tanımaq asan və aydındır; bu məsələdə heç bir mürəkkəblik və çətinlik yoxdur. Çünki Allahı tanımaq fitri bir duyğudur, Onun varlığına yönələn dəlillər isə ağlın qaçılmaz olaraq qəbul etdiyi bir zərurətdir. Yaradılmış hər bir şey Onun varlığına dəlalət edən bir nişanədir (ayədir). Bu nişanələr məxluqatın həm Allahın elminə, bu elmin dəqiqliyinə və əzəmətinə, həm Onun qüdrətinə, həm də feillərinin, yaradıcılığının və sənətinin heyranedici gözəlliyinə dəlalət etməsində özünü göstərir. Uca Allah yeganə yaradıcıdır, Onun heç bir şəriki yoxdur. Ondan başqa heç bir ilah yoxdur, O, təkdir və şəriksizdir; nə mülkündə və səltənətində, nə vəsf və xüsusiyyətlərində, nə də kərəm və ehsanında Onun bir bənzəri yoxdur. ilahlığında və ibadət olunmağa layiq olmasında da Onun heç bir tayı bərabəri yoxdur. Hər bir kamillik Onun heyranedici kamilliyinə, (məxluqatdakı) hər bir nöqsan isə Onun mülkündə istədiyi kimi hökm etmək qüdrətinin və rəftarının əzəmətinə dəlalət edir. Uca Allah buyurub: **“Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü oradadır. Həqiqətən, Allah hər şeyi əhatə edəndir, O, (hər şeyi) biləndir. Onlar dedilər: “Allah (Özünə) övlad götürmüşdür!” Halbuki O, pakdır, müqəddəsdir! Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona baş əyir. Göyləri və yeri misilsiz xəlq edən Odur. O, bir işə hökm verdikdə ona ancaq: “Ol!”– deyər, o da olar”. (Bəqərə, 115-117)**

İslamda Uca Allahın rizasını qazanmaq sadəcə bilməklə (onu tanımaqla) mümkün deyil. Elmlə yanaşı mütləq əməl də olmalıdır. Din və iman isə qəlblərin etiqadını, onun əməllərini və bədən üzvlərinin əməllərini özündə birləşdirir. Bu tanıma elm və əməllə artır. İman əhli də öz nəsillərinə, dünyəvi vəzifələrinə və ya cəmiyyətdəki mövqelərinə görə deyil, məhz etdikləri əməllərə görə bir-birlərindən böyük dərəcədə fərqlənirlər.

## Sual25: İslamın Uca Yaradana olan baxışı necədir?

İslamın Uca Yaradana baxışı kamillik, gözəllik və ucalıq baxışıdır. İslam öz təlimlərində təsdiq edir ki, yeganə mülk Sahibi və Həmdə layiq olan Uca Allahdır; yeganə uca Yaradan Odur. Onun mislində heç bir şey yoxdur və Onun qadir olduqlarına heç kəs qadir ola bilməz. O, heç bir vəzirə, məsləhətçiyə, köməkçiyə və dayağa möhtac deyildir. Məhz bütün bunlara görə, haqqı ilə ibadət olunmalı tək Məbud Odur. Yalnız Ona qulluq edilməli və Ondan başqasına əsla ibadət olunmamalıdır. Uca Allah buyurub: **“Sənin Rəbbin hər şeyi hifz edəndir. De: “Allahdan başqa məbud saydıqlarınızı çağırın”. Onlar göylərdə və yerdə zərrə qədər bir şeyə sahib deyillər. Onların (göylərin və yerin yaradılışında) heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur” (əs-Səba, 21-22).**

İslamda insan təsdiq etməlidir ki, Allah ucadır, əzəmətlidir; kamillik və ucalıq (cəlal) sifətləri mütləq Ona məxsusdur; naqislik, qüsur və bənzərlik kimi vəsflər isə Ona aid edilə bilməz və Onun üçün qeyri-mümkündür. Varliqları istədiyi şəkildə və istədiyi vaxt yaratması (və ya yoxdan var etməsi) Onun ixtiyarındadır və O, varlıqları bu cür də yaratmışdır. Şübhəsiz ki, O, dilədiyini edəndir. Onun dilədiyi hər şey olmuş, diləmədiyi isə olmamışdır. Uca Allah buyurub: **“(Ey Peyğəmbər!) Doğrudan da, Rəbbinin (günahkarları) yaxalaması çox şiddətlidir! Həqiqətən, (hər şeyi) ilk olaraq yaradan və (öldükdən sonra onu) yenidən diriləndən Odur. Çox bağışlayan da, çox Sevən də Odur! Ərşin sahibidir, Şan-şöhrəti uca olandır!” (Buruc, 12-16)**

İslam əqidəsində Yaradan — mülkün Sahibi və hər şeyi idarə edən Rəbdir. O, haqqı ilə ibadət olunan Uca Allahdır. O, kamillik vəsfləri ilə xarakterizə olunur, ucalıqda təkdir və gözəlliklə vəsf edilmişdir. Onun elə bir mütləq kamilliyi vardır ki, qəlblər Onun mahiyyətini anlamağa, dillər isə Onu ifadə etməyə qadir deyildir. Yaradılmışlar Onun sifətlərinin hamısı qalsın bir kənara, bir hissəsini belə tam qavramağa qadir deyillər. Bu isə etiqad və elmə, həmçinin bəndəlik və əmələ əsaslanır; etiqad və elmə gəlincə, qul, Allahın Özünü vəsf etdiyi bütün kamil sifətlərin ən mükəmməl şəkildə Allah üçün sabit olduğuna, bu kamillikdə Onun heç bir şəriki olmadığına və Onun Özünü, yaxud Rəsulunun Onu uzaq tutduğu, bu kamilliyə zidd və ziddiyyət təşkil edən hər şeydən pak olduğuna inanmalıdır. Qulluq və əmələ gəlincə isə, qul, zahiri və batini əməlləri ilə Rəbbinə yaxınlaşmalı, onları yalnız Onun rızası üçün etməli, Ona yönəlməli və

Ona sevgi, qorxu, ümid, istək və təmənna ilə qulluq etməlidir. Beləliklə, o, etiqad etdiyi doğru əqidə ilə, həmçinin qəlb əməllərinə tabe olan saleh niyyət və gözəl məqsədlərlə Onun uca rızasını hədəfləyir. Həmçinin Allahın və bəndələrinin haqlarını yerinə yetirməyə yönəlmiş saleh əməllər icra edir. Eyni zamanda Allahı zikr etmək, Ona həmd-səna etmək, Onun kəlamını, Rəsulunun sözlərini və bu mövzuya aid olan elm əhlinin sözlərini oxumaqla dillə ifadələr gətirir, xoş sözlər söyləyir və bəndələrə din və dünya işlərində nəsihət edir. Faydalı elmləri öyrənmək və öyrətmək də bura daxildir. Bütün bu şeylərin hamısı yalnız Allah üçün ixlasla edilməlidir, çünki tövhid və iman məhz tam bir ixlasla tamamlanır.

İslam dininə görə Uca Allahın ən əzəmətli adlarındandır **əl-Xaliq** (Yaradan), **əl-Bəri** (Yoxdan var edən), **əl-Musavvir** (Surət verən) adlarıdır. Bu əzəmətli adlar Uca Allahın bu kəlamında keçir: **"O, Özündən başqa heç bir ilah olmayan, qeybi və aşkarı bilən Allahdır. O, Rəhmandır, Rəhimdir. O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mumin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyə müşahidə edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır. O, Xaliq (yaradan), Bəri (yoxdan var edən), Musavvir (məxluqatına istədiyi surəti verən) Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onu təsbih edir. O, Qüdrətlidir, Hikmət sahibidir" (Həşr, 22-24).**

Bu adlar dəlalət edir ki, bütün məxluqatı təkbaşına yaradan uca Allahdır. O, Öz hikməti ilə bütün varlıqları yoxdan var etmiş, kamil nizamı və gözəl yaratması ilə bütün kainata surət vermişdir. Onları özlərinə münasib olan ən doğru zamanda yaratmış, icad etmiş və var etmişdir. Onların yaradılışını ən gözəl şəkildə ölçüb-biçmiş, yaratdıqlarını ən kamil şəkildə xəlq edərək və hər birinə öz mənafeyinə uyğun olanı ilham etmişdir. Hər şeyə ona uyğun gələn yaradılışını vermiş, sonra da hər bir məxluqu nə üçün hazırlanıb və yaradılıbsa, ona doğru yönəltmişdir. Onun tək Yaradan, tək yoxdan var edən və məxluqata yeganə surət verən olduğu, bu işlərin heç birində Onun heç bir şəriki olmadığı sabit olduqdan sonra, Ondan

başqa heç kəsinibadətə layiq olmadığı yeganə haqq İlahın da məhz O olduğu labüddür. O, zatların da, əməllərin də, sifətlərin də Yaradanıdır, bu işdə Onun heç bir şəriki yoxdur və məxluqatdan heç bir şey  bu işdə Ona şərik olmamışdır.

## Sual 26: İslamın Uca Allahın Rububiyyətinə baxışı necədir?

İslamda Uca Allah ən əzəmətli adlarından biri **"ər-Rabb"** adıdır. O, bütün məxluqatı Öz nemətləri ilə tərbiyə edən (bəsləyib böyüdən), onları yoxdan var edən, onlara layiq olduqları hər bir kamilliyi bəxş edən, ehtiyac duyduqları hər şeylə təmin edən, hər bir şeyə ona uyğun xislət verən və sonra da hər bir məxluqatı yaradılış qayəsinə yönəldən aləmlərin Rəbbidir. O, bəndələrinə bol-bol nemətlər bəxş etmiş, onları böyütmüş, qidalandırmış və ən kamil şəkildə tərbiyə etmişdir.

Bu həqiqəti sübut etmək üçün təkcə elə bu fakt kifayətdir ki, aləmlər üzərində rəbblik (ilahlıq) iddia etməyə qadir olan heç kəs tapılmamışdır və heç vaxt da tapılmayacaqdır. Hətta zalım Firon və onun kimilərinin rəbblik iddiası belə zahiri və qismən bir iddiadan ibarət idi. Uca  Allah buyurub: **“Firon dedi: “Aləmlərin Rəbbi nədir?” (Musa) dedi: “Əgər yəqinliklə inanırsınızsa, (bilin ki,) O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!” Firon ətrafındakılara dedi: “(Onun nə danışdığını) eşitmirsinizmi?” (Musa) dedi: “O sizin də, ulu babalarınızın da  Rəbbidir!” (Firon) dedi: “Sizə göndərilmiş bu elçi, sözsüz ki, dəlidir!” (əş-Şuəra, 22-27)**

Uca Allahın Rububiyyəti və məxluqatı tərbiyə etməsi iki növdür:

**Birinci növ:** Ümumi rəbblik. Bu, yaxşı və ya günahkar olmasından asılı olmayaraq, hər bir məxluqata şamil olunan rəbblikdir. Bura ümumi yaradılış, ruzi, idarəetmə və hər bir nemətin bəxş edilməsi daxildir ki, bu işlərin heç birində Onun şəriki yoxdur. Uca Allah buyurub: **“De: “Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa Rəbbmi axtaracağam?” (Ənam, 164).**

**İkinci növ:** Xüsusi rəbblik və tərbiyə.

Bu, Onun Öz dostlarına (övliyalarına) yönəlmiş xüsusi rəbblikdir. Belə ki, Allah onları Özünə iman gətirməyə və bəndəlik vəzifələrini yerinə yetirməyə müvəffəq etmiş, onları Öz mərifəti (Elmi) ilə qidalandırmış, zülmətlərdən nura çıxarmış, onları ən asan olana (hidayətə) yönəltmiş və çətinliklərdən uzaqlaşdırmışdır. Məhz buna

görə də peyğəmbərlərin, ağıl sahiblərinin və seçilmiş bəndələrin Qurani-Kərimdə varid olan duaları bu məqsədi rəhbər tutaraq və bu xüsusi tərbiyəni diləyərək **"Rəbb"** adı ilə başlamışdır. Uca Allah buyurub: **“Rəbbimizin elmi hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etdik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Sən hökm verənlərin ən yaxşısısan” (Əraf, 89)**

## Sual 27: İslamın Uca Allah ilə qulları arasında vasitəçiliyə baxışı necədir?

İslam qeyd edir ki, Uca Allahın əmrini bizə çatdıracaq bir vasitəçinin (elçinin) olması mütləqdir. Çünki məxluqat Allahın nəyi sevdiyini və nədən razı qaldığını, nəyi əmr edib, nəyi qadağan etdiyini, Öz saleh bəndələrinə bəxş edəcəyi lütf və kəramətləri, düşmənlərinə isə vəd etdiyi əzabları özbaşına bilə bilməz. Onlar, həmçinin ağlın dərk etməkdə aciz qaldığı Uca Allahın gözəl adlarını və uca sifətlərini də tanıya bilməzlər. Uca Allah buyurub: **“Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən (Məndən) qorxub öz əməllərini islah edən kimsələrin (Qiyamət günü) heç bir qorxusu olmaz və onlar kədərlənməyəcəklər. Ayələrimizi yalan sayıb, təkəbbürlüklə onlardan üz çevirənlər isə Cəhənnəm sakinləridirlər. Onlar orada əbədi qalacaqlar” (Əraf, 35).**

Uca Allah peyğəmbərlərə tabe olmaqdan imtina edənlər barəsində isə belə buyurur: **Onlar deyəcəklər: “Əbəttə, bizəqorxudan (bir peyğəmbər) gəlmişdi. Amma biz (onu) yalançı sayıb: “Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz”– demişdik. Onlar: “Əgər biz (peyğəmbərləri) dinləsəydik və ya anlasaydıq Cəhənnəm əhli içində olmazdıq!”– deyəcəklər. Onlar öz günahlarını etiraf etdilər. Cəhənnəm əhli (Allahın rəhmətindən) uzaq olsun! (Mulk 9-11)**

Deməli, peyğəmbərlər (əleyhimussalam) itaət edilən, ardınca gedilən və nümunə götürülən vasitəçilərdir.

Bununla yanaşı, İslam belə hesab edir ki, bir məxluqun (insanın) Allaha dua edərkən, Ondan bir fayda istəyərkən, bir zərərin uzaqlaşdırılmasını diləyərkən, həmçinin ibadətdə, itaətdə,

bağışlanma və əfv diləməkdə Rəbbi ilə öz arasında vasitəçi təyin etməsi haramdır. Əksinə hətta bu, şirk və küfrdür.

Çünki Allah hər bir bəndəsinə yaxındır, darda qalanın duasını qəbul edir və sıxıntıda olanın sıxıntısını aradan qaldırır. Allah birbaşa Özünə yönələn bəndəsinin duasını qəbul edir. Uca Allah buyurub: **“De: “Allahdan başqa məbud saydıqlarınızı çağırın. Onlar bəlanı sizdən nə uzaqlaşdırmağa, nə də onu başqasına yönəltməyə qadir deyillər”. Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabı qorxub çəkiniləcək bir əzabdır” (İsra, 56-56 ).**

Uca Allah müşriklərin şirkə düşmə səbəbini bəyan edərək buyurub: **“Allahı qoyub başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”-(deyirlər). Şübhəsiz ki, Allah ixtilaf etdikləri məsələlər barədə onların arasında hökm verəcəkdir. Həqiqətən Allah, yalançı və kafir olan kimsəni doğru yola yönəltməz” (Zumər, 3).**

Nəinki başqalarını, hətta mələkləri və peyğəmbərləri belə vasitəçi edib onlara dua etmək, onlara güvənib-təvəkkül etmək, yaxud onlardan bir xeyir istəyib bir zərəri dəf etməsini diləmək haramdır.

### Sual 28: İslamda Uca Allahın varlığına dəlil nədir.

Kainatdakı hər bir şey – istər maddə, istər birləşmələr, istər varlıqlar, istərsə də xüsusiyyətlər (sifətlər) olsun – hamısı varlıqları yaradan, məxluqatı yoxdan var edən və hər bir yaradılmışı nizamla quran Yaradanın mövcudluğuna dəlalət edir. Uca Allahın varlığının dəlilləri sayıla bilməyəcək və hüdudlandırıla bilməyəcək dərəcədə çox və növbənövdür. Onları bir neçə növdə cəmləşdirmək olar:

**Birinci növ: Fitri dəlillər.** İnsan öz fitrəti ilə qəlbinin dərinliklərində möhtac olduğunu hiss edir. Hər hansı bir müsibətlə qarşılaşdıqda, mütləq bu hadisələri idarə edən və sıxıntıları aradan qaldırmağa qadir olan güclü, hakim bir Varlığa yönəlmək ehtiyacı duyur. Bundan əlavə, insan fitrətində Yaradanı qəbul etməyə dair daxili bir iqrar (etiraf) var. Uca Allah buyurub: **“Sən batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilməz” (Ər-Rum, 30).**

**İkinci növ: Əqli və hissi dəlillər.** Bunlar varlıq (vücud) dəlilləridir. Çevrəmizdə baş verən bütün kainat hadisələri, onları Yaradan bir Varlığın mövcudluğuna dəlalət edir. Çünki bu hadisələr əvvəlcə yox idi, sonradan meydana gəldi. Məlumdur ki, əvvəlcə olmayıb, sonradan meydana gələn hər bir şeyin mütləq bir yaradıcısı olmalıdır. Bu hadisələrin baş verməsi barədə iki ehtimal var: Ya onlar heç bir səbəb olmadan, təsadüfən yaranmışdır – lakin maddə öz-özünü var etməyə, hələ üstəlik özünü müəyyən bir nizamla qurmağa qadir deyildir, bu isə həm hissi, həm də əqli cəhətdən qeyri-mümkündür.

O zaman digər ehtimal qalır: yəni bu şeylər öz-özünü yaratmışdır. Bu isə həm hissi, həm də əqli cəhətdən birincidən daha qəliz və imkansız bir iddiadır. Deməli, geriyə yalnız bir variant qalır. Bütün bunların heç bir şeyə möhtac olmayan, hər şeydən ehtiyacsız və tərifə layiq olan əzəmətli bir Yaradıcısı vardır. Uca Allah buyurub: **“Yoxsa onlar heç bir şey olmadan (Xaliqsizmi) yaranıblar? Yaxud onlar (öz-özlərini) yaradanlardır? Yoxsa Rəbbinin xəzinələri onların yanındadır? Yoxsa onlar hökm sahibidirlər?” (Ət-Tur, 35-37)**

**Üçüncü növ: Şəri dəlillər.** Bu dəlillər çox və müxtəlifdir. İlk dövrlərdən bəri şəriətlərin mövcud olması, peyğəmbərlərin göndərilməsi və kitabların nazil edilməsi – bütün bunlar Uca Allahın varlığına dair dəlillərdəndir. Uca Allah buyurub: **“İnsanlar vahid bir ümmət idilər, sonra ixtilafa düşdülər. Əgər Rəbbin tərəfindən əzəldən bir Söz (asi kimsələrə möhlət) verilməsəydi, ixtilafa düşdükləri şey barəsində aralarında dərhal hökm verilərdi” (Yunus, 19).** Başqa ayədə buyurub: “**İnsanlar tək bir ümmət idi. Allah (onlara) müjdə verən və (əzabla) qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanların ixtilafa düşdükləri şeylərə dair onların arasında hökm versin. Halbuki (kitab) verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı ədavət üzündən onun barəsində ixtilafa düşdülər. Allah isə Öz izni ilə iman gətirənləri ixtilafda olduqları (məsələlərdə) haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər” (Bəqərə, 213).**

**Dördüncü növ: Peyğəmbərlərin və tövhid əhlinin xilas olması, inadkar kafirlərin isə məhv edilməsi**

Bu, Allahın varlığının ən böyük dəlillərindəndir. Bu, həmin hadisələrə şahid olanlar üçün real, gözlə görülən bir həqiqətdir. Şahid

olmayanlar üçün isə mütəvatir[60] xəbərlərlə çatdırılan və bütün nazil olmuş kitablarda qeyd olunan məlum bir gerçəklikdir. Bu səbəbdən, Uca Allah **"əş-Şüəra"** surəsində kafirlərin məhvini, peyğəmbərlərin və möminlərin isə xilasını bəyan etdiyi hər qissənin sonunda belə buyurur: "**Həqiqətən də, bunda bir ayə (dəlil) vardır. Lakin onların əksəriyyəti mömin olmadı. Şübhəsiz ki, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir" (Əş-Şuəra, 8-9).**

**Beşinci növ: Nazil edilmiş kitablardakı möcüzələr, aşkar dəlillər və möcüzəvi Qurani-Kərim**

Bu, Uca Allahın varlığının ən böyük dəlillərindəndir. Çünki oxumaq-yazmaq bilməyən (ümmi) bir insanın elə bir kitab gətirməsi necə mümkün ola bilər ki, ən bəlağətli ərəb və qeyri-ərəb natiqləri, natiqlik və şəriət sahəsinin ekspertləri onun bənzərini gətirməkdə aciz qalsınlar? Uca Allah buyurub: **"De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün (bir yerə) toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər". Biz bu Quranda insanlar üçün hər cür misalı müfəssəl izah etdik. Lakin insanların əksəriyyəti yalnız küfrü seçdi" (İsra, 88-89).**

**Altıncı növ: Nəticədən onu Yaradana doğru dəlil gətirmək**

Bu, hər bir ağıllı insan üçün labüd olan əqli bir dəlildir. Çünki sonradan meydana gələn bir əsərin, onu meydana gətirən biri olmadan var olması qeyri-mümkündür. Necə ki, ayaq izləri bir yolçunun keçdiyinə, edilən bir iş isə bir icraçıya dəlalət edir. Ağıllı insanlar da eynilə Qurani-Kərimdə gəldiyi kimi deyirlər: **"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Ondan qorxasınız. O Rəbbinizəki, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün (növbənöv) məhsullardan ruzi yetişdirdi. Siz də (bunu) bildiyiniz halda (heç kəsi) Allaha tay tutmayın" (Bəqərə, 21-22).** Həmçinin Uca Allah buyurub: **"Həmd, göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha məxsusdur! (Bu dəlillərdən) sonra kafir olanlar hələ də (bütləri) öz Rəbbinə tay tuturlar. Sizi palçıqdan yaradan, sonra da əcəlinizi təyin edən Odur. Onun yanında (Qiyamət günü üçün də) bəllibir əcəl vardır. (Bunu bildikdən) sonra siz yenə də şübhə edirsiniz" (Ənam, 1-2).**

[60] yalan üzərində birləşməsi qeyri-mümkün olan və çox yolla nəql edilən hədislər.

**Yeddinci növ: Varlıq aləmindəki hər bir şey Onun varlığına şahiddir və bir nişanədir**

Çünki – dəli olanlar istisna olmaqla – heç kəs öz-özünü yaratdığını iddia edə bilməz. Belə olduqda, geriyə yalnız onun bir yaradıcı olmadan var olması ehtimalı qalır ki, bunu da heç bir ağıllı insan qəbul etməz. Beləliklə, kamal sifətlərinə sahib olan bir Yaradıcının varlığı qəti olaraq təsdiqlənir. Xüsusilə də, ağıllı insanların nəzərində "fayillərin zəncirvari ardıcıllığının" (səbəb-nəticə əlaqəsinin sonsuza qədər getməsinin) batil və qeyri-mümkün olduğu məlumdur. Uca Allah buyurub: **"Yoxsa onlar heç bir şey olmadan (Xaliqsizmi) yaranıblar? Yaxud onlar (öz-özlərini) yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar" (Ət-Tur, 35-36).**

## Sual 29: İslamda Allahı təkləşdiriməyin və ibadətə layiq olmasının dəlilləri nədir?

Uca Allahın ilahlığının dəlilləri olduqca çoxdur. Çünki Yaradanı təkləşdirmək məsələlərin ən əzəmətlisi, ən böyüyü, ən fərzi və ən fəzilətlisidir. Məxluqatın ona olan ehtiyacı və zərurəti isə təsəvvür edilə biləcək hər bir zərurətin fövqündədir. Şübhəsiz ki, onların islah olması, nicat tapması və xoşbəxtliyi tövhidə bağlıdır. Məhz buna görə də Uca Allah buna dair dəlil və sübutları növbənöv etmişdir. Onun dəlilləri aydın, sübutları isə parlaqdır. Bu dəlillərin ən aşkar və bariz olanlarından bəziləri bunlardır:

1) Məxluqatın etirafı ilə dəlil gətirmək:

İnsanların hamısı – istər xeyirxahı, istər günahkarı olsun (Yaradanı inkar edən bir ovuc mülhid və müattilə (inkarçı) dəstə istisna olmaqla) –, istər müsəlmanı, istərsə də kafiri, hamılıqla etiraf etmişlər ki, Allah Xaliqdir (Yaradandır), Ondan başqası isə məxluqdur (yaradılmışdır); O, Raaziqdir (ruzi verən), Ondan başqası isə mərzuqdur (ruzi verilən); O, Müdəbbirdir (işləri idarə edən), Ondan başqası isə idarə olunan və yönləndiriləndir; O, Malikdir (mülk sahibi), Ondan başqası isə mülk veriləndir (sahib olunandır).

Bu isə ən böyük şəkildə dəlalət edir ki, Ondan başqası ibadətə layiq deyildir.Uca Allah buyurub: **"De: "Əgər bilirsinizsə, (deyin görüm) yer və onun üstündə olanlar kimə məxsusdur?" Onlar:**

**“Allahındır!”– deyəcəklər. De: “Elə Rəbbi isə düşünüb ibrət almırsınız?” De: “Yeddi göyün və əzəmətli Ərşin Sahibi kimdir?” Onlar: “Allahdır!”– deyəcəklər. De: “Elə isə (Allahdan) qorxmursunuz?” De: “Əgər bilirsinizsə, (deyin görüm) hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?” Onlar: “Allahdır!”– deyəcəklər. De: “Bəs necə olur ki, aldanırsınız?” (Muminun, 84-89)**

Bu, elə aydın bir sübutdur ki, insan ağlı ilk baxışdan dərhal anlayır ki, bu cür vəsfə və əzəmətə sahib olan Allah, təkliyə, ibadət olunmağa və dinin ixlasla yalnız Ona aid edilməsinə layiq olan Yeganə ilahdır

2) Rububiyyət dəlilləri:

Uca Allahın yaratmaqda, ruzi verməkdə, mülkdə və idarə etmədə tək olmasına dair hər bir dəlil, eyni zamanda Uca Allah ilahlığına (uluhiyyətinə) və yalnız Onun ibadətə layiq olmasına dəlildir.

Uca Allah buyurub: **“Yoxsa (müşriklər) özlərinə yer üzündə ölüləri diriltməyə qadir olan tanrılarmı qəbul etdilər? Əgər göylərdə və yerdə Allahdan başqa məbudlar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah pakdır və (müşriklərin) Ona aid etdikləri sifətlərdən uzaqdır! O (Allah) etdiyi işlər barədə soruşulmaz, onlar isə soruşulacaqlar. Məgər (müşriklər) Ondan başqa məbudlaramı tapınmışlar? De: “Dəlilinizi gətirin! Budur mənimlə olanların zikri və məndən öncəkilərin zikri”. Lakin onların əksəriyyəti əsl həqiqəti bilmir və (ondan) üz çevirirlər”. (Ənbiyə 21-24)**

## Sual 30: İslamın Allahın ucalığına (uluvv sifətinə) baxışı necədir?

İslamda Uca Allahın Öz zatı ilə məxluqatından uca olması həm ağıl, həm də fitrət ilə sabitdir. **“Əl-Aliyy” (Uca olan)** Uca Allahın adlarından biridir. Uca Allah Musanın Fironla olan əhvalatında buyurub: **“Ey Haman! Mənim üçün palçığın üzərində od qala (palçıqdan kərpic bişir) və bir qüllə düzəlt ki, Musanın ilahının yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm. Firon və onun əsgərləri yer üzündə haqsız yerə təkəbbür**

**göstərdilər və hüzurumuza qaytarılmayacaqlarını zənn etdilər". (Qasas, 38-39)**

Uca Allah buyurub: **"Firon dedi: "Ey Haman! Mənim üçün uca bir qüllə tik ki, bəlkə yollara çatım – göylərin yollarına (çatım) və Musanın İlahını görüm. Çünkimən onun yalançı olduğunu zənn edirəm!" Beləcə Firona pis əməli gözəl göstərildi və o, yoldan azdırıldı. Fironun hiyləsi boşa çıxdı" (Ğafir, 36-37).** Aydındır ki, Firon, Musanın Allahın Öz məxluqatından uca olması barədə dediklərini inkar etmiş, xalqını aldatmaq və şübhəyə salmaq üçün bu sözləri demişdir. Uca Allahın ərşə ucalmasına gəlincə, Uca Allah Quranda bunu yeddi yerdə qeyd etmişdir.[61] **"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşin üzərinə ucalan Allahdır" (Əraf 54).** Uca Allah buyurdu: **"Ər-Rəhman Ərşin üzərinə ucaldı" (Taha, 5).**

"İstiva" sözünün mənası ərəb dilində məlumdur; o, ucalmaq, yüksəlmək və fövqündə olmaq deməkdir. Bunun keyfiyyəti isə bizə məlum deyil. Yaradanın (Allahın) digər sifətləri haqqında da eyni sözlər deyilir. Çünki sifətlər haqqında danışmaq, zat haqqında danışmaq kimidir. Necə ki, Allahın zatı digər zatlara bənzəmir, Allahın sifətləri də digər sifətlərə bənzəmir. İslamda insan etiqad etməlidir ki, Uca Yaradan məxluqatı əyləncə üçün və ya bir yerə cəm etmək üçün yaratmayıb. Bu məxluqlar yox ikən sonradan var olmuşlar. Uca Allah, məxluqat var olmazdan əvvəl mütləq ucalığa malik idi. Məxluqatı, məkanı və sonradan yarananları xəlq etdikdə isə, bu yaradılmışların ən ucası Ərş oldu və O (Sübhənəhu), Ərşin və məxluqatın fövqündədir. Uca Allah ucalığın bütün mənalarına – zatının ucalığına, qədr-qiymətinin və sifətlərinin əzəmətinin ucalığına, həmçinin bütün varlıqlar üzərindəki hökmranlığın ucalığına malikdir. Bu varlıqların Uca Allaha nisbəti ondan ibarətdir ki, onlar aşağıda (süfl), Uca Allah isə mütləq ucalıqdadır. Uca Allah buyurub: **"(Ey kafirlər!) Göydə olanın (Allahın) sizi yerə batırmayacağına əminsinizmi? O zaman yer hərəkətə gəlib titrəyəcəkdir. Yaxud göydə olanın (Allahın) üstünüzə daşlar yağdırmayacağına əminsinizmi? Siz, Mənim (əzabla) qorxutmağımın necə olduğunu biləcəksiniz" (Mulk, 16-17 ).**

[61] "Uca Allah Ərşə ucalmasını Qurani Kərimdə yeddi yerdə sadalamışdır: Əraf", "Yunus", "Ər-Rəd", "Taha", "Furqan", "Səcdə" və "Hədid" surəsində.

Uca Allah buyurub: **“Göylərdəvə yerdə olanların hamısı – canlılar, hətta mələklər də təkəbbür göstərmədən Allaha səcdə edirlər. Onlar özlərinin fövqündə olan Rəbbindən qorxar və özlərinə əmr edilənləri yerinə yetirərlər” (Nəhl, 49-50).**

O (Subhənəhu), məxluqatın fövqündədir, Ərşə ucalmışdır və mülkü (səltənəti) hər şeyi əhatə etmişdir. Aşağıda və yuxarıda olan hər şeyi əhatə edir. Zərrə qədər bir şey belə Onun elmindən gizli qalmaz. Uca Allah buyurub: **“(Ey Peyğəmbər!) Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsənmi? Üç nəfərin gizli danışdığı yerdə dördüncüsü Odur. Beş nəfərin gizli danışdığı yerdə altıncısı Odur. İstər bundan az, istərsə də çox olsunlar, harada olursa olsunlar, Allah (elmi ilə) onlarladır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi biləndir” (Mucədilə, 7).**

Əgər kimsə [Uca Allahın] ucalığını (Allahın ərşin fövqündə olmasını) inkar edərsə, onun bu sözündən mütləq belə bir nəticə çıxır: (Allaha sığınırıq) ya onun Rəbbi sonradan yaradılmış məxluqatın daxilindədir, ya da xəyallardan başqa heç bir Rəbb yoxdur. Çünki hər hansı bir varlığın mövcudluğu ağılla təsəvvür edildikdə, o, ya aləmin daxilində olmalıdır, ya onun xaricində, ya da sadəcə bir xəyal olmalıdır. Buna görə də Allah elçisi *(sallallahu aleyhi və səlləm)* Cariyənin imanını sınamaq üçün belə buyurmuşdur: ***«Allah haradadır?». O dedi: «Səmada». Dedi: «Mən kiməm?». O dedi: «Sən Allahın rəsulusan». Peyğəmbər buyurdu: «Onu azad et, çünki o, mömindir»”[62].***

Allah elçisi *(sallallahu aleyhi və səlləmin)* belə buyurub: ***"Rəbbimiz ucada olan Allahdır. Adın müqəddəsdir. Sənin mərhəmətin göydə olduğu kimi, əmrin də göydə və yerdədir. Elə isə yer üzünə də mərhəmətini endir. Bizim günahlarımızı və xətalarımızı bağışla. Sən yaxşıların Rəbbisən. Rəhmətindən bir rəhmət nazil et." [63]***

Allah elçisi *(sallallahu aleyhi və səlləmin)* belə buyurub: ***"Rəbbim əlində olana and olsun ki, elə bir kişi yoxdur ki, arvadını yatağına dəvət edər və o da bundan imtina edərsə, əri ondan razı qalana qədər göydə olan ona qəzəblənər." [64]***

[62] Muslim 537 hədis. Muaviyə ibn Həkəm əs-Sulminin hədisidir.
[63] Əbu Davud rəvayət etmişdir. 3892 hədis. Nəsai kubra kitabı 10807 hədis. Hakim mustədrak əsəri 1286 hədis.
[64] Muslim 1736 hədis. Əbu Hureyranın hədisidir.

**Sual 31: İslamın Uca Allahın zatına baxışı necədir?**

İslamda insan inanmalıdır ki, Xaliq Öz zatında Quranı Kərimdə xəbər verdiyi kimidir: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir" (Şura, 11).**

Və Xaliq kitabında buyurduğu kimidir: "**De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə də doğulub, Onun heç bir bənzəri də yoxdur". (İxlas surəsi, 1-4).**

Allahın zatı bütün varlıqların ən kamili, ən ucası və ən gözəlidir. Onun əzəmətini olduğu kimi ifadə etmək mümkün olmadığı kimi, Onun gözəlliyini də olduğu kimi ifadə etmək mümkün deyil.. Hətta cənnət əhli, vəsf edilməsi mümkün olmayan nemətlər, ölçüyəgəlməz sevinc, fərəh və ləzzətlər içində olmalarına baxmayaraq, Rəblərini gördükləri və Onun camalından zövq aldıqları zaman, içində olduqları nemətləri unudar, sevincləri yox olar və ən uca nemət və ləzzət olan bu halın onlar üçün daimi olmasını istəyərlər. Qəlbləri həmişə Rəbbini görmək üçün böyük bir şovq və şiddətli arzu içində olar. Hətta onlar məzid günü **( Cənnət əhlinin Aləmlərin Rəbbinı ziyarət etdiyi gün )** qəlbləri yerindən oynayacaq bir sevinclə sevinəcəklər. Bu zövq Rəbblərini tanımaqdan, Ona olan sevgilərindən və qəlblərinin Ona olan şövqindən qaynaqlansa da, Onun gözəlliyini və əzəmətini gördükdə daha da artacaq.

Eyni zamanda, Uca Allahın zatı ən kamil və gözəl sifətlərlə vəsf olunmuşdur. Belə ki, bunlar həmd, səna və mədh sifətləridir; onlar ən geniş, ən əhatəli və qəlblərin ən çox bağlandığı sifətlərdir. Xüsusilə rəhmət, yaxşılıq, ehsan, səxavət və kərəm kimi sifətlər Onun gözəlliyinin təzahürlərindəndir.

Buna görə də,onun bütün felləri gözəldir, çünki ehsan və yaxşılıq çərçivəsindədir. məhz bunlara görə o, təriflənir, mədh olunur və şükür edilir. Ədalətli felləri hikmət və həmdə müvafiq olduğu üçün tərif edilir.

Onun fellərində cəfəngiyat, ağılsızlıq və ədalətsizlik yoxdur, əksinə onların hamısı hidayət, mərhəmət, ədalət və doğruluqdan ibarətdir. Onun felləri hamısı son dərəcə gözəl və mükəmməldir və Onun şəriəti hamısı rəhmətdir, nurdur, hidayətdir, gözəldir və bu dünyada və səadət yurdunda olan hər bir gözəllik Onun gözəlliyinin

təsirindəndir. O, ucadır və ən uca misallar ona çəkilər. Gözəlliyi verən gözəl olmağa daha layiqdir. Məxluqat içərisində Rəbbini ən yaxşı tanıyan belə, dediyi halda kim Allahın gözəlliyini layiqincə ifadə edə bilər. Allah elçisi *(sallallahu aleyhi və səlləmin)* belə buyurub: ***"Mən Səni (layiqincə) tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!"*** [65]

Yaratdıqlarını Allah ilə Allahı da yaratdıqları ilə müqayisə [66] etmək (bərabər tutmaq) olmaz. Allah bütün müqayisə olunanlardan üstündür. Uca Allah buyurub: "**Heç kəsi Allaha oxşatmayın. Həqiqətən, Allah bilir, siz isə bilmirsiniz" (Nəhl, 74).**

Lakin verdiyi xəbərlərin bəzisindən məlumdur ki, Ona ən uca və ən üstün misallar çəkilir. Onun haqqında yalnız uca misallar çəkmək olar. Uca Allah buyurub: "**Pis sifət axirətə inanmayanlara xasdır. Ən uca sifət isə Allaha məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir" (Nəhl, 60).**

Uca Allah buyurdu: **"Məxluqatı ilk dəfə (yoxdan) yaradan, öldükdən sonra təkrar dirildən Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir" (Rum, 27).**

**"əl-Quddus, əs-Sələm"** İslamda Uca Allahın əzəmətli zatına dəlalət edən ən böyük adlarıdır . Yəni hər cür müqəddəsliyin, paklığın və təzimin sahibi olan, hər cür nöqsan sifətlərdən uzaq olandır. Uca Allahın **əl-Quddus** adı əzəmətli zatı və feli sifətlərinə qayıdır. **əs-Sələm** adı isə zatı və feli sifətlərdə eyib və nöqsanlardan uzaq ( münəzzəh ) olmağa qayıdır. Allah təbərak və təaləni, eyib və naqis sifətlərdən uzaq tutmaq iki əsasda cəm olub.

**Onlardan birincisi:** Uca Allahın zatı kamilliyə zidd olan hər bir nöqsandan münəzzəhdir. Çünki kamilliyin zirvəsi ona məxsusdur. O, kamil elm və qüdrətlə vəsf olunmuşdur. Unutqanlıq və qəflət kimi kamilliyə zidd olan hər şeydən uzaqdır. O, zəiflikdən, yorğunluqdan, və bu kimi naqis sifətlərdən münəzzəhdir. Kamil həyat və qullarına nəzarət etməklə vəsf olunmuşdur . Buna zidd olan ölümdən, mürgüdən və yuxudan münəzzəhdir. Tam ədalət və zənginliklə vəsf olunmuşdur. Zülmdən və nəyəsə ehtiyacı

[65] Muslim Hədis 486. Aişə *(Allah ondan razı olsun)* rəvayət etmişdir.
[66] Bir şeyi başqa bir şeyə bənzədərək və ya onunla müqayisə edərək hökm vermək

olmaqdan münəzzəhdir. Kamil hikmət və rəhmətlə vəsflənmişdir. Bunların əksi olan cəhalətdən və faydasız işlərdən münəzzəhdir. Və sairə...

**Onlardan İkincisi:** O, yaratdıqlarına oxşamaqdan və ya şəriki olmaqdan münəzzəhdir. Məxluqardan heç biri Yaradana yaxınlaşa və ya ona bənzəyə bilməz. Əksinə məxluqatda olan bütün sifətləri və kamillikləri o vermişdir. Onları öyrədən və ilham edən odur. Mələklər demişdir; **Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Biləsən, Hikmətlisən!" (Bəqərə, 32 ).**

Qüdsi hədisdə Uca Allah demişdir: "**Ey qullarım! Hidayət etdiklərimdən başqa hamınız yolunuzu azmısınız. Məndən sizi hidayət etməyimi istəyin ki, sizi doğru yola hidayət edim".**[67] Uca Allah izzət, əzəmət və kamillik sifətlərinə zidd olan hər şeydən münəzzəhdir eləcə də bunların əksi olan ortağı, şəriki və bənzəri olmaqdan münəzzəhdir.

## Sual 32: İslamda Uca Allahın adları hansılardır?

İslamda ən gözəl adlar Allaha məxsusdur. Bu adlar quruluş baxımından ən gözəl, məna və sözün kökdən törəməs baxımından isə ən əzəmətli adlardır. Uca Allah buyurub: **"Allah! Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur. Ən gözəl adlar Ona məxsusdur!" (Taha, 8).**

Uca Allah buyurub: "**O, Özündən başqa heç bir ilah olmayan, qeybi və aşkarı bilən Allahdır. O, Rəhmandır, Rəhimdir. O, Özündən başqa heç bir ilah olmayan, Məlik (göylərin və yerin mülkünün sahibi), Qüddus (bütün qüsurlardan pak), Salam (bütün eyib və naqis sifətlərdən uzaq), Mömin (haqqı təsdiq edən və qullarına əmin-amanlıq bəxş edən), Muhəymin (hər bir şeyə müşahidə edən), Əziz (yenilməz güc-qüvvət sahibi), Cabbar (istədiyi hər hansı bir şeyə məcbur etməyə qadir olan), Mutəkəbbir (əzəmətli, təkəbbürlü və məxluqata aid sifətlərdən uzaq) olan Allahdır. Allah (müşriklərin) Ona qoşduqlarından (şəriklərdən) ucadır. O, Xaliq (yaradan), Bəri (yoxdan var edən), Musavvir (məxluqatına istədiyi surəti verən) Allahdır. Ən gözəl**

[67] Muslim hədis 2577. Əbu Zərrin *(Allah ondan razı olsun)* hədisidir.

**adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onu təsbih edir. O, Qüdrətlidir, Hikmət sahibidir" (Həşr, 21-22).**

Bu adları tanımaq Uca Allaha olan imanı gücləndirən ən böyük amillərdəndir və bunun nəticəsində Uca Allah tanımaq (mərifətullah) hasil olur. Belə ki, Allahı tanımağın əsası Onun gözəl adlarını, bu adların ehtiva etdiyi əzəmətli mənaları öyrənmək və buna uyğun olaraq Allaha ibadət etməkdir.Allah elçisi *(sallallahu aleyhi və səlləmin)* belə buyurub: ***"Uca Allahın yüzdən bir əskik - doğsan doqquz adları vardır. Kim onları sayarsa cənnətə daxil olar".***[68]

Bu adları saymağın mənası, onları əzbərləmək, saymaq, gərəkdirdiyi hökmləri bilmək, mənalarını qəlbdə dərk etmək və qəlbin bu tanımağın təsiri ilə dolmasıdır. Çünki hər bir adın, Allaha boyun əyən və Ona iman gətirən qəlbdə bir təsiri və halı vardır ki, bəndə nə bu dünyada, nə də əbədiyyət yurdunda (axirətdə) bundan daha uca və daha əzəmətli bir şey əldə edə bilməz.

## Sual 33: İslamda Uca Allahın ən əzəmətli adları hansılardır?

Uca Allah Quranda, eləcə də Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sünnəsində bəzi adlarını sadalamışdır və bu adlar alimlərin İttifaqına əsasən yüz adı keçmişdir. Onların hamısı "Hüsna" (ən gözəl), həm mənası, həm də quruluşu baxımından əzəmətlidir. Hər bir ad Uca Allah dəlalət edir və Onun vəsflərindən (sifətlərindən) birini ifadə edir.

Bu əzəmətli adlardan biri də **«Allah»** adıdır. Qurani-Kərimdə və Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* sünnəsində ən çox qeyd olunan addır. O nəcib və gözəl addır. Uca Allahın ən gözəl və ən əzəmətli adlarındandır. Ona görə də bütün gözəl adlar bu ada aid edilir və onunla vəsf olunur.

***ər-Rahmən*** (Mərhəmətli), ***ər-Rahim*** (Rəhimli), ***əl-Xaliq*** (Yaradan), ***ər-Razzəq*** (Ruzi verən), ***əl-Aziz*** (Qudrətli), ***əl-Həkim*** (Hikmətli) Allahın adlarındandır deyilir. Lakin "Allah ər-Rəhmanın adlarındandır" deyilmir.

[68] Buxari, Muslim. Buxari 2585 hədis, Muslim 2677 hədis. Əbu Hureyranın *(Allah ondan razı olsun)* hədisidir.

**«Allah»** adının mənası: Bütün məxluqat üzərində uluhiyyət (ilahlıq) və ubudiyyət (məbudluq) sahibidir.[69] Uluhiyyət vəsfləri bütünlüklə kamil, əzəmət gözəllik və ucalıq, rəhmət, səxavət, yaxşılıq vəsfidir. Çünki bu sifətlər Onun ilah qəbul edilməsinə və ibadət olunmasına layiq olmasını təmin edən sifətlərdir:

O, əzəmət və böyüklük vəsflərinə sahib olduğu üçün ilahdır (ibadət olunandır).

Qayyumluqda , Rububiyyətdə, mülk və sultanlıqda tək olduğu üçün ilahdır.

Rəhmətdə, zahiri və batini (gizli) nemətləri bütün məxluqata çatdırmaqda tək olduğu üçün ilahdır.

Hər şeyi elmi, hökmü, hikməti, ehsanı, rəhməti, qüdrəti, izzəti və qəhri ilə əhatə etdiyi üçün ilahdır.

Mütləq və tam zənginlikdə (ehtiyacsızlıqda) tək olduğu üçün ilahdır.

Eyni şəkildə, Ondan başqa hər kəs və hər şey daima Ona möhtacdır; yaradılmasında, işlərinin idarə olunmasında, təminatında və ruzisində Ona möhtacdır. Bütün ehtiyaclarında, hətta ən böyük və ən zəruri ehtiyacı olan — yalnız Ona ibadət etmək və yalnız Onu ilah qəbul etmək məsələsində də Ona möhtacdır.

## Sual 34: İslamın Uca Allahın rəhmətinə baxışı necədir?

İslamda Uca Allahın əzəmətli adlarından bəziləri bunlardır: **ər-Rahmən (Mərhəmətli), ər-Rahim (Rəhmli), əl-Bərr (Yaxşılıq edən), əl-Kərim (Səxavətli), əl-Cəvvad (Səxavət sahibi), əl-Vahhab (Bəxşiş verən), ər-Rauf (Şəfqətli).** Bu mübarək adların mənaları bir-birinə yaxındır və hamısı Onun kamil mərhəmət, geniş yaxşılıq və ehsan, bol bəxşiş, şəfqət və rəhmət vəsflərinə sahib olduğuna dəlalət edir. Üst və alt aləmdə (səmalarda və yerdə) əldə olunan bütün mənfəətlər, sevilən şeylər, sevinclər və xeyirlər Ondandır; Onun rəhmətinin, səxavətinin, kəraminin və lütfünün nəticəsidir.

[69] İbn Cərir öz təfsirinin müqəddiməsində İbn Abbasdan "movquf" (səhabə sözü) olaraq rəvayət etmişdir.

Dünyadan uzaqlaşdırılan ən böyük sıxıntılar, bəlalar, qorxular, təhlükələr və zərərlər Onun mərhəməti və xeyirxahlığındandır. Onun rəhmətinin və yaxşılığının nəticəsidir. Çünki yaxşılıqları gətirən yalnız Odur, pislikləri dəf edən də yalnız Odur. Uca Allahın rəhməti qəzəbini qabaqlamışdır. Allahın rəhmətinin izləri Onun yaratdıqlarında inkar edilməz dərəcədə zahir olmuşdur. Belə ki, bu rəhmət göylərin və yerin hər tərəfini bürümüş, qəlbləri doldurmuşdur. Hətta məxluqatlar üzərlərinə yayılan və qəlblərinə qoyulan bu rəhmət sayəsində bir-birinə şəfqət göstərirlər. Heç bir mənfəət, aqibət və ya qarşılıq gözləməyən heyvanların belə öz balalarına qarşı göstərdiyi bu böyük rəhmət və şəfqət, Yaradanın onlara olan qayğısına və geniş rəhmətinə şahidlik edir. Onun bəxş etdikləri göy və yer əhlini əhatə etmiş, onlar üçün mənfəətləri, yaşayış vasitələrini və ruziləri asanlaşdırmışdır.

Onun qullarının tövbəsini qəbul etməsi də uca rəhmətindəndir. Uca Allah buyurub: "**Adəm (tövbə etmək üçün) Rəbbindən kəlmələr öyrəndi, O da onun tövbəsini qəbul etdi. Həqiqətən də, O, tövbələri qəbul edəndir, Rəhmlidir" (Bəqərə, 37).**

Uca Allah buyurdu: "**O, sizin tövbənizi qəbul etdi. Həqiqətən də, O, tövbələri qəbul edəndir, Rəhmlidir" (Bəqərə, 54).**

Elçilər göndərməsi və kitablar nazil etməsi — bütün bunlar Onun qullarına olan əzəmətli rəhmətinin və onlara olan qayğısının dəlilidir. Uca Allah buyurub: "**Həqiqətən, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir. Şübhəsiz ki, bu (Quran), aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq ruh (Cəbrail) endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan" (Şuəra, 191-194).**

Onun qullarına nəzər yetirməsi, ibadətlərini qəbul etməsi və dualarına cavab verməsi də Onun rəhmətindəndir. Uca Allah buyurub: "**Qüdrətli və Rəhmli olana təvəkkül et! O səni (namaza) duranda da görür, səcdə edənlər içində hərəkətinidə. Həqiqətən də, O, Eşidəndir, Biləndir!" (Şuəra, 217-220).**

Uca Allah buyurub: "**Ya. Sin. And olsun hikmətli Qurana! Həqiqətən, sən göndərilmiş elçilərdənsən, doğru yoldasan. (Bu Quran) Qüdrətli və Rəhmli (Allah) tərəfindən nazil edilmişdir ki, ataları xəbərdar edilməmiş, özləri də qafil olan bir qövmü xəbərdar edəsən" (Yasin,1-6).**

Bəzən Allah qullarına sevdikləri şeylərə çatmaları üçün onlara sıxıntılar verər, Hətta onlara müsibətlər və ağrılar vasitəsilə rəhm edər. Əgər mömin xoşlamadığı şeylər başına gəldiyi zaman səbir vəzifəsini yerinə yetirərsə bu onun üçün xeyir olar. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***Möminin işi necə də qəribədir. Həqiqətən, onun bütün işləri qəribədir. Allah ona elə bir şey təqdir etməmişdir ki, onun üçün xeyirli olmasın. Başına yaxşı bir iş gəldikdə şükr edər və bu onun üçün xeyirlidir. Müsibət üz verdikdə isə səbr edər. Bu da onun üçün xeyirlidir.***[70]

Eyni zamanda Onun rəhməti, əmrlərində və şəriətində bəsirət və gözlərin şahid olduğu, ağıl sahiblərinin etiraf etdiyi bir şəkildə təzahür etmişdir. Onun şəriəti nur, rəhmət və hidayətdir. Bu şəriəti rəhməti ehtiva edən və ən uca rəhmətə, kərəmə, səadətə və qurtuluşa çatdıran şəkildə müəyyən etmişdir. Şəriətdə qoyduğu asanlıqlar, sadələşdirmələr, çətinlik və sıxıntıların aradan qaldırılması Onun rəhmətinin, səxavətinin və kəreminin genişliyinə ən böyük dəlildir. Onun qadağalarının hamısı da rəhmətdir. Uca Allah buyurub: “**Allah bağışlayandır, rəhmlidir. Allah sizə (şəriət hökmlərini) bəyan etmək, sizi özünüzdən əvvəlkilərin yollarına yönəltmək və tövbələrinizi qəbul etmək istəyir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir” (Nisa, 25-26 )**

Uca Allah buyurub: “**De: “Ey Rəbbim, bağışla və rəhm et! Sən rəhm edənlərin ən xeyirlisisən!” (Muminun, 118).**

“Bu sonsuz və mahiyyəti tam dərk edilə bilməyən böyük rəhmətə yəqinliklə inanan şəxs anlayar ki, əgər birinə əzab verilirsə, bu, əzab olunanın buna layiq olmasına görədir — istər bir sınaq (bəla), istər dərəcə yüksəlişi, istər günahlara kəffarə, istərsə də cəza olaraq olsun. Uca Allah buyurub: “**Atacan! Rəhmandan sənə bir əzab toxunub və beləcə, şeytana yoldaş olmandan qorxuram” (Məryəm, 45).**

Uca Allah buyurub: “**Biz onlardan əvvəl var-dövlət və zahiri görünüşcə onlardan daha üstün olan neçə-neçə nəsilləri məhv etdik. De: “Qoy Rəhman azğınlıqda olan hər kəsə uzun müddət möhlət versin! Nəhayət, özlərinə vəd olunan ya əzabı, ya da Qiyamət saatını gördükləri zaman onlar kimin məqamının daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər” (Məryəm, 74-75).**

[70] Muslim 2999 hədis. Suheybin *(Allah ondan razı olsun)* hədisidir.

Uca Allahın rəhməti Qiyamət günü də təcəlli edəcəkdir. O zaman Allah – azzə va cəllə - deyəcək: ***“Mələklər şəfaət etdi, peyğəmbərlər şəfaət etdi, möminlər şəfaət etdi, rəhimlilərin Ən Rəhimlisindən başqa heç kim qalmadı.” Bundan sonra cəhənnəmdən bir ovuc (qabda) götürəcək və oradan heç bir xeyir etməmiş bir qrup insan çıxaracaq ki, artıq kömürə dönmüş halda olacaqlar. Onları Cənnətin girişindəki həyat çayı deyilən bir çaya atacaq. Selin gətirdikləri içindən otlar çıxdığı kimi oradan çıxacaqlar. Mərcan kimi çıxacaqlar, boyunlarında Cənnət əhlinin tanıyacaqları halqalar olacaq. Onlar Allahın heç bir xeyir əməl etmədən, Cənnətə daxil etdiyi Allahın azad etdikləridir.”***[71]

## Sual 35: İslamda Uca Allahın qəhri (mütləq qüdrəti) və qəzəbinə baxış necədir?

İslamda Allahın qəhri, gücü, intiqamı və qəzəbi əzəmətlidir. O, Öz qüvvət və qüdrətində kamildir; Allah yalnız Mərhəmətli deyil, O həm də Qahhar (hər şeyə qalib gələn) və Cabbardır (istədiyini məcbur edəndir). Uca Allahın əzəmətli adlarından bəziləri bunlardır: **Əl-Əziz** adı izzətin bütün mənalarını özündə cəmləşdirir: "**Şübhəsiz ki, izzət (qüdrət) tamamilə Allaha məxsusdur. O, Eşidəndir, Biləndir**" (Yunus, 65). O, qüvvətinin kamil olması baxımından Əzizdir (bu, qüdrət izzətidir). **"Əl-Qaviy"** (Güclü) və **"Əl-Mətin"** (Sarsılmaz) adları da bu mənaya söykənir. Həmçinin, bu ad Onun heç kəs tərəfindən məğlub edilə bilməyəcəyini, kimsənin Ona zərər və ya fayda vermək gücündə olmadığını, Onun ucalığını və hər cür eyibdən, naqislikdən uzaq olduğunu ifadə edir.

**Əl-Mütəkəbbir** adı Onun əzəmətinin kamilliyinə və kibriyasının (böyüklüyünün) sonsuzluğuna dəlalət etməklə yanaşı, həm də Onun Öz ucalığına və şanına yaraşmayan hər şeydən pak və münəzzəh olması deməkdir.

**Əl-Qəhhar,** qüdrəti ilə bütün məxluqatı ram edən, bütün varlıqların qarşısında boyun əydiyi zatdır. Bütün qulların ixtiyarı Onun əlindədir, mülkün idarəsi və tədbiri Ona məxsusdur.

**Əl-Cabbar,** Ərşə istiva edən, mülkə və səltənətə sahib olan, hər cür idarəçilikdə mütləq hakim olandır. "Cabbar" adının digər mənaları isə bunlardır: Sınıqları bərpa edən, yoxsulu zənginləşdirən, xəstəyə

[71] Muslim 183 hədis. Əbu Səid əl-Xudrinin *(Allah ondan razı olsun)* hədisidir

və bəlaya düçar olana şəfa verən. O, xüsusi bir lütflə, Öz əzəməti qarşısında qəlbləri sınmış, Onun kamilliyinə boyun əyən, lütfünü və ehsanını umanların qəlblərinə sevgi, ilahi mərifətlər, müvəffəqiyyət , hidayət və uğur bəxş edir.

## Sual 36: İslamın Uca Allahın mülkünə baxışı necədir?

İslamda Allahınən uca adlarından biri də ***«əl-Məlik, əl-Məlik» (Hökmdar, Mülk Sahibi)*** adıdır. Bu iki ad uca Allahın tam hökümranlıq sahibi olmasına dəlalət edir. Bütün əzəmətli sifətlər ona məxsusdur. Bu vəsflərə tam qüvvət, izzət, qüdrət, hər şeyi əhatə edən elm, geniş hikmət, iradənin mütləq keçərliyi, kamil idarəçilik, rəhmət və şəfqət daxildir. Uca Allah buyurub: **De: "Ey mülkün sahibi olan Allahım! Sən mülkü istədiyin kəsə verir, istədiyindən də, onu geri alırsan; istədiyin kimsəni ucaldır, istədiyini də, alçaldırsan. Xeyir (yalnız) Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. Sən gecəni gündüzə qatır, gündüzü də gecəyə qatırsan. Ölüdən diri çıxarır, diridən də ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən" (Ali İmran, 26-27)**

Beləliklə, bütün varlıqların hamısı Onun mülküdür və Ona möhtac olan, bütün işlərində Ona ehtiyacları olan kiçik qullarıdır. Heç kəs Onun mülkündən kənara çıxa bilməz və heç bir məxluqun Onun var etməsinə, yardım etməsinə, fayda verməsinə və zərəri uzaqlaşdırmasına qarşı ehtiyacsızlığı yoxdur. Üst aləmin (səma aləminin) və alt aləmin (yer aləminin) ümumi hökmü, eləcə də dünyanın və axirətin ümumi hökmü – hamısı Mülk Sahibi olan Hökmdara (əl-Məlik) məxsusdur. Allah ucadır, mübarəkdir. Bütün varlıq aləmini əhatə edən ümumi hökmlər isə üçdür:

**Qədəri hökmlər:** Bütün qədərlərin gedişatı, var etmək və yox etmək, diriltmək və öldürmək, yaratmaq, hazırlamaq və ruzi vermək – bunların hamısı Onun qəza və qədərinin tələbinə uyğun baş verir.

**Şəri hökmlər:** Allah Öz elçilərini göndərmiş, kitablarını nazil etmiş və qanunlarını (şəriətini) müəyyən etmişdir. O, insanları bu hökmə tabe olmaq üçün yaratmış, onlara əqidələrində, əxlaqlarında, söz və əməllərində Onun hökmü ilə hərəkət etməyi əmr etmişdir. O, bu şəriət hökmünü aşmağı qadağan etmiş və bildirmişdir ki, Onun hökmünə zidd olan hər bir qərar "cahiliyyə şəri"dir (pisliyidir).

**Cəza (mükafat və cəza) hökmləri:** Dünyada və axirətdə itaət edənlərin mükafatlandırılması, asilərin isə cəzalandırılması Onun ədalətinin, hikmətinin və ümumi tərifinin (həmdinin) nəticəsidir. Bütün bu sifətlərin hamısı Onun ***əl-Məlik, əl-Məəlik*** (tam hökümranlıq sahibi) olmasının mənasıdır.

## Sual 37: İslamın Uca Allahın hikmətinə baxışı necədir?

İslamda Uca Allahın ən böyük adlarından biri belədir: ***"Əl-Həkim, Əl-Həkəm"***, yəni O, bəndələri arasında mükəmməl hikmət və mükəmməl hökum ilə vəsf olunur. Hikmət — elmin genişliyi, işlərin başlanğıcından və nəticələrindən xəbərdar olmaq, həmçinin hər şeyi öz yerinə qoyaraq, layiq olduğu məqamı verərək sonsuz həmdə sahib olmaqdır. Ona heç bir sual ünvanlanmaz (sorgu-sual olunmaz) və Onun hikmətinə qarşı heç bir söz deyilə bilməz. Uca Allah Özü haqqında buyurub: "**Həqiqətən, Sən Qüdrətlisən, Hikmətlisən" (Bəqərə, 129).**

Yaratmasında və əmrində hikmət ona məxsusdur. Uca Allah buyurub: "**Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur, O, Qüdrətlidir, Hikmət sahibidir" (Ali İmran, 6).**

Beləliklə, Allah təbarəkə və təala Həkimdir ( hikmət sahibidir ); yaratmasında, var etməsində, idarəçiliyində və təsərrüfündə hökm Ona məxsusdur. O, Həkimdir; şəriətində, əmr və qadağalarında da hökm Onundur.

Yaratmasındakı hikmətə gəlincə: O, məxluqatı haqla (hikmətlə), haqqı ehtiva edəcək şəkildə yaratmışdır; onun qayəsi və sonu da haqdır. Onları ən gözəl nizamla yaratmış, tam bir tərtiblə düzmüş və hər bir məxluqa öz xilqətini (ehtiyacı olan quruluşu) vermişdir. Rəhmanın yaratmasında heç bir uyğunsuzluq, yarıq, qüsur və ya naqislik yoxdur. Hətta bütün məxluqatın ağlı bir yerə toplansa ki, bu varlıq aləmindən daha üstün və daha gözəl bir şey yaratsınlar, buna gücləri çatmaz. Uca Allah buyurub: "**Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi kamil şəkildə edən Allahın işidir. Şübhəsiz ki, O, nə etdiklərinizdən xəbərdardır" (Nəml, 88).**

Şəriətindəki və əmrindəki hikmətə gəlincə: Uca Allah şəriətlər müəyyən etmiş, kitablar nazil etmiş və rəsullar göndərmişdir ki, bəndələr Onu tanısınlar və Ona ibadət etsinlər. Bundan daha uca bir hikmət, bundan daha böyük bir lütf və kərəm ola bilərmi? Onun bütün əmrləri mənfəət və məsləhətdir; gözəl əxlaq, dəyərli xüsusiyyətlər və saleh əməllər bəhrəsini verir. Onun bütün qadağaları isə sağlam ağıla və düzgün fitrətə uyğundur. Çünki O, yalnız insanların ağlına, əxlaqına, namusuna, bədəninə və malına zərər verən şeyləri qadağan edir.

## Sual 38: İslamın Uca Allahın əfvinə və  məğfirətinə (bağışlamasına )baxışı necədir?

İslamda Allahın ən uca adlarından bəziləri bunlardır: **"əl-Əfüv"** (çox əfv edən), **"əl-Ğafur"** (bağışlayan), **"əl-Ğaffar"** (günahları örtən və təkrar-təkrar bağışlayan), **"ət-Təvvab"** (tövbələri qəbul edən).  Bu adların təsirləri və təzahürləri gecə-gündüz bütün yaradılmışları əhatə etməkdə davam edir. Onun əfvi və məğfirəti bütün məxluqatı, günahları və cinayətləri bürümüşdür. İnsanların yol verdiyi qüsurlara görə müxtəlif cəzalara layiq olsalar da, Allahın əfvi və məğfirəti bu cəzaları dəf edir.

Allahın əfvi iki növdür:

**Birinci növ: Ümumi əfv.**Onun bütün günahkarları, o cümlədən kafirləri və başqalarını ümumi əfv etməsidir.  Onlar Allahı söyərək ona şərik qoşaraq müxtəlif növ günahlar etməklə əziyyət verirlər. Bu səbəblərə görə onlara verilən nemətlərin kəsilməsi lazım gəldiyi təqdirdə əksinə Uca Allah onlara şəfa verir, ruzi verir, onlara aşkar və gizli nemətlər bəxş edir, dünyanı onlar üçün genişləndirir, nemətlərindən və lütfündən onlara verir.  O, Öz bağışlaması və həlimliyi ilə onlara möhlət verir əksinə onları tərk etmir.  Uca Allah buyurub: **Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandıqlarınızın ucbatındandır. (Allah günahların) çoxunu bağışlayır. ( əş-Şura 30 )**

**İkinci növ: Xüsusi əfv.** Tövbə edənlərə, istiğfar edənlərə (bağışlanma diləyənlərə), dua edənlərə, ibadət edənlərə və başına gələn müsibətlərə (səbir edib) savabını Allahdan gözləyənlərə aid olan xüsusi əfvi və xüsusi məğfirətidir. Kim Allaha tövbə edərsə, dünyada olduğu müddətcə Allah onu bağışlayar.

Uca Allah buyurub: “**(Ey Peyğəmbər! Qullarıma mənim bu sözümü) de: “Ey Mənim özlərinə qarşı [günah etməkdə] həddi**

**aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər, 53).**

Hətta mücərrəd istiğfar ilə belə, günahlar və pisliklərin bağışlanması hasil olur, bəs əgər bununla bərabər sadiq (səmimi) bir tövbə də olarsa, görün nə qədər bağışlanar ! Eyni şəkildə, yaxşı işlər görmək və saleh əməllər etmək vasitəsilə də xətalar örtülür (silinir). Uca Allah buyurub: "**Həqiqətən, yaxşı işlər pis əməlləri yuyub aparır" (Hud, 114).**

Bir çox əməllərin günahları silməsi (kəffarə olması), eyni zamanda həm də həsənətin (yaxşı əməllərin) və dərəcələrin artmasını gərəkdirməsi barədə bir çox hədislər sabit olmuşdur . Necə ki, müsibətlərin günahlar üçün kəffarə olması haqqında da bir çox naslar (şəri dəlillər) mövcuddur. Xüsusən də müsibətin savabını Allahdan gözləyən, səbir və ya razılıq vəzifəsini yerinə yetirən kəs üçün.

**Sual 39: İslamın Uca Allahın ruzi verməsinə baxışı necədir?**

İslamda Uca Allah yeganə Ruzi verəndir (Rəzzaqdır). Buna görə də **"ər-Rəzzaq"** Onun ən uca adlarından biri, **"ər-Raziq"** isə Onun sifətidir. Yəni bütün məxluqatın ruzisini Öz öhdəsinə götürən, ruzilərini və yaşayış vasitələrini onlara çatdıran, onların hallarını və yerlərini biləndir.Uca Allah buyurub: **Yer üzündə olan bütün canlıların ruzisi yalnız Allaha aiddir. Allah onların (dünyada) qərar tutduqları yeri də, (öldükdən sonra) qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın kitabdadır (Lövhi-məhfuzdadır). ( Hud 6 )**

**ər-Razzəq** olan uca Allah istədiyinin ruzisini bol edər, istədiyinin də ruzisini azaldar və yer üzündəki bəndələri üçün bütün ruziləri hazırlamışdır. Uca Allah buyurub: **Qoy insan yediyinə baxsın! Biz yağışı bol-bol yağdırdıq. Sonra da yeri çat-çat yardıq. Orada dən yetişdiririk. (Habelə) üzüm və yonca, zeytun və xurma (ağacları), sıx-sıx bağlar, meyvələr və otlar da (bitiririk). Sizin və heyvanlarınızın faydalanması üçün. ( Abəsə 24-32 )**

Uca Allah həmçinin seçilmiş möminlərin qəlblərini elm, mərifət və iman həqiqətləri ilə ruziləndirir ki, qəlblər bununla qidalanır, böyüyür və təkmilləşir. Eyni zamanda bütün heyvanlara da onlara uyğun şəkildə inkişaf etmələri üçün müxtəlif növ qidalarla ruzi verir. Bəndə Allahdan ruzi istədikdə bu iki növü (həm maddi, həm mənəvi

ruzini) bir arada nəzərdə tutmalıdır; yəni Allahdan həm halal və bol ruzi, həm də qəlbi üçün elm, iman və irfan diləməlidir.

**Allahın bəndələrinə ruzisi iki növdür:**

**Birinci növ:** Səbəbə bağlı olan ruzidir. Necə ki, Allah əkinçiliyi, ticarəti, sənətkarlığı, heyvandarlığın inkişafını, xidmət sahəsini və bənzərlərini insanların böyük əksəriyyəti üçün ruzi qazanma yolları etmişdir. Allah buyurub: **Biz yeri üzünü genişləndirdik, orada möhkəm dağlar yerləşdirdik və orada hər şeydən lazım olduğu qədər yetişdirdik. Orada həm sizin üçün, həm də sizin ruzi vermədiyiniz kimsələr üçün dolanışıq  vasitələri yaratdıq. (Kainatda) elə bir şey yoxdur ki,onun xəzinələri Bizdə olmasın. Biz onu ancaq müəyyən ölçüdə endiririk. (Hicr 19-21 )**

**İkinci növ:** Allahın bəndəyə səbəbsiz olaraq verdiyi ruzidir. Bu, Allahın ona sırf ilahi təqdirlə verdiyi ruzidir və ya ruzi üçün heç bir səy göstərmədən başqasının əli ilə ona çatdırdığı ruzidir. Dilənməyi (istəməyi) istisna  edərək deyirik.. Həmçinin, insanın dolandırmaqla məsul olduğu həyat yoldaşı, qohumu, ağası və ya sahibinin ona verdiyi ruzi də buna daxildir. Çünki bunlar ya insanın öz əməyinin nəticəsidir, ya da onun başqasına tabe olması səbəbilə əldə edilir.

Lakin burada vurğulamaq istədiyimiz odur ki, elə məxluqlar var ki, heç bir şeyləri yoxdur, nə bir iş görürlər, nə də ruzi üçün çalışırlar. Onlar ya tamamilə acizdirlər, ya da ruzi axtarmaqda tənbəldirlər. Uca Allah  Öz lütfü ilə onlar üçün heç gözləmədikləri və ummadıqları yerlərdən elə ruzilər təqdir etmişdir ki, onlarla kifayətlənirlər.Uca Allah buyurub: **Neçə-neçə canlı var ki, ruzisini (əldə edə) daşıya bilmir. Onların da, sizin də ruzinizi Allah verir. O, Eşidəndir, Biləndir. (Ənkəbut 60 )**

Allahın ruzi verməsindəki incəliklərdən  biridə budur ki, bəzən ruzisini qazanmaqdan aciz olan insana elə bir hal və güclü təvəkkül bəxş edər ki, bunun sayəsində Allah ona təcili ruzi yetirir. Bəzən bu, qəbul olunmuş bir dua ilə, xüsusən də çarəsizlik anında baş verir. Necə ki, Yaradan Öz bəndəsini çarəsiz gördükdə, bəndənin başqalarından ümidi kəsildikdə onun duasını qəbul edib sıxıntısını aradan qaldırırsa, eləcə də yemək və içməyə möhtac olan, hər kəsdən ümidini kəsib həlak olacağına yəqinlik hasil edən şəxsə Rəbbinin ruzisi və lütfü elə bir şəkildə gəlir ki, o, Allahın çətinlikləri və kədəri aradan qaldırmaq üçün yeganə ümid yeri olduğunu tam yəqinliklə dərk edir. Bu mövzuda Vəhhab olan Allahın lütfünə dəlalət edən çoxlu hadisələr mövcuddur.

Yenə Allahın ruzi lütfünə daxildir ki, bir çox xəstələr uzun müddət yemək-içmək qəbul etmədən qala bilirlər. Allah Öz kəraməti və lütfü ilə onların bədənini möhkəm saxlayır. Halbuki, sağlam bir insan bu qədər müddət ac-susuz qalsa, həlak olar.

Onun ruzi verməsinin incəliklərindən biri də ana bətnindəki uşaqdirdır. Allah onların qidalanmasını analarının damarlarında axan qan vasitəsilə təmin etmişdir. Çünki döl yeyib-içə biləcəyi qidanı qəbul bilməz. Əgər belə olsaydı, bu, həm bətnindəki körpəyə, həm də ondan xaric olan ifrazatlar anaya zərər verərdi. Sonra analar uşaqlarını dünyaya gətirdikdə, körpə zəif olduğu üçün adi qidalarla qidalana bilmir. Yaradan ananın döşlərindən içənlər üçün xoş, və lətif bir süd çıxardı. Bu südün tərkibində həm yemək, həm də içmək ehtiyacını qarşılayan qidalar vardır. Körpə bərk qidaları yeməyə gücü çatana qədər bu minvalla davam edir. Eyni zamanda, körpə doğulduğu zaman bu işi təkbaşına görməyə qadir olmadığı üçün Allah istər insanlarda, istərsə də heyvanlarda anaların qəlbinə övladlarına qarşı böyük bir rəhmət və şəfqət salmışdır ki, onlar övladlarına ruzi və qidalarını qəbul etməkdə kömək etsinlər. Lətif və Xəbir olan Allah nə qədər ucadır!

Ruzilərin müxtəlifliyi və növlərinin çoxluğu elədir ki, vəsf edənlərin vəsfi onu sayıb qurtara bilməz, ifadə edənlərin sözləri isə onu tam əhatə edə bilməz.

## Sual 40: İslamda Uca Allaha olan məhəbbətin  dərəcəsi nədir?

İslamda Uca Allaha məhəbbət imanın əsaslarından biridir. Müsəlman mütləq Allah sevməli və qəlbində Allaha, Onun dininə, peyğəmbərlərinə və elçilərinə qarşı zərrə qədər də olsa nifrət olmamalıdır.

Əksinə, müsəlmanın Allaha olan sevgisi hər bir sevgidən üstün olmalıdır.Uca Allah buyurub: **De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz ticarətiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Allah yolunda cihad etməkdən daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah, fasiq bir qövmü doğru yola yönəltməz”. (Tövbə, 24).**

İslam hər hansı bir şeyi Allahı sevdiyi kimi sevməyi haram buyurur. Çünki Allaha olan məhəbbət, məxluqatın yaradılış qayəsi olan ibadətin ruhudur. Kim bu sevgini Allahdan başqasına

yönəldərsə, onu yanlış yerə qoymuş və eyni zamanda zay etmiş olar. Belə bir kəs öz nəfsinə ən böyük zülmü etmiş, onun ən böyük haqqını tapdalamışdır. Buna görə də, şirkin "ən böyük zülm" olması, müşrikin isə əbədi olaraq Cəhənnəmdə qalması, Cənnətə girməkdən məhrum edilməsi və Cənnətin ona haram qılınması haqdır. Çünki Cənnət — Allaha haqqı ilə ibadət edən, dini ixlasla Ona aid edən və Onu sevən pak insanların yurdudur.

Uca Allah buyurub: **O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?! ( Məryəm 65 )**

Möminlərin Allaha olan məhəbbəti xalis olduğu üçün, onların Allaha olan sevgisi müşriklərin sevgisindən daha böyükdür.Uca Allah buyurub: **İnsanlardan elələri də var ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da, Allahı sevdikləri kimi sevirlər. (Bəqərə 165 )**

Müşriklərin məhəbbəti "şirk" xarakterlidir, çünki bu sevgi Allahla bərabər (başqasına da) bəslənilir və batil məbudlar arasında bölüşdürülmüşdür.

## Sual 41: İslamda təvəkkülün məqamı (yeri) nədir?

İslamda insan mümkün və şəri (icazəli) olan səbəblərdən yapışaraq və qəlbini Uca Allaha bağlayaraq Ona təvəkkül etməlidir.

Allaha təvəkkül etmək və Ondan yardım diləmək elə uca bir əxlaqdır ki, bəndə istər dini, istərsə də dünyəvi olsun, bütün işlərində ona möhtacdır. Çünki Uca Allah  bəndəyə öz ixtiyari fellərini yerinə yetirə biləcəyi bir qüdrət və iradə vermiş və onu bu işlərin heç birinə məcbur etməmiş olsa da, bəndənin Allahın yardımı olmadan heç bir gücü və qüvvəti yoxdur. Güc və qüvvət yalnız ondandır. Beləliklə, əgər bəndə öz dini və dünyəvi işlərindən etmək istədiyini hasil etmək və tamamlamaq üçün qəlbi ilə Rəbbinə tam və güclü bir şəkildə arxalanarsa və Ona güvənərsə, Allah ona yardım edər, onun iradə və qüdrətini gücləndirər, yönəldiyi işi onun üçün asanlaşdırar, maneələri ondan uzaqlaşdırar və ya yüngülləşdirər. Beləcə, bəndənin gücü qat-qat artar və qüdrəti çoxalar, çünki o,  Allahın bitməyən və tükənməyən  qüvvətindən kömək istəmiş və ondan güc almışdır.

Həqiqi təvəkkül bəndədən tənbəlliyi uzaqlaşdırır və Allaha təvəkkül etdiyi işə qarşı onda tam bir çalışqanlıq (aktivlik) yaradır. O, heç bir çətinliyi gözündə böyütməz, heç bir işi ağır hesab etməz, uğur qazanmaqdan və istəyinə nail olmaqdan ümidinikəsməz. Bu,

təvəkkülün mənasını anlamayan və ya anlayıb da qəza və qədəri inkar etmək qəsdilə haqdan yayınan bəzi azmışların zənn etdiyinin tam əksidir. Belə ki, onlar təvəkkülün istək və iradəni zəiflətdiyini hesab etmiş və Rəbbləri barəsində pis zənnə qapılaraq son dərəcə böyük bir xətaya yol vermişlər. Halbuki Allah bir çox ayələrdə təvəkkül etməyi əmr etmiş, onun imanın tələblərindən olduğunu bildirmiş, təvəkkül edənlərə (hər şeydə) kifayət edəcəyini və istəklərinə nail olacaqlarını vəd etmiş, onları sevdiyini xəbər vermişdir. Həmçinin bildirmişdir ki, nə din, nə də işlər təvəkkül olmadan tamamlana bilməz. Deməli, dində, dünya da təvəkkülə möhtacdır. Uca Allah buyurub: “**Əgər möminsinizsə, Allaha təvəkkül edin!” (Maidə, 23).**

Uca Allah buyurub: **Allaha təvəkkül et! Qoruyan olaraq (sənə) Allah yetər” (Nisa, 8).**

## Sual 42: İslamın mələklərə baxışı necədir ?

İslamda insan mələklərə iman gətirməlidir və onlara iman gətirmək, mələklərin kamillik xüsusiyyətlərini özlərində cəmləşdirdiklərinə və Allahın onları yaradılışdan bütün günahlardan (itaətsizliklərdən) pak etdiyinə inanmağı ehtiva edir. Uca Allah buyurub: “**Əksinə, (o mələklər) möhtərəm qullardır. (Mələklər) Ondan qabaq danışmazlar, onlar ancaq Onun əmrini yerinə yetirərlər. (Allah)onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər” (Ənbiya, 26-28 )**

Uca Allah digər ayədə buyurub: “**Onun üstündə Allahın onlara verdiyi əmrlərə (heç vaxt) asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və şiddətli mələklər var” (Təhrim, 7).**

Digərayədə buyurub: “**Onun yanında olanlar Ona ibadət etməyə təkəbbür göstərməz və (ibadət etməkdən) yorulmazlar. Onlar gecə-gündüz, usanmadan (Onun şəninə) təriflər deyirlər” (Ənbiya, 19-20).**

Allah onların bir çoxuna kainatdakı hadisələri idarə etmək üçün vəzifələr vermiş və bir neçə ayədə onlara and içmişdir. Onlar (kainatdakı) işləri idarə edənlər, (ruzi və s.) paylayanlar, Nəbilərə və Rəsullara vəhy gətirənlərdir. Onlar Adəm övladını qoruyanlardır. Allahın əmri ilə onları xoşagəlməz hallardan qoruyur, həmçinin onların xeyir və şər əməllərini qeydə alırlar. Onlar Kitab və Sünnədə

uca vəsflərlə xarakterizə olunmuşdur ki, qulun onlara dair sabit olan hər bir şeyə iman gətirməsi mütləqdir.

Ən əzəmətli mələklərdən bəziləri bunlardır: Ruhların həyat qaynağı olan vəhylə vəzifələndirilmiş **Cəbrayıl**; bədənlərin həyat qaynağı olan yağışla vəzifələndirilmiş **Mikayıl**; sura üfürməklə vəzifələndirilmiş **İsrafıl**.

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* gecə dualarından biri belə idi:

***Allahummə Rabbə Cibrailə və Mikailə və İsrafilə fatiras-səməvati vəl-ard, Aliməl-ğaybi vəş-şəhadəti əntə təhkumu bəynə ibadikə fimə kənu fihi yəxtəlifun. İhdini liməxtulifə fihi minəl-həqqi bi iznikə innəkə təhdi mən təşau ilə sıratin mustəqim.***

*Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda məni Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən.*

Ölüm mələyi də əzəmətli  mələklərdən biridir. Uca Allah belə buyurub: **De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır, sonra da Rəbbinizə qaytarılacaqsınız!"  ( əs-Səcdə 11 )**

## Sual 43: İslamın nazil edilmiş kitablara baxışı necədir?

İslamda elçilərə ( Onlara Allahın salamı və salavatı olsun ) nazil olan bütün kitablara və bu kitablardan yəqinliklə bildiyimiz beş kitaba iman etmək vacibdir ki, bunlar:  İbrahimin səhifələri, Tövrat, Zəbur, İncil və Qurani-Kərimdir. Uca Allah buyurub: "**Axirət isə daha xeyirli və daha sürəklidir. Həqiqətən də, bu (anlatılanlar), əvvəlki səhifələrdə də vardır – İbrahimin və Musanın səhifələrində" (Ə`lə, 17-19).**

Uca Allah buyurub: "**Davuda da Zəburu verdik" (Nisa, 163).**

Uca Allah buyurub: "**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstərən və öyüd-nəsihət olan İncili verdik" (Maidə, 46).**

Bu iman, ümumi mənadadır, yəni bu kitabların dünya və dinin islahı (xeyri) üçün olan şeyləri ehtiva etdiyinə və onların Uca Allah qatından olduğuna inanmaqdır. Bununla yanaşı, qorunması

bəşəriyyətə tapşırıldığı üçün içərilərinə edilə biləcək artırmalar və ya əskiltmələrdən (təhriflərdən) çəkinmək lazımdır; necə ki, Tövrat və İncildə belə olmuşdur. Uca Allah buyurub: "**Şübhəsiz ki, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini (Allaha) təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər. Din xadimləri və elm adamları isə Allahın kitabından qorunub saxlanılanlarla hökm verərdilər. Onlar buna şahiddirlər" (Maidə, 44).**

Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* nazil olan Qurani-Kərimə inanmaq xüsusilə vacibdir. Uca Allah isə onu hər cür dəyişilməyə məruz qalmaqdan qoruyub. Allah buyurub: "**Həqiqətən, bu, əziz (eyibdən uzaq) bir Kitabdır. Batil ona nə önündən, nə də arxasından gələ bilməz. O, hikmət sahibi, tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir" (Fussilət, 41-42).**

Hər kim Qurana bir şey artırarsa və ya ondan bir şey əskildərsə, Uca Allah onu rüsvay edər, eybini açar və zəlalətini bəyan edər. Hər hansı bir mətbəə Quranı çap edərkən artırma və ya əskiltmə ilə səhvə yol verdikdə, bunu azyaşlı hafizlər belə dərhal aşkar edirlər. Əgər imam (namazda) səhv edərsə, hafizləri bir kənara qoyaq, sıravi insanlar belə onun səhvini düzəldirlər. Bununla da sən onun Allah qatından olduğunu və nazil edildiyi kimi sinələrdə (yaddaşlarda) və sətirlərdə qorunduğunu bilmiş olursan. Uca Allah buyurub: "**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq" (Hicr, 9).**

Allahın kitabında xəbər verdiyinə, peyğəmbərlərinin keçmiş və gələcək hadisələr haqqında söylədiklərinə, qiyamət gününə, mükafata, əzaba və cəzaya, Cənnət və Cəhənnəmə, ondan sonrakılara və onunla bağlı olan hər şeyə iman gətirmək vacibdur.

Uca Allah buyurub: "**Tövratı və İncili də, O nazil etdi – daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da, O nazil etdi". ( Ali İmran, 3-4).**

İslamda insan inanmalıdır ki, Uca Allahın sözü sözlərin ən doğrusudur. Onun elmi və xəbəri isə elmlərin ən əzəmətlisidir. Buna görə də Onun sözündən öndə heç kəsin sözü, Onun elmindən öndə isə heç kəsin elmi tutula bilməz. Uca Allah buyurub: "**De: "Əgər doğru deyirsinizsə, Allah tərəfindən, bu ikisindən (Qurandan və Tövratdan) daha doğru yol göstərən bir kitab gətirin, mən də ona tabe olum!" Əgər sənə cavab verməsələr, bil ki, onlar nəfslərinin istəklərinə uymuşlar. Allahdan bir doğru yol göstəricisi gəlməyincə**

**öz nəfsinin istəyinə uyandan daha çox azmış kim ola bilər?! Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz" (Qasas, 49-50).**

İslamda insan qəti bir elmlə inanmalı və bilməlidir ki, Allahın və ya Rəsulunun xəbərinə zidd olan hər hansı bir şeyin ortaya çıxması qeyri-mümkündür. Buna müxalif olan və ziddiyyət təşkil edən hər bir elm (iddia) mahiyyətcə batildir, hökmündə batildir, ya şübhədir, ya da fırıldaqdır. Allahın xəbər verdiyinə zidd olan doğru bir elmin mövcud olması qeyri-mümkündür. Uca Allah buyurub: "**(Məgər) Onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar" (Nisa, 82).**

Hər kim öz əqidəsini yalnız Allahın və Rəsulunun xəbəri üzərində qurarsa, onu möhkəm bir təməl, bəlkə də bütün əsillərin əsli üzərində qurmuş olar. Məhz buna görə də Allah Öz məxluqatının seçilmişlərini və ağıl sahiblərini, imanlarını bu əsl üzərində qurduqları üçün belə tərifləmişdir: "**Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik" (Ali İmran 193 ).**

## Sual 44: İslamın Elçilərə *(Onlara Allahın salamı olsun)* baxışı necədir?

İslamda insanın elçilərə, *(onların hamısına Allahın salavatı və salamı olsun),* iman gətirməsi vacibdir. Həmçinin onların bəşəri kamilliklərinə, fiziki və əxlaqi vəsflərinə inanmaq, onlara qarşı duyulmalı olan sevgi və tabeçiliyi bilmək vacibdir. Bununla yanaşı, risalətləri çatdırarkən xəta etmələrinin qeyri-mümkünlüyünü (bunun onlara yaraşmadığını), pis əxlaqdan və günahlardan məsum (uzaq) olduqlarını bilmək də vacibdir. Onlar barəsində xəstəlik, ölüm və bu kimi bəşəri halların baş verməsi isə mümkündür. Uca Allah buyurub: "**(Biz) müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir" (Nisa, 165).**

Uca Allah buyurub: "**Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik. Heç bir elçi Allahın izni olmadan bir ayət gətirə bilməz. Hər zamanın bir kitabı var" (Rad, 38).**

Nəbilərə və Rəsullara (onlara Allahın salavatı və salamı olsun) iman gətirmək özündə həmçinin bunu ehtiva edir: Uca Allah onları

Öz vəhyi və risaləti ilə fərqləndirmiş, Öz risalətini, əmrini və şəriətini çatdırmaqda onları bəndələri arasında vasitəçi etmişdir. Allah onlara elə kamillik vəsfləri bəxş etmişdir ki, bununla onlar ümumi xalqa (bütün insanlara) üstün gəlmişlər. Buraya böyük sadiqlik, tam əmanət, böyük güc, şücaət, əzəmətli elm, dəvət və təlim, doğru yolu göstərmək və hidayət, tam nəsihət, bəndələrə qarşı şəfqət və rəhmət, geniş həlimlik və səbir, həmçinin kamil yəqinlik daxildir. Onlar elm, əməl, əxlaq və ədəb baxımından məxluqatın ən ucasıdırlar; Allah onları seçmiş, təmizləmiş (özünə yaxın etmiş), fəzilətli etmiş və bəyənmişdir.

Uca Allah onların vasitəsilə tanınmış, onların vasitəsilə tək ilah olaraq qəbul edilmiş, doğru yol onların sayəsində bilinmiş, Cənnətə və hər bir nemətə çatmaq onların vasitəsilə mümkün olmuşdur. Bu səbəbdən bəndələrin üzərinə düşən vəzifə onlara iman gətirmək, onları sevmək, onlara dəstək olmaq, hörmət və ehtiram bəsləmək, onların izi ilə getmək və hidayətləri ilə doğru yolu tapmaqdır. Bu xüsusiyyətlər bütün peyğəmbərlər üçün sabitdir (keçərlidir). Bizim Peyğəmbərimiz *(sallallahu əleyhi və səlləm)* isə bu vəsflərin ən uca və ən kamil olanına sahibdir. Uca Allah buyurub: “**Biz səndən əvvəl də elçilər göndərdik. Onlardan bəziləri haqqında sənə danışdıq, bəziləri haqqında isə danışmadıq. Heç bir elçi Allahın izni olmadan bir ayə gətirə bilməz. Allahın əmri gəldikdə isə ədalətlə hökm verilər və yalan danışanlar orada ziyana uğrayarlar” (Ğafir, 78).**

## Sual 45: Müsəlmanlar görə Peyğəmbərlərin möcüzələri nələrdir?

İslamda qəbul edilir ki, Uca Allah öz elçilərinə və övliyalarına zəfər verib hətta gedişat onların əleyhinə olsa belə. Bu bir tərəfdən tövhidin dəlillərindən digər tərəfdən də Elçilərin (Onlara Allahın salamı olsun) doğru sözlü olmalarının sübutlarındandır. Allahı tək ilah olaraq tanıyan rəsullarına və onların ardıcıllarına lütf etməsi, onları şərrlərdən və cəzalardan xilas etməsi, Allaha şərik qoşan, Allaha ibadət etməkdən təkəbbürlənən və Allahın rəsullarını yalanlayan ümmətlərin başına isə ibrətamiz cəzalar gətirməsi böyük bir həqiqətdir. Peyğəmbərlər onları xəbərdar edib qorxutduqda, Allahın birliyinə və elçilərinin doğruluğuna dair onlara müxtəlif dəlillər və aydın ayələr gətirdikdə, onlar yalanladılar. Bu səbəbdən Allah onlara müxtəlif növ cəzalar verdi. Peyğəmbərlərin ən böyük

möcüzələrindən biri də (Allahın onlara verdiyi) zəfər və hakimiyyətdir. Bu, yəhudilər, xristianlar və hətta digər ümmətlər tərəfindən də bilinməkdədir. Uca Allah buyurub: “**Həqiqətən, Musa onlara aydın dəlillər gətirdi. Onlar isə yer üzündə təkəbbürlük etdilər və (sonda əzabımızdan) qaça bilmədilər. Biz hər birini öz günahına görə yaxaladıq. Onlardan kimisinin üstünə (qasırğa ilə birgə) daşlar göndərdik, kimisini qorxunc səs yaxaladı, kimisini yerə batırdıq, kimisini də (suya) qərq etdik. Allah onlara zülm etmirdi, lakin onlar özləri özlərinə zülm edirdilər” (Ənkəbut, 39-40).**

Hər peyğəmbərin özünə məxsus bir əlaməti və möcüzəsi vardır. Musanın əsası, Salehin dəvəsi və Muhəmmədin (sallallahu əleyhi və səlləm) Qurani-Kərimi kimi.

Bu zəfərin sonu isə Uca Allahın Öz peyğəmbəri Muhəmmədə (sallallahu əleyhi və səlləm) bəxş etdiyi güc və imkanlar oldu. Belə ki, cəmi bir əsr ərzində Ərəbistan yarımadasının əhlinə qarşı ona qələbə qazandırdı. Sonra isə iki əsr ərzində onun dinini iki böyük imperiyaya hakim etdi, nəticədə onun dini üstün oldu və ümmətlər onun ardıcıllarının ətrafında birləşdilər. Onlar (düşmənlər) müsəlmanları məhv edə bilmədilər və bilməyəcəklər də. Şübhəsiz ki, bunda Allahın dini olan tövhid və imanın haqq olmasına, Ondan başqa yalvardıqlarının isə batilliyinə, Onun rəsulunun sadiq və etibarlı (əmin) olduğuna, ona düşmənçilik edənlərin hamısının isə ən böyük azğınlıq, zəlalət və bədbəxtlik içində olduqlarına dair bir nişanə vardır. Uca Allah buyuruub: “**Onlar (kafirlər) ağızları (batil sözləri) ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə, kafirlərin xoşuna gəlməsə də, Öz nurunu tamamlamaq istər. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini hidayətlə və haqq dinlə göndərən Odur”. (Tövbə, 32-33).**

### Sual 46: Peyğəmbərlərin ən böyük möcüzələri hansılardır?

İslamda peyğəmbərlərin ən böyük möcüzəsi insanları hidayət etmələri, onları haqqa, ilahi nura və işığa təmənnasız, heç bir qarşılıq gözləmədən yönəltmələridir. Uca Allah buyurub: “**Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yoluna tabe ol. De: “Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu (Quran) aləmlər üçün yalnız bir xatırlatmadır” (Ənam, 90).**

Bununla yanaşı, Uca Allahın kainatdakı qanunlarına zidd olan, adətdən kənar bəzi böyük möcüzələr də onların əli ilə baş vermişdir. Bu isə onu göstərir ki, kainatın qanunlarını qoyan Allah, onları dəyişdirməyə də qadirdir. Bu möcüzələrin hər biri öz dövrünə uyğun olmuşdur və onlar çoxdur. Biz bu möcüzələrdən yalnız ən məşhurlarını qeyd etməklə kifayətlənirik:

**Birinci möcüzə:** Yer əhlinin suda boğulması, Uca Allahın Nuhu və onunla birlikdə olan möminləri xilas etməsi. Uca Allah buyurub: **"Kafirlər onu yalançı hesab etdilər. Biz onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi yalan hesab edənləri isə suya qərq etdik. Həqiqətən də, onlar kor bir qövm idilər" (Əraf, 64).**

**İkinci möcüzə:** Ad qövmünün dondurucu və uğultulu bir külək ilə həlak edilməsi, belə ki, Ərəbistan yarımadasındakı insanlar artıq onların yerini belə tanımırlar. Çünki onlar qum təbəqələri altında qalmışlar. Hudun və onunla birlikdə olan möminlərin xilas edilməsi. Uca Allah buyurub: "**Ad qövmü isə olduqca soyuq və şiddətli küləklə məhv edildi. Allah onu (o küləyi) yeddi gecə, səkkiz gün ardıcıl onların üstündə əsdirdi. (Əgər orada olsaydın,) sən onların çürümüş boş xurma gövdələri kimi yerə sərilmiş görərdin. (İndi) sən onlardan qalan bir kimsə görürsənmi?!" (Həqqa, 6-8).**

**Üçüncü möcüzə:** Səmud qövmünün dəhşətli bir qorxunc səslə həlak edilməsi, onların yurdlarının isə öyüd və ibrət üçün qalması, Saleh və onunla birlikdə olan möminlərin isə xilas edilməsi. Uca Allah buyurub: "**Həqiqətən, Biz onlara bircə tükürpədici səs göndərdik və onlar mal-qara ağılında istifadə edilən quru saman kimi oldular" (Qamər, 31).**

**Dördüncü möcüzə:** Şüeybin qövmünün və Əykə əhlinin həlak edilməsi, Şüeybin və onunla birlikdə olan möminlərin xilas edilməsi. Uca Allah buyurub: **Elə bu üzdən onları dəhşətli bir sarsıntı yaxaladı və onlar öz evlərindədiz üstə çöküb qaldılar (həlak oldular). Şueybi yalançı sayanlar, sanki orada (o diyarda) yaşamamışdılar. Şueybi yalançı sayanların özləri ziyana uğrayanlardan oldular. (Şueyb) onlardan üz çevirib dedi: "Ey qövmüm! Mən Rəbbimin mənə vəhy etdiyi hökmlərini sizə çatdırdım və sizə öyüd-nəsihət verdim. Kafir bir qövmdən ötrü mən necə heyifsilənə bilərəm?"(Əraf, 91-93).**

**Beşinci möcüzə:** Zalım Nəmrudun həlak edilməsi və İbrahimin oddan xilas olması. Uca Allah buyurub: **"Beləcə ona (İbrahimə) hiylə**

**qurmaq istədilər, Biz də onları rüsvay etdik. O dedi: "Mən Rəbbimə doğru gedirəm. O məni doğru yola yönəldəcəkdir" (Saffət, 97-98).**

Uca Allah buyurub: "**Onlar dedilər: "Əgər (bir şey) edəcəksinizsə, onu yandırın, ilahlarınıza kömək edin". Biz: "Ey od! İbrahim üçün sərin və salamat ol!"– dedik. Onlar İbrahimə bir hiylə qurmaq istədilər, lakin Biz onları daha şiddətli cəzaya məruz qoyduq" (Ənbiya, 68-70).**

**Altıncı möcüzə:** Lutun xilas olması, küfr və azğınlıq içərisində hədlərini aşan qövmünün isə həlak edilməsi. Uca Allah buyurub: "**Onun qövmünün cavabı: "Onları (Lutu və ona iman gətirənləri) yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır"– deməkdən başqa bir şey olmamışdı. Biz onu (Lutu) və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan (əzaba düçar olanlardan) oldu. Biz onun qövmünün üstünə (daşlardan) yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu" (Əraf, 82-84).**

**Yeddinci möcüzə:** Allahın peyğəmbəri Yusifin möcüzələri. Bura onun yuxuları yozması da daxildir. Uca Allah buyurub: **(Əyanlar) dedilər: "(Bu,) qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik". (Zindanda olmuş) iki nəfərin qurtulanı, bir müddət sonra (Yusufu) xatırlayıb dedi: "Mən sizə onun yozumunu bildirərəm. Bircə məni (Yusufun yanına) göndərin!". (O, zindana gəlib dedi "Ey Yusuf! Ey düz danışan insan! Yeddi arıq inəyin yeddi kök inəyi yediyi, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də quru (sünbüllər) barədə bizə xəbər ver. Ola bilsin ki, mən o adamların yanına (doğru xəbərlə) qayıdım və bəlkə onlar da (bu yuxunun yozumunu) bilsinlər". (Yusuf) dedi: "Yeddi il gücünüz yetdiyi qədər qədər əkin. Biçdiyinizi isə, yeyəcəyiniz az miqdar müstəsna olmaqla, sünbüldə saxlayın. Sonra bunun ardınca yeddi ağır il (quraqlıq illəri) gələcək. (O zaman toxumluq) saxlayacağınız az miqdar müstəsna olmaqla, əvvəlcədən həmin illər üçün tədarük gördüyünüzü yeyərsiniz. Bunun ardınca da elə bir il gələcək ki, o zaman insanlara bol yağış nazil olacaq və onlar (zeytun, üzüm və s. Meyvə şirəsi) sıxacaqlar" (Y,usuf 44-49).**

**Səkkizinci möcüzə**: Musanın möcüzələri — dənizin onun üçün yarılması, onun və onunla olan İsrail oğullarının xilas olması, Firon və qövmünün isə həlak olması. Uca Allah buyurub: "**(Firon) dedi: "Əgər möcüzə gətirmisənsə və doğru danışanlardansansa, (elə isə) onu göstər (görək)!" Musa əsasını (yerə) atdı və o, dərhal aşkar**

**görünən (böyük) bir ilan oldu. Əlini qoynundan (qoltuğunun altından, yaxud köynəyinin yaxasından) çıxartdı və o, baxanlar üçün ağappaq (parlaq bir əl) oldu" (Əraf, 106-108 ).**

Uca Allah başqa ayədə buyurub: "**Biz də müxtəlif (növ) dəlillər olaraq onların üstünə tufan, çəyirtkələr, bitlər, qurbağalar və (çeşmələrinə) qan göndərdik. Onlar isə təkəbbürlük göstərdilər və günahkar bir tayfa oldular. Əzab onları bürüdükdə dedilər: "Ey Musa! Bizim üçün Rəbbinə sənə verdiyi əhd ilə dua et! Əgər əzabı bizdən sovuşdursan, biz hökmən sənə iman gətirəcək və İsrail oğullarını mütləq səninlə birgə göndərəcəyik". Biz, yetişəcəkləri müəyyən vaxta qədər (dənizdə qərq ediləcəkləri günə dəqər) əzabı onlardan sovuşdurduqda isə, onlar dərhal (əhdi) pozdular. Ayələrimizi inkaredib onlardan qafil olduqlarına görə Biz (Firon əhlindən) intiqam alaraq onları dənizdə qərq etdik. (Musa ilə olan) zəif qövmü isə yer üzünün xeyir-bərəkət verdiyimiz şərq və qərb tərəflərinə (Şam diyarına) varislər təyin etdik. Səbir etdiklərinə görə Rəbbinin İsrail oğulları barəsindəki gözəl Sözü yerinə yetdi. Biz Firon və onun xalqının qurduqlarını və tikib ucaltdıqlarını isə viran qoyduq" (Əraf, 133-137).**

**Doqquzuncu möcüzə:** Davuda güc-qüvvət verilməsi, onun Calut üzərində qələbə çalması, dəmirin onun üçün yumşaldılması, dağların və quşların onunla bərabər Allahı təsbih etməsi. Uca Allah buyurub: "**Davud da Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət bəxş etdi, ona istədiyini öyrətdi" (Bəqərə, 251).**

Uca Allah buyurdu: "**Biz dağları və quşları Davudla birlikdə (Allahı) təsbih etmələri üçün ona ram etdik. Bunları Biz etdik. Biz ona (Davuda) sizi (döyüşdə) qorumaq üçün zirehli geyim düzəltməyi öyrətdik. Heç siz şükür edirsinizmi?" (Ənbiya, 79-80).**

**Onuncu möcüzə:** Küləyin Allahın peyğəmbəri Süleymana (Ona Allahın salamı olsun) ram edilməsi. Uca Allah buyurub: "**Süleymana da güclü əsən küləyi ram etdik. Küləklər onun əmri ilə bərəkət verdiyimiz yerə (Şama) tərəf əsərdi. Biz hər şeyi bilirik" (Ənbiya, 81).**

Uca Allah buyurub: "**Səhərbir aylıq məsafəni qət edən, günortadan sonra yenə bir aylıq məsafəni qət edən küləyi də Süleymana (ram etdik). Biz onun üçün mis qaynağını sel kimi axıtdıq. Rəbbinin izni ilə cinlərin bir qismi onun qarşısında işləyirdi. Onlardan hər kim, (Süleymana itaət etməyib) əmrimizdən çıxırdısa,**

**ona Cəhənnəm odunun əzabından daddırırdıq. (Cinlər) onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud ailəsi! (Bu nemətlərə) şükür edin! Qullarımdan şükür edən azdır. (Süleymanın) ölümünə hökm verdiyimiz zaman onun öldüyünü (cinlərə) ancaq onun əsasını yeyən bir ağac qurdu göstərdi. (Süleyman) yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzaba məruz qalmazdılar" (Səba, 12-14).**

**On birinci möcüzə:** İsanın möcüzələri; onların ən böyüklərindən biri — Uca Allahın izni ilə ölüləri diriltməsi, heç bir tibbi müdaxilə olmadan, sadəcə Allaha dua etməklə müxtəlif xəstəliklərə (anadangəlmə korlara və cüzamlılara) şəfa verməsidir. Uca Allah buyurub: "**(Allah onu) İsrail oğullarına bir elçi edəcəkdir. O deyəcəkdir: "Mən sizə Rəbbinizdən bir möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, oda Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləridirildərəm. Evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər mömінsinizsə, (bilin ki,) bunda sizin üçün bir dəlil vardır" (Ali-İmran, 49).**

**On ikinci möcüzə:** Peyğəmbərimiz Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* möcüzələri. Onların ən böyüyü Qurani-Kərimdir. Oxuyub-yazma bilməyən (ümmi) bir şəxs necə belə bir Kitab gətirə bilərdi ki, savadlılar, hətta dil və elmdə mütəxəssis olanlar belə onun bir surəsinin bənzərini belə gətirməyə qadir deyillər?! Uca Allah buyurub: "**Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə, onda ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, Allahdan savayı (bütün) şahidlərinizi (köməyə) çağırın! Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan çəkinin!" (Bəqərə, 23-24).**

Bu meydan oxuma Qiyamət gününə qədər qüvvədədir. Çünki bu din Qiyamət gününə qədər baqidir. Uca Allah buyurub: **"Bu Quran Allahdandır, başqası tərəfindən uydurulmamışdır. Lakin o, özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan, kitabı (halalı, haramı və dini əhkamları) müfəssəl izah edəndir. Yoxsa: "Muhamməd onu özündən uydurdu?!"– deyirlər. De: "Əgər**

**doğru deyirsinizsə, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa (köməyə) çağırın!" (Yunus, 37-28).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə demişdir: Peyğəmbərlərdən elə bir peyğəmbər yoxdur ki, ona bəşərin iman gətirəcəyi qədər bir möcüzə verilmiş olmasın. Mənə verilən isə Allahın mənə vəhy etdiyi Qurandır. Buna görə də Qiyamət günü ardıcılları ən çox olan peyğəmbər mən olacağımı ümid edirəm».[72] Həmçinin Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* demişdir: "***Bu Quran bir ipdir. Onun bir ucu Allahın, bir ucu sizin əlinizdədir. Elə isə ondan möhkəm yapışın. Ondan sonra heç vaxt azmaz və həlak olmazsınız".***[73]

## Sual 47: Müsəlmanın Allah elçisi Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* baxışı necədir?

Müsəlmanın Peyğəmbər Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* baxışı qısaca iki məsələdə cəmlənir:

**Birinci məsələ: Bəşəri tərəfi;** O, bir bəşərdir (insandır). Uca Allahın haqlarından və ya Uca Allahın sifətlərindən heç bir şey ona aid deyildir. O, hər bir köməkçidən və şərikdən uzaq (ehtiyacsız) olan Allahın köməkçisi də deyildir. Buna görə də, Uca Allahın haqlarından hər hansı bir şeyi ona vermək icazəli deyil və Allahla bərabər ona ibadət edilə bilməz. Çünki o *(sallallahu aleyhi və səlləm)* yaradılmışdır (məxluqdur). Eynilə, hər bir peyğəmbər və elçinin də bəşəri tərəfi vardır və Allahla bərabər onlara ibadət edilməsi icazəli deyildir. Uca Allah belə buyurub: "**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir" (Tovbə, 128).**

Uca Allah buyurub: "**Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik. Heç bir elçi Allahın izni olmadan bir ayətgətirə bilməz. Hər zamanın bir kitabı var" (Rad, 38).**

Bu baxımdan, digər bəşərlər kimi onun da xəstələndiyinə, bədəninə xəsarət dəyə bildiyinə, kədərləndiyinə, həmçinin öldüyünə inanmaq vacibdir. Necə ki, Uca Allah buyurub: "**Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib-getmişlər. Məgər o ölərsə**

[72] Buxari 4696. Əbu Hureyranın *(Allah ondan razı olsun)* hədisidir.
[73] İbn Hibban öz səhihində rəvayət etmişdir. 413 hədis. Əbu Şureyh əl-Xazəinin *(Allah ondan razı olsun)* hədisidir.

**və ya öldürülərsə, siz (dininizdən) gerimi dönəcəksiniz?!" (Ali İmran 144).**

Digər ayədə Uca Allah belə buyurub: "**(Ey Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!" (Zumər, 30).**

**İkinci məsələ:** Risalət (elçilik) tərəfi. O, özünə vəhy olunan bir peyğəmbər və elçidir. Bu baxımdan, bu mənaya görə onu sevmək, əməllərində ona tabe olmaq, sözlərində isə ona qulaq asıb itaət etmək vacibdir. Uca Allah bu iki məsələni Özünün bu ayəsində bir araya gətirmişdir: "**De: "Mən də sizin kimi bir insanam. Mənə, sizin məbudunuzun Tək bir ilah olduğu vəhy olunur. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, qoy yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətlərində heç kəsi Ona şərik qoşmasın!" (Kəhf, 110).**

Beləliklə, müsəlman Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* bəşəriyyətin ən kamili və yaradılmışların ən fəzilətlisi kimi baxır. İnsanların ən xeyirlilərində olan bütün xeyir xüsusiyyətlər onda cəmlənmişdir. Hətta bəşəri kamillik sifətləri Peyğəmbərimiz Muhəmmədə *(sallallahu əleyhi və səlləm)* ən uca və ən kamil şəkildə mövcuddur. Uca Allah digər peyğəmbərlərə və seçilmiş bəndələrə müxtəlif şəkildə verdiyi kamillikləri Peyğəmbərdə *(sallallahu aleyhi və səlləm)* cəmləmişdir; buna görə də Uca Allah belə buyurub: "**Allah möminlərə, onların öz içərisindən, özlərinə Allahın ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir Elçi göndərməklə lütf göstərdi. Halbuki, bundan öncə onlar açıq-aydın azğınlıq içərisində idilər" (Ali İmran, 164).**

Uca Allah buyurub: **Yoldaşınız (Muhamməd) nə azmış, nə də sapmışdır. O, havadan (istədiyini) danışmaz. Bu (Quran), ona nazil edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi – gözəl görünüşlü (Cəbrail). O, yüksəlib (Peyğəmbərə öz surətində göründü). O (Cəbrail), ən uca üfüqdə idi. Sonra (Muhammədə) yaxınlaşıb aşağı endi. (Cəbrail ilə Muhamməd arasındakı məsafə) iki yay qədər yaxud ondan da yaxın (məsafə) oldu. (Sonra Allah) quluna (Muhammədə) nazil edəcəyini vəhy etdi. Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü (Cəbraili iki gözü ilə görməsini) yalan saymadı.( ən-Nəcm 2-11 )**

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ümməti üzərindəki haqlarından biri də odur ki, onlar onun sevgisini öz canlarından, övladlarından, valideynlərindən və bütün insanlardan üstün

tutmalıdırlar. Həmçinin onun haqqını, şəriətini, hidayətini və sünnəsini yerinə yetirməlidirlər. Uca Allah belə buyurub: "**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir". De: "Allaha və Onun Rəsula itaət edin!" Əgər üz döndərsələr, (bilsinlər ki,) Allah, həqiqətən də, kafirləri sevməz" (Ali imran, 31).**

Hər bir müsəlman, Onun peyğəmbərlərin sonuncusu (Xatəmül-ənbiya) olduğuna qəti şəkildə iman gətirməlidir. Uca Allah belə buyurub: "**Muhamməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir" (Əhzab, 40).**

Və o, bütün yaradılmışların ən fəzilətlisidir. O buyurmuşdur: ***Mən Qiyamət günü Adəm övladının Seyyidi, qəbri ilk acılan, ilk şəfaət edən və şəfaətiilk qəbul olunanıyam.***[74]**.**

O, yaradılmışların ən doğru danışanı, ən səmimi nəsihət verəni və hər bir gözəl xüsusiyyətə və tərifəlayiq xislətlərə sahib idi.

Uca Allah belə buyurub: "**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər. Elə isə onları əfv et, onlar üçün (Allahdan) bağışlanma dilə və (görəcəyin) işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevər. Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər?! Qoy möminlər Allaha təvəkkül etsinlər!" (Ali imran, 159)**

Uca Allah onun vasitəsilə dini kamilləşdirdi, möminlərə olan nemətini tamamladı və onun köksünü açdı, yükünü ondan götürdü və onun adını ucaltdı: Uca Allah belə buyurub: "**Biz sənin ad-sanını ucaltmadıqmı?" (Şərh, 4).**

Allah onu, özündən əvvəlki elçilərdən heç kimə verilməyən xüsusiyyətlərlə fərqləndirdi. Onu aydın ayələrlə, aşkar möcüzələrlə, qəti dəlillərlə və parlaq nurlarla dəstəklədi. Onun *(sallallahu əleyhivə səlləm)* sifətləri və əxlaqı, onun doğruluğuna və həqiqətən Allahın elçisi olduğuna dair ən böyük sübutlardandır. Onun gətirdiyi hidayət, doğru yol, rəhmət, rəbbani elmlər, ilahi mərifətlər, qəlbləri təmizləyən, əxlaqı böyüdən və hər bir xeyrin bəhrəsini verən zahiri

[74] Muslim hədis 2278 . Əbu Hureyranın *(Allah ondan razı olsun)* hədisidir.

və batini ibadətlər onun elçiliyinə və bunun Allah qatından olduğuna dair ən əzəmətli bürhanlardandır.

Onun gətirdiyi əzəmətli Quran, onun ehtiva etdiyi qeyb və şəhadət elmləri, zahiri və batini elmlər, dünya, din və axirət elmləri, həmçinin hər bir xeyrə yönəltməsi, hər bir şərdən çəkindirməsi, ən doğru yollara, ən doğru bələdçilərə, ən yaxın vasitələrə və ən tutarlı dəlillərə irşad etməsi – bütün bunlar onun Allah qatından olmasına, Müdrik və Tərifəlayiq (Allah) tərəfindən nazil edildiyinə, onu gətirən şəxsin isə nəfsinin istəyi ilə danışmayan, yalnız ona vəhy olunan vəhylə danışan Əmin Rəsul, Sadiq və Məsduq (doğru danışan və doğruluğu təsdiqlənən) olduğuna bir dəlil və bürhandır.

## Sual 48: İslamda Muhəmməd Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* möcüzələri hansılardır?

İslamda peyğəmbərlərin *(onlara salam olsun)* böyük nişanələrini, əlamətlərini və möcüzələrini iqrar etmək (qəbul etmək) vacibdir. Bu, tövhidin və elçilərin *(sallallahu əleyhi və səlləm)* doğruluğunun bürhanlarındandır (böyük dəlillərindəndir) və Allaha, eləcə də Onun elçilərinə iman gətirməyin tərkib hissəsidir. Muhəmməd Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* möcüzələri çoxsaylı və müxtəlifdir; belə ki, bu möcüzələrin sayı yüzü keçmiş və nəsildən-nəslə nəql olunaraq  mütəvatür həddinə çatmışdır. Muhəmməd Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* peyğəmbərliyinin dəlillərindən bəziləri bunlardır:

**1.Uca Allahın ona zəfər bəxş etməsi**; Sayıca və təchizatca zəif olmasına rəğmən, qısa bir müddətdə bu zəfər reallaşmışdır. Halbuki, güclü dövlətlər qələbə qazanmaq üçün uzun illər boyu böyük resurslar xərcləyirlər. Məsələn, kommunizm dünyanı idarə etmək üçün nə qədər xərclədi? Qərb dövlətləri İslam ölkələrini işğal etmək üçün nə qədər vaxt sərf etdilər? Uca Allah belə buyurub: “**Şübhəsiz ki, Biz elçilərimizəvə iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gündə (Qiyamət günündə)yardım edəcəyik. O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcək. Onları üçün həmlənət, həm də pis yurd(Cəhənnəm) vardır” (Ğafir, 51-52).**

**2.Onun əxlaqı;** O yetim böyüdü və Uca Rəbbi onu böyüdüb ən gözəl şəkildə tərbiyə etdi. Onun əxlaqı peyğəmbərliyinin ən böyük

dəlillərindəndir. Uca Allah buyurub: “**O kəslər ki, əllərindəki Tövrat və İncildə (vəsfləri) barəsində yazılmış gördükləri ummi (yazıb-oxumaq bilməyən) peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirərvəonlarıbuxovlardan (məşəqqətlərdən) xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır”. De: “Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınıza göndərilmiş Allahın elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun ummi (yazıb-oxumaq bilməyən) Elçisinə, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz” (Əraf, 157-158 ).**

**3. Qeybdən xəbər verməsi;** Onun peyğəmbərliyinin dəlillərindən biri də qeybə dair verdiyi xəbərlərdir. Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* keçmiş, hazırkı və gələcək qeybi məsələlər barədə verdiyi və Quranın bəyan etdiyi şəkildə zamanla bir-bir gerçəkləşən çoxlu xəbərlərini görə bilərsiniz.

Bu xəbərlərdən biri də keçmiş peyğəmbərlərin özləri, ümmətləri, ardıcılları və düşmənləri ilə baş vermiş hadisələrin təfərrüatlarıdır. Bu elə bir təfərrüatdır ki, ona Muhəmməd Peyğəmbərə *(sallallahu əleyhi və səlləm)* gələn vəhydən başqa heç bir yolla nail olmaq mümkün deyil. Kitab əhlinin (yəhudi və xristianların) xüsusi alimlərinin əlində olan bu növ təfərrüatlar sadəcə qırıq-qırıq qeydlərdən ibarətdir və Qurandakı mükəmməlliyə yaxın belə gələ bilməz. Buna görə də, bu qissələrin nəql olunması əsnasında Uca Allah Öz elçisi Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* gətirdiyi bu xəbərlərin onun risalətinə (elçiliyinə) bir dəlil olduğunu bildirərək, Musa peyğəmbərin qissəsini geniş şəkildə zikr etdikdən sonra belə buyurur:

**“Biz Musaya əmri yerinə yetirməyi tapşırdıqda sən (dağın) qərb tərəfində deyildin. Sən (buna) şahid olanlardan da deyildin. Lakin Biz (Musadan sonra) neçə-neçə nəsil yaratdıq və onlar uzun ömür sürdülər. Sən Mədyən sakinləri arasında olub ayələrimizi onlara oxumurdun. Lakin elçiləri Biz göndəririk. Biz (Musaya) nida etdiyimiz zaman da sən Tur dağının yanında deyildin. Lakin səndən əvvəl özlərinə xəbərdar edən (peyğəmbər) gəlməmiş bir qövmü**

**xəbərdar edəsən deyə, Rəbbindən birmərhəmət olaraq (səni peyğəmbər göndərdik ki), bəlkə, düşünüb anlayalar" (Qasas, 44-46).**

Deməli, sənin bu məsələləri kimdənsə öyrənməklə bilməyinə heç bir yol yoxdur və buna yalnız Allahın ona vəhy etdiyi vəhy vasitəsilə nail olunmuşdur.

Bunun digər bir nümunəsi də onun mələklər və uca məclis (əl-mələul-ə`lə) haqqında verdiyi xəbər, həmçinin Adəmin hekayəsi və həmin müzakirələrdən sonra mələklərin ona səcdə etməsi də belədir. "Uca Allah buyurub: "**(Ey Peyğəmbər!) De: "O (Quran), böyük xəbərdir. Siz isə ondan üz döndərirsiniz. Ali toplum (Mələklər Adəmin yaradılması barəsində) mübahisə edərkən mənim onlardan heç bir xəbərim yox idi. Mənə, ancaq açıq-aydın xəbərdar edən olduğum üçün vəhy olunur". Bir zaman Rəbbin mələklərə belə dedi: "Mən palçıqdan bir bəşər yaradacağam. Mən ona surət verib, ruhumdan üfürdüyüm zaman ona (hörmət əlaməti olaraq) səcdə edin!" Mələklərin hamısı birlikdə səcdə etdi. Yalnız İblisdən başqa! O təkəbbür göstərdi və kafirlərdən oldu. (Allah) buyurdu: "Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nədir? Təkəbbür göstərdin, yoxsa özünü yüksək tutanlardan oldun?" (İblis) dedi: "Mən ondan daha xeyirliyəm. Məni oddan, onu isə palçıqdan yaratdın!" (Allah) buyurdu: "Oradan (Cənnətdən) çıx! Sən artıq (rəhmətimdən) qovuldun! Din (Qiyamət) gününə qədər lənətim sənin üzərində olacaqdır!"(Sad, 67-78).**

**4. Allahın sifətlərini ən uca şəkildə bəyan etməsi:**

Bütün bunlardan daha əzəmətli və daha uca olanı isə Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Uca Rəbbimiz haqqında verdiyi xəbərlər və Onun uca sifətlərini təfərrüatlı şəkildə vəsf etməsidir. Belə ki, bu Quran özündən əvvəlki heç bir kitabın gətirmədiyi bəyanı gətirmişdir. Allah haqqında elə əzəmətli xəbərlər vermişdir ki, əvvəlkilərin və sonrakıların onun bənzərini gətirməyə, yaxud onu və ya onun bir hissəsini təkzib etməyə (şübhə altına almağa) gücü çatmaz. Peyğəmbərlərə (Allahın salavatı və salamı onların hamısının üzərinə olsun) nazil edilmiş bütün səmavi kitablarda Allah barəsində olan bütün xəbərlər Quranda mövcuddur. Üstəlik Quranda elə böyük əlavələr və izahlar vardır ki, bu xəbərləri gətirən şəxsin peyğəmbərlərin imamı və məxluqatın seyyidi (ağası) olduğuna, həmçinin bu Quranın özündən əvvəlki kitablar üzərində bir

müheymin ( özündən əvvəlki kitabı təsdiqləyən və onu qoruyan ) olduğuna ən böyük dəlildir.

Ağıllı insanın imanı o zaman daha da artır ki, o, bütün bu ayələri, bürhanları və qeyb xəbərlərini gətirən şəxsin ümmi (yazıb-oxumaq bilməyən) bir insan olduğunu bilir. O, ümmilər arasında böyümüş, heç bir elm əhli ilə oturub-durmamış, heç bir kitab oxumamışdır. Nə dünyəvi mükafatlar qazanmaq üçün şeir məclislərində, nə xitabət (bəlağətli çıxışlar), nə də fəxr (öyünmək) məclislərində iştirak etmişdir. Halbuki o dövrdə bu cür məclislər məşhur idi, onlarda mükafatlar verilir və şöhrət qazanılırdı. O, peyğəmbərlik gələnə qədər bu halda qalmış və birdən-birə əksər hissəsi bu cür əzəmətli, bir-biri ilə ahəngdar və kamil xəbərlərdən ibarət olan bu Kitabı gətirmişdir.

Sırf Muhəmməd Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* içində olduğu bu vəziyyətə və onun belə bir Kitabla gəlməsinə baxmaq belə, insana qəti şəkildə sübut edir ki, bu Kitab haqdır, ehtiva etdiyi məlumatlar haqdır və onun buna nail olmasının vəhydən və risalətdən (peyğəmbərlikdən) başqa heç bir yolu yoxdur. Bunun bir bənzəri yoxdur və bu, onun elçiliyinin doğruluğuna, gətirdiyi xalis tövhidin doğruluğuna ən böyük bürhanlardandır. Eyni şəkildə həm sünnədə, həm də Peyğəmbərin ən böyük möcüzəsi olan Qurani-Kərimdə bu cür əzəmətli xəbərlər olduqca çoxdur və biz bunu növbəti sualda bəyan edəcəyik.

## Sual 49: Muhamməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* islamdakı ən böyük möcüzəsi hansıdır ?

Muhəmməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* İslamdakı ən böyük möcüzəsi, Uca Allahın aləmlərə hidayət, müttəqilərə bəsirət və bu yolda gedənlər üçün doğru yolu göstərən olaraq nazil etdiyi İslamın əbədi kitabı olan Qurani-Kərimdir. Aydın ərəb dilindədir. Uca Allah buyurub: “**Həqiqətən, bu Quran (insanları) ən doğru yola yönəldir vəyaxşı işlər görən möminlərə, özləri üçün böyük mükafat olacağı ilə müjdə verir. Axirətə iman gətirməyənlər üçün isə ağrılı-acılı bir əzab hazırlamışıq” (İsra, 9-10).**

İslamda insan digər kitablar arasından xüsusilə Əzəmətli Qurana iman gətirməlidir ki, həqiqətən O, Uca Allahın kəlamıdır, nazil edilmişdir, məxluq (yaradılmış) deyildir, Ondan başlamışdır və Ona da

qayıdacaqdır. Allah onunla həqiqətən danışmış, Cəbrayıl onu Muhəmmədə *(sallallahu əleyhi və səlləm)* vəhy vasitəsilə çatdırmış, Muhəmməd *(sallallahu əleyhi və səlləm)* isə onu öz ümmətinə oxuyaraq və öyrədərək təbliğ etmişdir. Beləcə, bütün ümmət onu əsrdən-əsrə bütövlüklə nəql etmişdir. Məhz buna görə də bu Quran, nəql olunan heç bir kəlamın yaxınlaşa bilməyəcəyi dərəcədə mütəvatir bir şəkildə gəlib çatmışdır. Bu, Allahın qorumasındandır, çünki Uca Allah onu nazil etmiş və qorunmasını da Öz üzərinə götürmüşdür.Uca Allah buyurub: “**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq” (Hicr, 9).**

Uca Allah buyurdu: “**Həqiqətən, bu, əziz (eyibdən uzaq) bir Kitabdır. Batil ona nə önündən, nə də arxasından gələ bilməz. O, hikmət sahibi, tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir” (Fussilət, 41-42 ).**

Onun möcüzə olmasına dəlalət edən amillərdən biri də odur ki, bəşəriyyət – hətta qurumlar və dövlətlər bir araya gəlsələr belə – onun surələrindən birinin bənzəri olan bir bəlağəti, fəsahəti,[75] quruluşunu, səs və məna təsirini, həmçinin qanunvericilik təsirini gətirməyə qadir deyildir. Onlar onun qanunvericiliyinin, üslubunun və bəlağətinin bənzərini gətirə bilməzlər. Bu ayələrə insaf gözü ilə qulaq as. Yazıb oxumağı bilməyənlərin arasında yaşamış ümmi ( yazıb oxumağı bilməyən ) bir şəxs necə bu cür bir kəlamı özündən gətirə bilərmi?! Sonra bunu ondan əvvəlki və sonrakı qövmünün gözəl danışan şəxslərinin kəlamı ilə müqayisə et. Heç bir bənzərlik tapmayacaqsan və ya boyun əyməkdən, yaxud da inadkarlıq etməkdən başqa çarən qalmayacaq. Uca Allah buyurub: “**Bu Quran Allahdandır, başqası tərəfindən uydurulmamışdır. Lakin o, özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan, kitabı (halalı, haramı və dini əhkamları) müfəssəl izah edəndir. Yoxsa: “Muhamməd onu özündən uydurdu?!”– deyirlər. De: “Əgər doğru deyirsinizsə, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa (köməyə) çağırın!” Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş (Quranı) yalan hesab etdilər. Onlardan əvvəlkilər də yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu. İçərilərində (bu Qurana)**

[75] Sözlərin düzgün və açıq ifadə olunması

**inananlar da var, ona inanmayanlar da. Rəbbin fitnə-fəsad törədənləri daha yaxşı tanıyır. Əgər səni yalançı hesab etsələr, de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız, mən də sizin etdiyiniz əməllərdən uzağam". Aralarında səni dinləyənlər də vardır. Məgər karlara – əgər anlamırlarsa – sənmi eşitdirəcəksən?" (Yunis, 37-42).**

Sonra əgər düşünsək ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Qureyş arasında təxminən qırx il ömür sürmüşdür, onların arasında doğruçuluğu və əmanəti qoruması ilə tanınmışdır və heç kimin yanında təhsil almamışdır. Elə isə içində əvvəlkilərin xəbəri və sonrakıların hadisələri olan bu Quranı öz-özündən necə gətirə bilər?! Uca Allah buyurub: "**Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman (qiyamət günü) Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bizə bundan başqa bir Quran gətir və ya onu dəyişdir!"– dedilər. De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün (qiyamət gününün) əzabından qorxuram". De: "Əgər Allah istəsəydi, mən onu (Quranı) sizə oxumazdım, O da onu sizə bildirməzdi. Mən axı bundan (Quran nazil ediləndən) öncə sizin aranızda (qırx il) yaşadım. Məgər dərk etmirsiniz?" Allaha qarşı iftira yaxandan və ya Onun ayələrini yalan hesab edəndən daha zalım kim ola bilər? Doğrudan da, günahkarlar nicat tapmazlar" (Yunus, 15-17)**

Quran bəşər nizamında görünməmiş bir üslubla gəlmişdir. O, qəlbləri, qulaqları və ağılları əsir edən bir xitabı ehtiva edir. O, bir insanın təsəvvür edə biləcəyi ən uca bəlağətlə nazil olmuşdur . O, bəlağətin ən yüksək növündədir. Hökmlərində hikmət, əmr və qadağalarında son dərəcə mükəmməllik, xəbərlərində isə son dərəcə dəqiqlik vardır. Məhz buna görə də Uca Allah onunla ərəblərə və əcəmlərə (ərəb olmayanlara), avamlara və xüsusi şəxslərə meydan oxumuşdur. Dilin və sözün zirvəsində duran bəlağət sahibləri, hikmət əhli və şairlər onun fəsahəti qarşısında aciz qalmışlar. Heç kim ona yaxınlaşmağa belə qadir olmamışdır, hələ qaldı ki, bənzərini gətirsin. Hətta onunla tərcümə edilmiş Tövrat arasında sadə bir müqayisə, tərcümələrdə və ifadələrdə Tövratın məruz qaldığı dəyişikliklərə görə aralarındakı nəhəng fərqi sənə göstərir. Hələ İslamdan əvvəl və İslamın başladığı dövrdə ərəblərin fəsih və bəliğ şəxslərinin kəlamı ilə onu müqayisə etsək, heç bir müqayisə tapa bilmərik. Bəşərin Xaliqinin kəlamı ilə bəşərin kəlamı arasında heç müqayisə ola

bilərmi?! Uca Allah buyurub: “**Bu, şəhərlər anası (Məkkəni) və onun ətrafındakıları qorxutmaq üçün nazil etdiyimiz, özündən əvvəlkiləri təsdiq edən mübarək bir Kitabdır. Axirətə inananlar ona da inanarlar. Onlar namazlarını doğru-düzgün qılarlar. Allaha qarşı yalan uydurandan və ya özünə heç nə vəhy olunmadığı halda: “Mənə də vəhy olunmuşdur”– söyləyəndən və: “Mən də Allahın nazil etdiyinin bənzərini endirəcəyəm”– deyəndən daha zalım kim ola bilər? Zalımları ölüm ayağında olduqları zaman, mələklərin də əllərini uzadıb onlara: “Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!”– (dediklərini) bircə görəydin” (Ənam, 92-93).**

## Sual 50: Müsəlmanın Muhammədin *(sallallahu aleyhi və səlləm)* səhabələrinə baxışı necədir?

Müsəlman, ümumi olaraq peyğəmbərlərin səhabələrinə, xüsusi olaraq isə Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* səhabələrinə peyğəmbərlərdən və elçilərdən sonra insanların ən fəzilətlisi (ən xeyirlisi) kimi baxır. Bu baxış iki əsas cəhətə dayanır:

**Birinci cəhət:** Onlar Muhəmməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* tələbələridirlər. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ən böyük vəzifələrindən biri də onları (şirkdən və küfürdən) pak etmək, tərbiyə etmək və onlara (dini) öyrətmək olmuşdur. Uca Allah buyurub: “**Allah möminlərə, onların öz içərisindən, özlərinə Allahın ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir Elçi göndərməklə lütf göstərdi. Halbuki, bundan öncə onlar açıq-aydın azğınlıq içərisində idilər” (Ali imran, 146).**

**İkinci cəhət:** Onlar Uca Allahın dininə yardım etmişlər, onlar Allahın ən sadiq qullarıdır və Peyğəmbərin *(sallallahu aleyhi vəsəlləm)* yanında ən çətin anlarda dayanmışlar. Məhz buna görə də, qiyamətə qədər oxunan ayələrdə Allahın razılılığını (əfvini və məğfirətini) qazanmışlar. Uca Allah buyurub. “**Allah, (müsəlmanlardan) bəzilərinin qəlbi (cihaddan) yayınmaq üzrə ikən Peyğəmbəri, çətin anda onun ardınca gedən mühacirləri və ənsarı (əvvəlcə) tövbəyə müvəffəq etdi, sonra da onların tövbələrini qəbul buyurdu. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir” (Tövbə, 117).**

Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabələrinin bu ümmətin ən xeyirliləri olması, müsəlmanlar tərəfindən mütəvatir yol ilə sabitdir. Belə ki, onlar Muhəmməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra da Allahın dininə kömək etmiş, riddə edən (dindən dönən) ərəblərlə vuruşmuş, təcavüzkar fars Sasani hökmdarlarını (kisranı) devirmiş, romalı qeysərlərə qarşı döyüşmüşlər. Bununla da Allahın bu ayəsi onlarda tam mənası ilə gerçəkləşmişdir: **Allah sizlərdən iman gətirib saleh əməllər edənlərə, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcəyinə, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcəyinə və onların qorxusunu sonra əminliklə əvəz edəcəyinə vəd vermişdir" (Nur,55).**

Uca Allah Muhəmməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabələrinin fəzilətini, yüksək dərəcəsini, onlara gözəl şəkildə tabe olmağın və onların xeyir yolunu izləməyin vacibliyini bəyan etmək üçün qiyamət gününə qədər oxunacaq Quran ayələri nazil etmişdir.Uca Allah buyurub: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün (ağacları və qəsrləri) altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur" (Tövbə, 100).**

## Sual 51: Müsəlmanın Axirət gününə baxışı necədir?

İslamda insan Axirət gününə; Uca Allahın adil bir hakim olduğuna, dünyasını dəyişmiş zalımı və dünyasını dəyişmiş, lakin haqqını ondan ala bilməmiş məzlumu eləcə buraxmasının qeyri-mümkün olduğuna inanmalıdır. Bu səbəbdən də, Uca Allahın bu hesab-kitab üçün Axirət gününü müəyyən etdiyinə inanmaq vacibdir. Axirət gününə iman ölümdən dərhal sonra başlayır və bura ölüm halları, bərzəx, qəbir, qiyamət, cənnət, cəhənnəm və bunlarla əlaqəli olan hər şey daxildir. Uca Allah buyurub: "**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız?" Haqq Hökmdar olan Allah (hər şeydən) ucadır! Ondan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. O, dəyərli Ərşin Rəbbidir" (Muminun, 115-116 ).**

Uca Allah Nuhun qövmü haqqında belə buyurub: “**Onlar günahlarına görə (suya) qərq edildilər və oda atıldılar. Onlara Allahdan savayı köməkçilər tapmadılar” (Nuh, 25)**

Uca Allah Firon və onun qövmü haqqında belə buyurub: “**Firon nəslini isə dəhşətli əzab bürüdü. Onları səhər-axşam oda ərz olunarlar. Qiyamətin qopacağı gündə isə (Mələklərə): “Firon nəslini ən şiddətli əzaba salın!”– (deyiləcəkdir)” (Ğafir, 45-46).**

Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* Axirət günü barəsində çoxsaylı (mütəvatir) və müxtəlif hədislər varid olmuşdur. Belə ki, o, insanın ölümü ilə öz qiyamətinin başladığını, ölümündən sonra bərzəx aləmində olub qəbir fitnəsindən (sınağından) keçəcəyini və bu aləmdə ya əzab, ya da nemət[76] içində olacağını bildirmişdir. Həmçinin qeyd olunmuşdur ki, ölənin ruhu qəbirdə özünə qaytarılır və ondan Rəbbi, dini və peyğəmbəri barəsində soruşulur. Allah iman gətirənləri gözəl sözlə sabitqədəm edir və mömin şəxs deyir: "Rəbbim Allahdır, Muhəmməd peyğəmbərimdir, İslam isə dinimdir". Beləcə, onun qəbri genişləndirilir, nurlandırılır və o, Qiyamət gününədək orada nemətlər içində yaşayır.

Kafir, münafiq və ya günahkar (facir) bəndəyə gəlincə isə; Allah onun zülmü və küfrü ucbatından onu doğru yoldan azdırar, qəbri onun üçün daralar və Qiyamət qopana qədər əzab çəkməkdə davam edər. Günahkarlardan bəziləri qəbirdə günahlarının miqdarı qədər bir müddət əzab çəkər, sonra isə əzab onlardan qaldırılar. Bəzilərindən isə əzab şəfaət, dua və ya sədqə sayəsində qaldırılar.

Sonra, axırzamanda Uca Allah İsrafilə buyurar və o, Sura üfürər (bu, dəhşət və ölüm üfürülüşüdür); beləcə bütün məxluqat ölər. Hamısı öldükdən sonra Uca Allah İsrafilə Sura yenidən üfürməyi buyurar (bu, dirilmə və məhşərə toplanma üfürülüşüdür); onlar qəbirlərindən çıxaraq Qiyamət gününün duracaq meydanına (ərasata) doğru ayaqyalın, lüt-üryan və sünnət olunmamış halda, çağırışçıya tərəf tələsərək, sanki dikilmiş daşlara tərəf hədəfə tərəf qaçırmış kimi gedərlər. Müttəqilər Rəhmanın hüzuruna möhtərəm bir heyət kimi toplanar, günahkarlar isə Cəhənnəmə susuz bir sürü kimi qovulub aparılarlar. Onlar elə əzəmətli bir yerdə dayanarlar ki, ağıllar onun əzəmətini, vahiməsini və dəhşətini təsəvvür edə bilməz. Lakin

---

[76] Bax: Səhih Müslim, Hədis Əl-Bəra bin Azib, Hədis (2871) və Sünən Əbu Davud, Hədis (4753), Əs-Sünən əl-Kubra.
Ən-Nəsai hədis (11201) və bax:” Təzkiratu fi əhvəlil movtə və əl-əxirah” kitabı. Alləmə Əl-Qurtubi *(Allah ona rəhmət etsin)*.

Allah bunu möminlər üçün yüngülləşdirər. İnsanlardan tərin axması isə onların etdikləri əməllərə görə olar: bəzilərinin təri topuqlarına, bəzilərinin dizlərinə, bəzilərinin qurşaqlarına, bəzilərinin boğazlarına qədər çatar, bəzilərini isə tər tamamilə ağzınacan bürüyər. Günəş onlara elə yaxınlaşdırılar ki, bir mil məsafəsində olar. Məxluqatı elə bir qəm və sıxıntı bürüyər ki, bunu yalnız Allah bilər. Onlar bu vəziyyətdən, bu duracaqdan canlarını qurtarmaq və aralarında hökm verilməsi üçün Rəbbinin hüzurunda onlara şəfaətçi olacaq bir kəsə sığınarlar. Onlar Adəmin, sonra Nuhun, sonra İbrahimin, sonra Musanın, sonra İsanın yanına gələrlər, lakin onların hər biri üzr istəyərək onları özündən sonrakına yönləndirər. İsa peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* yanına gəldikdə isə o deyər: "Muhəmmədin *(sallallahu əleyhi və səlləm)* yanına gedin, o elə bir bəndədir ki, Allah onun keçmiş və gələcək günahlarını bağışlamışdır". Onlar Muhəmmədin *(sallallahu əleyhi və səlləm)* yanına gələrlər, o da onların istəyinə müsbət cavab verər və çağırışlarını qəbul edər. Sonra Ərşin altına gələrək Allah üçün elə əzəmətli bir səcdəyə qapanar ki, Allah onun üçün əvvəlkilərdən və sonrakılardan heç kəsə açmadığı qədər böyük mədh, həmd və tariflər açar (bəxş edər). Və deyilər: "Ey Muhəmməd! Başını qaldır, söylə – eşidilirsən, istə – istədiyin verilər, şəfaət dilə – şəfaətin qəbul olunar!". Və Allah onu əvvəlkilərin, sonrakıların, göy və yer əhlinin ona tərif edəcəyi həmin o Məqamul-Məhmuda (Təriflənən məqama) ucaldar.[77]

Uca Allah bəndələrinin arasında hökm vermək və onları hesaba çəkmək üçün nazil olar. Həmin vaxt bəndələrin yaxşı və pis əməllərini ehtiva edən əməl dəftərləri (divanları) açılar və hər kəsə öz kitabı verilər. Xoşbəxt o kəsdir ki, kitabı ona sağ tərəfindən verilər və bu, onların kitablarında olan xeyirlərə görə ilk müjdə olar. Bədbəxtlər əhlinə isə kitabları sol tərəflərindən və ya arxalarından verilər ki, bu da onlar üçün bədbəxtlik müjdəsi və məxluqatın qarşısında bir rüsvayçılıq olar. Necə ki Uca Allah buyurub: "**Kim (Allahın hüzuruna) yaxşı əməllə gələrsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim də pis əməllə gələrsə, ona yalnız gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz" (Ənam, 160).**

Allah kafirləri məzəmmət edər və məxluqat qarşısında rüsvayçılıq hesabı ilə hesaba çəkər, sonra isə onların Oda aparılması əmr olunar.

[77] Buxari, hədis (7440) və Müslim, hədis (193) Ənəs rəvayət etmişdir.

Allah bəzi möminləri isə yüngül bir hesabla hesaba çəkər; Allah onun üzərinə Öz himayə örtüyünü çəkər və ona günahlarını etiraf etdirər. Bəndə məhv olduğunu zənn etdikdə Allah ona buyurar: "***Mən sənin bu günahlarını dünyada ikən örtmüşdüm. Bu gün isə o günahlarını bağışlayıram*".**[78] Məxluqatdan heç kim bunu bilməz və kitabı sağ əlinə verilər.

Sonra yaxşı və pis əməllər çəkilən tərəzi qurular. "**O gün çəki (əməllərin tərəzidə çəkilməsi) bir həqiqətdir. Tərəziləri ağır gələnlər – məhz onlar nicat tapanlardır. Tərəziləri yüngül gələnlər isə ayələrimizə qarşı haqsızlıq etdiklərinə görə özlərini ziyana uğradanlardır" (Əraf, 8-9).**

Sonra isə Cəhənnəmin üzərində Sırat köprüsü qurular. İnsanlar onun üzərindən əməllərinin miqdarına görə keçərlər. Kim ondan keçərsə, nicat tapanlardan olar. Allah qəlbində zərrə qədər imanı olan heç bir kəsi Odda saxlamaz. Orada isə daimi olaraq qalacaq olan əsl cəhənnəm əhli qalar və onların əzabı heç vaxt yüngülləşdirilməz.

## Sual 52: İslamda Qiyamətin əlamətləri hansılardır?

İslamda qiyamət əlamətləri çoxdur və onlar üç qismə bölünür:

***Birinci qisim:*** Meydana çıxmış və başa çatmış əlamətlərdir. Bunlara Muhəmməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* göndərilməsi, vəfatı, Fars və Roma imperiyalarının fəth edilməsi, habelə Ərəbistan yarımadasından Şam diyarlarındakı Busra dəvələrinin boyunlarını işıqlandıracaq bir odun çıxması və sairə daxildir. Bu növün hamısı kiçik əlamətlərdəndir.

***İkinci qisim:*** Meydana çıxmış və hazırda da davam edən əlamətlərdir. İnsanların uca binalar tikməkdə bir-biri ilə yarışması, əmanətin itməsi, namazdan xüşunun (qorxu və təvazökarlığın) getməsi, zinanın zühur etməsi və s. kimi. Bunlar qiyamətə qədər davam edəcəkdir.

***Üçüncü qisim:*** Böyük əlamətlərdir. Onlar meydana çıxdıqda ard-arda gələr; biri bitməmiş, digəri dərhal onun ardınca baş verər. Dəccalın çıxması, Məryəm oğlu İsanın nazil olması (enməsi), Yəcuc və Məcucun çıxması və sairə kimi.

---

[78] Buxari, h. (2441), Müslim, h. (2768) İbn Ömərin hədisindən rəvayət etmişlər.

Böyük və kiçik əlamətlər arasındakı fərqlərdən biri də odur ki, böyük əlamətlərin ardınca dərhal qiyamət qopar, həmçinin onların böyük bir təsiri olar və bunu bütün insanlar hiss edər. Kiçik əlamətlər isə belə deyildir. Uca Allah belə buyurub: “**Nəhayət, Yəcuc və Məcuc (səddi) açıldığı və onlar təpələrdən axışıb gəldikləri zaman; haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir. (Onlar deyəcəklər: “Vay halımıza! Biz bundan qafil idik. Xeyir, biz zalımlardan olmuşduq!” (Ənbiya, 96-97).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***Siz qiyamət saatını görməyəcəksiniz ondan öncə on əlaməti görmədikcə. Və o dedi: Duman, dəccal, yerdən heyvanın çıxması, günəşin batdığı yerdən çıxması, Məryəm oğlu İsanın enməsi, Yəcuc və məcuc tayfalarının çıxması, yerin üç yerdə batması: Məşriqdə, məğribdə və Ərəbistan yarımadasında, sonuncu Yəməndə insanları məhşər meydanına toplayacaq bir odun çıxması.***[79]

## Sual 53: İslamda öldükdən sonra dirilmənin dəlilləri hansılardır?

İslamda dirilmənin dəlilləri çoxdur, onlardan bəziləri bunlardır:

***Birinci dəlil:*** Uca Allahın bu barədə xəbər verməsidir və Onun xəbəri haqdır (doğrudur). Eyni zamanda Onun elçiləri də bunu xəbər vermişlər ki, onların da arasında Muhəmməd *(sallallahu aleyhi va səlləm)* vardır və onların verdiyi xəbərlər yalnız doğru ola bilər.

Uca Allah buyurub: “**Qiyamət saatı mütləq gələcəkdir!” (Taha, 15).**

Digər ayə Uca Allah belə buyurub: “**Qiyamət saatı mütləq gələcəkdir. Odur ki, Sən (onları) gözəl tərzdə bağışla” (Hicr, 85).** Bu barədə olan dəlillər sonsuzdur.

***İkinci dəlil:*** Uca Allahın onun baş verəcəyinə and içməscidir. Uca Allah buyurub: “**Allah, Özündən başqa heç bir məbud olmayandır. (O,) Sizi qiyamət günündə mütləq (bir yerə) toplayacaqdır. Bunda əsla şübhə yoxdur. Allahdan daha doğru danışan kim ola bilər?” (Nisa, 87).**

[79] Müslim rəvayət etmişdir, hədis (2901), Huzeyfə bin Useyd əl-Ğifəri rəvayət etmişdir.

Uca Allah digər ayədə buyurub: **“(Allah yaratdıqlarına qarşı) rəhmli olmağı Özünə vacib etmişdir. Vaqe olacağına şübhə edilməyən Qiyamət günü, O sizi bir yerə toplayacaq. Özlərini ziyana uğradanlara gəldikdə isə, onlar iman gətirməzlər” (Ənam, 12).**

Uca Allah buyurub: “**Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. (Ey Peyğəmbər!) De: “Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə (dünyada) etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün asandır!” (Təğabun, 7).**

***Üçüncü dəlil:*** Uca Allahın Qiyamətin haqq olduğunu, onun baş verməsinin sabit və qəti olduğunu xəbər verməsidir. Uca Allah buyurub: “**Beləcə, (insanları) onların halından xəbərdar etdik ki, Allahın vədinin həqiqət olduğunu və (Qiyamət) saatının gələcəyinə şübhə olmadığını bilsinlər” (Kəhf, 21)**

Uca Allah buyurub: “**Sən səbirli ol! Həqiqətən də, Allahın vədi haqdır. Qoy (axirətə) yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa – (dindən dönməyə) sövq etməsinlər” (Rum, 60).**

***Dördüncü dəlil:*** İlk yaradılışı (insanın ilk dəfə yaranmasını) dirilməyə və təkrar qayıdışa dəlil gətirməkdir. Bu, həm nəqli (dini), həm də əqli dəlillərdəndir. Uca Allah buyurub: **“(Kafir) insan: “Doğrudanmı mən öldükdən sonra (qəbirdən) diri çıxardılacağam?”– deyir. Məgər insan ilk əvvəl onu heç bir şey deyilkən yaratdığımızı xatırlamırmı?” (Məryəm, 66-67).**

Uca Allah buyurub: **“Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, (bilin ki,) həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxta qədər saxlayırıq. Sonra sizi (oradan) uşaq olaraq çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi (yetkinlik yaşına çatmamış) vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, vaxtilə bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarar və cürbəcür gözəl bitkilər bitirər” (Həcc, 5).**

Bu mərhələləri yaratmağa qadir olan (Allah), istədiyi kimi və istədiyi vaxt yenidən yaratmaq mərhələsini də gerçəkləşdirməyə qadirdir. Uca Allah buyurub: “**O Bizə bir məsəl çəkdi, lakin öz**

**yaradılışını unutdu. O: “Çürümüş sümükləri kim dirildə bilər?”– dedi. De: “Onları ilk dəfə yaradan (Allah) dirildəcəkdir. O, hər bir məxluqu yaxşı tanıyandır” (Yasin, 78-79).**

Burada ilk dəfə yaratmaq təkrar yaratmağa, ilk yaradılış isə sonrakı yaradılışa qarşı dəlil gətirilmişdir. Çünki hər bir ağıllı insan mütləq bilir ki, buna qadir olan, ona da qadirdir.

***Beşinci dəlil:*** Yerin öldükdən (quruduqdan) sonra bitkilərlə yenidən dirildilməsidir. Uca Allah buyurub: “**Biz yeri genişləndirdik, orada möhkəm dağlar yerləşdirdik və göz oxşayan bitkilərin hər növündən yetişdirdik. (Bütün bunları) Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə etdik. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və (arpa, buğda və s. Bu kimi) biçilən dənələr yetişdirdik. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və (arpa, buğda və s. Bu kimi) biçilən dənələr yetişdirdik. Tumurcuqları bir-birinin üstünə (salxım-salxım) düzülmüş hündür xurma ağacları (yetişdirdik). Qullara ruzi olsun deyə (belə etdik)! Biz onunla (göydən endirdiyimiz su ilə) ölü bir məmləkəti diriltdik. (Dirilib qəbirdən) çıxmaq da belədir” (Qaf, 7-11).**

***Altıncı dəlil:*** Daha asan olan bir şeyi (dirilməni) sübut etmək üçün daha böyük olanın yaradılmasındakı əzəmətli qüdrəti dəlil gətirməkdir. Ən böyüyünü yaradan, daha aşağı və daha az olanına da qadirdir.

Uca Allah buyurub: “**Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayan Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi?! Əlbəttə ki, O, hər şeyə qadirdir” (Əhqaf 33).**

Məlumdur ki, göylərin və yerin yaradılması Adəm övladı kimilərin yaradılışından daha böyükdür və bunu etmək daha güclü qüdrət tələb edir. Amma insanın yaratmaq isə imkan və qüdrət baxımından daha asandır.

***Yeddinci dəlil:*** Dirilməyə və yenidən var olmağa dair ziddiyyətli şeylərin yaradılmasındakı əzəmətli qüdrəti dəlil gətirməkdir. Uca Allah buyurub: “**De: “Onları ilk dəfə yaradan (Allah) dirildəcəkdir. O, hər bir məxluqu yaxşı tanıyandır. O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız” (Yasin, 79-80).**

Məlum olduğu son dərəcə isti və quru olan bu ünsürü (odu), rütubətli və soyuq olan yaşıl ağacdan çıxarmağa qadir olan, ( Allah ) ağılların aşkar qəbul etdiyi kimi, diriltməyə və təkrar var etməyə də mütləq qadirdir.

***Səkkizinci dəlil:*** Yuxunu dirilməyə dəlil gətirməkdir: Uca Allah buyurub: “**Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayar, digərini isə müəyyən olunmuş vaxtadək buraxar. Həqiqətən, bunda düşünən bir qövm üçün dəlillər vardır” (Zumər, 42).**

İnsan bu dəlili gözü ilə görüb hiss edir. O yatır və dünyadan qeyb olur, sonra isə ayılır. Bu, baş verən kiçik bir dirilmədir. Əgər Allah onların ayılmamasını istəsəydi, ayıla bilməzdilər.

***Doqquzuncu dəlil:*** *Əgər heç bir qarşılıq (mükafat) və cəza olmasaydı, zalım etdiyi zülmlə qurtulmuş olar, məzlum isə məzlum olaraq həlak olub gedərdi. Bəs o, haqqını haradan alacaqdır?! Məhz buna görə* Uca Allah belə buyurub: “**Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi veriləcəkvə onlara zülm edilməyəcəkdir” (Bəqərə, 281).**

Digər ayədə Uca Allah buyurub: “**Onlar Allaha və Axirət gününə iman gətirib, Allahın onlara verdiyi ruzidən (Onun yolunda) xərcləsəydilər, nə olardı? Allah onların (hər bir işini) bilir. Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz. Əgər (qulun gördüyü iş) yaxşı əməl olarsa, (Allah onun savabını) qat-qat artırar və (bu əməl sahibinə) Öz tərəfindən böyük mükafat bəxş edər” (Nisa, 39-40).**

***Onuncu dəlil:*** Öyüd-nəsihət və ibrət olsun deyə, Uca Allahın bəzi ölüləri diriltməsi ilə baş vermiş hissi (gözlə görülən) nümunələrdir. Bunlardan biri, onu kimin öldürdüyünü göstərmək üçün İsrail oğullarından olan qətlə yetirilmiş şəxsin dirildilməsidir — necə ki, məşhur İnək (Bəqərə) hekayəsində bu qeyd olunub. Digər bir nümunə, ölülərin İsa peyğəmbərin (əleyhissalam) əli ilə dirildilməsidir ki, bu da məşhur və mütəvatirdir (çoxlu sayda rəvayət olunandır). Başqa bir nümunə dörd növ quşların İbrahim (əleyhissalam) üçün dirildilməsidir ki, bu da məşhurdur və bilinəndir.

Uca Allah buyurub: “**Bir zaman İbrahim: “Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!”– demişdi. (Rəbbi ona ) “Məgər sən inanmırsan?”– deyə buyurdu. (İbrahim) dedi: “Əlbəttə, (inanıram!)**

**Lakin (istəyirəm ki,) qəlbim rahat olsun". (Allah) buyurdu: "Quşlardan dördünü tut və onları götür tikə-tikə et, sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah qüdrətlidir, hikmət sahibidir!" (Bəqərə, 260).**

Qurani-Kərimdə ölülərin dirildilməsinə dair əl-Bəqərə surəsində beş nümunə, əl-Kəhf surəsində isə Əshabi-Kəhfin dirildilməsi nümunəsi var olmuşdur.

## Sual 54: Müsəlmanın Qiyamət günü insanların bölünəcəyi qruplara baxışı necədir?

Müsəlmanın Qiyamət günü insanlara baxışı belədir ki, onlar üç qrupa bölünəcəklər:

**Birinci qrup:** Sırf savaba (mükafata) layiq olanlar və əzabdan xilas olanlar.

Bunlar "Sabiqunlar" (xeyirxahlıqda öndə gedənlər) və "Əshabu-Yəmin" dir (əməl dəftərləri sağ tərəfdən verilənlər). Onlar vacib əməlləri yerinə yetirmiş, haramları tərk etmiş və etdikləri xətalardan tövbə edərək vəfat etmiş kəslərdir.

**İkinci qrup:  Sırf əzaba layiq olanlar və Cəhənnəm odunda əbədi qalanlar**

Bunlar peyğəmbərlərə doğru şəkildə iman gətirməyən hər kəsdir: istər müşrik, istər təkəbbürlü, istər haqqı inkar edən, istər münafiq. İstər yəhudi, istər nəsrani ( xaçpərəst ), istərsə də məcusi olsun. Həmçinin, şəri dəlillərin İslamdan çıxmasına hökm etdiyi bütün şəxslər bu qrupa daxildir. Uca Allah buyurub: "**Beləliklə, Biz, şəhərlər anası (Məkkə əhlini) və onun ətrafındakıları xəbərdar edəsən və (barəsində) heç bir şübhə olmayan məhşər günü ilə qorxudasan deyə, sənə ərəbcə Quran vəhy etdik. Bir qismi (möminlər) Cənnətdə, digər qismi (kafirlər) isə Odda olacaqdır" (Şura, 7).**

**Üçüncü qrup:** Özünə zülm edənlər və yaxşı əməllərlə pis əməlləri bir-birinə qarışdıranlar.

Bu qrupa daxil olanlar öz daxilində bir neçə qismə ayrılır:

• Yaxşı əməlləri pis əməllərindən üstün (ağır) gələnlər: Cəhənnəmə girmədən birbaşa Cənnətə daxil olarlar.

• Yaxşı və pis əməlləri bərabər olanlar: Bunlar **Əraf əhlidir.** Əraf – Cənnətlə Cəhənnəm arasında uca və hər iki tərəfə baxan yüksək bir yerdir. Onlar orada Allahın dilədiyi qədər qalarlar, sonra Rəbbimizin rəhməti onlara yetişər və onları Cənnətə daxil edər.

• Pis əməlləri yaxşı əməllərindən üstün gələnlər: Günahları qədər Cəhənnəm oduna daxil olarlar, daha sonra isə (peyməmbərlərin, salehlərin) şəfaəti və Uca Allah rəhməti sayəsində Cənnətə girərlər. Uca Allah buyurub: “**Siz üç dəstəyə ayrılacaqsınız. Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri! (Dünyada xeyirxah işlərdə) öndə gedənlər, (axirətdə də) öndədirlər! Onlar (Allaha) yaxınlaşdırılmış kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar” (Vaqiə, 7-12).**

Uca Allah buyurub: **Amma əgər o, (ölən kimsə Allaha) yaxın olanlardandırsa, onda rahatlıq, gözəl ruzi və Nəim Cənnəti vardır. Əgər o, sağ tərəf sahiblərindəndirsə, (ona ) “Sağ tərəf sahiblərindən sənə salam olsun!”– (deyiləcəkdir). Yox əgər o, (haqqı) yalan sayanlardan və (doğru yoldan) azanlardandırsa , (onun) ziyafəti qaynar su olacaq, özü də Cəhənnəmdə yanacaqdır. Həqiqətən , bu (qullara əməllərinin əvəzi verilməsi), açıq-aydın bir haqqdır . (Ey Peyğəmbər!) Elə isə əzəmətli Rəbbinin adı ilə təsbih et!” (Vaqiə, 88-96).**

## Sual 55: Müsəlmanın Cənnətə baxışı necədir ?

Müsəlmanın Cənnətə baxışı belədir ki, ora əbədi nemət yurdudur. Uca Allah orada olanlar üçün daimi və sonsuz nemətlər hazırlamışdır. Oranın əhli qəlbən, ruhən və bədənən sevinc (fərəh) içindədir. Uca Allah buyurub: **Ora salamatlıqla daxil olun! Bu, əbədiyyət günüdür. Orada onlar üçün istədikləri hər şey vardır. Hüzurumuzda bundan da artığı (Allahı görmək) vardır. ( Qaf 34-35 )**

Digər ayədə Uca Allah buyurub: “**Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da artığı (Allahı görmək) vardır” (Yunus, 26).**

Uca Allah buyurub: “**Siz də, zövcələriniz (və ya sizin kimi iman gətirmiş möminlər) də sevincli halda Cənnətə daxil olun!” Onların ətrafında qızıl sinilər və piyalələr dolandırılacaq. Orada nəfslərin**

**istədiyi və gözlərin xoşlandığı hər şey vardır. Siz orada əbədi qalacaqsınız. Bu sizin etdiyiniz əməllər sayəsində varis olduğunuz Cənnətdir" (Zuxruf, 70-72).**

Bu ayələr; bədənlərin nemətlənməsini, ruhların fərəhini, qəlblərin sevincini və nəfslərin istəklərini – heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insan ağlına gəlməyən hər şeyi əhatə edir.

Həmçinin Uca Allah Cənnət əhlini sidikdən, nəcisdən (çirklərdən) və nəfslərin xoşlamadığı hər bir şeydən pak etmişdir. Əksinə, onların yeyib-içdikləri ən gözəl müşk qoxulu bir tər olaraq bədənlərindən xaric olar. Muhamməd *(sallallahu aleyhi və səlləm)* cənnət əhli haqqında belə demişdir: ***"Cənnətdə onlar nə təbii ehtiyaclarını rəf edəcəklər, nə burunlarından selik ifraz edəcək,. nə tüpürəcəklər. İşlətdikləri daraqları qızıldan olacaq, tərlərindən isə müşk qoxusu gələcək. Buxurdanlarında ud yandırılacaqlar. Onlardan hər birinin hurilərdən zövcəsi olacaq. Əxlaqları isə bir kişinin əxlaqi kimi, ataları Adəmin surətində altımış dirsək olacaqlar".*** [80]

## Sual 56: Müsəlmanın Cəhənnəmə baxışı necədir ?

Müsəlman Cəhənnəmə və onun əzabına Uca Allahın kafirlər və müşriklər barəsindəki hökmünün icra olunacağı bir məskən və yer kimi baxır. Həmçinin (baxır ki,) bu od çox əzəmətlidir və oradakı əzab olduqca şiddətli olacaqdır. Cəhənnəm əhlinin dəriləri hər dəfə yanıb bitdikdə, əzabı yenidən dadsınlar və onun şiddətini hiss etsinlər deyə, onlar başqa dərilərlə əvəz olunacaqdır. Onlar orada ac və susuz olacaq, əzabın və ağrıların ən böyük növlərini dadacaqlar. Onların əzabı, təsəvvür edilməsi qeyri-mümkün olan Cəhənnəm alovunin istisi ilə, bir də şiddətli soyuğundan sümükləri sındıran Zəmhərir (dondurucu soyuq) arasında dəyişəcəkdir. Onlar üçün həm (cismani) əzab, həm də Rəbblərindən məhrum olmaq (Onu görməmək) əzabı bir arada toplanacaqdır. Onların son aqibəti isə əbədi əzab və sonsuz bədbəxtlik olacaqdır. Uca Allah buyurub: "**Şübhəsiz ki, günahkarlar əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlar orada ümidsiz qalacaqlar. Biz onlara zülm etmədik, lakin onlar özləri zalım idilər. Onlar**

[80] Buxari və Muslimin İttifaq etdiyi hədisdir. Əl-Buxari, Hədis (3149) və Müslim, Hədis (2834), Əbu Hureyrənin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdir.

**(Cəhənnəm gözətçisini) çağırıb deyəcəklər: “Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!” O isə: “Siz (burada) əbədi qalacaqsınız!”– deyəcək. Biz sizə haqqı gətirdik, lakin sizin çoxunuz haqqı xoşlamadı” (Zuxruf, 74-78)**

Uca Allah buyurub: “**Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı (daim) dadsınlar deyə, Biz o (dəriləri) başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah qüdrətlidir, hikmət sahibidir”**[81] Uca Allah buyurub: **“Həqiqətən, Cəhənnəm pusquda dayanıb (kafirləri) gözləyir. O, həddi aşanların qayıdacağı yerdir. Onlar orada əsrlər boyu qalacaqlar. Onlar orada nə bir sərinlik, nə də içəcək bir şey dadacaqlar. (İçdikləri) yalnız qaynar su və irin (olacaqdır) – (Dünyada ikən etdikləri əməllərə) müvafiq bir cəza olaraq” (Nisa, 56).**

Peyğəmbər (salləllahu aleyhi və səlləm) belə buyurub: ***“Cəhənnəm əhli orada nə öləcək, nə də yaşayacaqdır”.***[82]

## Sual 57: İslamın qədərə baxışı necədir ?

İslamda müsəlman qədərin (taleyin) xeyrinə və şərinə inanmalıdır. Baş verən hər bir şey Allahın qəzası (hökmü) və qədəri (təqdiri) ilə reallaşır.

Müsəlmanlar bilirlər ki, Allah hər şeyi elmi ilə əhatə etmiş və Lövhi-Məhfuzda kiçik-böyük, keçmiş və gələcək bütün hadisələri yazmışdır. Sonra isə Öz hikməti, qüdrəti, lütfü və kamil elmi ilə onları öz vaxtlarında təqdir edib gerçəkləşdirmişdir. Bütün hadisələr Onun hikmət və elminə bağlı olduğu kimi, Onun qüdrətinə də bağlıdır. Allahın istədiyi olmuş, istəmədiyi isə olmamışdır.

Bəndələrin bütün əməlləri – xeyri də, şəri də – Allahın qəzası və qədərinə daxildir. Bununla belə, bu əməllər bəndələrin öz iradəsi və qüdrətinə uyğun olaraq baş verir və Allah onları buna məcbur etməmişdir. Çünki Allah onlar üçün zahiri və batini bütün qüvvələri yaratmışdır ki, bura onların seçim etdikləri və əməl etdikləri iradə və qüdrət də daxildir. Uca Allah buyurub: “**Qeybin açarları Allahın yanındadır. Onları yalnız O bilir. Allah, quruda və dənizdə nələr**

[81] ən-Nisa 56
[82] Muslim hədis 185. Əbu Səid əl-Xudrinin hədisidir.

**olduğunu bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və ya quru (şey) yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın" (Ənam, 59).**

Uca Allah buyurub: "**Məgər Allahın göydə və yerdə olan hər şeyi bildiyini bilmirsənmi? Həqiqətən, bu, Kitabda (Lövhi-məhfuzda) mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır" (Həcc, 70).**

Uca Allah buyurub: "**Biz hər şeyi (əzəldən təqdir etdiyimiz) bir qədər ilə yaratdıq" (Qamər, 49).**

Abdullah ibn Abbas *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir gün mən (minikdə) Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* tərkində idim. O, belə buyurdu: ***"Ey oğul! Mən sənə bir neçə kəlimə öyrətmək istəyirəm. Allahı qoru ki, Allah da səni qorusun. Allahı qoru ki, onu öz qarşında tapasan. Bir şey istədikdə, Allahdan istə. Kömək dilədikdə Allahdan kömək dilə. Bil ki, əgər bütün insanlar sənə fayda vermək üçün bir yerə toplansa, Allahın yazdığından artıq heç bir fayda verə bilməzlər. Bunu da bil ki, əgər sənə zərər vermək üçün bir yerə toplansalar da Allahın yazdığından artıq sənə zərər verə bilməzlər. Artıq qələmlər qaldırılmış, səhifələrin (mürəkkəbi) qurumuşdur"*** [83]

## Sual 58: İslamda əxlaqın məqamı nədir?

İslam əxlaq dinidir; o, ən gözəl əxlaqı, ən kamil ədəb-ərkanı, ən uca xislətləri əmr edir, hər bir vasitə ilə gözəl əxlaqa sahib olmağa rəğbətləndirir və bunun əksindən (pis əxlaqdan) çəkindirir. Elə bir kamil əxlaq yoxdur ki, İslam ona yönəltməmiş olsun, və elə bir bəyənilən ədəb yoxdur ki, ona dəvət edib bəyan etməmiş olsun. Kamil əxlaq və uca ədəb-ərkan öz sahibinin daxilini və xaricini doğru-düzgün edər, hər bir halını mötədil (tarazlı) qılar, yaxşı vəsflərini kamilləşdirər. Həmçinin onun qəlbini pak edər, hər bir ləkədən, xəstəlikdən və naqislikdən təmizləyər. Onu vacib və müstəhəb olan haqları yerinə yetirən kəsə çevirər. Belə bir insan Allah qatında və bəndələrin yanında sevilən (təriflənən) olar, həqiqi şərəf və hörmət qazanar.

[83] Tirmizi. hədis (285) və Tirmizi Həsən Səhih demişdir.

İslam əxlaqı və ədəbi ilə əxlaqlanan kəsin məqamının ucalığına, İslam əxlaqına diqqət yetirən heç bir kəs şübhə etməz. Hətta bu əxlaq, İslamın kamilliyinə və onun gətirdiyinə yaxınlaşa biləcək hər hansı bir qanun və ya sistemin mövcud olmasının qeyri-mümkünlüyünə dəlil gətirilir. Çünki İslam öz ardıcıllarına ən gözəl və ən kamil əxlaqı əmr edən bir dindir. Uca Allah buyurub: “**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah nələr etdiyinizi bilir” (Nəhl, 90-91).**

Bu əxlaqlar nə qədər uca və hər bir xeyri özündə cəmləşdirəndir! Uca Allah buyurub: **“Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu ancaq səbir edənlərə verilər və ancaq böyük qismət sahiblərinə nəsib olar” (Fussilət, 34-35).**

Uca Allah öz elçisi Muhamməd *(sallallahu aleyhi və səlləm)* haqqında buyurub: “**Həqiqətən də, sən böyük əxlaq sahibisən!” (Qələm, 4).**

Xədicə *(Allah ondan razı olsun)* Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* haqqında belə demişdir: ***Allaha and olsun ki, sən qohumluq əlaqələrini möhkəmləndirir, doğru danışır, zəiflərin yükünü daşıyır, yoxsula pay verir, qonağa yaxşı baxır və haqq yolunda (insanlara) yardım edirsən.***[84]

## Sual 59: İslamda ixlasın məqamı nədir?

İxlas əməllərin gözəlləşdirilməsinə doğru böyük bir təkan, dini hislərə və daxili nəzarətə güclü təsir edən bir qüvvədir. İslamda insan ibadəti tək olan Allaha yönəltməli, əməllərini və əxlaqını dünyəvi bir mənfəət və ya tərifi üçün deyil, uca Allah üçün gözəlləşdirməlidir. Uca Allah buyurub: “**Onların pıçıdaşmalarının çoxundaxeyir yoxdur. Sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya insanların arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə müstəsnadır. Kim**

[84]Buxari və Muslim. Buxari, hədis 3 və Müslim, hədisi 160 Aişə rəvayət etmişdir.

**bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik" (Nisa, 114).**

Uca Allah buyurub: "**Halbuki onlara, dini məhz Allaha məxsus edib, batildən haqqa yönələrək, namaz qılmaları və zəkat vermələri əmr edilmişdir. Doğru din də elə budur!" (Bəyyinə, 5).**

İxlaslı insana çətinliklər yüngül gəlir, (Allah yolunda) mal xərcləmək asanlaşır. Çünki O, rəbbi ilə ixlasla müamilə edir (qarşılığını Ondan gözləyir): Uca Allah buyurub: "**Onlar vəd etdikləri nəziri yerinə yetirər və şəri hər tərəfə yayılacaq gündən (Qiyamət günündən) qorxarlar. Özlərinin yeməyə olan istəyinə (ehtiyacına) rəğmən ondan miskinə, yetimə və əsirə yedirdirər. (və deyərlər) "Biz sizi yalnız Allahın Üzü xatirinə (ixlasla, savabını Allahdan umaraq) yedirdirik və sizdən nə bir qarşılıq, nə də bir təşəkkür istəyirik! Biz, sərt və çətin bir gündə (Qiyamət günündə) Rəbbimizdən qorxuruq!" (İnsan, 7-10).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***Qiyamət günü Uca Allah qariyə (Quran oxuyana) deyəcəkdir: Məgər mən Rəsuluma nazil etdiyimi sənə öyrətmədimmi?***

***O da: Əlbəttə öyrətdin, ya Rəbb, — deyə cavab verəcəkdir. Onda Allah: Bəs sənə öyrədilənin qarşılığında hansı əməlin sahibi oldun? deyə soruşacaqdır. Qul da: Mən gecəmi, gündüzümüona (Qurana) həsr etdim, deyəcəkdir. Bu zaman Allah: Yalan deyirsən, deyəcək və mələklər də: "Yalan deyirsən" deyəcəklər. Allah ona deyəcəkdir: Xeyr, sən haqqında "Filankəs yaxşı qaridir" deyilsin deyə belə etmisən və bu sənin haqqında deyilmişdir də.***

***Sonra mal-mülk sahibi olan insan Uca Allahın hüzuruna gətiriləcəkdir. Allah ondan: Mən sənə heç kəsə möhtac olmayacaq dərəcədə zənginlik bəxş etmədimmi? deyə soruşacaqdır, o da: Bəli, etdin, ya Rəbb, deyə cavab verəcəkdir. Onda Allah: Bəs sənə verdiyimin qarşılığında hansı əməlin sahibi oldun? deyə soruşacaqdır. Qul da: Qohumlarıma kömək etmişəm, zəkat vermişəm, — deyə cavab verəcəkdir. Bu zaman Allah: Yalan deyirsən, deyəcək və mələklər də: "Yalan deyirsən" deyə dillənəcəklər. Allah ona deyəcəkdir: Xeyr, sən haqqında "Filankəs comərd, əliaçıq insandır" deyilsindeyə belə etmisən və bu sənin haqqında deyilmişdir də. Sonra Allah yolunda həlak olmuş insan Allahın hüzuruna gətiriləcəkdir. Allah ondan: Nə üçün həlak olmusan? deyə soruşacaqdır, o da: Mənə Sənin yolunda cihad***

***etmək əmr olunmuşdu. Döyüşdüm və həlak oldum, deyə cavab verəcəkdir. Bu zaman Allah: Yalan deyirsən, deyəcək və mələklər də: "Yalan deyirsən" deyəcəkdir. Allah ona deyəcəkdir: Xeyr, sən haqqında "Filankəs qoçaq, igid adamdır" deyilsin deyə döyüşə girmisən və bu sənin haqqında deyilmişdir də". Əbu Hureyra: "Rəsulallah (sallallahu aleyhi və səlləm) çiynimə vurub dedi: "Ey Əbu Hureyra, bax o üçlük qiyamət günü Cəhənnəmin qalanacağı ilk insanlar olacaqdır".***[85]

## Sual 60: İslamda nəsihətin (öyüd-nəsihətin) məqamı nədir?

İslamda nəsihətin məqamı çox böyükdür. Çünki din bütövlükdə onun üzərində bərqərar olmuşdur. Hətta dünya və axirətin qurtuluşu (səadəti) nəsihətə bağlıdır. Necə elə olmasın ki, axı o, nəfsi, ailəni və cəmiyyəti düzəldir və islah edir. İslamda müsəlman hər kəsə nəsihəti və məsləhəti ən kamil və ən tam şəkildə təqdim etməlidir. Uca Allah belə buyurub: "**Allaha və Onun Rəsuluna sadiq qalacaqları təqdirdə acizlərə (qadınlara, uşaqlara), xəstələrə (qocalara, korlara, çolaqlara və s. Bu kimi kimsələrə) və (döyüşdə) vuruşmağa bir şey tapa bilməyənlərə (evdə qalmaqda) heç bir günah yoxdur. Yaxşı işlər görənlərə məzəmmət etməyə də əsas yoxdur. Allah Bağışlayandır, Rəhmlidir" (Tövbə, 91).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: **: *"Din nəsihətdir. Din nəsihətdir. Din nəsihətdir." Orada olanlar: "Ey Allahın elçisi, kimin üçün?" — deyə soruşdular. O isə cavabında buyurdu: "Allah, Onun Kitabı, Peyğəmbəri, müsəlmanların rəhbərləri və bütün fərdləri üçündür."***[86]

Nəsihət – nəsihət olunan şəxs üçün xeyir diləməkdir (xeyir verməkdir). O, dinin dirəyi və əsasıdır.

• Uca Allaha üçün nəsihət: Ona iman gətirmək, Ondan şəriki inkar etmək (ortaq qoşmamaq), Ona itaət etmək və Onun dininə əməl etməkdir.

• Onun Kitabı üçün nəsihət: Onun Allahın kəlamı və nazil etdiyi kitab olduğuna, məxluqatın kəlamından heç bir şeyə bənzəmədiyinə iman gətirmək, möhkəm (aydın) ayələrinə əməl etmək, mütəşabih

[85] Tirmizi, hədis (2382) Əbu Hureyra rəvayət etmişdir. Tirmizi demişdir: Hədis həsən qəribdir
[86] Müslim rəvayət etmişdir, 55 hədis. Təmim bin Avs əd-Dari rəvayət etmişdir.

(mənası tam aydın olmayan) ayələrinə təslim olmaq, ondan dəlil gətirmək və onunla ibadət etməkdir.

• Allahın Elçisi *(sallallahu əleyhi və səlləm)* üçün nəsihət: Onun risalətini (peyğəmbərliyini) təsdiq etmək, gətirdiyi hər bir şeyə iman gətirmək, ona tabe olmaq və onun sünnəsini yaymaqdır.

• Müsəlmanların rəhbərləri (imamları) – yəni hakimlər və əmirlər – üçün nəsihət: Haqq işdə onlara yardım etmək, bu xüsusda onlara itaət etmək, onlara xeyirlə nəsihət etməkdir.

• Ümumi müsəlmanlar üçün nəsihət isə: Onları axirətləri və dünyaları üçün xeyirli olan işlərə yönəltməkdir (istiqamətləndirməkdir). Dünya və dinin nizamı da məhz bunun üzərindədir.

**Sual 61: İslamda doğruluğun (sidqin) məqamı nədir?**

İslamda doğruluğun çox böyük və uca bir məqamı vardır. Buna görə də müsəlman öz sözlərində, əməllərində və bütün hallarında doğruçul olmalıdır. Çünki Uca Allah doğruluğu əmr etmiş, doğruçul olanları tərifləmiş və doğruluğun öz sahibinə dünyada və axirətdə fayda verəcəyini, onlar üçün bağışlanma və böyük bir mükafat olduğunu xəbər vermişdir.

Uca Allah belə buyurub: “**Ey iman gətirənlər! Allahdan qorxun və doğru danışanlarla birlikdə olun” (Tövbə, 119).**

Uca Allah digər ayədə belə buyurub: “**Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır” (Ənkəbut, 3).**

Uca Allah digər ayədə belə buyurub: “**Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı” (Muhammədd, 21).**

Allah elçisi *(sallallahu aleyhivə səlləm)* belə buyurub: ***“Doğru danışın! Həqiqətən də, doğru danışmaq (hər bir işdə) yaxşılığa aparır. Yaxşılıq isə Cənnətə aparır. Bir kişi (sözündə və əməlində) həmişə doğru olar və doğruluq üçün çalışarsa, Allah yanında doğru kəs yazılar. Yalandan çəkinin! Həqiqətən də, yalan günahlara aparır. Günahlar isə Cəhənnəmə aparır. Bir kişi yalan danışar və yalan üçün çalışarsa, Allah yanında yalançı kəs kimi yazılar”***[87]

[87] Buxari və Muslim. Buxari 5743 hədis, Muslim 2067 hədis. Abdullah ibn Məsud rəvayət etmişdir.

Kim doğruluğa can atması ilə tanınarsa, Yaradan yanında olduğu kimi, yaradılanlar (insanlar) arasında da məqamı ucalar. İnsanlar onun sözlərinə və əməllərinə güvənər (arxayın olar), gözəl təriflər qazanar və insanlar onun fəsadlarından, hiyləsindən, eləcə də xəyanətindən əmin olarlar. Bu, dünyada olan bəhrəsidir. Axirətdə isə Uca Allahdan böyük bir mükafat və savab qazanar. Uca Allah belə buyurub: **Allah buyuracaq: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün (ağacları və qəsrləri) altından çaylar axan və içində əbədi qalacaqları cənnətlər vardir". Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur" (Maidə, 119).**

## Sual 62: İslamda səbrin məqamı (yeri) nədir ?

İslamda səbrin çox böyük bir məqamı vardır. Buna görə də İslamda müsəlmana səbirli olmaq və hər bir halında səbirlə zinətlənmək vacibdir. Belə ki, müsəlman Allahın itaətinə, Ona asi olmamağa (günahlardan çəkinməyə) və Allahın ağrılı-acılı qədərlərinə qarşı səbir nümayiş etdirməlidir.

Faydalı sözlər və faydalı əməllər yalnız səbirlə, nəfsi onlara davamlı olmağa alışdırmaqla, onlardan ayrılmamaqla və onlara bağlanmaqla (mühafizə etməklə) tamamlanır.

Nəfsin istəklərinə qarşı çıxmaqda göstərilən dözümlülük və onun acılığına qatlanmaq, həmçinin insana bir müsibət üz verdikdə onu razılıq, şükür və həmd ilə qarşılamaq yalnız səbir və mükafatını Allahdan ummaqla mümkün olar. Məhz buna görə də Uca Allah buyurub: "**Yalnız səbir edənlərə mükafatları saysız-hesabsız veriləcəkdir" (Zumər, 10).**

Digər ayədə Uca Allah belə buyurub: "**Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!" (Bəqərə, 153).**

Digər ayədə Uca Allah belə buyurub: "**(Ey Peyğəmbər!) Sən gözəl bir səbirlə səbir et!" (Məaric, 5).** Bu o kəsdir ki, heç bir cansıxıcılığı yoxdur.

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Kim səbir etsə, Allah ona səbr verər. Heç kimə səbirdən daha yaxşı və daha geniş bir şey verilməmişdir”.***[88]

## Sual 63: İslamda elmin məqamı nədir?

İslamda elmin çox böyük və uca bir məqamı vardır. Buna görə də müsəlman elm öyrənməyə can atmalı və çalışmalıdır. Uca Allah faydalı elmləri, xüsusilə də Rəsuluna endirdiyi Kitab (Quran) və hikmətdən ibarət olan şəriət elmini öyrənməyi əmr etmişdir. Bu elm hər bir faydalı biliyi özündə cəmləşdirir. Bütün sözlərin, əməllərin və niyyətlərin doğru və ya yanlış olması, kamil və ya naqis olması, habelə bütün digər vəsfləri məhz bu elmə bağlıdır.

Elm əyri (nöqsanlı) xüsusiyyətləri düzəldir, çatışmayan fəzilətləri tamamlayır. Əməl elmlə islah olunar, dinin və dünyanın xeyri (salamatlığı) elmlə baş tutar. Elmin yoxluğu (cəhalət) isə bunların pozulmasına və naqisliyinə səbəb olar. Elm peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* mirasıdır. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: “***Peyğəmbərlər nə dinar miras qoyarlar, nə də dirhəm. Onların miras qoyduqları yalnız elm’dir və kim onu əldə edərsə, böyük bir pay əldə etmiş olar”.***[89]

Əgər elm olmasaydı, insanlar heyvanlar kimi olardılar. Elmə olan ehtiyac, yeməyə və içməyə olan ehtiyacdan daha böyükdür. Uca Allah cahilliyə, şübhəyə və zənnə uyanları pisləyərək belə buyurmuşdur Uca Allah buyurub: **“Onların buna dair heç bir elmi yoxdur. Onlar yalnız zənnə qapılırlar. Zənn isə əsla həqiqət ola bilməz” (Nəcm, 28).**

Uca Allah doğru elmin insanı hidayət etməsi haqqında buyurub: **“Özlərinə elm verilənlər (Kitab əhlindən iman gətirənlər) Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun Qüdrətli, Tərifəlayiq Allahın yolunu göstərdiyini bilirlər” (Səba, 6).**

Uca Allah elmin səviyyəsini açıqlayaq buyurub: “**Allah sizdən iman gətirənləri ucaldar və özlərinə elm verilmiş kimsələri isə daha**

---

[88] Buxari və Muslim. Buxari 1400-cü hədis və Müslim 1053-cü hədisi. Əbu Səid Əl-Xudrinin rəvayət etmişdir.
[89] Əbu Davud, 3641-ci hədis, İbn Macə, 222-ci hədis və Tirmizi, hədis 2682 Tirmizi dedi: (Bu, daha səhihdir), hamısı Əbu Dərdanın *(Allah ondan razı olsun)* hədisidir.

**yüksək dərəcələrə qaldırar. Allah nə etdiklərinizdən xəbərdardır" (Mucadilə, 11).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Kim elm öyrənmək üçün yola çıxarsa , Allah da onu cənnətə gedən yola yönəldər. Mələklər razılıq əlaməti olaraq qanadlarını elm tələbəsinin önünə sərərlər".***[90]

## Sual 64: Müsəlmanların alimlərə baxışı necədir?

Müsəlmanlar alimlərə ehtiram və hörmətlə yanaşırlar, lakin onlara qanunvericilik (şəriət təyin etmək), müqəddəslik və ya məsumluq (günahsızlıq) xüsusiyyəti vermirlər. Buna görə də müsəlmana bilmədiyi zaman elm əhlindən soruşmaq əmr olunmuşdur. Uca Allah belə buyurub: "**Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun" (Ənbiya, 7).** Peyğəmbər (salləllahu aleyhi və səlləm) belə buyurub: ***"Bilmədikləri zaman soruşsaydılar nə olardı?!Çünki elmsizliyin dərmanı ancaq soruşmaqdır***[91] Müsəlmanlar inanırlar ki, alimlərin Allah və Onun Rəsulunun yanında uca bir məqamı var, buna görə də onlara dəyər verirlər. Lakin onlara kor-koranə tabe olmurlar. Çünki Uca Allah yəhudi və xristianların öz alimləri ilə davranışını pisləyərək müsəlmanları bundan çəkindirmiş və belə buyurmuşdur: Uca Allah belə buyurub: "**Onlar Allahı qoyub alimlərini, rahiblərini və Məryəm oğlu İsanı özlərinə tanrılar qəbul etdilər" (Tovbə, 31).** Bu ayənin təfsirində Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Məgər onlar Allahın haram etdiklərini halal, halal etdiklərini də haram edərkən siz onlara tabe olmurdunuzmu?" O dedi: "Bəli, ey Allahın elçisi!". Allahın elçisi də: "Bu elə onlara ibadət etməkdir" -dedi"***[92]

Müsəlman bilir ki, elminə əməl edən alimlər peyğəmbərlərin varisləri, dinin qoruyucuları və onun şahidləridir. Uca Allah buyurub: "**Allah, mələklər və elm sahibləri də, Ondan başqa (ibadətə layiq olan) məbud olmadığına ədalətlə şahidlik etmişlər. Ondan başqa (ibadətə layiq olan) məbud yoxdur. O, Qüdrətlidir, Hikmət sahibidir" (Ali- İmran, 18).**

---

[90] Əbu Davud, 3641-ci hədis, İbn Macə, 223-cü hədis, Tirmizi, 2682-ci hədis və İbn Hibban "Səhih", 830-cu hədisdə Əbu Dərda hədisindən rəvayət etmişdir.

[91] Əbu Davud, 336-cı hədis, İbn Macə, 572-ci hədis və əl-Hakim "Müstədrək"ində, hədis 639 İbn Abbasın hədisi olaraq rəvayət etmişlər. Buxari və Muslimin şərtlərinə uyğundur.

[92] Tirmizi, hədis 3095, Adi bin Hatim in hədisidir. Trimizi dedi: Qərib hədisdir

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***Göylərdə və yerdə olanlar, hətta sudakı balıqlar, elm öyrənən kimsəyə, istiğfar edərlər (Allahdan bağışlanması üçün dua edərlər). Alimin (elm sahibinin) abiddən (ibadət edəndən) üstünlüyü, ayın, digər ulduzlardan üstünlüyü kimidir. Alimlər peyğəmbərin varisləridirlər.***[93]

## Sual 65: Müsəlmanın yaşlı insanlara baxışı necədir?

Müsəlman yaşlı insanlara qarşı rəhmət, şəfqət, qayğı ilə davranmalı və onlara dəyər verməlidir. İstər bu öz valideyinləri olsun, istətsə də başqaları. Valideyinlərə gəlincə, onlara kamil şəkildə qayğı göstərməli və diqqət yetirməlidir. Uca Allah buyurub: **“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!"– de” (İsra, 23, 24).**

Ümumən yaşlı insanlara gəlincə, istər valideynləri olsun, istərsə də əmiləri, bibiləri, dayıları, xalaları, qonşuları və başqa insanlar, hər bir yaşlı insana hörmət etmək müsəlmana vacibdir. Allah elçisi *(sallallahu aleyhi və səlləm) belə* buyurub: ***“Böyüyə hörmət etməyən bizdən deyil”.***[94] Həmçinin Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***“Kiçiyimizə rəhm etməyən, böyüyümüzün haqqını bilməyən kəs bizdən deyil”.***[95] Başqa hədisdə belə buyurub: ***“İnsanlara rəhm etməyənə Allah rəhm etməz”.***[96]

## Sual 66: Müsəlmanın uşaqlara baxışı necədir?

İstər insanın öz övladları və nəvələri olsun, istərsə də başqaları, müsəlmanın uşaqlara baxışı belədir ki, uşaqların öz hüquqları vardır və onlara rəhm etmək, onların qayğısına qalmaq, onların sağlamlığı,

---

[93] Əbu Davud, 3641-ci hədis, Tirmizi, 2682-ci hədis, İbn Macə, 223-cü hədis və İbn Hibban “Səhih”, 830-cu hədis. Əbu Dərda rəvayət etmişdir.
[94] İmam Əhməd “Musnəd” (2329). İbn Hibban “Səhih” (2493). Hədisi Abdullah ibn Abbas *(Allah ondan və atasından razı olsun)* rəvayət edib.
[95] Humeydi “Musnəd” (597). Əhməd (6733). Hədisi Abdullah ibn Amr *(Allah ondan və atasından razı olsun)* rəvayət edib.
[96] Buxari (6941). Muslim (2319). Hədisi Cərir ibn Abdullah *(Allah ondan razı olsun)* rəvayət edib.

psixologiyası, təlimi və cəmiyyətdəki halı ilə maraqlanmaq və onlara qayğı göstərmək lazımdır. Çünki onlar dünyanın bər-bəzəyi, həyatın sevincidir. Uca Allah buyurub: **“Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir” (Kəhf, 46).** Həmçinin Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“...kiçiklərə rəhm etməyən bizdən deyil”.***[97] Allah Elçisinin *(sallallahu aleyhi və səlləm)* nəvəsi vəfat etdikdə o ağladı, sonra isə belə dedi: ***“Bu, Allahın qullarından istədiyinin qəlbinəqoyduğu bir rəhmətdir. Allah öz qullarından yalnız rəhm edənlərə rəhm edir”.***[98] Aişə *(Allah ondan razı olsun)* deyir ki, bir dəfə bədəvi ərəblər Allah elçisinin *(sallallahu aleyhi və səlləm)* yanına gəlmişdilər. Onlar dedi: “Məgər siz öz övladlarınızı öpürsünüz?” Orada olanlar “bəli” deyə cavab verdilər. Onlar dedi: “Biz isə Allaha and olsun ki, onları öpmürük”. Bu zaman Allah elçisi belə buyurdu: ***“Əgər Allah sizdən (qəlbinizdən) mərhəməti çıxarıbsa, mən sizin üçün nə edə bilərəm?”***[99] Həmçinin Ənəs ibn Məlikdən *(Allah ondan razı olsun)* rəvayət olunur ki, o belə demişdir: ***“Mən uşaqlara qarşı Allah Elçisindən (sallallahu aleyhi və səlləm) daha çox rəhmli olan birini görmədim”.***[100]

## Sual 67: Müsəlmanın heyvanlara baxışı necədir?

Müsəlmanın nəzərində heyvanlar, Allahın yaratdığı məxluqlardır və onların yaradılmasında Uca Allahın bildiyi müəyyən hikmətlər vardır. Biz bəzi heyvanların yaradılmasında olan müəyyən hikmətləri bilməsək də, ümumən bilirik ki, yer üzündə olan hər bir şeyin yaradılışında hikmətlər var və bu hikmətlərdən biri də, onların mükəlləflərə (insanlara) xidmət etməsi üçün yaradılmasıdır. Uca Allah buyurub: **“Gəmilərin Onun əmri ilə dənizdə üzməsi və sizin də Onun lütfündən axtarmanız üçün dənizi sizin xidmətinizə verən Allahdır. Bəlkə, şükür edəsiniz. Göylərdə və yerdə olanların hamısını O, sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır” (Casiyə, 12-13).**

Həmçinin Uca Allah buyurub: **“Rəbbin bal arısına belə təlqin etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin**

[97] Humeydi “Musnəd” (597). Əhməd (6733). Hədisi Abdullah ibn Amr *(Allah ondan və atasından razı olsun)* rəvayət edib.
[98] Buxari (5331). Hədisi Usəmə ibn Zeyd *(Allah ondan razı olsun)* rəvayət edib.
[99] Muslim (2317).
[100] Muslim (2316).

**səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır” (Nəhl, 68-69).**

Allahın yaratdığı bu heyvanların da həmçinin hüquqları vardır və bu hüquqlardan biri də budur ki, səbəbsiz yerə onlara qarşı həddi aşmaq icazəli deyil. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Ruhu olan heç bir şeyi hədəfə çevirməyin”.***[101] Kim təlim yaxud əyləncə üçün ruhu olan bir canlını hədəfə alarsa, o kəs lənətlənməyə və Allahın rəhmətindən qovulmağa layiq olar. Necə ki, bir dəfə İbn Ömər *(Allah ondan və atasından razı olsun)* qureyşli gənclərin yanından keçərkən, onların quşu hədəfə alaraq ox atdıqlarını, hədəfə dəyməyən oxları isə quşun sahibinə verdiklərini gördü. Onlar İbn Öməri gördükləri zaman qaçıb dağılışdılar. İbn Ömər belə dedi: ***“Bunu edən kim idi? Allah bunu edənə lənət etsin! Həqiqətən, Allah elçisi (sallallahu aleyhi və səlləm) ruhu olan canlını hədəfə çevirən kəsi lənətləmişdir”.***[102] Həmçinin heyvanların üzünə damğa vurmaq və ehtiyac olmadan heyvanları vurmaq icazəli deyil. Cəbir *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir dəfə Allah elçisinin *(sallallahu aleyhi və səlləm)* yanından, üzünə damğa vurulmuş uzunqulaq keçdi. O belə dedi: ***“Məgər sizə çatmayıb ki, mən heyvanın üzünə damğa vuran kəsləri lənətləmişəm?”*** Beləliklə o bunu qadağan etdi.[103]

Minməyimiz və müəyyən işlər görməyimiz üçün icazəli olan heyvanlara gəlincə, çalışmalıyıq ki, onları taqəti çatmayan şeylərlə yükləməyək. Səhl İbn Hənzalə *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir dəfə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* aclıqdan beli qarnına çatmış bir dəvəni görüb belə dedi: ***“Bu dilsiz heyvanlarla davranarkən Allahdan qorxun. Onları sağlam ikən minin və sağlam ikən yeyin”.***[104]

Yeyiləsi icazəli olan heyvanlara gəldikdə isə onları gözəl və tez şəkildə kəsmək lazımdır ki, ağrıları artmasın. Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Həqiqətən, Uca Allah hər bir şeydə yaxşılığı vacib etmişdir. Öldürdüyünüz zaman gözəl tərzdə öldürün.***

---

[101] Muslim (1957) Hədisi Abdullah ibn Abbas *(Allah ondan və atasından razı olsun)* rəvayət etmişdir.
[102] Muslim (1958)
[103] Əbu Davud (2564). Şeyx Albani səhih olduğunu demişdir.
[104] Əbu Davud (2548). İbn Xuzeymə öz Səhihində (2545) rəvayət etmiş və Şeyx Albani səhih olduğunu demişdir.

***Heyvan kəsdiyiniz zaman gözəl tərzdə kəsin. Sizdən biriniz bıçağını itiləsin və kəsəcəyi heyvanı rahatlasın".***[105] Müsəlmana heyvanlara, xüsusən də ev heyvanlarına yaxşılıq etmək əmr olunmuşdur. Hətta ev heyvanları olmasa belə, zərurət olmadan onlara qarşı həddi aşmaq icazəli deyil. Ev heyvanlarının bizim üzərimizdə haqqı var ki, onlara sığınacaq verək, onları yedirək və onları ac-susuz qoyub bağlı saxlamayaq. Bu İslamda heyvanların bəzi hüquqlarıdır. Heyvanlara pislik edənlər üçün İslam dinində şiddətli təhdid gəlmişdir. Abdullah ibn Ömər *(Allah ondan və atasından razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Pişiyə görə bir qadına əzab verilmişdir. O ölənə qədər pişiyi bağlı saxlamış və ona görə Cəhənnəmə daxil olmuşdur. Pişiyi bağladığı zaman nə özü ona yemək və su vermişdir, nə də onu yerdən bitən bitkilərdən yeməsi üçün sərbəst buraxmışdır".***[106]

## Sual 68: Əxlaq cəhətdən orta yolda olmağın İslamda yeri nədir?

Həqiqətən də, İslam dini hər şeydə olduğu kimi, əxlaq cəhətdən də orta bir dindir. O müsəlmanı ədalətli və xeyirli olmağa həvəsləndirir. Müsəlman nə həddən artıq sərt və ciddi, nə də əksinə həddən artıq yumşaq və yüngülxasiyyət olmalı deyil. Ona görə də, İslam dini ədalətli olmağı əmr etmişdir. Bu ümmət bütün işlərində orta yolda olduğu üçün, Uca Allah onu **"Orta ümmət"** adlandırmışdır.

Müsəlman peyğəmbərlərə iman etməkdə və onların haqqını verməkdə ifrata varanlarla haqsızlıq edənlər arasında orta yoldadır. Nə Allaha xas olan haqları peyğəmbərlərə verən və onlara ibadət edənlər kimi, nə də əksinə onların bir qisminə küfr edən və onların haqqını verməyənlər kimi deyildir.

İslam əhli həmçinin İblisin addımları ilə gedərək, Allahın izni olmadan pak olan şeyləri özlərinə haram edənlərlə, əksinə nəfsi istəklərinə uyaraq murdar və haram olan şeyləri halal edənlər arasında orta yoldadır.

Həmçinin öz malından xərclədikdə belə müsəlmana ədalətli olmaq və orta yol tutmaq əmr olunmuşdur. Uca Allah buyurub:

[105] Muslim (1955). Hədisi Şəddəd ibn Əvs *(Allah ondan razı olsun)* rəvaryət etmişdir.
[106] Buxari (3482). Muslim (2242).

**“Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.” (İsra, 26).**

Həmçinin belə buyurub: **“Əlini nə qoynunda gizlət, nə də onu büsbütün aç (nə xəsis ol, nə də israfçı). Yoxsa qınanmış və peşman vəziyyətdə qalarsan” (İsra, 29).** İnsan orta yol tutduğuna görə tərifə layiq olur. Məhz buna görə, Uca Allah möminləri tərifləyərək buyurub: **“Onlar mallarını xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar” (Furqan, 67).** Bu, ümumi olaraq insanın həm özünə, həm ailəsinə və həm də başqalarına xərcləməsinə aiddir və xərclədiyi yolların hamısına şamil olunur. Bu hökm müsəlmanın əxlaqi cəhətdən orta yolda olmasını və hikmətinin kamilliyini göstərir. Çünki bununla o vacibləri və yerinə yetirlməsi lazım olan şeyləri yerinə yetirir, tərk olunması gərəkən şeyləri isə tərk edir. Bərəkətin sirri də məhz mötədil olmaqdadır və orta yol tutan kəs heç vaxt ziyana uğramaz.

## Sual 69: İslamda gözəl əxlaqın yeri nədir?

Müsəlmana bütün davranışlarını gözəl yerinə yetirmək əmr olunmuşdur. Bu, Allahla tam ixlaslı olmaq, əməlləri mükəmməl yerinə yetirmək və məxluqlarla gözəl əxlaqla rəftar etmək, vəzifəni düzgün yerinə yetirməklə olur. Müsəlmana vacibdir ki, yaxşılıq etsin və əfv etməyə və bağışlamağa çalışsın. İslam dini onu məxluqlara yaxşılıq etməyə həvəsləndirmiş və bildirmişdir ki, bununla o, Allahın sevgisinə nail olur. İslam dini insana xətalardan keçməyi və pisliyi əfv etməyi əmr edir və bunun ən yaxşı əməllərdən olduğunu xəbər verir. Həmçinin cahili öyrətmək, azmış bir kəsi doğru yola yönəltmək, insanlara nəsihət etmək, ehtiyac sahibinə yardım etmək, darda qalanı sıxıntıdan qurtarmaq və ondan zərəri uzaqlaşdırmaq, ehtiyacı olan kəslərin ehtiyacını qaşılamaq, insanlara fayda verəcək işlərdə onlar üçün vasitəçilik etmək də ən böyük yaxşılıqlardandır. Edilən ən əzəmətli yaxşılıqlardan, sənə qarşı xətaya yol verən və pislik edən kəsləri əfv etmək və onların səhvlərinə göz yummaqdır. Uca Allah buyurub: **“Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar.” (Yunus, 26).** Uca Allah buyurub: **“Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?” (Rahmən, 60).** Həmçinin belə buyurub: **“Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir. (Bəqərə,**

**195)**. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə demişdir: ***"Kim Cəhənnəmdən uzaqlaşdırılıb Cənnətə daxil edilməsini istəyirsə, ölüm ona gəldikdə, Allaha və Axirət gününə iman gətirdiyi halda olsun və insanların onunla necə davranmasını sevirsə, özü də onlarla elə davransın".***[107]

## Sual 70: İslamda gözəl davranmağın yeri nədir?

Həqiqətən də, İslam dini gözəl rəftar etməyi, xüsusən də valideyinlərlə gözəl davranmağı və onlara yaxşılıq etməyi əmr edir. Uca Allah buyurub: **"Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!"– de. Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh olsanız, bilin ki, həqiqətən də, O, tövbə edənləri Bağışlayandır. Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə" (İsra, 23-26).** Uca Allah bu ayələrdə valideyinləri xüsusi qeyd edərək onlarla yaxşı davranmağı buyurur və ümumi olaraq bütün qohumlara, qonşulara, kasıblara və başqa insanlara yaxşılıq etməyi əmr edir. Bu həm sözlərdə, həm də əməllərdə olan yaxşılığı əhatə edir. Həmçinin yetimə yaxşılıq etmək, onu himayə və tərbiyə etmək və onun malını qorumaq da bura daxildir. Uca Allah buyurub: **"Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın!" (Ənam, 152. İsra, 34).** Həmçinin belə buyurub: **"Elə isə yetimə xorbaxma!" (Duha, 9).** Başqa ayədə belə buyurub: **"Səndən yetimlər haqqında soruşurlar. De: "Onlara yaxşılıq etmək xeyirlidir" (Bəqərə, 220).** Həmçinin İslam dini hətta kölə olsa belə, xidmətçilərlə də gözəl davranmağı əmr edir. Mərur ibn Suveyd deyir ki, mən Əbu Zər Əl-Ğifərini gördüm, onun əynində izar və rida olduğu kimi, xidmətçisinin də əynində izar və rida var idi. Biz bu haqda ondan soruşduq və o belə dedi: "Bir dəfə mən bir kişini təhqir etdim, o da məndən Allah Elçisinə *(sallallahu aleyhi və səlləm)* şikayət etdi. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Sən bir kişini***

[107] Muslim (1844). Hədisi Abdullah ibn Amr *(Allah onlardan razı olsun)* rəvayət etmişdir.

***anasına görəmi qınadın?"*** Sonra belə dedi: ***"Həqiqətən, kölələriniz də sizin qardaşlarınızdır, Allah onları əlinizin altında xidmətçi etmişdir. Ona görə də, kimin əlinin altında kölə qardaşı olarsa, özü yediyindən ona da yedirsin, özü geyindiyindən ona da geyindirsin. Onları gücləri çatmayan şeylərlə vəzifələndirməyin. Əgər onlara gücləri çatmayan bir iş buyursanız, o zaman onlara yardım edin".*** [108]

## Sual 71: İslamda ən əzəmətli ibadətlər hansılardır?

Həqiqətən də, İslam əzəmətli bir dindir. O özündə böyük ibadətləri əhatə edir, hansı ki, bu ibadətlərdə nəfsin, ailənin, cəmiyyətin və dövlətlərin, həmçinin dünya və axirətin islahı vardır. İslamda olan bu əzəmətli ibadətləri dərəcəsinə görə belə sıralamaq olar:

**Tövhid.** Bu, tək Allaha ibadət etmək və ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltməməkdir. Məhz bununla insan məxluqlara qul olmaqdan azad olur. **"lə iləhə illəllah"** şəhadətinin mənası da budur.

**İttiba - Peyğəmbərə tabeçilik** *(sallallahu aleyhi və səlləm)*. Bu isə qulun bütün ibadətlərdə və Allaha yaxınlaşdığı bütün əməllərdə Allah Elçisini *(sallallahu aleyhi və səlləm)* özünə nümunə götürməsidir. Bununla da o, insanlara tabeçilikdən azad olur və **"Muhəmmədən rasulullah"** şəhadətinin mənası da budur.

**Namaz.** Gecə və gündüz ərzində beş dəfə, müəyyən şəkildə, bəlli saylarda və xüsusi vaxtlarda yerinə yetirilən ibadətdir. Qul namaz qılmaqla Allahın razılığına nail olur, öz Rəbbinə müraciət edir, günahlardan təmizlənir, aləmlərin Rəbbi yanında öz dərəcəsini qaldırır. Üstəlik namaz, müsəlmanların bir yerə toplanmasına və həmrəyliyinə, həmçinin aralarında sevgi və bağlılığın yaranmasına səbəb olur.

**Zəkat –** mal ilə yerinə yetirilən ibadətdir. İlin müəyyən vaxtında və ya hansısa mövsümdə bəzi malların bir hissəsini Allah üçün verməklə yerinə yetirilir və müsəlman camaatının işlərinə sərf olunur. Zəkatla kasıblara yardım olunur, mala ehtiyacı olanların qəlbi İslama alışır, kölələr azad edilir, borclu olanların borcları ödənir, İslamı

---

[108] Buxari (2545)

müdafiə etmək və Allah yolunda döyüşmək üçün onunla silah alınır. Bu ibadət insanların qəlbini bir-birinə bağlayır və onlardan şəri dəf edir.

**Oruc –** Hər il Ramazan ayında yerinə yetirilən ibadətdir. Oruc tutduğu zaman müsəlman Sübh çağından gün batana qədər yemək, içmək və şəhvəti (cinsi əlaqəni) tərk edir. Orucu gücü çatan adam tutmalıdır. Müsafir və ya xəstə insanlardan kimin oruc tutmağa taqəti olmazsa, tutmadığı günlərin sayı qədər başqa günlərdə oruc tutmalıdırlar. Əgər yaşlı olduğu üçün insanın tamamilə oruc tutmağa gücü çatmırsa, bu zaman o, hər günün əvəzinə bir nəfəri yedirtməlidir. Oruc elə bir ibadətdir ki, onunla insanın səbri bəlli olur, insan kasıbların və miskinlərin halından xəbərdar olur, həmçinin onda cəmiyyətin birliyi, insanların qəlblərinin bir-birinə bağlanması kimi həm nəfs, həm də cəmiyyət üçün bir çox faydalar vardır.

**Həcc –** ildə bir dəfə Məkkədə, müəyyən formada və xüsusi günlərdə edilən ibadətdir. Həcc ziyarəti insana ömründə bir dəfə vacibdir və bu da yalnız bacaran və gücü çatan insana aiddir. Həcc özündə İslamın digər rüknlarını da əhatə edən bir ibadətdir və Həcc ibadətində tövhid, namaz, mal xərcləmək, səbr edib özünü saxlamaq kimi ibadətlər də cəm olmuşdur. Bundan əlavə Həccdə insanların qəlbi birləşir, müsəlman cəmiyyətinin birliyi hasil olur və insanların siniflərə və irqlərə bölünməsi aradan qalxır.

**Müamilə.** Həqiqətən də, insanlarla gözəl davranmaq ən böyük ibadətlərdəndir. Gözəl rəftar dedikdə, həm valideyinləri, qohumları, qonşuları, həm də başqalarını əhatə edir. Müsəlman müamilə etdiyi hər bir kəslə, istər müsəlmanlarla əhd bağlayan, istərsə də onlarla müharibə edən kəslərlə, hətta müharibədə əsir düşən kimsələrlə gözəl davranmalıdır. İnsanın bunları Allaha yaxınlaşmaq üçün etməsi böyük ibadətlərdən hesab olunur. Uca Allah Qiyamət günü nicat tapan möminləri vəsf edərək belə buyurub: **“Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik!” (İnsan, 8-9).** Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə demişdir: ***“İnsanlar arasında Allaha ən sevimli olanı, insanlar üçün ən çox faydalı olan kəsdir. Əməllərdən Allaha ən sevimli olanı isə, bir müsəlmanı sevindirməyin yaxud onun sıxıntısını aradan qaldırmağın yaxud onun əvəzinəborcunu ödəməyin yaxud onu aclıqdan***

***qurtarmağındır. Həqiqətən də, qardaşlarımdan birinin ehtiyacı üçün gəzmək mənim üçün burada, Mədinə məscidində bir ay etikaf etməkdən daha sevimlidir. Kim qəzəblənməkdən özünü saxlayarsa, Allah onun eyiblərini örtər. Kim qəzəbini həyata keçirməyə qadir olduğu halda onu boğarsa, Qiyamət günü Uca Allah onun qəlbini razılıqla doldurar. Kim bir müsəlman qardaşının ehtiyacını ödəyənə qədər onun dalınca gəzərsə, Uca Allah ayaqların sürüşəcəyi gündə onun ayaqlarını möhkəm edər".*** [109] Həmçinin Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Həqiqətən də, Uca Allah Yəhyə ibn Zəkəriyyəyə beş şeyi əmr etedərək buyurmuşdur: "Birincisi, Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın... Allah sizə namaq qılmağı da əmr etmişdir. Namaz qıldığınız zaman sağa-sola boylanmayın... Həmçinin Mən sizə oruc tutmağı əmr edirəm... Həmçinin Mən sizə sədəqə verməyi əmr edirəm... Həmçinin Mən sizə Allahı zikr etməyi əmr edirəm".*** Sonra Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Mən də Allahın mənə buyurduğu beş şeyi sizə əmr edirəm; Eşitməyi, itaət etməyi, Allah yolunda cihad etməyi, hicrət etməyi və camaatla birlikdə olmağı".*** [110] Cihad etmək,yaxşılığı əmr etmək və pis əməllərdən çəkindirmək, İslam dininin himayə olunmasına və yayılmasına səbəbdir. Hər bir münkər və çirkin əməli tərk etmək ibadət sayılır. Həmçinin qədərə səbir etmək böyük ibadətdir və yuxarıda qeyd etdiklərimizin hamısı müsəlmanlar üçün ən mühüm ibadətlərdəndir.

### Sual 72: İslamda namazın yeri nədir?

Namazın İslamda yeri böyükdür və o, İslamın beş rüknundan ikincisidir. İslam dini müsəlmana namaz qılmağı əmr edir və namazı tərk etməyi qadağan edir. Həmçinin namazı layiqincə qılanları tərifləyir, onlara mükafat veriləcəyi barədə xəbər verir, namazlarına qarşı səhlənkarlıq edənləri isə məzəmmət edir və onların cəzası barədə xəbər verir. Namazın şəninin necə böyük olduğunu Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* həyatından bilmək olar. Sonradan ümmət bir-birinə ötürərək onu sonrakı nəsillərə çatdırmışlar və hər bir uşaq, böyük, alim, cahil namazın şənini bilmişdir. Uca Allah buyurub: **"Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə**

---

[109] Tabərani "Əl-Mucəmul kəbir" (13646). Əl-Əsbəhəni "Ət-tərğib vət tərhib" (1162). Şeyx Albani Munzirinin "Ət-tərğib vət tərhib" əsərində həsən liğeyrihi adlandırmışdır.
[110] Tirmizi (2763). Hədisisn həsən səhih ğarib olduğunu demişdir.

**sizdən sovuşduqda isə, namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir". (Nisə, 103).** Həmçinin Uca Allah ümumən bütün namazları, xüsusilə də Orta (Əsr) namazını qorumağı əmr etmişdir. Uca Allah buyurub: **"Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun". (Bəqərə, 238).** Həqiqətən də, namaz qulun yükünü yüngülləşdirən, onun dərdini və kədərini aradan qaldıran ibadətlərdəndir. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Siz yanırsınız, yanırsınız (günah edirsiniz), Sübh namazını qıldıqda, o, (günahlarınızı) yuyub aparır. Sonra yenə yanırsınız, yanırsınız və Zöhr namazını qıldıqda, o, (günahlarınızı) yuyub aparır. Sonra yenə yanırsınız, yanırsınız və Əsr namazını qıldıqda, o, (günahlarınızı) yuyub aparır. Sonra yenə yanırsınız, yanırsınız və Məğrib namazını qıldıqda, o, (günahlarınızı) yuyub aparır. Sonra yenə yanmağa davam edirsiniz və nəhayət İşa namazını qıldıqda, o, (günahlarınızı) yuyub aparır. Ondan sonra yatırsınız və yuxudan oyanana qədər sizə heç bir günah yazılmır".*** [111] Xəstə və müsafirlər üçün namazla bağlı əhkamların yüngülləşdirilməsi və onların bacarıq və taqətlərinə bağlı olması, zərurət və ehtiyac anında, yağış yağarkən, səfərdə və ya xəstə olduqda Zöhrlə Əsr namazını, Məğriblə də İşa namazını cəm edib birlikdə qılmağın icazəli olması da bu şəriətin nə qədər mükəmməl olduğunu göstərir.

## Sual 73: İslamda namazın faydaları nədir?

Həqiqətən də, Allahın müsəlmanlara vacib buyurduğu namazın fərdlərə, cəmiyyətə, insanın nəfsinə, bədəninə, həm bu dünyada, həm də axirətdə çoxlu və böyük faydaları vardır. Onlardan:

1. Namaz insanı Allahı təkləşdirməyə aparıb çıxarır və onun qəlbində tövhidi möhkəmləndirir. Çünki namazda deyilən şəri sözlər və tələb olunan ixlas, insanı tövhidə sövq edir.

2. Namaz, kamil imana nail olmağın yoludur və insanın pis və çirkin əməllərdən, zülm etməkdən və həddi aşmaqdan çəkinməsinə səbəb olur.

[111] Təbərani, "Əl-Əvsat" (2224). Şeyx Albani "Səhih ət-tərğib və ət-tərhib" əsərində hədisi həsən-səhih adlandırmışdır.

3. Zahiri ibadətlər arasında ən birinci fərz edilən əməl namazdır və bu da onun mühümlüyünə dəlalət edir. Həmçinin namaz, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* ümmətinə etdiyi ən sonuncu vəsiyyətlərindəndir.

4. Namaz insanın kəmhövsələ və səbirsiz olmaqdan çəkinməsinə səbəb olur və qədərə səbir etməsinə yardım edir. Bu səbəbdən də, Uca Allah buyurub: **"Həqiqətən, insan kəmhövsələ yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə xəsislik edir. Namaz qılanlar istisnadır. O kəslər ki, namazlarını həmişə qılırlar". (Məaric, 19-23).** Həmçinin başqa ayədə belə buyurub: **"Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!" (Bəqərə, 153).**

5. Namaz İslamın dirəyidir və insanın zahirən müsəlman olmasına dəlalət edir. Muaz ibn Cəbəlin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Sənə dinin başı, onun dirəyi və ən uca zirvəsi barədə xəbər verimmi? Dinin başı İslam, dirəyi namaz, ən uca zirvəsi də cihaddır".***[112] Namazın həmçinin başqa bir çox faydaları da vardır və namazlarını mütiliklə və itaətlə qılan və onları qoruyan kəslər bu faydaları daha yaxşı bilir.

## Sual 74: İslamda zəkatın yeri nədir?

Həqiqətən də, İslam dini zəkat verməyi əmr edir. Zəkat, Şəriətdə gələn mötəbər şərtlərlə müəyyən mallardan götürülən bir hissədir. Uca Allah zəkatı əmr etmiş, zəkat verənləri tərifləmiş və zəkatın dində vacib əməllərdən olduğunu bildirmişdir. Həmçinin zəkat verməkdən imtina edənləri məzəmmət etmiş,onları şiddətli əzabla hədələmiş və xəbər vermişdir ki, onların xəsislik etdikləri mal-dövlət Qiyamət günü boyunlarına dolanacaq və yığıb topladıqları xəzinələrilə onlaraəzab veriləcəkdir. Qiyamət günü yığdıqları qızıl-gümüş Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaqdır. Uca Allah buyurub: **"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından Allah yolunda xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis**

[112] Tirmizi (2616) Həsən səhihdir.

**şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir. Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatəedəndir, Biləndir". (Bəqərə, 267-268).** Həmçinin Uca Allah zəkatın yalnız ictimai işlərdən ötrü olduğunu bildirmişdir. Uca Allah buyurub: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Hikmətlidir". (Tövbə, 60).** Kim Şəriətdə zəkatla bağlı əhkamlara fikir versə, İslam dininin Allahın haqq dini olduğunu anlayar. Belə ki, Uca Allah varlılara əmr etmişdir ki, kasıblara yardım etsinlər. Lakin eyni zamanda varlıların da haqqını qorumuş və mallarının tamamilə yox olmsına səbəb olan bir şey əmr etməmişdir. Uca Allah onlara bütün mallarını deyil, yalnız insan nəfsinin bağlı olduğu bir neçə növ malın az bir miqdarını zəkat verməyi buyurmuş və bunu da böyük hikmətlərdən və əhkamlardan ötrü etmişdir. Hansı ki, zəkatda olan hikmətləri yalnız onu araşdırdıqdan, öyrəndikdən və çoxlu düşündükdən sonra dərk etmək mümkündür. Ona görə də, hədisdə zəkatın vəsfi barədə gəlmişdir ki, o insanın dininin doğruluğuna və imanının kamilliyinə dəlalət edir. Əbu Məlik Əl-Əşari *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurdu: ***"Namaz nurdur, zəkat dəlildir, səbir isə işıqdır".***[113]

## Sual 75: İslamda zəkatın faydaları nədir?

Həqiqətən də, Allahın müsəlmanlara vacib etdiyi zəkatın insana, cəmiyyətə, nəfsə və bədənə həm bu dünyada, həm də axirətdə çoxlu və böyük faydaları vardır. Onlardan:

1. Zəkat insanı, Allahı təkləşdirməyə aparıb çıxarır və onun qəlbində tövhidi möhkəmləndirir. Çünki zəkat verən insan onu ixlasla, Allahın üzü xatirinə verir.

2. Zəkat imanın kamilliyinə səbəb olur və zəkat verən insan onunla qəlbini nifaqdan, kin-küdurətdən və yalandan təmizləyir.

[113] Nəsai (2437). İbn Macə (280). İbn Hibban (542).

3. Zəkatın imanın üçüncü rüknu olması və bir çox yerdə namazla yanaşı gəlməsi də onun mühümlüyünə dəlalət edir. O, mal ilə edilən vacib ibadətlərdəndir və müsəlmanların mənfəəti üçün əmr olunmuşdur.

4. Zəkat həmçinin, nəfsin təmizlənməsi üçün səbəbdir. Uca Allah buyurub: **“Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan”. (Tövbə, 103).**

5. Zəkat malı təmizləyir, onun bərəkətli olmasına səbəb olur, kasıbların qəlbinin varlılara qarşı gözəl olmasına aparıb çıxarır, onunla cəmiyyət arasında birlik hasil olur, kasıb zənginin malının qorunmasına həris olur, varlı da eyni zamanda kasıbın halına yanır. Ənəs ibn Məlik *(Allah ondan razı olsun)* rəvayət edir ki, Bəni Təmim qəbiləsindən olan bir kişi Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yanına gəldi və belə dedi: “Ey Allahın elçisi, mən çoxlu mal sahibiyəm və mənim ailəm, övladlarım və evim vardır. Mənə de görüm, onlara necə xərcləməliyəm və necə etməliyəm? Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***“Malının zəkatını çıxar, Çünki bu səni (günahlardan) təmizləyir. Qohum-əqrabanla əlaqələri möhkəmləndir, dilənən kəsin, qonşunun və kasıbın haqqını bil”.*** Kişi dedi ki, ey Allahın Elçisi, mənim üçün azalt. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***“Qohumun, kasıbın, müsafirin haqqını ver və israfçılıq etmə”.*** O kişi belə dedi: “Ey Allahın Elçisi, bu mənə kifayətdir! Əgər mən sənin göndərdiyin elçiyə zəkat versəm Allahın və Rəsulunun qarşısında malın borcunu ödəmiş oluram mı?” Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***“Bəli. Əgər göndərdiyim elçiyə zəkat versən, artıq boynunda olan zəkatı vermiş olursan. Bu halda sən onun əcrini qazanırsan. Günahı isə sonradan onu dəyişən kəs qazanır”.*** [114]

## Sual 76: İslamda orucun yeri nədir?

Həqiqətən də, İslam dini oruc tutmağı əmr edir və oruc camaatla yerinə yetirilən əzəmətli ibadətdir. Orucla qəlblər birləşir, nəfslər təmizlənir, varlılar kasıbların halını hiss edir və vəziyyətini başa düşür. Uca Allah buyurub: **“Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə pis**

[114] Əhməd (12349). Hakim (3374). Hakim demişdir ki, bu hədis Buxarivə Muslimin şərtinə uyğundur. İmam Zəhəbi də onunla razılaşmışdır.

**əməllərdən çəkinəsiniz" (Bəqərə, 183).** Oruc ibadəti müəyyən bir ayda, Ramazan ayında vacib edilmişdir. Uca Allah buyurub: **"Müəyyən sayda olan günləri oruc tutmalısınız. Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Buna taqəti olmayanlar isə (buraxdığı hər gününün əvəzinə) bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar. Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir. İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdır. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz" (Bəqərə, 184-185).** Oruc tutmaq insanı hər bir halında Allahdan qorxmağa və təqvalı olmağa aparıb çıxarır. Çünki oruc insanı nəfsin istək və arzularına, eləcə də təbiətinin meyl etdiyi şeylərə qarşı səbirlə müqavimət göstərməyə alışdırır. Əgər oruc tutmaqla nəfs bu şeyləri tərk etməyə öyrəşərsə, o zaman haramları da tərk etmək onun üçün asanlaşacaqdır. İnsanın təqvalı olması da məhz haramları tərk etməklə tamamlanır. Oruc tutmaq əslində oruc vaxtı haram olan və orucu pozan şeyləri tərk etməkdir və eyni zamanda insanı kasıblara rəhm etməyə sövq edir. Allah üçün ixlaslı olmaq və Allahın qullarına yaxşılıq etmək isə təqvanın cəm etdiyi şeydir və bunların hər ikisi oruc ibadətində cəm olmuşdur. İslam dinində yaşlı insanlar, balaca uşaqlar, müsafir və xəstələr üçün oruc tutmaq asanlaşdırılmışdır və hər biri üçün ayrıca əhkamlar vardır. Bu da bir daha göstərir ki, orucun vacib edilməsində hikmətlər var. Uca Allah buyurub: **"Müəyyən sayda olan günləri oruc tutmalısınız. Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Buna taqəti olmayanlar isə (buraxdığı hər gününün əvəzinə) bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar. Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir" (Bəqərə, 184).**

## Sual 77: İslamda orucun faydaları nədir?

Həqiqətən də, Allahın müsəlmanlara əmr etdiyi orucun həm insan üçün, həm də cəmiyyət üçün çoxlu və böyük faydaları vardır. Oruc insanın həm bədəni, həm nəfsi, həm dünyası, həm də axirəti üçün faydalıdır. Onun faydalarından:

1. Oruc insanı tövhidə aparır və qəlbində tövhidi möhkəmləndirir. Çünki oruc tutan müsəlman onu ixlasla, Allahın üzü xatirinə tutur.

2. Oruc səbəbilə insan kamil imana nail olur, başqalarının halını hiss edir və bu ibadət sayəsində camaatın birliyi hasil olur.

3. Oruc islamın dördüncü rüknudur və bu da onun mühümlüyünə dəlalət edir. Həmçinin oruc tutmaq insana səbirli olmağı öyrədir.

4. Oruc tutmaq insanın nəfsini sındırır və onu təkəbbürlükdən uzaqlaşdırır. Çünki çox yemək, çox içmək və şəhvət insanı təkəbbürlüyə və qəflətə aparıb çıxarır.

5. Oruc tutmaq insanın iradəsini gücləndirir, nəfsini doğruluğa öyrəşdirir və adətlərin hökmranlığını zəiflədir. Çünki insan tək olduqda yeyib-içə bilər, lakin bunu etməkdən çəkinir. Həmçinin zəngin insan oruc tutduqda, Allahın ona verdiyi nemətlərin qədrini bilir və oruc səbəbilə insanlar arasında bərabərlik izhar olur və insanların yolları birləşir. Bundan əlavə orucun tibbi cəhətdən olan bir çox faydaları da peşəkar həkimlərə gizli deyil. Orucun bəzi hikmətləri barədə hədisdə də gəlmişdir. Əbu Hureyranın *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* deyir ki, Uca Allah belə demişdir: ***“Adəm oğlunun hər bir əməli onun üçündür, yalnız orucdan başqa, o Mənim üçündür və onun mükafatını Mən verəcəyəm. Oruc bir qalxandır. Əgər sizdən birinizin oruc tutduğu gün olarsa, pis söz danışmasın və səs-küy salmasın. Əgər kimsə onu söymək yaxud onunla dalaşmaq istəsə, desin ki, mən oruc tutmuşam. Muhəmmədin nəfsi əlində olan Allaha and olsun, oruc tutanın ağzından gələn qoxu Allah yanında müşk iyindən daha gözəldir. Oruc tutanın sevindiyi iki sevinc vardır; orucunu açdığı zaman və Rəbbi ilə görüşdüyü zaman”.***[115]

[115] Buxari (1904) və Muslim (1151).

## Sual 78: İslamda Həccin yeri nədir?

Həqiqətən də, İslam dininə tabe olan insanlara Həcc etmək əmr olunmuşdur. Həcc yalnız müqəddəs şəhər sayılan Məkkədə edilən və ilin müəyyən günlərində (Həcc aylarında) və məlum olan günlərdə yerinə yetirilən xüsusi bir ibadətdir. Uca Allah belə buyurub: **"Həqiqətən, aləmlərdən ötrü bərəkət və doğru yol göstəricisi kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir. Orada aydın nişanələr – İbrahimın məqamı vardır. Oraya daxil olanın təhlükəsizliyi təmin olunar. Evi (Kəbəni) ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur" (Ali İmran, 96-97).** Bu ayədə Uca Allah Həccin, yalnız gücü çatan insana vacib olduğunu vurğuladı. Buna görə də, Həccin vacib olması üçün insanın gücünün çatmasını şərtdir. Kim həm bədəni, həm də malı ilə Həcc etməyə qadir olar və onun Həcc etməsinə heç bir qorxu mane olmazsa, o zaman ona dərhal Həcc etmək vacib olar. Hər kimin də fiziki və ya maddi cəhətdən Həcc etməyə gücü çatmaz və ya Məkkəyə gedib çatmağı bacarmazsa, o kəsə Həcc etmək vacib deyildir. Həcc ziyarəti İslam dinində olan ən əzəmətli gözəlliklərdəndir. Belə ki, Həcc vaxtı insanlar müxtəlif irqə və cinsə məxsus olmalarına, müxtəlif ölkələrdən gəlmələrinə və müxtəlif dillərdə danışmalarına baxmayaraq, hamısı eyni libas geyinməklə və eyni vaxtda ayinləri yerinə yetirməklə məqsədlərində və ibadətlərində bərabər olurlar və aralarında bir-birinə qarşı elə bir yumşaqlıq, anlayış və yardımlaşma olur ki, insafı olan adam onu gördükdə, bu dinin Allahın haqq dini olduğunu başa düşər. Uca Allah buyurub: **"Rəbbinizdən lütf diləmək (həcc vaxtı ticarət etmək) sizə günah deyildir. Ərəfatdan axışıb gəldikdə Məşərulharamda Allahı yada salın! Sizi doğru yola yönəltdiyinə görə Onu yad edin. Hərçənd ki, bundan əvvəl siz azmışlardan idiniz. Sonra insanların axışıb gəldiyi yerdən siz də gəlin. Allahdan bağışlanmanızı diləyin. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir" (Bəqərə, 198-199).** Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Kim Allah üçün Həcc etsə və bu zaman pis söz danışmasa və fasiqlik etməsə, Həccdən qayıtdıqda, anadan olduğu gündə olduğu kimi günahsız qayıdar"***[116]

[116] Buxari (1534). Muslim (1350).

**Sual 79. İslamda Həccin faydaları nədir?**

Həqiqətən də, Allahın müsəlmanlara vacib etdiyi Həcc ziyarətinin fərdlərə, cəmiyyətə, insanın nəfsinə, bədəninə, həm bu dünyada, həm də axirətdə çoxlu faydaları vardır. Onlardan:

1. Həcc insanı Allahı təkləşdirməyə aparıb çıxarır və söz və əməllərlə onun qəlbində tövhidi möhkəmləndirir. Çünki müsəlman Həcc edərkən, Həcc ayinləri ilə bağlı olan bütün sözlər və əməllər onu tövhidə sövq edir.

2. Həcc, kamil imana nail olmaq, xüsusi müsəlman toplumunda yaşamaq, iman qardaşlığını və İslam bağlarını möhkəmləndirmək üçün bir yoldur.

3. Həccin mühümlüyünü göstərən dəlillərdən, onun İslamın rüknlərindən beşincisi olmasıdır. Həcc etməyə qadir olan müsəlmanın tikdiyi bina məhz onunla tamamlanır.

4. Həcc, nəfsi tərbiyə etmək və onu itaətə vərdiş etdirmək üçün bir iman məktəbidir və haramları tərk etmək üçün bir fürsətdir. O, insana nəfsi ilə mübarizə aparmağa və nəfsi istəklərinə müxalif olmağa yardım edir.

5. Həcc, ən əzəmətli İslam ayinlərindəndir. Həcc vaxtı müsəlmanların birliyi hasil olur, ayinlərinin və ibadətlərinin bir olması üzə çıxır. Onlar yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinə yardım edirlər, müxtəlif yerlərdə Allahı zikr edirlər və s. Uca Allah Həcc ayələrinin sonunda belə buyurub: **“Sayı müəyyən olan günlərdə (zil-Hiccənin 11-i, 12-si və 13-ü) Allahı yad edin. Kim iki gün ərzində ziyarətinitamamlayıb geri qayıtsa, ona heç bir günah olmaz. Kim (13-cü günü Minada) yubanarsa, ona da heç bir günah olmaz. Bu, Allahdan qorxanlara aiddir. Allahdan qorxun və bilin ki, Onun hüzuruna toplanılacaqsınız” (Bəqərə, 203).**

**Sual 80. İslamda təmizliyin və təmizlənməyin yeri nədir?**

Müsəlmana bədənini, paltarını və olduğu yeri təmiz saxlamaq vacibdir. İslamın əvvəllərində Uca Allah ayə nazil edərək bunu əmr etmişdir. Uca Allah buyurub: **“Təkcə Rəbbini uca tut! Geyimini təmiz saxla! Pis şeyləri tərk et!” (Muddəssir, 3-5).** Təmizliyə görə İslam dini ayaqyolunda təmizlənməyi əmr etmiş və xəbər vermişdir ki, ayaqyolunda nəcasətdən qorunmadığına görə insana qəbirdə əzab

verilir, halbuki, bunu etməsi elə də çətin bir iş deyil. İbn Abbas *(Allah ondan və atasından razı olsun)* rəvayət edir ki, bir dəfə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* iki qəbrin yanından keçərkən belə dedi: ***"Diqqət edin, həqiqətən də, bu ikisinə qəbirdə əzab verilir və elə də böyük bir şeyə görə əzab verilmir (yəni ondan çəkinə bilərdilər). Onlardan biri insanlar arasında söz gəzdirər, digəri isə ayaqyolunda özünü sidikdən qorumazdı".***[117]

Həmçinin, Uca Allah dəstəmaz almağı əmr edərək belə buyurub: **"Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun. Yaxınlıq edib natəmiz olmuşsunuzsa, qüsl edin. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə və ya qadınlara toxunmusunuzsa (cinsi əlaqədə olmuşsunuzsa), su tapmasanız, təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz". (Maidə, 6).** Həmçinin ər-arvadın pak olmaları və nəcasətdən qorunmaları üçün, İslam dini heyzli qadınla cinsi əlaqədə olmağı qadağan etmişdir. Uca Allah buyurub: **"Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlardan (cinsi əlaqədən) kənar olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın". Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da". (Bəqərə, 222).** Həmçinin İslam dini insana paltarına fikir verməyi, xüsusən də ibadət vaxtı gözəl paltar geyinməyi və övrət yerini örtməyi əmr etmişdir. Uca Allah buyurub: **"Ey Adəm oğulları! Məscidlərə gedərkən gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir. De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında hamıya, Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik". (Əraf, 31-32).**

## Sual 81: İslamda azan verməyin yeri nədir?

Azan, İslamın ayinlərindəndir. Dünyanın hər yerinə Allahın zikri yayılsın deyə, İslam dini hər namazın vaxtı girdikdə azan verməyi əmr etmişdir. Çünki yer üzündə elə bir vaxt yoxdur ki, hansısa yerdə

[117] Buxari, (6052). Muslim, (292)

namaz vaxtı girməsin. Belə ki, namaz səbəbilə yer üzü hər an Allahın zikri ilə canlanmış olur. Bütün yer üzü Allahın mülküdür və hər yerdə Allahı zikr etmək və Ona şükr etmək vacibdir. Uca Allah kafirlər barədə buyurub: **“Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır”. (Maidə, 58).** Həmçinin buyurub: **“Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız”. (Cumuə, 9-10).** Bu iki ayə beş vaxt namaz və Cümə namazı üçün azan verməyin Şəriətlə əmr olunduğuna dəlalət edir. Azanın vəsfi isə müsəlmanlara məlumdur. Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* azanın dərəcəsini və fəzilətini, həmçinin müəzzinin dediklərini təkrarlayan kəsin fəzilətini bəyan edərək belə buyurur: ***“Sizdən biriniz, müəzzin “Allahu Əkbər, Allahu Əkbər” dedikdən sonra qəlbən “Allahu Əkbər, Allahu Əkbər” desə, müəzzin “Əşhədu ən lə iləhə illəllah” dedikdən sonra “Əşhədu ən lə iləhə illəllah” desə, müəzzin “Əşhədu ənnə Muhəmmədən Rəsulullah” dedikdən sonra “Əşhədu Ənnə Muhəmmədən Rəsulullah” desə, müəzzin “Hayyə aləs salət” dedikdən sonra “Lə həvlə və lə qüvvətə illə billəh” desə, müəzzin “Hayyə aləl fələh” dedikdən sonra “Lə həvlə və lə qüvvətə illə billəh” desə, müəzzin “Allahu Əkbər, Allahu Əkbər” dedikdən sonra “Allahu Əkbər, Allahu Əkbər” desə, müəzzin “Lə iləhə illəllah” dedikdən sonra “Lə iləhə illəllah” desə, Cənnətə daxil olar”.*** [118]

## Sual 82: İslamın Kəbəyə, məscidlərə və ibadət yerlərinə baxışı necədir?

Həqiqətən də, İslam dini məscid tikməyi və məscidləri abadlaşdırmağı əmr edir. Uca Allah buyurub: **“Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırırlar”. (Tövbə, 18).** Məscidləri abadlaşdırmaq dedikdə, bura məscidlərdə Allaha ibadət etmək, Allahı təzim etmək, onları hissi və mənəvi nəcasətdən qorumaq da daxildir və orada Allahdan qeyrisinin zikr olunması icazəli deyildir. Uca Allah buyurub:

[118] Muslim (385).

**“Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!” (Cinn, 18).** Həmçinin, ən əzəmətli və fəzilətli məscidlər yer üzündə bərəkətli yerlərdir. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***“Üç məsciddən başqa heç bir yerə (ibadət məqsədi ilə) səfər etmək olmaz: (bu) – Məscidülhəram, Peyğəmbərin məscidi və Məscidüləqsadır”.***[119] Məscidülhəram, müsəlmanların qibləsi və yer üzündə tikilən ilk məsciddir. Uca Allah buyurub: **“Həqiqətən, aləmlərdən ötrü bərəkət və doğru yol göstəricisi kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir” (Ali İmran, 96).** İslam dininin əzəmətindəndir ki, hətta müharibə zamanı müsəlmanlara ibadət yerlərini dağıtmağı qadağan etmişdir. Uca Allah buyurub: **“Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi” (Həcc, 40).** Tarix boyu müsəlmanlar nə qədər qeyri-müsəlman ibadətgahları olan məbədləri, kilsələri və ibadət yerlərini qorumuş və onlarla bağladıqları müqavilələrə sadiq qalmışlar. İkrimə *(Allah ondan razı olsun)* belə deyir: “İbn Abbasdan soruşdular ki, müşriklərin ərəb torpaqlarında kilsə tikməyə haqqı varmı? İbn Abbas belə cavab verdi: “Müsəlmanların şəhər saldığı yerlərdə kilsə, sinaqoq, od məbədi tikilməz, xaç qaldırılmaz, boru (buynuz) və zınqrov çalınmaz və oraya şərab və donuz gətirilməz. Ancaq əgər bir yer sülhlə ələ keçirilibsə, müsəlmanlar həmin yerdəki müqavilələrinə əməl etməlidirlər”.[120] Amma Ərəbistan yarımadasına gəlincə, orada yalnız məscidlər qaldırıla bilər, çünki bu torpaq İslamın mərkəzi və xüsusi bir yerdir. Ömər İbnul Xattab *(Allah ondan razı olsun)* rəvayət edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***“Yəhudi və xristianları Ərəbistan yarımadasından çıxaracağam, nəhayət orada yalnız müsəlmanlar qalacaqdır”.***[121]

## Sual 83: İslamda duanın yeri nədir?

Həqiqətən də, İslam dinində duanın yeri böyükdür və dua insanı Rəbbinə yaxınlaşdıran böyük ibadətlərdəndir. Uca Allah buyurub: **“Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər” (Ğafir, 60).** Uca Allah qullarına əmr edir ki,

[119] Buxari (1189).
[120] AbdurRazzaq “Musannəf” (10840).
[121] Buxari (4431). Muslim (1767).

onlar duanı yalnız Allaha yönəltsinlər və Ondan başqasına dua etməsinlər. Kim yalnız Allahın qadir olduğu bir işdən ötrü Allahdan başqasına dua etsə, sıxıntısının aradan qalxmasını yaxud zərərin dəf edilməsini ondan istəsə, artıq tövhiddən və İslamdan üz döndərmişdir. Uca Allah buyurub: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki o bütlər onların yalvarışından xəbərsizdirlər" (Əhqaf, 5).** Uca Allah Öz qullarını məxluqlara yönəlməkdən çəkindirmiş və xəbər vermişdir ki, onların Allahdan başqa çağırdıqları bu kainatda heç nəyə sahib deyil, əksinə özləri kimi aciz məxluqlardır. Bəziləri qeybdə, bəziləri isə eşitməyən ölülərdir. Hətta eşitsələr belə, onların çağırışına cavab verməyə qadir deyillər. Belə olduğu halda Allahı qoyub onları necə çağırmaq olar?! Uca Allah buyurub: **"O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin onlara ibadət etdiyinizi danacaqlar. Heç kəs hər şeydən Xəbərdar olan Allah kimi sənə xəbər verə bilməz" (Fatir, 13-14).** Uca Allah eşidən, rəhm edən, ən gözəl bəxş edən və ən yaxın olandır. Elə isə qul necə Allahı qoyub başqasına yönələ bilər? Uca Allah buyurub: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər" (Bəqərə, 186).** Muhəmməd *(sallallahu aleyhi və səlləm)* və ondan əvvəlki peyğəmbərlər Allaha ən çox dua edən insanlar idi. Bir vaxt Adəm *(aleyhissələm)* Allaha dua etdi və Allah onun tövbəsini qəbul etdi. Nuh *(aleyhissələm)* Allaha dua etdikdə, Allah onu və onunla birlikdə gəmidə olanları xilas etdi. İbrahim *(aleyhissələm)* Allaha dua etdikdə, Uca Allah onu oddan xilas etdi. Musa *(aleyhissələm)* Allaha dua etdikdə, onu Firondan qurtardı, düşmənini isə dənizdə batırdı. Həmçinin İsa *(aleyhissələm)* Allaha dua etdi və Uca Allah onu kafirlərdən xilas edərək Özünə tərəf qaldırdı. Həqiqətən də, dua ibadətdir və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* duanı ibadətlərin əsası hesab etmişdir. Bu da bir daha təsdiq edir ki, duanın İslam dinində şəni böyükdür. Nomən ibn Bəşirin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)*

buyurmuşdur: ***“Həqiqətən də, dua özü ibadətdir”.***[122] Bu ona görədir ki, dua bütün ibadətlərə daxildir. Belə ki, duanın iki növü var:

**Birinci növ: İbadət duası**

Uca Allahın əmr etdiyi namaz, zəkat, oruc, həcc, zikr və bütün digər ibadətlərin hamısı ibadət duası sayılır. Çünki bu ibadətlərlə qul Uca Allahdan istəyir, Ona itaət edir və sanki dili ilə deyil, öz halı ilə Allahdan istəmiş olur. İbadət duası istər söz, istərsə də əməl olsun, şəriətlə icazəli olması üçün xüsusi dəlilə əsaslanmalıdır.

**İkinci növ: İstək duası**

Bu, Uca Allaha xitab etmək, Onunla ünsiyyət qurmaq, çətinliklərin aradan qaldırılması və xeyir əldə edilməsi üçün Allaha müraciət edərək Ondan istəməkdir. Bu növ dua mütləq şəkildə icazəlidir və şəriətdə xüsusi dəlilə əsaslandırılması şərt deyil. Lakin bu dualarda ədəb qaydalarına riayət edilməsi, məna baxımından düzgün olması və zülm və həddi aşmadan edilməsi kifayətdir.

## Sual 84: İslam dinində müsəlmanın üzərinə düşən vacib xərclər və məsrəflər hansılardIr?

Həqiqətən, İslam böyük bir dindir. O, insanlara və cəmiyyətə fayda verən şeylərə xərcləməyi əmr edir. İslam dini, imkanı olan kişilərə öz zövcələrinə, övladlarına, sahib olduqları və himayələrində də olan kölələrə, hətta boşanmış qadına belə xərcləməyi əmr edir. Bu, istər boşanmış qadının iddə müddətinə, istərsə də ondan sonra hamiləlik dövrünə aiddir. Uca Allah buyurub: **“Onlara şəriətə müvafiq qayda üzrə pay verin. Varlı öz imkanına görə, kasıb da öz imkanına görə versin. Bu yaxşılıq edənlər üçün bir borcdur”. (Bəqərə, 236).** Bundan başqa, İslam dini uşağa süd verdiyinə görə ananın dolanışıq xərclərinin ödənilməsini də vacib buyurur. Uca Allah buyurub: **“Əgər onlar (boşadığınız qadınlar) hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara malınızdan xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. Öz aranızda xoşluqla razılığa gəlin. Bir-birinizi çətinliyə salsanız, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin. Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən**

[122] Əbu Davud (1478). İbn Macə (3827). Tirmizi (2969) həsən-səhih olduğunu demişdir.

**artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir" (Talaq, 6-7).** Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir gün Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* sədəqə verməyi əmr etdi. Sonra bir kişi gəldi və belə dedi: "Ey Allahın Elçisi! Mənim bir dinarım var". O dedi: ***"Onu özün üçün xərclə".*** Kişi dedi: "Ondan başqa da dinarım var". O dedi: ***"Onu zövcən üçün xərclə".*** Kişi dedi: "Ondan başqa da dinarım var". O dedi: ***"Onu uşağın üçün xərclə".*** Kişi dedi: "Ondan başqa da dinarım var". O dedi: ***"Onu xidmətçin üçün xərclə".*** Kişi dedi: "Ondan başqa da dinarım var". O dedi: ***"Sən onunla nə edəcəyini daha yaxşı bilirsən".***[123] Bundan başqa, İslam dini valideynlərə, qohumlara, ehtiyacı olanlara və kasıblara xərcləməyi təşviq edir. Bu da İslamın böyüklüyünü göstərir, çünki o, Axirət həyatı üçün çalışmağa çağırdığı kimi, insanlar arasında sevgi və bağlılığın yaranmasına da səbəb olur. Uca Allah buyurub: **"Səndən Allah yolunda nə verəcəklərini soruşurlar. De ki, verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir" (Bəqərə, 215)**. Həmçinin Sövbənin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Bir kişinin xərcləyə biləcəyi ən xeyirli dinar, öz ailəsinə xərclədiyi dinar, Allah yolunda döyüşmək üçün minik vasitəsinə xərclədiyi dinar və Allah üçün yoldaşlıq etdiyi kəslərə xərclədiyi dinardır."*** Əbu Qiləbə deyir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* birinci ailədən başladı. Belə ki, ailəsinə və balaca uşaqlarına xərcləyib onları dilənməkdən qoruyan, Allahın izni ilə onlara fayda verən və onların ehtiyacını ödəyən kişidən daha çox kimin əcri ola bilər?![124] Həmçinin Səd İbn Əbu Vaqqas *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: "***Sənin öz varislərini zəngin qoyub getməyin, onları kasıb, insanların əlində olanı diləndikləri halda qoyub getməyindən daha xeyirlidir. Həqiqətən də, sən malından Allah üçün nə xərcləsən sədəqədir, hətta ailənin ağzına qoyduğun loxma belə".*** [125]

İslamın dininin əzəmətindəndir ki, qadın istər zəngin və varlı, istərsə də kasıb və darda olsun, dolanışıq xərci (nəfəqə) çəkməyi onun üzərinə bir vəzifə olaraq qoymamışdır. Əksinə, qadının təminatını – zövcə olduqda həyat yoldaşı, qız övladı olduqda atası, ana olduqda övladları, bacı olduqda isə qardaşları tərəfindən

[123] Nəsai (9137). Buxari "Əl-Ədəbul mufrad" (197). Şeyx Albani həsən olduğunu deyib.
[124] Muslim (994)
[125] Buxari (2591). Muslim (1628).

ödənilməsini vacib buyurmuşdur. Dul qadının dolanışığı isə müsəlmanların beytülmalının (dövlət xəzinəsinin) öhdəliyinə verilmişdir. Ummu Sələmə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Hər kim mükafatını Allahdan umaraq iki qızına, iki bacısına yaxud iki qadın qohumuna öz malından xərcləsə və Allah Öz lütfü ilə onları zəngin edənə qədər onların xərcini ödəsə, onlar (Qiyamət günü) onun Cəhənnəmə girməsinə maneə olarlar."***[126] Həmçinin Ənəs İbn Məlikin *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Kim yetkinlik yaşına çatana qədər iki qız uşağının xərclərini ödəsə, Qiyamət günü onunla mən belə yaxın olacağıq" – deyə iki barmağını birləşdirdi".***[127] Başqa bir hədisdə Ənəs *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Kim iki və ya üç qızının yaxud iki və ya üç bacısının qayğısına qalsa və onlar ondan ayrılana qədər yaxud ona ölüm gələnə qədər onlara öz malından xərcləsə, Cənnətdə onunla mən bu ikisi kimi (yaxın) olacağıq."*** *– deyərək şəhadət və orta barmağını göstərdi.*[128]

## Sual 85: İslam dininin kəsilən heyvanlara, qurbanlara və bayramlara baxışı necədir?

Həqiqətən də, İslam dini kəsilən heyvanı yalnız Allahın adı ilə və Allah üçün kəsməyi əmr edir. Uca Allah buyurub: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!" (Kövsər, 2).** Bu heyvanları yaradan Uca Allahdır, buna görə də, onlar yalnız Allahın adı ilə və yalnız Allah üçün kəsilməlidir. Uca Allah buyurub: **"De: Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm" (Ənam, 162-163).** Ayədə keçən "nusuk" sözü kəsilən qurbandır. Həcc günlərində İbrahim peyğəmbəri *(aleyhissələm)* nümunə götürərək və Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* sünnəsinə tabe olaraq Məkkədə və dünyanın müxtəlif yerlərində Allah üçün kəsilən qurbanlar da bura aiddir. Allahın adı ilə və Allah üçün kəsilən bu qurbanların bir tərəfdən yoxsullara və kasıblara, digər tərəfdən isə

[126] Əhməd (26016). Şeyx Albani "Səhih ət-tərğib vət tərhib" əsərində (həsən-liğayrihi) olduğunu demişdir.
[127] Muslim (2631).
[128] İbn Hibban "Səhih" əsəri (618)

heyvandarlıqla məşğul olan tacirlərə böyük faydası dəyir. Qurban kəsməyin həm dünyəvi, həm də dini baxımdan bir çox xeyirləri var. Onlardan biri də bu qurbanların qarşılıqsız olaraq insanlara verilməsidir. Həmçinin İslam dini müsəlmanlara kəsilən heyvanla gözəl davranmağı əmr edir. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***"Həqiqətən, Uca Allah hər bir şeydə yaxşılığı vacib etmişdir. Öldürdüyünüz zaman gözəl tərzdə öldürün. Heyvan kəsdiyinizzaman gözəl tərzdə kəsin. Sizdən biriniz bıçağını itiləsin və kəsəcəyi heyvanı rahatlasın".*[129]** Müsəlmana əmr olunub ki, qurban kəsərkən kəsdiyi heyvana rəhm etsin. Qurra *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir kişi belə dedi: "Ey Allahın Rəsulu, mən qoyun kəsirəm və bu vaxt ona mərhəmət edirəm". Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə cavab verdi: ***"Sən kəsilən heyvana rəhm etsən, Allah da sənə rəhm edər".*[130]** İslamda olan bayramlara gəlincə, bu bayramlar Uca Allaha itaətlə bağlıdır. Onlar heç kimin ölümü, həyata gəlməsi, hakimiyyəti və ya başqa bir şəxsi hadisə ilə əlaqəli deyil. Müsəlmanların iki bayramı var və İslamda üçüncü bir bayram yoxdur. Bunlardan biri Ramazan ayının orucundan sonra qeyd olunan Fitr (Ramazan) bayramı, digəri isə Zilhiccə ayının onuncu günündə qeyd olunan Qurban bayramıdır. Cümə günü isə müsəlmanlar üçün həftəlik bayramdır. Onlar bu gündə Cümə namazı üçün bir araya gəlir, görüşür, bir-birini sevib hörmət edir və yaxşılıqda, təqvada və xeyir işlərdə bir-birinə dəstək olurlar. Ənəs *(Allah ondan razı olsun)* demişdir: "Cahiliyyə dövründə iki bayram var idi ki, insanlar hər il bu günlərdə əylənirdilər. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinəyə gəldikdə belə dedi: ***"Sizin əyləndiyiniz iki gününüz var idi, Allah bu iki günü onlardan daha xeyirli iki günlə əvəz etmişdir. Bunlar Fitr (Ramazan bayramı) günü və Qurban günüdür."*[131]** Müsəlmanlar bayram günlərində sevinir, halal olan şeylərlə əylənir, təmizlənənərək, ətirlənərək və gözəl şəkildə bəzənərək bayram namazına gedirlər, həmçinin sədəqə verərək və qurban kəsərək Uca Allaha yaxınlaşırlar.

---

[129] Muslim (1955). Hədisi Şəddəd ibn Əvs *(Allah ondan razı olsun)* rəvaryət etmişdir.
[130] Əhməd (20363). Şeyx Albani "Əl-Ədəbul mufrad" kitabında "Səhih" olduğunu demişdir.
[131] Əbu Davud "Sünən" (1134). Nəsai "Əl-Kubra" (1767). Hakim "Əl-Mustədrak" (1101) əsərind "Muslimin şərtinə görə səhihdir" demişdir.

## Sual 86: İslam dininin yeməklərə və içkilərə baxışı necədir?

Həqiqətən də, İslam dini müsəlmana yeməyi və içməyi əmr edir və bunun əmr olunmasında böyük hikmətlər və məqsədlər vardır. Müsəlman yeyir və içir ki, taqəti olsun və öz vəzifə borcunu yerinə yetirməyə gücü çatsın. Belə ki, Uca Allah insanları və cinləri yalnız Öz Rəbbinə ibadət və itaət etsinlər və vacib və müstəhəb əməlləri yerinə yetirsinlər deyə yaratmışdır. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə deyib: ***"Güclü mömin Allaha zəif mömindən daha sevimlidir. Buna baxmayaraq onların hər birində xeyir vardır. Sən özünə fayda verən işlərə həris ol və Allahdan yardım istə və acizlik göstərmə. Əgər başına bir iş gəlsə, "Əgər bunu belə etsəydim, belə olardı" demə. Əksinə de ki, bunu Allah təqdir etmişdir və O nə istəyibsə, onu da edib. Çünki "əgər" sözü şeytan əməlinə qapı açır".***[132] Məhz müsəlmanın bədəni gözəl və sağlam olsun deyə, İslam dini ona halal və pak olan qidalardan yeməyi əmr etmiş və murdar şeyləri qadağan etmişdir. Uca Allah buyurub: **"Leş, qan, donuz əti, Allahdan başqasının adı ilə kəsilmiş, boğulmuş, döyülüb öldürülmüş, hündür bir yerdən yıxılıb gəbərmiş, buynuzlanıb öldürülmüş, yırtıcı heyvan tərəfindən parçalanıb yeyilmiş, – ölməmiş kəsdikləriniz istisnadır, – dik qoyulmuş daşlar (bütlər və s.) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə qismət axtarmanız sizə haram edildi. Bunlar günahdır. Bu gün kafirlər sizi dininizdən döndərməkdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim. Hər kəs günaha meyl etməyərək aclıq üzündən haram olanlardan istifadə etməyə məcbur olarsa, bilsin ki, Allah Bağışlayandır, Rəhmlidir. Səndən onlara nəyin halal edildiyini soruşurlar. De: "Təmiz nemətlər və Allahın sizə öyrətdiyindən öyrədib əhliləşdirdiyiniz yırtıcı heyvanların ovladıqları sizə halal edildi. Onların sizin üçün tutub gətirdiklərindən yeyin və ova göndərərkən onların üzərində Allahın adını çəkin. Allahdan qorxun! Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir". Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini**

---

[132] Muslim (2664).

**verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar" (Maidə, 3-5).** Həmçinin, Uca Allah Öz Peyğəmbərini və onun dinini vəsf edərək belə buyurub: **"O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər" (Əraf, 157).** İslam dinində açıq-aydın haram edilən şeylər istisna olmaqla, bütün yeməklərin əsli halaldır. İslam dini dörd ayaqlı ev heyvanlarının halal olmasını açıq-aydın bildirmişdir. Həmçinin, suda yaşayan bütün heyvanlar istər diri tutulsun, istərsə də ölmüş vəziyyətdə tapılsın, heç bir istisna olmadan hamısı halaldır. Uca Allah buyurub: **"Həm sizin, həm də səfərdə olanların faydalanması üçün dəniz ovu və onu yemək sizə halal edildi" (Maidə, 96).** Həmçinin quruda edilən hər bir ov halal sayılır, çünki quruda ov etmək yalnız ehramda ikən haramdır. Eləcə, dənli bitkilər, meyvələr və bütün pak qidalar halal edilmişdir. Quruda olan heyvanların isə halal olması üçün "bismilləh" deyərək onun boğazını kəsməsi şərtdir. Əgər insan bundan aciz olarsa, o zaman onu ox, nizə yaxud silahla vura bilər yaxud öyrədilmiş quş və ya it göndərərək onu ovlaya bilər. İslam dini leş ətini haram etmişdir. Leş, öz ölümü ilə ölən yaxud onu mübah etməyən yolla öldürülən heyvandır. Misal olaraq, Allahdan başqasının adı ilə kəsilən, suda boğulan, döyülüb öldürülən, hündür bir yerdən yıxılıb gəbərən, buynuzlanıb öldürülən yaxud yırtıcı heyvan tərəfindən parçalanıb öldürülən heyvanları buna misal çəkmək olar. Lakin əgər canı çıxmazdan əvvəl bu heyvan şəri yolla kəsilərsə, istisnadır. Həmçinin İslamda donuz əti də haram edilmişdir. Uca Allah buyurub: **"Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin. O sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsilən heyvanı haram etmişdir. Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, ona günah gəlməz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir!" (Nəhl, 114-115).** Əbu Sələbə Əl-Xaşəni *(Allah ondan razı olsun)* rəvayət edir ki, ***Allah Elçisi (sallallahu aleyhi və səlləm) köpək dişi olan yırtıcı heyvanların və caynağı olan quşların ətini haram etmişdir".*** [133] Məhz insanın dininə, bədəninə, irzinə yaxud ağlına zərər gəlməsin deyə, İslam dini bəzi yeməkləri və içkiləri haram etmişdir. Misal olaraq, insanı sərxoş edən şeyləri qeyd etmək olar. Buna

[133] Buxari (5780). Muslim (1932).

baxmayaraq, zərurət halında (insan ölməsin deyə və başqa zəruri hallarda) bu haramlara da icazə verilmişdir, lakin bir şərtlə ki, insan əvvəldən bu vəziyyətə düşməsini qəsd etməməli və günah etməyi istəməməlidir. Müsəlman yeməyində və geyimində daim halal olana can atmalı və haram və murdar şeylərdən uzaq durmağa çalışmalıdır. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Ey insanlar, həqiqətən, Uca Allah pakdır və yalnız pak olanları qəbul edər. Həqiqətən, Allah peyğəmbərlərə nəyi əmr etmişdirsə, möminlərə də onu əmr etmişdir. Uca Allah buyurur:*** **"Ey peyğəmbərlər, təmiz və halal nemətlərdən yeyin və yaxşı işlər görün" (Muminun, 51).** ***O, həmçinin buyurur:*** **"Ey iman gətirənlər, sizə ruzi kimi verdiyimiz təmiz və halal nemətlərdən yeyin!" (Bəqərə, 172).** ***Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm) uzun müddətdir səfərə çıxmış, saçları dağınıq, üst-başı toz-torpaq içində olan və əllərini göyə qaldıraraq "Ya Rəbb, ya Rəbb" deyə dua edən bir kişini xatırlatdı, sonra isə belə dedi: "Halbuki, onun yediyi haram, içdiyi haram, geyindiyi haram – haramla böyümüşdür. Beləsinin duası necə qəbul ola bilər?!"***[134]

## Sual 87: İslamın cihada baxışı necədir?

Həqiqətən də, İslam dini müsəlmanlara cihad etməyi, öz dinlərini, namuslarını, ölkələrini müdafiə etməyi, zalımların zülmünün qarşısını almağı və həddi aşanların haqsızlığını dəf etməyi əmr etmişdir. Uca Allah cihad etməyə həvəsləndirmiş, cihadın və cihad edənlərin fəzilətini, kamilliyini, mükafatının çoxluğunu, dərəcəsinin ucalığını bəyan etmiş və gözəl səmərəsini zikr etmişdir ki, müsəlman bunlara iman gətirsin, nə uğrunda döyüşdüyünü bilsin, cihad etdikdə bu əcri, mükafatı və Allah yolunda şəhid olmağı istəyərək cihad etsin və sadəcə vəzifə yaxud dünya malından ötrü döyüşməsin. Uca Allah buyurub: **"Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir". (Bəqərə, 190).** Bureydə *(Allah ondan razı olsun)* belə demişdir: ***"Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir orduya və ya dəstəyə əmir təyin etdikdə, məxsusi olaraq ona Allahdan qorxmağı və onunla olan müsəlmanlarla gözəl davranmağı tövsiyə edər, sonra isə belə buyurardı: "Allahın adıyla Allah yolunda vuruşun! Allaha küfr***

[134] Muslim (1015).

***edənlərə qarşı vuruşun! Cihad edin, lakin qənimətə xəyanət etməyin! Əhdi pozmayın, ölülərin burunlarını və qulaqlarını kəsməyin! Uşaqları öldürməyin! Müşriklərdən olan düşməninizlə qarşılaşdıqda, onları üç xüsusiyyətə (və ya üç gözəl şeyə) dəvət et! Bunların hansına cavab versələr, onlardan qəbul et və onları burax! Sonra onları İslama dəvət et! Bunda sənə cavab versələr, onlardan qəbul et və onları sərbəst burax (əl çək)! Onları öz diyarlarından mühacirlərin diyarına köçməyə dəvət et! Və onlara xəbər ver ki, bunu etsələr, mühacirlərin lehinə olan onların lehinə, əleyhinə olan onların da əleyhinə olacaqdır! Əgər onlar köçməkdən (hicrət etməkdən) imtina etsələr, onda onlara xəbər ver ki, onlar çöl ərəblərindən olan müsəlmanlar kimi olacaqlar! Onlara möminlər üzərində cərəyan edən Allahın hökmləri tətbiq ediləcək. Qənimətdən isə yalnız müsəlmanlarla cihada çıxdıqlarında pay olacaqdır. Əgər onlar bunu (İslama girməyi) qəbul etməsələr, onlardan cizyə istə! Onlar sənə bunda cavab versələr, qəbul et və onları sərbəst burax! Yox, əgər onlar qəbul etməkdən imtina etsələr, Allahdan kömək dilə və onlarla vuruş!”***[135]

**İslamda cihadın iki növü var:**

**Birinci:** İslam dininə dəvət etmək və batil dinlərdən çəkindirmək üçün edilən cihaddır. Bu növ cihad İslamın əvvəl günündən vacib edilmişdir və hər vaxta münasib və uyğun şəkildə dəvət etmək həmişə vacibdir. Uca Allah buyurub: **“Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah xeyirxah əməl sahiblərilədir” (Ənkəbut, 69).** Həmçinin buyurub: **“İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. Günahkarı cəzalandırmaq istəsəniz, sizə nə cəza verilibsə, siz də ona eynilə cəza verin. Əgər səbir etsəniz, bu, səbir edənlər üçün daha xeyirlidir. Səbir et! Sənin səbrin ancaq Allahdandır. Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də sıxılma. Həqiqətən də, Allah Ondan qorxanlar və yaxşı işlər görənlərlədir” (Nəhl, 125-128).** Başqa ayədə buyurub: **“Belə olduqda sən kafirlərə baş əymə və onlara qarşı bununla (bu Quranla) böyük bir cihad et!” (Furqan, 52).** Yəni ki, Quran vasitəsilə batil əhlinin hamısı ilə cihad et. Bu, fardul ayn yəni fərdi olaraq hər bir müsəlmana vacibdir. Hər bir müsəlman gücü çatdığı qədər və elminin miqdadrınca dəvət

---

[135] Muslim (1731).

etməlidir. Alimlərin məsuliyyəti isə başqalarından daha böyükdür, çünki onların elmi daha mükəmməldir. Elm isə cihad etmək üçün həqiqi silah sayılır.

**Cihadın ikinci növü:** Əlbəyaxa yaxud silah ilə cihad etməkdir. Bunun hökmü fərdul kifayədir, yəni kifayət qədər müsəlman yerinə yetirərsə, başqa müsəlmanların boynundan vaciblik düşmüş olur. Məsələn, müsəlmanlara qarşı döyüşən kafirlərlə cihad etmək kimi. Amma müsəlmanlarla döyüşməyən yaxud onlarla sülh müqaviləsi bağlayan kafirlər isə bura aid deyil.

Cihadın bu növü, üç halda fardul ayn, yəni fərdi olaraq hər bir müsəlmana vacib olur:

**Birinci:** Ordular qarşı-qarşıya gəldiyi (döyüş meydanında hazır olunduğu) zaman.

**İkinci:** Düşmən onun yaşadığı şəhəri (ölkəni) mühasirəyə aldıqda və ölkə rəhbəri (vəliyyul-əmr) ona döyüşməyi əmr etdikdə.

**Üçüncü:** Dövlət başçısı və ya onu əvəz edən şəxs onu səfərbərliyə (döyüşə) çağırdıqda.

Cihadın bu növü ümumi mənafeyə (məsləhətə) tabedir. Necə ki, Peyğəmbərin (sallallahu əleyhi və səlləm) də sünnəsi belə olmuşdur: o, mənafe tələb etdikdə əhd bağlamış və barışıq (atəşkəs) elan etmiş, mənafe bunu gərəkdirdikdə isə müharibə aparmış və döyüşmüşdür. Uca Allah buyurub: **“Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz”. (Ənfəl, 60).** Bu ayədə Uca Allah öz qullarına düşmənlərlə cihad etməyi öyrətmişdir və bu öyüd-nəsihətə əməl etdikləri zaman onların işləri qaydasına düşəcək və tamamlanacaqdır. Müsəlmanlar həm dini, həm də dünyəvi cəhətdən hazırlıq görməlidirlər ki, cihadın bu növünü yerinə yetirə bilsinlər. Bu hazırlıq da mümkün olan səbəblərdən tutmaq, bacardıqları qədər güc toplamaq və düşməndən həzər etməklə olur.

Şəri siyasət də bu iki əsasa qayıdır:

Birinci: Zamana, məkana və vəziyyətə uyğun olaraq düşmənə qarşı mümkün qədər güc toplamaq və hazırlıq görmək.

İkinci: Düşmənin hiyləsindən, aldatmasından, yollarından və metodlarından ehtiyatlı olmaq və şərindən qorunmaq.

## Sual 88: İslam dini sülhə və barışığa necə baxır?

Həqiqətən də, İslam dini sülh və əmin-amanlıq üzərində qurulub və "İslam" sözünün kökü də bu mənaya dəlalət edir. Müsəlman da gərək əmin-amanlıq və sülhlə yaşayan insan olsun. İslam dini müsəlmanları, düşmənləri sülhə meyl etdikləri zaman onlarla sülh bağlamağa rəğbətləndirmiş, bununla yanaşı Allaha təvəkkül etməyi, düşməndən həzər etməyi və ehtiyatlı olmağı, hiyləsindən arxayın olmamağı buyurmuş və müharibə etməməyə və düşmənlə qarşılaşmamağa həvəsləndirmişdir. Uca Allah buyurub: **"Əgər onlar sülhə meyl etsələr, sən də ona meyl et və Allaha təvəkkül et! Həqiqətən, O, Eşidəndir, Biləndir". (Ənfal, 61).** Başqa ayədə buyurub: **"Ola bilsin ki, Allah sizinlə ədavət bəslədiyiniz kimsələr arasında dostluq yaratsın. Allah hər şeyə Qadirdir. Allah Bağışlayandır, Rəhmlidir. Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır". (Mumtəhənə, 7-9).** Abdullah ibn Əbu Əvfə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə deyib: ***"Ey insanlar! Düşmənlə qarşılaşmağı arzulamayın və Allahdan salamatlıq diləyin. Düşmənlə qarşılaşdığınız zaman isəsəbir edin və bilin ki, Cənnət qılıncların kölgəsi altındadır".***[136] Hətta sülh və barışıq davamlı olsun deyə, İslam dini müsəlmanlarla başqaları arasında olan əhdləri və vədləri qorumağı əmr etmişdir. Uca Allah buyurub: **"Saziş bağladıqdan sonra onu pozmamış və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi, müddəti bitənədək yerinə yetirin. Həqiqətən, Allah müttəqiləri sevir" (Tövbə, 4).** İslam dini əhdini və vədini qoruyan kəsləri tərifləmişdir. Uca Allah buyurub: **"Əhd bağladıqda əhdlərini yerinə yetirərlər..." (Bəqərə, 177).** Həmçinin buyurub: **"O mömin kəslər ki,**

---

[136] Buxari (2966). Muslim (1742).

**əmanətlərini və vədlərini qoruyurlar" (Muminun, 8).** Amma əgər müharibə başlayarsa, müsəlmanların sülh dövründə bir olduqları kimi, müharibə zamanı da bir olmaları vacibdir. Uca Allah buyurub: **"Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir" (Tövbə, 36).** İstər fərdi olaraq insanların öz aralarında, istər ailələrdə və cəmiyyətlərdə, istərsə də ölkələrdə və dövlətlərdə, İslam dini hamıya sülhü və barışmağı əmr edir. Uca Allah buyurub: **"Axı barışmaq daha xeyirlidir" (Nisə, 128).** Həmçinin buyurub: **"Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik" (Əraf, 170).** Başqa ayədə belə buyurub: **"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik" (Nisə, 114).** Bu, bütün növ barışıq və bütün növ hüquqlara, istər siyasi, istərsə də maliyyə və digər sahələrə aid ümumi bir qaydadır. İstər bir şeyi qəbul edərkən, istərsə də inkar edərkən, barışıq insanların arasında icazəli və əmr olunan bir davranışdır. Lakin haram olanı halal edən və ya halal olanı haram edən barışıq istisnadır. Bu ümumilik, bütün növ hüquqlar üzərində barışığın caiz olduğunu tələb edir. Əbu Əyyub *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(sallallahu aleyhi və səlləm)* ona belə demişdir: ***"Ey Əbu Əyyub! Səni Allahın və Rəsulunun razı qaldığı bir əmələ yönəldimmi? O, "Əlbəttə!" deyə cavabverdi. Allah Elçisi (sallallahu aleyhi və səlləm) belə dedi: "İnsanların arası dəydikdə onları barışdırmağın, bir-birindən uzaqlaşdıqda isə onları yaxınlaşdırmağındır".***[137]

## Sual 89: İslamın alqı-satqıya və ticarətə baxışı necədir?

Həqiqətən də, İslam dini ən gözəl alqı-satqı və ticarəti əmr etmiş, ticarətin əslini halal etmiş və aldatmağı, fırıldaqçılığı, yalanı, saxtakarlığı, sələmçiliyi, qumarı və sərxoşedici şeyləri qadağan etmişdir. Uca Allah buyurub: **"Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin" (Maidə, 1).** Həmçinin buyurub: **"Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir" (Bəqərə, 275).** Başqa ayədə buyurub: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət**

[137] Hədisi Ət-Tayəlisi "Müsnəd" (599) və Ət-Tabərani "Əl-Kəbir" (7999) əsərində rəvayət etmiş və Şeyx Albani "Səhih ət-tərğib vət tərhib" əsərində "həsən liğayrihi" olduğunu demişdir.

**istisna olmaqla mallarınızı öz aranızda haqsız yerə yeməyin" (Nisə, 29).** Uca Allah borcu yazmağı əmr edərək buyurur: **"Ey iman gətirənlər! Müəyyən bir müddətədək bir-birinizə borc verdikdə onu yazın" (Bəqərə, 282).** Həmçinin İslam dini müsəlmanlara qazanc əldə etməyi əmr edir. Uca Allah buyurub: **"Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız". (Cumuə, 10).** Zubeyr ibn Avvamın rəvayət etdiyi hədisdə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə demişdir: ***"Sizdən birinizin ip götürüb odun şələsi düzəltməsi və onu satması, bununla Allahın onun üzünü dilənməkdən qoruması, onun üçün istədiyi verilsə də, verilməsə də, insanlardan dilənməsindən daha xeyirlidir".***[138] İslam dini müsəlmanlara əkinçiliklə məşğul olmağı, meyvə-tərəvəz əkməyi və bununla nəinki insanlara, həmçinin heyvanlara da fayda verməyi əmr etmişdir. Ənəs İbn Məlik *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhivə səlləm)* belə dedi: ***"Hansı bir müsəlman ağac basdırarsa və ya taxıl əkərsə, sonra da quşlar, insanlar və heyvanlar onun məhsulundan yeyərsə, bu, mütləq ona sədəqə sayılar."***[139]

## Sual 90: İslamda evlənməyə və ailə qurmağa necə baxılır və hansı qadınlarla evlənmək olmaz?

Həqiqətən də, İslam dini müsəlmanı evlənməyə və ailə qurmağa həvəsləndirir ki, bununla onun nəsli davam edir. Uca Allah bildirir ki, bu, peyğəmbərlərin yoludur. O, belə buyurub: **"Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik". (Rad, 38).** Həmçinin Uca Allah bəyan edir ki, evlilik Allah tərəfindən olan lütf və nemətdir. O, buyurub: **"Allah sizin üçün özünüzdən zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə pak ruzilər verdi. İndi onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?" (Nəhl, 72).** Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* ibadəti və başqa səbəbləri bəhanə gətirərək evlənməkdən üz döndərən insana belə cavab vermişdir: ***"Mən sizin aranızda Allahdan ən çox qorxanınız və təqvalı olanınızam. Lakin bəzən oruc tuturam, bəzən isə tutmuram. Bəzən gecə namazı qılıram, bəzən də yatıram. Həmçinin qadınlarla evlənirəm. Ona görə də, kim mənim sünnəmdən üz döndərərsə, o məndən deyil".***[140] Həmçinin, Allah

[138] Buxari (2373).
[139] Buxari (2320). Muslim (1553).
[140] Buxari (5063). Muslim (1401).

Elçisi *(sallallahu aleyhi vəsəlləm)* uşaq dünyaya gətirməyə və nəsil artırmağa həvəsləndirmişdir. O, belə buyurur: ***"Çox sevən və çox doğan qadınlarla evlənin. Həqiqətən də, mən başqa ümmətlərin qarşısında sizin çoxluğunuzla öyünəcəyəm".***[141] Qohumluq əlaqələrinin qırılmaması və zərərli nəticələrin baş verməməsi üçün, İslam dini məhrəmlərlə evlənməyi haram etmişdir. Yəni analar, qızlar, bacılar, bacıların qızları, qardaşların qızları, bibilər və xalalarla evlənmək qadağan edilmişdir. Bundan əlavə, nəsəb qohumluğu ilə haram edilən şeylər, süd qohumluğu ilə də haram edilir. Həmçinin, qayınanalar, övladların həyat yoldaşları, ataların həyat yoldaşları və ögey qızlarla evlənmək haramdır. İslam dini iki bacını birlikdə almağı, həmçinin qadınla evli olduğu halda onun bibisi və ya xalası ilə evlənməyi də haram etmişdir. Həmçinin İslam şiğar (qarşılıqlı) nikahı da qadağan edilmişdir. Şiğar nigahı, bir kişinin öz qızını, bacısını yaxud qəyyumu olduğu qadını qarşı tərəfə ərə verərək, əvəzində onun qızını, bacısını, bacısı qızını və s. qarşılıq olaraq özünə yaxud qohumlarından birinə ərə verməsini şərt qoymasıdır. Bunların qadağan edilməsində məqsəd, düşmənçilik və nifrəti aradan qaldırmaq və nikahın davamlılığını təmin etməkdir. Bununla yanaşı, zərurət olduqda, İslam dini boşanma hüququnu da təyin etmişdir ki, həyat mənasız və dəyərsiz hala gəlməsin.

## Sual 91: İslamın övlad tərbiyəsinə baxışı necədir?

Həqiqətən də, İslam dini müsəlmanlara övladlarına gözəl tərbiyə verməyi əmr edir. Bu, valideyinlərə vacib olan əməllərdən və övladların valideyin üzərində olan haqlarındandır. Həmçinin övladlara gözəl tərbiyə vermək, onların öz valideyinlərinə qarşı xeyirxah olmasına və gözəl davranmasına səbəbdir. İslam dini övladlar barədə ümumən tövsiyələr etmişdir. Əgər onların mala ehtiyacları olarsa yaxud onlara miras qalarsa, o zaman mal verməklə onlara yardım etməyi də buyurmuşdur. Uca Allah buyurub: **"Allah övladlarınız haqqında sizə tövsiyə edir". (Nisə, 11).** Peyğəmbər (sallallahu aleyhi və səlləm) övladlara, xüsusən də qız uşaqlarına xərcləməyə rəğbətləndirmişdir. Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Üç qızı olan kimsə əgər onlara səbir edər, onları gücü çatdığı qədər yedirər, içirər və***

---

[141] Əbu Davud (2050). Nəsai (3227) Məqal ibn Yəsərdən *(Allah ondan razı olsun)* və İbn Hibban "Səhih" əsərində(1977) ənəs ibn Məlikdən rəvayət etmiş və Şeyx Albani "Səhih ət-tərğib vət tərhib" əsərində "həsən-səhih" olduğunu demişdir.

***geyindirərsə, onlar Qiyamət günü onun üçün Cəhənnəm odundan sipər olarlar”.***[142] Uca Allah umumi olaraq övlardarı qorumağı və təhlükəli şeylərdən himayə etməyi buyurmuş, xususən də Cəhənnəm odundan onları qorumağı əmr etmişdir. Uca Allah buyurub: **“Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!” (Təhrim, 6).** Həmçinin, Uca Allah övladların uşaqlıq və nəfsi istəklərinin dalınca getməkdən həzər etmiş və xəbər vermişdir ki, valdeyinlər bu sahədə ciddi olmalıdırlar. Valideynlər bilməlidirlər ki, onlar övladları ilə imtahan olunurlar, görək şəriətin tələb etdiyi kimi yaxşı davranacaqlar yoxsa pis?! Uca Allah buyurub: **“Bilin ki, var-dövlətiniz və övladlarınız ancaq bir imtahandır. Böyük mükafat isə Allah yanındadır” (Ənfal, 28).** Əgər ana süd verməyə qadir deyilsə, İslam dini uşaqları əmizdirsin deyə süd anası axtarmağı əmr edir. Uca Allah buyurub: **“Əgər siz uşaqlarınızı süd anasına əmizdirmək istəyirsinizsə və süd haqqını müvafiq qayda üzrə ödəsəniz, sizə heç bir günah olmaz”. (Bəqərə, 233).** Həmçinin, Uca Allah xəbər verir ki, əgər insan özü və övladları saleh olmasalar, Qiyamət günü övladları ona heç bir fayda verə bilməyəcək. O buyurub: **“Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar” (Səba 37).** Eyni zamanda insan öz övladları ilə nə qədər məşğul olsa da, bu onu əsas işlərdən və dindəki vaciblərdən yayındırmamalıdır. Uca Allah buyurub: **“Ey iman gətirənlər! Nə mallarınız, nədə övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır” (Munəfiqun, 9).** Bundan əlavə, övladlara həddindən artıq bağlılıq məsləhət görülmür, çünki övlad bəzən insana düşmən və zərərverici ola bilər, xüsusən də əgər onun tərbiyəsinə layiqincə diqqət yetirilməyibsə. Bununla belə, Allah bağışlamağı, güzəşt etməyi və səhvləri görməzdən gəlməyi əmr edir. Uca Allah buyurub: **“Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar da vardır. Onlardan özünüzü qoruyun! Lakin onları əfv etsəniz, günahlarından keçsəniz və bağışlasanız, bilin ki, Allah Bağışlayandır, Rəhmlidir” (Təğabun, 14).** Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* övladlar arasında ədalətli olmağı əmr etmişdir. O buyurmuşdur: ***“Allahdan qorxun və övladlarınız arasında***

[142] İbn Macə (3669). Tirmizi (1913) (həsən-səhih) olduğunu demişdir.

***ədalətli olun”.***[143] Övladların hər hansı bir pis davranışı qarşısında onlara bəddua etmək olmaz. Əksinə, Allahdan onların saleh olmalarını və düzəlmələrini istəmək lazımdır. Uca Allah saleh insanlar barədə xəbər verir ki, onlar öz övladları üçün belə dua edərdilər: **“Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!" (Furqan, 74).** Başqa ayədə buyurur: **“Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır” (İbrahim, 35).** Ubədə ibn Samit *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Özünüzə bəd dua etməyin, övladlarınıza bəd dua etməyin, mallarınıza bəd dua etməyin”***[144] İslam dini müsəlmanları, övladlarına gözəl və düzgün tərbiyə verməyə, onlara din və əxlaqla yanaşı oxumağı, yazmağı və qazanc əldə etməyi də öyrətməyə və həm özləri, həm validevinləri, həm də cəmiyyət üçün xeyirli övladlar yetişdirməyə həvəsləndirmişdir.

## Sual 92: İslam dininin mirasa baxışı necədir?

Həqiqətən də, yer və zaman Allahın mülkü olduğu kimi, mal-dövlət də Allahın mülküdür. Uca Allah Hikmətli, hər şeyi Bilən və Xəbərdardır. Buna görə, O Öz kitabında mirası Özü bölmüşdür ki, kiminsə etiraz etməyə haqqı olmasın və kimsə öz malını tələf etməyə cürətlənməsin yaxud haqsızlıqla malını başqasına vəsiyyət etməsin. İslam dini miras qalan malları ən gözəl şəkildə bölmüşdür və bu bölgü Qurani Kərimdə üç ayədə varid olmuşdur. Bu da Quranın ecazkarlığına dəlalət edir, çünki miras məsələləri bu əsaslardan kənara çıxmır. Uca Allah buyurub: **“Allah övladlarınız haqqında sizə belə tövsiyə edir; kişiyə, iki qadının payı qədər pay düşür. Əgər övladların hamısı ikidən artıq sayda qadındırlarsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, mirasın yarısı ona çatır. Əgər ölənin övladı varsa, onun valideynlərinin hər birinə qoyub getdiyi malının altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də ancaq valideynləridirsə, onun anasına mirasının üçdə bir hissəsi düşür. Əgər ölənin qardaşları (və ya bacıları) varsa, onun anasına mirasının altıda bir hissəsi düşür. Bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və ya**

143 Buxari (2447). Muslim (1623).
144 Muslim (3014).

**borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilmirsiniz. Bunlar Allah tərəfindən buyurulmuş fərz əməllərdir. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Əgər vəfat etmiş zövcələrinizin övladı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra, qoyub getdikləri malın yarısı sizindir. Yox əgər onların övladı varsa, onda qoyub getdiklərinin dörddə bir hissəsi sizindir. Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və ya borcunuz ödənildikdən sonra, qoyub getdiyiniz malın dörddə bir hissəsi zövcələrinizə çatır. Yox əgər övladınız varsa, onda qoyub getdiyiniz malın səkkizdə bir hissəsi onlara çatır. Əgər vəfat etmiş kişinin və ya qadının valideyni və övladı yoxdursa, eyni anadan bir qardaşı və ya bir bacısı varsa, onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, mirasın üçdə birinə şərikdirlər. Bu bölgü, vərəsələrə zərər yetirməmək şərti ilə vəsiyyətin yerinə yetirilməsindən və ya borcun ödənilməsindən sonra aparılır. Bunlar Allah tərəfindən bir tövsiyədir. Allah Biləndir, Həlimdir" (Nisə, 11-12).** Həmçinin başqa ayədə belə buyurub: **"Səndən fitva istəyirlər. De: "Valideyni və övladı olmayan kəsin mirası barəsində fitvanı sizə Allah verir". Əgər övladı olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır. Əgər onun övladı yoxdursa, qardaşı ona varis olur. Əgər varislər iki bacıdırsa, ölən qardaşın qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır. Əgər varislər qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər pay düşür. Allah bunu sizə bəyan edir ki, doğru yoldan çıxmayasınız. Allah hər şeyi bilir" (Nisə, 176).** İbn Abbas *(Allah ondan və atasından razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə demişdir: ***"Fərz buyurulmuş miras paylarını sahiblərinə verin".***[145] Bu ayələrdə miras əhkamlarının tam təfsilatı vardır. Necə ki, kişiyə, iki qadının payı qədər pay düşür, çünki ona öz malından qadınlara xərcləmək əmr olunmuşdur. Əgər xərcləməyin mahiyyəti olmasaydı, kişi ilə qadın bərabər olardı. Həmçinin ölən insanın malının üçdə birini vəsiyyət etməyə haqqı çatır və onu istədiyi kimi xeyir işlərə sərf edə bilər. Bu da əlbəttə ki, onun borcu ödənildikdən və insanların haqqı verildikdən sonra yerinə yetirilir. Mal sahibi olan bir insan vəfat etdikdə, ilk növbədə qüsl edilməsi,

[145] Buxari 6351). Muslim (1615).

kəfənlənməsi və dəfn edilməsi kimi ölümündən sonrakı xüsusi haqqlar yerinə yetirilməli və onun malından bu şeylərə xərclənməlidir. Sonra malının qalan hissəsindən borcları ödənilməli, daha sonra isə vəsiyyəti yerinə yetirilməlidir. Lakin bir şərtlə ki, bu vəsiyyətdə nə haqsızlıq, nə də yalan olmamalıdır. İslam dini ədalətli olmağı buyurur, ədalətsiz vəsiyyəti qadağan edir və xeyirli vəsiyyəti əmr edir. Uca Allah buyurub: **“Sizlərdən birinə ölüm gəldiyi zaman qoyub gedəcəyi var-dövlətdən müvafiq qaydada valideynlərə və yaxın qohumlara vəsiyyət etməsi ona vacib edilmişdir. Bu, müttəqilər üçün bir borcdur. Kim ölənin vəsiyyətini eşitdikdən sonra onu dəyişdirsə, günahı ancaq onu dəyişdirənlərin üzərinə düşər. Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir! Kim də vəsiyyət edənin haqsızlıq etməsindən və ya günah işlətməsindən ehtiyat edib tərəflərin arasını düzəldərsə, ona heç bir günah olmaz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir!” (Bəqərə, 180-182).** Övladlara və digər varislərə zərər dəyməsin deyə, Peyğəmbər *(sallallahu aleyhi vəsəlləm)* malın üçdə birindən artığını vəsiyyət etməyi qadağan etmişdir. Səd ibn Əbu Vaqqas *(Allah ondan razı olsun)* belə deyir: ***“Mən Məkkədə olduğum zaman Peyğəmbər (sallallahu aleyhi və səlləm) məni ziyarət etmək üçün gəldi. Dedim ki, ey Allahın elçisi, mən malımın hamısını vəsiyyət edimmi? Dedi ki, xeyr. Dedim: “Bəs yarısını necə?” O dedi ki, xeyr. Dedim: “Bəs üçdə birini necə?” O dedi ki, üçdə birini olar. Amma üçdə biri də çoxdur. Sənin öz varislərini zəngin qoyub getməyin, onları kasıb, insanların əlində olanı diləndikləri halda qoyub getməyindən daha xeyirlidir. Həqiqətən də, sən malından Allah üçün nə xərcləsən sədəqədir, hətta ailənin ağzına qoyduğun loxma belə”.*** [146]

## Sual 93: İslam dininin qadınlara münasibəti necədir?

Həqiqətən də, İslam dini qadınlarla ən gözəl şəkildə davranmağı əmr etmişdir. Qadını yaradan Uca Allahdır, onu islah edən və onun üçün yararlı olan şeyləri də ən gözəl bilən Odur. İslam dininə görə qadın da eyni ilə kişi kimi insan olaraq yaradılmışdır. O murdar və utanc gətirən deyil, əksinə hörmətli və dəyərlidir. İslam dininə görə əgər xüsusiləşdirən bir dəlil gəlməyibsə, o zaman qadınla kişi arasında şəri əhkamlar eynidir. Uca Allah buyurub: **“Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə**

[146] Buxari (2591). Muslim (1628).

**girərlər və onlara xurma çərdəyinin qırıntısıqədər haqsızlıqedilməz" (Nisə, 124).** Həmçinin, Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Həqiqətən də, qadınlar kişilərə bənzəyirlər".***[147] İslam dini qadını hörmətli etmiş, ona mirasdan pay vermiş və öz malından kiməsə xərcləməyi ona vacib etməmişdir, əksinə kişiyə vacib etmişdir ki, öz zövcəsi, anası, bacısı, qızı, bibisi yaxud xalası üçün öz malından xərcləsin. Həmçinin, İslam dini evlənərkən qadına mehir verməyi, onunla yaxşı davranmağı və gözəl yoldaşlıq etməyi vacib etmişdir. Uca Allah buyurub: **"Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun" (Nisə, 19).** Başqa ayədə belə buyurub: **"Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları olduğu kimi onların da kişilər üzərində haqları vardır. Kişilərin onlar üzərində olan haqları isə bir dərəcə üstündür. Allah Qüdrətlidir, Hikmətlidir" (Bəqərə, 228).** İslam dini rahatlıq və zənginlik halında qadına daha çox xərcləməyi əmr etmişdir. Uca Allah buyurub: **"Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir". (Talaq, 7).** Həmçinin, qadın ərinin xoşuna gəlməsə belə, İslam dini kişini zövcələrinə qarşı səbirli olmağa həvəsləndirmişdir. **"Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun" (Nisə, 19).**

## Sual 94: İslamın kölələrə və köləliyə baxışı necədir?

Həqiqətən də, İslam dini insanları məxluqata qul olmamağa çağırır və yalnız onları yaradan və həqiqi sahibi olan Allahın qulu olmağa həvəsləndirir. İnsan daima xatırlamalıdır ki, o Allahın quludur və özü üçün nə xeyrə, nə də zərərə malik deyil. Onun eşitməsi, görməsi, ağlı, dərk etməsi, əli, ayağı və bütün bədən üzvləri Uca Allahın əlindədir.

İslam dini gəldikdə, artıq qədim zamanlardan bəri ümmətlər arasında köləlik yayılmışdır. Bu ümmətlər üçün kölənin qanuni döyüşdən götürülməsinin və ya zülm və haqsızlıqla kölə edilməsinin yaxud da azad bir insanın xaincəsinə kölə kimi satılıb pulunun

[147] Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişdir və Şeyx Albani "həsən" olduğunu demişdir.

yeyilməsinin heç bir fərqi yox idi. Lakin İslam dini gəldikdən sonra bu çərçivəni daraldaraq azad bir insanı satmağı və onu köləyə çevirməyi haram etdi və köləliyi yalnız şəri cihad yolu ilə götürülənlərə şamil etdi. Sonra İslam dini qul ilə ağa arasındakı əlaqələri də nizama saldı və ağaya öz köləsi ilə yaxşı davranmağı, öz ata-anasına və qohumlarına yaxşılıq etdiyi kimi, ona da yaxşılıq etməyi, öz yediyindən ona da yedirməyi, geyindiyi paltardan ona da geyindirməyi və onu gücü çatmayan işlərlə mükəlləf etməməyi buyurdu. Uca Allah buyurub: **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir” (Nisə, 36).** Əbu Zərr *(Allah ondan razı olsun)* rəvayət edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə buyurdu: ***“Onlar (kölələr) sizin qardaşlarınızdır, Allah onları sizə tabe etmişdir. Uca Allah kimin əlinin altında qardaşını kölə etmişsə, qoy özü yediyindən ona da yedirsin, geyindiyindən ona da geyindirsin və onu gücü çatmayan işlərlə mükəlləf etməsin. Əgər ona taqətindən artıq olan işlər buyurarsa, o zaman özü də ona yardım etsin”.***[148] Həmçinin, Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, ***Allah elçisi (sallallahu aleyhi və səlləm) heç vaxt əli ilə kimisə vurmadı, nə qadını, nə də xidmətçini. Yalnız Allah yolunda döyüşməsi istisnadır. Eləcə də o özünə qarşı edilən haqsızlığa görə heç vaxt intiqam almadı. Yalnız Allahın haram buyurduğu şeylərdənhər hansı birinin edildiyini gördükdə, Allah üçün intiqam alardı”.***[149]

Bunun müqabilində İslam dini qula öz ağasına itaət etməyi, onun haqqını yerinə yetirməyi tövsiyə etmiş və buna görə böyük mükafat vəd vermişdir. Əbu Musə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Üç kimsə vardır ki, onların mükafatı iki dəfə veriləcəkdir;*** *Birinci:* ***Əhli kitabdan öz peyğəmbərinə iman gətirən, sonra İslam Peyğəmbərini (sallallahu aleyhi və səlləm) görüb ona da iman gətirən, onun ardınca gedən və onu təsdiqləyən kəs. Onun üçün iki əcr vardır.*** *İkinci:* ***Həm Allahın, həm də öz ağasının haqqını verən kölə. Onun üçün də iki əcr vardır.*** *Üçüncü:* ***Kənizinə yemək verən və onu gözəl şəkildə ədəbləndirən, sonra onu azad edərək onunla evlənən bir***

[148] Buxari (5703). Muslim (1661).
[149] Muslim 2328).

***kişi. Onun üçün də həmçinin iki əcr vardır".***[150] İslam dini kölələri azad etməyə rəğbətləndirmiş və bunun üçün bəzi hökmlər qoymuşdur. Uca Allah buyurub: **"Sahib olduğunuz kölələrdən özünün azad olmasına dair sizdən yazılı məktub istəyənlərə, – əgər onlarda bir xeyir görürsünüzsə – istədikləri məktubu yazıb verin. Allahın sizə verdiyi maldan onlara da verin" (Nur, 33).** Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə demişdir: ***"Kim bir müsəlman kölə azad edərsə, bu kölənin hər bədən üzvünə görə Allah onu azad edənin bir bədən üzvünü Cəhənnəm odundan azad edər".***[151] Həmçinin İslam dini zəkatın səkkizdən birini kölələrin azad edilməsi üçün təyin etmiş və bir çox məsələdə kəffarə olaraq qul azad etməyi buyurmuşdur. Məsələn, səhvən adam öldürməyin kəffarəsi qul azad etməkdir. Ziharın (kişinin öz zövcəsini özünə haram etməsinin) kəffarəsi qul azad etməkdir. Həmçinin Andı pozmağın kəffarəsi qul azad etməkdir. Eləcə də Ramazanda bilərəkdən cinsi yaxınlıq etməyin kəffarəsi qul azad etməkdir. Bütün bunlar dəlalət edir ki, kölələrlə gözəl rəftar edilməsində və heç bir məcburiyyət olmadan onların azad edilməsində İslamın necə gözəl metodları vardır.

## Sual 95: İslamda qonşuya münasibət necədir?

İslamın qonşulara baxışı xüsusidir və İslam dini qonşulara, qohumluq haqlarına yaxın haqlar vermişdir. Çünki bununla cəmiyyətin əlaqələri güclənir və bağlılığı artır. Uca Allah buyurub: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir" (Nisə, 36).** Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə deyib: ***"Kim Allaha və Axirət gününə iman gətiribsə, ya xeyir danışsın, ya da sussun. Kim Allaha və Axirət gününə iman gətiribsə, qonşusuna yaxşılıq etsin. Kim Allaha və Axirət gününə iman gətiribsə, qonağına yaxşı baxsın"***[152]. Həmçinin İbn Ömərin *(Allah ondan və atasından razı olsun)* rəvayət etdiyi hədisdə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***"Cibril (aleyhissələm) qonşu***

---

[150] Buxari 2849). Muslim (104).
[151] Buxari (6337). Muslim 1509).
[152] Buxari (5273). Muslim (47).

***barədə mənə o qədər tövsiyə etdi ki, artıq onun qonşunu da varislərdən edəcəyini zənn etdim".[153]*** İslam dini qonşu haqlarını gücləndirmiş və xəbər vermişdir ki, bu haqlarda səhlənkarlıq etmək, insanın Cəhənnəmə düşməsinə səbəb ola bilər. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir kişi belə dedi: ***"Ey Allahın Elçisi, filan qadın... sonra o qadının çoxlu namaz qılması və oruc tutması barədə danışmağa başladı. Daha sonra dedi ki, buna baxmayaraq o qadın dili ilə qonşusuna əziyyət verir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) dedi ki, o Cəhənnəmdədir. Kişi dedi ki, ey Allahın Elçisi, başqa bir qadın var... sonra o qadının az namaz qıldığını və oruc tutduğunu və qurut qırıntılarından sədəqə verdiyini zikr etdi. Sonra dedi ki, buna baxmayaraq o qadın dili ilə qonşusuna əziyyət vermir. Allah Elçisi (sallallahu aleyhi və səlləm) belə dedi: "O Cənnətdədir". [154]*** Qonşuya əziyyət vermək hətta insanların lənətinə də səbəb ola bilər. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir kişi belə dedi: ***"Ey Allahın Elçisi, mənim bir qonşum var, o mənə əziyyət verir. Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə dedi: "Get əşyalarını yığ yola çıxart". Kişi getdi və öz əşyalarını yığıb yola çıxartdı. Bu zaman insanlar onun ətrafına toplaşaraq belə dedilər: "Sənənə olub?" O belə cavab verdi: "Mənim bir qonşum var, mənə əziyyət verir. Mən bunu Peyğəmbərə (sallallahualeyhi və səlləm) danışdım, o isə mənə, "Get, əşyalarını yola çıxart" dedi. İnsanlar, "Ey Allah, ona lənət et. Ey Allah, onu rüsvay et" deməyə başladılar. Bu xəbər qonşusuna çatdıqda, onun yanına gəldi və belə dedi: "Evinə qayıt! And olsun Allaha, daha mən sənə əziyyət verməyəcəyəm".[155]***

Qonşuların bizim üzərimizdə olan bəzi haqları bunlardır:

**Sözlərdə:** Qonşuya salam vermək, onu xoş sözlə qarşılamaq və halını xəbər almaq.

**Əməllərdə:** Qonşunu gülər üzlə qarşılamaq, ona yaxşılıq etmək və ehtiram göstərmək.

**Haqlarını qorumaq:** Qonşunun canını, malını və namusunu qorumaq, xəstələndikdə onu ziyarət etmək, xətalarını əfv etmək və bağışlamaq, ona nəsihət etmək və yemək vermək.

[153] Buxari (5669). Muslim (2625).
[154] İbn Hibban "Səhih" əsərində nəql edib (4465). Hakim "Əl-Mustədrək" əsərində (7532) isnadının səhih olduğunu deyib.
[155] Buxari "Əl-ədəbul mufrad" (124). Şeyx Albani "həsən səhih" olduğunu demişdir.

Qonşu haqqlarını dərəcələrə belə bölmək olar:

Birinci: Əziyyət verməmək. Bu yaxşı qonşuluğun ən aşağı dərəcəsidir.

İkinci: Qonşuya əziyyət verməmək, bununla yanaşı onun əziyyətinə dözmək və məhəl qoymamaq.

Üçüncü: Ona yaxşılıq etmək və ehtiram göstərmək. Bu isə mərtəbələrin ən yüksəyidir.

Qonşunun müsəlman və ya qeyri müsəlman olmasından asılı olmayaraq, bu haqqları yerinə yetirmək lazımdır. Belə ki, qonşular üç qismdir:

Birinci qism: Qonşu olması ilə yanaşı həm müsəlman, həm də qohumdur. Belə qonşunun insanın üzərində üç haqqı var; müsəlmanlıq haqqı, qohumluq haqqı və qonşuluq haqqı.

İkinci qism: Qohum olmayan, lakin müsəlman olan qonşu. Belə qonşunun isə iki haqqı vardır; qonşuluq və müsəlmanlıq haqqı. Həmçinin əgər qonşu kafir olsa, lakin qohum olsa, onun da iki haqqı vardır, qonşuluq və qohumluq haqqı.

Üçüncü qism : Qohum olmayan kafir qonşu. Belə qonşunun isə yalnız bir haqqı var, o da qonşuluq haqqı.

Mücahid *(Allah ona rəhmət etsin)* deyir ki, mən Abdullah ibn Amrın *(Allah ondan və atasından razı olsun)* yanında idim və bu zaman onun xidmətçisi qoyun soyurdu. O belə dedi: ***"Ey uşaq, işini bitirdiyin zaman, (əti payladıqda) əvvəlcə yəhudi qonşumuzdan başla". Orada olanlardan biri, "Yəhudidənmi? Allah səni islah etsin!" deyərək etiraz etdi. Abdullah ibn Amr belə dedi: "Mən Allah elçisinin (sallallahu aleyhi və səlləm) qonşu barədə tövsiyə etdiyini eşitmişəm. Biz hətta qorxduq və ya elə hesab etdik ki, o, qonşunu da varislərdən edəcək".***[156]

## Sual 96: İslamın vəfat etmiş insanlara münasibəti necədir?

Həqiqətən də, İslam dini ölülər üçün də hüquqlar qoymuşdur. Ölən insanın haqları hələ ölüm ayağında ikən başlayır. Bu zaman ona nəsihət etmək, tövhidi və "lə iləhə illəllah" şəhadətini xatırlatmaq

[156] Buxari "Əl-ədəbul mufrad" (128). Şeyx Albani "Səhih" olduğunu demişdir.

lazımdır. Əgər o kafir olubsa, onu tövhidə dəvət etmək və İslam dinini qəbul etməyə rəğbətləndirmək gərəkdir. Əgər "Lə iləhə illəllah" şəhadəti üzərində ölərsə, sonluğunun gözəl olmasına ümid edilməlidir. Öldükdən sonra ölünün gözlərini bağlamaq və onu qorumaq üçün üstünü örtmək lazımdır. Sonra qüsl edilməsi, kəfənlənməsi və dəfn olunması barədə etdiyi vəsiyyəti yerinə yetirilməlidir. Əgər ölən kəs müsəlman olubsa, yuyulur və kəfənlənir, sonra onun üçün cənazə namazı qılınır. Dul qalan zövcəsi dörd ay on gün yas saxlayır və iddə müddətini gözləyir. Ölünün borcu ödənilir, mirası bölünür, ailəsinə təziyə verilir. Cənazənin hazırlanması üçün onun öz malından xərclənir, olmasa bunu ya qohumu, ya da cənazədə iştirak edənlərdən biri öz öhdəliyinə götürür. Müsəlman olan bir kimsəni müsəlmanların qəbiristanlığında, kafiri isə öz qəbiristanlığında dəfn etmək vacibdir. Uca Allah buyurub: **"Sonra onu öldürüb qəbirə yerləşdirdi" (Abəsə, 21).** Bu ayə xəbər formasında olsa da, əmr mənasını bildirir. Yəni onu dəfn edin və qəbirə qoyun. Əbu Hureyranın *(Allah ondan razı olsun)* rəvayət etdiyi hədisdə Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Kim cənazə namazı qılınana qədər cənazədə iştirak edərsə, onun üçün bir qirat var. Kim də dəfn edilənə qədər onda iştirak edərsə, onun üçün iki qirat var. Dedilər ki, iki qirat nədir? O, belə dedi: "İki böyük dağ boyda əcr".***[157] Həmçinin, ölüləri söymək icazəli deyil. Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Ölüləri söyməyin, çünki onlar artıq hazırladıqları yerə gediblər".***[158] Qəbirlər təhqir olunmaqdan qorunmalıdır. Qəbirləri dirsəkdən hündür qaldırmaq, onların üstündə bina tikmək, onları dirilərin evlərinə bənzətmək yaxud üzərində çıraq yandırmaq olmaz. Qəbirlər yalnız ibrət almaq, nəticə çıxarmaq, Qiyamət gününü, ölümü, Cənnət və Cəhənnəmi yada salmaq üçün ziyarət olunur. İbn Məsud *(Allah ondan razı olsun)* rəvayət edir ki, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* demişdir: ***"Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi onları ziyarət edin. Həqiqətən də bu,*** *(insanın qəlbini)* ***dünyadan uzaqlaşdırır və ona Axirəti xatırladır".***[159]

[157] Buxari (1261). Muslim (945).
[158] Buxari (1329).
[159] İbn Macə (1571), bu onun ləfzidir. Muslim (977).

**Sual 97: İslam dininin fərdlərə baxışı necədir?**

İslam dininə görə hər bir şəxsin həm hüquqları, həm də üzərinə düşən vaciblər vardır. Bu həm onun Rəbbi qarşısında, həm də insanlar və cəmiyyət qarşısında olan öhdəlikləridir. İstər kişi, istərsə də qadın olsun, hər bir fərdin hüquqları və üzərinə düşən vəzifələri vardır. Uca Allah buyurub: **“Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç birkəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz” (Ali İmran, 195).** Başqa ayədə buyurub: **“Kim pis biriş tutsa, o ancaq işinin həddi qədər cəza alar. Mömin olmaqla bərabər, yaxşı iş görən kişilər və qadınlar Cənnətə daxil olub orada hesabsız ruziyə nail olarlar” (Ğafir, 40).** Əgər bir insan zəifdirsə, hüquqlarını yerinə yetirməsi və vacibləri əda edə bilməsi üçün ona kömək etmək lazımdır. Həmçinin, əgər zülmə məruz qalarsa, ona yardım edilməli və bu zülm aradan qaldırılmalıdır. Uca Allah buyurub: **“Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?” (Nisə, 75).** Əgər bir insan zülmə məruz qalıbsa, ona yardım edilməli və bu zülm aradan qaldırılmalıdır. Yox əgər bir insan özü zülm edirsə, o zaman ona mane olunmalı və zülmünün qarşısı alınmalıdır. Məhz bununla cəmiyyətdə ədalət və təhlükəsizlik təmin edilir və zülmün qarşısı alınır. Cabir *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* belə deyib: ***“Qardaşına yardım et – istər zalım olsun, istərsə də məzlum. Əgər o, zalımdırsa, onu zülmdən çəkindir. Çünki, bu da ona yardımdır. Əgər zülmə məruz qalıbsa, ona kömək et”.***[160] İslamda heç bir insan başqa birinin günahına görə məsuliyyət daşımır və ən yaxın qohum olsa belə, heç kim başqasının günahına görə cəzalandırılmır. Bu həm dünyada, həm də axirətdə belədir. Uca Allah buyurub: **“Heç bir günahkar başqasının günahını daşımaz” (Ənam, 164).** Başqa ayədə buyurub: **“Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz” (Fatir, 18).** Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* Vida həccində belə demişdir: ***“Bilin ki, cinayət edən bunu yalnız öz əleyhinə edir. Nə ata öz övladının günahına görə, nə***

[160] Buxari (6552). Muslim (2584).

***də övlad atasının günahına görə məsuliyyət daşımır."***[161] Başqa bir hədisdə Sələbə ibn Zəhdəm *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir dəfə Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* xütbə verərkən, onun yanına Bənu Sələbə qəbiləsindən bir dəstə adam gəldi. Bu zaman bir kişi belə dedi: "Ey Allahın Elçisi! Bu, Bənu Sələbə ibn Yərbu qəbiləsinin adamlarıdır, Allah Elçisinin səhabələrindən filan kişini öldürüblər". Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* belə dedi: ***"Bir kəsin etdiyi günahı başqası daşımır".***[162] Hər bir insan yalnız öz əməllərinə görə məsuliyyət daşıyır və yalnız səbəbkar olduğu əmələ görə mükafat və ya cəza alır. Uca Allah buyurub: **"İnsan can atdığı şeyə nail olar. Əlbəttə, onun can atdığı əməl ona nəsib olacaqdır. Sonra da ona bunun əvəzi tam veriləcəkdir!" (Nəcm, 39-41).** Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***"İnsan öldüyü zaman onun əməlləri dayanır, yalnız bu üçündən başqa; davam edən sədəqə, faydalı elm və onun üçün dua edən saleh övlad".***[163]

## Sual 98: İslamda rəhbərlə rəiyyət arasındakı əlaqə nədir?

İslamda rəhbər öz rəiyyəti üçün qayğıkeş ata kimidir və onların arasında güclü bağlılıq vardır. Çünki müsəlman hökmdar, idarə etdiyi insanların işlərinə qayğı göstərməli, onların haqlarını bilməli və yerinə yetirməlidir. O, cəmiyyət arasında qayda-qanunu təmin etməli, təhlükəsizliyi qoruyub saxlamalı və ədaləti bərqərar etməlidir. Bu, atanın yetkinlik yaşına çatmayan övladlarına qayğı göstərməsinə bənzəyir. Əgər ata saleh və müdrik olarsa, övladları da düzgün yolda olar və onların vəziyyəti yaxşılaşar. Əgər ata bu cür davranmazsa, həm özünə, həm də ailəsinə zərər verər. Lakin buna baxmayaraq, ailə hər iki halda doğru yolda olmalı və ataya qarşı pis rəftar etməməlidir. Əgər hökmdar ədalətli olarsa, əcr qazanar. Yox əgər zalım olarsa, günah qazanar və bu onun öz əleyhinə olar. Onun zülmünün günahını yalnız özü və zülm etməkdə ona kömək edənlər daşıyar. Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***"Elə rəhbərlər olacaq ki, onların həm yaxşı, həm də pis əməllərini görəcəksiniz. Kim pis əməl gördüyü zaman qəlbində nifrət edərsə, artıq (günahdan) uzaq olar. Kim gücü çatdığı halda bu muxalifliyi inkar edərsə, (günahdan) salamat qalar. Amma kim onlardan razı***

[161] İbn Macə (2669). Tirmizi (3341). Nəsai (4085). (Səhih liğayrihi)
[162] Nəsai (7009). İbn Hibban (7231).
[163] Muslim (1631).

***qalar və (günahda) onlara tabe olarsa, (günah qazanar).”*** Səhabələr soruşdular: “Bəs onlarla vuruşmayaq?” Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* dedi: ***“Xeyr, namaz qıldıqları müddətcə xeyr”.***[164] Hökmdar zülm etdiyi zaman onu devirmək və ya ona qarşı çıxmaq icazəli deyil. Yalnız ona nəsihət etmək, onun üçün dua etmək, ona qarşı xoş münasibət göstərmək və yumşaq davranmaq lazımdır. Beləliklə, o ya haqq yola qayıdar, ya da ömrü başa çatar və insanlar ondan qurtularlar. Çünki onun zülmü nə qədər böyük olsa da, məhduddur. Amma ona qarşı çıxmaq və onu devirməyə cəhd göstərmək isə üsyana, qan tökülməsinə, qarışıqlığa, hərc-mərcliyə, fəlakətə və ölümə səbəb ola bilər. Buna görə Uca Allah buyurur: **“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır” (Nisa, 59).** Rəhbərin dalınca danışmaq və onun sözündən çıxmaq olmaz. Əksinə camaatla bağlı olan məsələlərdə, ictimai təhlükəsizlik, dinin və dövlətin qorunması və himayə olunması kimi mövzularda ona qayıtmaq lazımdır. Uca Allah buyurur: **“Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız” (Nisə, 83).** Həmçinin, Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***“Eşidin və itaət edin, hətta üstünüzə başı kişmiş kimi olan bir həbəşi köləsi hökmdar təyin edilsə belə”***[165]**.** Başqa bir hədisdə belə deyir: ***“Kim öz əmirində xoşuna gəlməyən bir şey görərsə, səbir etsin. Çünki kim camaatdan bir qarış ayrılaraq ölərsə, o, cahiliyyə ölümü ilə ölmüş olar”.***[166] İslamda rəhbərə itaət yalnız yaxşı və Allahın şəriətinə muxalif olmayan işlərdə olmalıdır. Əgər o günah və şəriətə zidd bir əmri verərsə, bu işdə ona itaət edilməməlidir. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurmuşdur: ***“Müsəlman şəxs, xoşuna gəlsə də, gəlməsə də, günah olmayan işlərdə eşidib itaət etməlidir. Lakin əgər ona günah əmr edilərsə, bu***

[164] Muslim (1854)
[165] Buxari (6723)
[166] Buxari (6724). Muslim (1849)

***zaman nə eşitməli, nə də itaət etməlidir.”***[167] Bir dəfə Sələmə ibn Yezid *(Allah ondan razı olsun)* Allah Elçisindən *(sallallahu aleyhi və səlləm)* soruşdu: ***“Ey Allahın Elçisi! De görüm, əgər bizim üzərimizdə əmirlər olsa, öz haqlarını istəsələr, lakin bizim haqqımızı verməsələr, o zaman bizə nə etməyimizi əmr edirsən? Allah Elçisi (sallallahu aleyhi və səlləm) ondan üzünü çevirdi. Sonra o yenidən soruşdu və Allah Elçisi (sallallahu aleyhi və səlləm) bu dəfə də üzünü çevirdi. Sonra o, ikinci yaxud üçüncü dəfə bu sualı verdi. Bu vaxt Əşas ibn Qeys (Allah ondan razı olsun) onu özyanına çəkdi. Sonra Allah Elçisi (sallallahu aleyhi və səlləm) belə dedi: “Eşidin və itaət edin. Onların yükü onlara, sizin yükünüz isə sizə aiddir”.***[168] Bu cür rəhbərin arxasında namaz qılınır, onunla birlikdə Həcc edilir və onunla birlikdə və onun izni ilə cihad edilir. Rəhbərə isə şəri hökmləri tətbiq etmək, haqqı yaymaq, insanlara yardım etmək, əhdinə sadiq qalmaq və öz vəzifə borcunu yerinə yetirmək vacibdir. Allah Elçisi *(sallallahu aleyhi və səlləm)* buyurub: ***“Qiyamət günü üç sinif insan olacaq ki, Allah onlara baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı bir əzab vardır... o adam ki, əmirə yalnız dünya xatirinə beyət etmiş, əmir dünya malından ona bir şey verdikdə razı qalmış, vermədikdə isə ona qəzəbi tutmuşdur.”***[169] Rəhbərin devrilməsinə kömək etmək icazəli deyil. Əks halda bu məsələ insanlar üçün oyun-oyuncağa çevriləcək və hər dəfə hökmdardan narazı qaldıqda, onu devirmək istəyəcəklər. Nəticədə, müsəlmanların xeyir üzərində sabit olmaları mümkün olmayacaq. Yer üzündə bərqərar olmaq yalnız rəhbərin sabitliyi ilə, xeyir işləri yerinə yetirməkdə və pis işlərdən çəkinməkdə ona yardım etməklə olur. Uca Allah buyurub: **“Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm edilsin” (Nur, 55-56).**

[167] Buxari (6725). Muslim (1869)
[168] Muslim (1846)
[169] Buxari (2230). Muslim (108)

## Sual 99: İsalmın dövlətlərə baxışı necədir?

İslam dini birliyə və bir kəlimə üzərində birləşməyə çağırır, müsəlmanları razılığa gəlməyi əmr edir, onları parçalanma və ixtilafdan çəkindirir. Uca Allah belə buyurub: “**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz (bir-birinizə) düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində (bir-birinizlə) qardaş oldunuz” (Ali İmran 103)**

Əgər coğrafi uzaqlıq, ərazilərin pərakəndəliyi və ya daxili çəkişmələr və nəfsi istəklər səbəbindən İslam dövlətlərinin birliyi mümkün olmazsa, müstəqil olan hər bir dövlət başçısına yaxşı işlərdə eşidib  və itaət etmək lazımdır. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* hökmdarları cəm halında qeyd edərək, bu işin baş verəcəyinə işarə edərək demişdir: ***“Sizin üzərinizdə namazı vaxtlarını gecikdirən hökmdarlar olacaq.***[170]

İslam qonşu dövlətlərə mövcud vəziyyətə və reallığa əsasən baxır:

1) Müqaviləli (müttəfiq) dövlətlər:

Əgər İslam ölkəsi ilə digər dövlət arasında əhd-peyman varsa, bu müqavilələrə vəfa göstərmək vacibdir. Qarşı tərəf pozmadıqca  o müqaviləni ( əhdi ) pozmaq olmaz. Uca Allah belə buyurub: **“Şübhəsiz ki, Allah yanında (yer üzündə yürüyən) canlıların ən pisi kafir olanlardır. Onlar iman gətirməzlər. Onlar, əhd bağladığın, sonra da hər dəfə öz əhdlərini (heç nədən) çəkinmədən pozan kimsələrdir. Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də (qorxudaraq) dağıt ki, bəlkə ibrət alsınlar. Əgər (əhd bağladığın) bir qövmün (əhdi pozacağı ilə) xəyanət etməsindən qorxsan, sən də onlara əhdi pozduğunu bildir. Şübhəsiz ki, Allah xainləri sevməz” (Ənfal, 55-58 )**

2) Sülh və İttifaq:

Müsəlmanların mənafeyi naminə qeyri-müsəlman dövlətlərlə sülh bağlamaq və ittifaqa girmək icazəlidir. Qədim əl-Xuza qəbiləsi o zaman kafir olsalar da, Allah Rəsuluna *(sallallahu aleyhi və səlləm)* qarşı sadiq müttəfiqlər idilər və etibarlı və sədaqətli adamları idilər,

---

[170] Müslim, 534-cü hədisi Abdullah bin Məsuddan rəvayət etmişdir

ona yaxın və sirlərinə etibar edirdilər və bu qəbilə **Tihama**[171] bölgəsində idi. Qureyşə qarşı müsəlmanlarla birlikdə hərbi ittifaqa daxil olmuşdular. Eynilə, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* Mədinənin müdafiəsi və şəhər əhalisinin ümumi rifahı üçün yəhudilərlə də müqavilə bağlamışdı.

Buna əsasən, ölkələrin və insanların xeyrinə olan məsələlərdə dövlətlərlə əməkdaşlıq edilir. Uca Allah belə buyurub: "**Yaxşılıq etməkdə və (Allahdan qorxub) pis əməllərdən çəkinməkdə bir-birinizə yardım edin. Günah işlər görməkdə vədüşmənçilik etməkdə isə bir-birinizə yardımçı olmayın" (Maidə, 2)**

3) Müharibə edən (düşmən) dövlətlər:

Əgər bir dövlət müharibə vəziyyətindədirsə, müsəlmanlar ondan ehtiyat etməli, ayıq-sayıq olmalı və dövlət rəhbərinin əmrlərinə uyğun hazırlaşmalıdırlar. Əgər bu, döyüşü tələb edirsə, müsəlman hökmdarı ilə birlikdə həmin təcavüzkar və zalım dövlətə qarşı cihad etmək vacibdir – xüsusilə də onların zülmü müsəlmanlara toxunarsa.

4) Sülhə meyillilik:

Müharibə edən dövlət sülhə meyil göstərərsə və bunda müsəlmanlar üçün xeyir varsa, dövlət rəhbəri sülhə razı olmalıdır.

Uca Allah belə buyurub: "**İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə (yardım) istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allahsizin nə etdiklərinizi görür. Kafirlər də bir-birinin dostudurlar. Əgər siz bir-birinizə yardımçı olmasanız, yer üzündə fitnə və böyük bir fəsad baş verər" (Ənfal, 72-73).**

Uca Allah belə buyurub: "**(Ey möminlər) Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla (həm) Allahın düşmənini,(həm də) öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, onun əvəzi sizə tam ödənilər və sizə zülm edilməz. Əgər onlar sülhə meyl etsələr, sən də**

[171] Buxari, hədis (2581) əl-Misvar bin Məxramə rəvayət etmişdir. Tihama Ərəbistan yarımadasının beş coğrafi bölgəsindən biri olan sahilboyu coğrafi bölgədir . Ərəbistan yarımadasının qərbində Hicaz və Yəmən bölgələri arasında Qırmızı dənizə bitişik sahil düzənliyidir.

**sülhə meyl et və Allaha təvəkkül et! Həqiqətən, O, Eşidəndir, Biləndir" (Ənfal, 60-61).**

## Sual 100: İslamın hədlərə və cəzalara baxışı necədir?

İslam, məxluqat arasında ədaləti bərpa etmək və haqqı yerinə yetirmək üçün cəzaları və hökmləri qanuniləşdirmişdir. Beş təməl prinsipi — dini, canı, ağlı, namusu və malı qorumaq məqsədilə bəzi əməllər üçün "hüdud" və "təzir" cəzaları müəyyən edilmişdir. İslam bu hüdudların tətbiqi üçün müəyyən şərtlər qoymuşdur. Bu cəzalar yalnız müəyyən yollarla sübuta yetdikdən və hakimin (qazinin) qərarından sonra tətbiq olunur. Onu yalnız dövlət başçısı (hakim) və ya naibi (vəkili) icra edə bilər. Başqa heç kimin bunu tətbiq etmək səlahiyyəti yoxdur. Bu cəzalardan birincisi:

• Qisas cəzasıdır. Qisas cəzasında əsas məqsəd canları qorumaq və əmin-amanlığı bərpa etməkdir. Uca Allah belə buyurub: "**Ey iman gətirənlər! Öldürülən şəxsə görə qisas almaq sizə vacib edildi. (Odur ki,) azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından (qisas alın!) Əgər (qatil öldürdüyü) qardaşının (varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda (varislər onunla) insafla davranmalı, (qatil də, qanbahasını) gözəl tərzdə ödəməlidir. Bu, Rəbbiniz tərəfindən bir yüngüllük və mərhəmətdir. Bundan sonra kim həddi aşsa, onun üçün ağrılı-acılı bir əzab vardır. Qisasda sizin üçün həyat vardır. Ey ağıl sahibləri! Bəlkə (bununla Allahdan) qorxasınız" (Bəqərə, 178-179).**

• Evli olmayan zinakarın cəzası:

Namusu qorumaq və insanları təcavüzdən uzaq tutmaq üçündür. Uca Allah belə buyurub: **Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dininə görə onlara yazığınız gəlməsin. Qoy möminlərdən bir dəstə onların əzabına şahid olsun" (Nur, 2)**

Evli zinakarların rəcm (daşqalaq) edilməsi haqqında isə Ömərdən (Allah ondan razı olsun) belə deməsi sabit olmuşdur: ***"Mən qorxuram ki, insanlar üzərindən uzun müddət keçdikdən sonra onlardan biri: "Biz Allahın kitabında daşqalaq [ rəcm ] haqqında heç bir ayə görmürük desin və bununla Allahın nazil etdiyi bir fərzi tərk***

***edərək haqq yoldan azsınlar". Diqqət edin, evli zinakarı daşqalaq (rəcm) etmək haqdır, əgər dəlil sübuta yetirilərsə, yaxud hamiləlik və ya etiraf olarsa. Bilin ki evli zinakarı Allah Rəsulu da daşqalaq etdirib, biz də ondan sonra daşqalaq etdirmişik.***[172]

• Qazf (iffətli şəxsə böhtan atmaq) cəzası: İnsanların nüfuzunu qorumaq və düşmənçiliyi aradan qaldırmaq üçün böhtan atmanın cəzası səksən qamçıdır. Uca Allah belə buyurub: "**İsmətli qadınları (zinada) günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqdirlər. Ancaq bundan sonra tövbə edib özlərini islah edənlər müstəsnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir" (Nur, 4-5).**

• Ogürluğun cəzası: Malları qorumaq və asayişi bərpa etmək üçündür: Cəzası oğurluq edən əlin kəsilməsidir. Uca Allah belə buyurub: "**Oğru kişinin və oğru qadının, etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq (sağ) əllərini kəsin! Allah qüdrətlidir, hikmət sahibidir. Kim etdiyi (bu) zülümdən sonra tövbə edib (özünü) islah edərsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir" (Maidə, 38-39).**

• İçki içməyin cəzası:  Ağılı qorumaq üçün spirtli içki içməyin cəzası. Ənəs ibn Məlikin hədisində olduğu kimi, səksən qamçıdır. Ənəs ibn Məlik *(Allah ondan razı olsun)* dedi: ***İçki içmiş bir ad adamı Peyğəmbərin  (sallallahu aleyhi və səlləm) yanına gətirdilər və O, təxminən qırx dəfə onu iki xurma budağı ilə şallaqlatdırdı. Ənəs ibn Məlik (Allah ondan razı olsun) dedi: Bu cəzanı Əbu Bəkr də (Allah ondan razı olsun)tətbiq etmişdi. Ömər ibn Xattab  (Allah ondan razı olsun) iqtidarda olanda camaatla məsləhətləşdi və Əbdürrəhman ibn Ovf (Allah ondan razı olsun) dedi: "Cəzaların ən yüngülü səksəndir. Bundan sonra Ömər ibn Xattab (Allah ondan razı olsun) bu cəzanı əmr etdi.***[173]

• Riddə (dindən dönmə) cəzası: Dini qorumaq üçündür. Kim İslama və ya İslam dövlətinə xəyanət edərək camaatdan ayrılarsa və ya qətl və döyüşlə dövlətin sirlərini ifşa edərsə, dini və dövləti qorumaq məqsədilə öldürülər. Uca Allah beləbuyurub: "**Allaha və Onun rəsuluna qarşı savaşanların və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək və ya**

[172] Buxari, hədis (6441), İbn Abbas rəvayət etmişdir
[173] Müslim rəvayət etmişdir, hədis (1706)

**çarmıxa çəkilmək, yaxud əllərinin və ayaqlarının çarpazvari kəsilməsi, ya da yaşadıqları yerdən sürgün edilmələridir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir. Yalnız əlinizə keçməmişdən öncə tövbə edənlər müstəsnadır. Bilin ki, Allah bağışlayandır, rəhmlidir" (Maidə, 33-34).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına şəhadət edən bir müsəlmanın qanı üç haldan birində halal olur. Evli müsəlman zina edərsə, qana-qan (qisas) halında və dini tərk edib camaatdan ayrılarsa"***[174]

Bütün bu cəzalar cəmiyyətlərin ehtiyac duyduğu beş zəruri əsasın (din, nəfs, ağıl, namus və malın) qorunub saxlanması üçün böyük bir səbəbdir. Fərdlər bu beş zəruri əsasın kölgəsi altında təhlükəsiz şəraitdə əmin ənamlıqda yaşayırlar. Necə ki, bu hal Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* dövründə və onun hidayət imamları olan rəşidi xəlifələri və onlardan sonra gələnlərin dövründə baş vermişdir. Hansı ki, insanlar İslamın kölgəsi altında ərəb yarımadasının bir ucundan digərinə qədər Allahdan başqa heç kəsdən qorxmadan təhlükəsizlikdə yaşamışlar. Təhlükəsizlik və asayiş isə insanların imanlarının və Allahın şəriətini tətbiq etmələrinin azalması dərəcəsində azalar. Uca Allah belə buyurub: "**İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanlar əmin-amanlıq içində olarlar. Doğru yola yönələnlər də (elə) məhz onlardır" (Ənam, 82)**

### Sual 101: İslamın böyük günahlara və bu günahları işləyənlərə münasibəti necədir?

İslam insanların insani hallarını nəzərə alır və onların mələk olmadıqlarını qəbul edir. Buna görə də, insan təkrar-təkrar günaha qayıtsa belə, hətta bu günah küfr və ya şirk olsa belə, tövbəyə çox təşviq edir. Tövbəyə çağırır və müsəlmanlara daima istiğfar etməyi (bağışlanma diləməyi) əmr edir. Uca Allah belə buyurub: "**(Bundan) yalnız tövbə edib, (özlərini) islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər müstəsnadır. Bu kimsələr möminlərlə bərabərdirlər. Allah möminlərə böyük**

[174] Müslim rəvayət etmişdir, Hədis (1676) Abdullah bin Məsud hədisidir

**mükafat verəcəkdir. Əgər şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin! Allah şükrün əvəzini verəndir, (hər şeyi) biləndir" (Nisa, 146-147).**

İmanın əslinə sahib olan asi müsəlman, bilərəkdən və qəsdlə küfr və ya şirk etmədikcə, asilik səbəbindən İslamdan çıxmaz. İslamda böyük günah sahibi imandan tamamilə çıxmaz, lakin ona "mütləq kamil mömin" adı da verilməz. O, sahib olduğu imana görə mömin, tərk etdiyi fərzlərə və işlədiyi günahlara görə isə fasiq və imanı naqis sayılır. Onun sahib olduğu və küfrlə qarışmayan imanı, onu odda əbədi qalmaqdan qoruyar. Əgər günahlarının miqdarı qədər odda əzab çəksə belə (nəticədə cənnətə girər). Uca Allah belə buyurub: "**Digərləri isə öz günahlarını etiraf etdilər. Onlar yaxşı bir əməllə pis bir əməli bir-birinə qarışdırdılar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir" (Tövbə, 102).**

Buna əsasən İslamda insanlar üç dərəcəyə bölünür:

**Birinci dərəcə:** Ən uca mərtəbənin əhlidir. Onlar imanı kamil olanlar, mütəqillər (təqvalılar), xeyirxahlar, xeyir işlərdə öndə gedənlər, şər və pisliklərdən uzaq duranlar və tövbəyə sarılanlardır. Uca Allah onlar haqqında belə buyurub: "**(Dünyada xeyirxah işlərdə) öndə gedənlər, (axirətdə də) öndədirlər! Onlar (Allaha) yaxınlaşdırılmış kimsələrdir" (Vaqiə, 10).**

Bu kəslər şəriəti qəbul edib, ona həm elmi, həm də əməli cəhətdən riayət etmiş, müstəhəb əməllərdə və itaətlərdə tələsmiş, haramlardan, hətta məkruhlardan belə uzaq durmuşlar. Onların bəla qarşısındakı halları fərqlidir. Onlar çətinliyi lütf, bəlanı isə nemət kimi görərlər.

**İkinci dərəcə:** Orta mərtəbə əhli. Onlar şəriəti qəbul edib ona həm elmi, həm də əməli cəhətdən riayət edənlərdir, lakin (xeyir işlərdə) çox tələsən deyillər və məkruhlardan çəkinməkdə həssaslıq göstərmirlər. Onların bəla qarşısındakı halları səbr etməkdir.

**Üçüncü dərəcə:** Aşağı mərtəbə əhli. Onlar şəriəti qəbul etmişlər, lakin ona həm elmi, həm də əməli cəhətdən riayətləri o qədər də yüksək deyil. Onların bəzi vacibləri tərk etdiklərini və ya bəzi haramları işlədiklərini görərsən. Onların qədər (qarşılaşdıqları sıxıntılar) qarşısındakı halları zəifdir. Başlarına bir iş gəldikdə sarsıntı və təşviş keçirirlər. Uca Allah bu dərəcələri açıqlayarkən belə

buyurub: “**Sonra, Kitabı qullarımızdan seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur” (Fatir, 32).**

Böyük günahlar küfrdən aşağı olan günahlardır; Zina, homoseksuallıq, içki içmək, sələmçilik, yalan danışmaq, fəsad törətmək məqsədilə söz gəzdirmək, xəyanət etmək, əmanəti qorumamaq, valideyin üzünə ağ olmaq, qohumluq əlaqələrini kəsmək və bu kimi günahlardır.Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***Allaha heç bir şərik qoşmayacağınıza, oğurluq və zina etməyəcəyinizə, uşaqlarınızı öldürməyəcəyinizə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdıretməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə mənə qarşı çıxmayacağınıza dair mənə o beyət edin. Sizlərdən hər kim vəfalı olarsa etdiyi beyətinə, onun mükafatı Allah yanındadır və kim bu günahlardan hər hansı birini etsə və bu günahlara görə dünyada cəzalandırılsa, bu onun üçün kəffarə olar. Kim bunlardan birini etsə və Allah onu gizlədərsə, onun işi Allaha aiddir, əgər istəsə, ona əzab verər, istəsə, onu bağışlayar.***[175]

Uca Allah belə buyurub: “**Digərləri isə öz günahlarını etiraf etdilər. Onlar yaxşı bir əməllə pis bir əməli bir-birinə qarışdırdılar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir” (Tövbə, 104).**

## Sual 102: İslamı pozan amillər hansılardır ?

İslamı ancaq onun əslini (təməlini) dağıdan, rüknlərinə zidd olan, əsasları və binası ilə ziddiyyət təşkil edən amillər pozur. İslamı korlayan və pozan bu məsələlər müxtəlifdir. Fərdi formaları baxımından isə çox sayda və çeşidli kütləyə malikdir. İnsanı İslam dairəsindən çıxaran ən böyük amillərdən bəziləri bunlardır:

**Birinci amil:** Allaha ibadətdə ona şərik qoşmaq ki, bu da Uca Allaha qarşı edilən ən böyük günahdır. Uca Allah belə buyurub: **“Şübhəsiz ki, Allah Özünəşərik qoşulmasını əsla bağışlamaz, (amma) bundan başqa olan günahları isə istədiyi şəxsə bağışlayar. Allaha şərik qoşan şəxs böyük bir günah edərək iftira atmış olur” (Nisa, 48).**

[175] Buxari, Hədis (3679) və Müslim, Hədisi (1676) Abdullah bin Məsud rəvayət etmişdir.

Digər ayədə Uca Allah belə buyurub: **“Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir”– deyənlər kafir oldular. Halbuki Məsih demişdi: “Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir yardımçısı yoxdur”. “Şübhəsiz ki, Allah üçlüyün üçüncüsüdür!”– deyənlər də, kafir oldular. Halbuki Tək İlahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlar ağrılı-acılı bir əzaba uğrayacaqlar. Onlar Allaha tövbə edib Ondan bağışlanmadiləməyəcəklərmi?! Allah bağışlayandır, rəhmlidir” (Maidə, 72-74).**

Böyük küfr və böyük nifaq da, şirk kimi İslamı pozan və batil edən amillərdəndir.

**İkinci amil:** Uca Allaha yaxınlaşmaq üçün ibadətdə vasitə tutmaq. Kim özü ilə Allah arasında vasitələr tutaraq, onlara dua edərsə, onlardan şəfaət tələb edərsə və onlara təvəkkül edərsə, artıq İslamı pozulmuş sayılar. UcaAllah belə buyurub: “**Biz Kitabı sənə haqq olaraq nazil etdik. Odur ki, sən də, dini yalnız Allaha aid edərək ancaq Ona ibadət et! Bilin ki, xalis din yalnız Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”– (deyirlər). Şübhəsiz ki, Allah ixtilaf etdikləri məsələlər barədə onların arasında hökm verəcəkdir. Həqiqətən Allah, yalançı və kafir olan kimsəni doğru yola yönəltməz.**[176]

**Üçüncü amil:** Müşriklərin və kafirlərin küfründə şəkk etmək.[177] Kim müşrikləri təkfir etməzsə (onları kafir saymazsa), yaxud onların küfründə şübhə edərsə və ya onların yolunu doğru hesab edərsə, İslamdan çıxar. Çünki Allah bir çox ayələrdə onları təkfir etmişdir. Allaha şərik qoşulan tağutları inkar etmək İslamın zəruri əsaslarındandır. Uca Allah buyurub: “**Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir” (Bəqərə, 256).**

[176] əz-Zumər 2-3
[177] Burada söhbət əsli kafir olanlardan yəni əslən kafir olanlardan gedir. Nəsranilər Yəhudilər Məcusilər və digərləri kimi . Amma İslamda olan biri küfrə düşərsə ona hüccət qaldırmadan və onda olan manеələri aradan götürmədən kafir hökmü verilməz.

**Dördüncü amil:** Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yolundan başqa kamil bir yol olduğunu və ya onun hökmlərindən daha gözəl bir hökmün olduğuna inanmaq. Uca Allah buyurub: “**Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar” (Nisa, 65).**

**Beşinci amil:** Allahla, Onun elçiləri ilə və ya dini ilə (yaxud dindən olan bir şeylə) istehza etmək. Uca Allah belə buyurub: “**Onlardan (nə üçün istehza etdikləri barədə) soruşsan: “Biz sadəcə söhbət edib zarafatlaşırdıq!”– deyərlər. De: “Allaha, Onun ayələrinə və Onun Rəsuluna istehzamı edirsiniz? Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz.” Sizlərdən bir qismini (tövbə etdiyinə görə) bağışlasaq da, digərlərinə günahkar olduqlarına (tövbə etmədiyinə) görəəzab verərik” (Tövbə, 65-66).**

Bunlar islamdan çıxaran əməllərin bəziləridir. Müsəlman bunlardan və digərlərindən çəkinməli, tövhidə və imana zidd olanı, şirk və küfrün əlamətlərini öyrənməlidir ki, onlardan qoruna bilsin.

Bu amillərin hamısında zarafat edən, ciddi olan və ya (canından) qorxan arasında heç bir fərq yoxdur; yalnız məcbur edilən (ikrah altında olan) istisnadır. Uca Allah buyurub: “**Qəlbi imanla sabit qaldığı halda (haqqı danmağa) məcbur edilən kəslər müstəsna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır” (Nəhl, 106).**

Bu ayələr **“Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə!” (Bəqərə, 286)** nazil olanda ibn Abbas *(Allah ondan razı olsun)* demişdir: ***Artıq etdim.***[178]

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***“Allah mənim ümmətimin təzyiq və təhdid altında qalmadıqca səhv, unutqanlıq səbəbi ilə etdiyi günahları bağışlamışdır”.***[179]

---

[178] Müslim rəvayət etmişdir, hədis 126
[179] İbn Macə, hədisi (2043) Əbu Zərrin hədisindir, İbn Hibban “Səhih”ində, hədis (4760) və Hakim “Müstədrək”ində (2835) rəvayət etmişdir və o demişdir: (İki şeyxin şərtlərinə görə səhihdir). Abdullah ibn Abbasın hədisidir.

## Sual 103: İslamda şirk nədir?

İslam açıq şəkildə bildirir ki, Uca Allahdan başqasına edilən hər hansı ibadət şirkdir. Tövhidə zidd olan hər bir şey şirk sayılır. Çünki Allahdan başqa hər nə varsa, hamısı məxluqdur (yaradılmışdır); onların Əzəli və Əbədi olan, heç nəyə ehtiyacı olmayan Allaha şərik qoşulması qeyri-mümkündür.

Allahdan aşağı olan hər bir varlıq fəqirdir (ehtiyac sahibidir) və acizdir. Onlar nə özlərinə ibadət edənlərə bir fayda verə, nə bir zərəri dəf edə, nə bir xeyir gətirə, nə də onları bir şərdən qoruya bilərlər. Onlar nə özlərinə ibadət edənlərə kömək edə bilər, nə də özlərinə yardımları toxunar. Belə bir xüsusiyyətdə olan varlığa ibadət etmək, ondan qorxmaq, ona ümid bəsləmək və qəlbən ona bağlanmaq ağılsızlıqdır. Əksinə, qəlblər yalnız mütləq zəngin olan (heç nəyə ehtiyacı olmayan) Allaha bağlanmalıdır.Bəndələrdə olan hər bir nemət və xeyir yalnız Ondandır. Çətinlikləri yalnız O dəf edər, darda qalanların duasını O qəbul edər, sıxıntı çəkənləri O xilas edər və məzlumların üzərindən şəri O qaldırar. Dirildən və öldürən Odur. O, hamını ruziləndirir (yedizdirir), lakin Özü bundan münəzzəhdir .

Belə bir əzəmətə və böyük xeyirə sahib olan Allah, xalis qulluğun (ibadətin) ona həsr edilməsinə ən layiq olan deyilmi? İbadət olunmağa ən layiq olan, zikr edilməyə və şükür olunmağa ən haqlı olan Odur. Uca Allah buyurub: “**Yoxsa onlar heç bir şey yaratmağa qadir olmayan, özləri yaradılmış olan bütləri Allaha şərik qoşurlar? Halbuki (Allahdan qeyri ibadət etdikləri bütlər) nə onlara, nə də özlərinə bir yardım edə bilərlər. Siz onları (bütləri) doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün eynidir. Allahdan qeyri dua etdikləriniz də sizin kimi qullardır. Əgər (iddianızda) doğrusunuzsa, haydı onları çağırın, (qoy onlarda) sizə cavab versinlər. Məgər onların (Allahdan qeyri dua etdiyiniz bütlərin) yeriyən ayaqlarımı var? Yaxud onların tutan əllərimi var? Yoxsa onların görən gözlərimi var? Və ya onların eşidən qulaqlarımı var? De: “Haydı, çağırın şəriklərinizi! Sonra mənəqarşı hiylə qurun və mənə heç möhlət də verməyin!” (Əraf, 91-95).**

Şirk iki qismə bölünür:

Böyük şirk: Yuxarıda qeyd olunan və ən təhlükəli olan şirk növüdür (insanı dindən çıxarır).

Kiçik şirk: Böyük günahlar cinsindəndir. İstər sözlə, istər zahiri əməllə, istərsə də gizli şəkildə böyük şirkə aparan hər bir vəsilədir. Məsələn:

Riya (göstəriş üçün ibadət etmək).

Allahdan başqasına and içmək.

"Allah və sən istəyən kimi olsun" ifadələr işlətmək.

## Sual 104: İslamın, Allahdan başqa ibadət edilən məbudlara baxışı necədir?

İslamın Uca Allahdan qeyri ibadət olunanlara baxışı realist bir baxışdır. Belə ki,  onlar yoxluqdan meydana gəliblər və sonda da yox olacaqlar. Var olduqları zaman isə nöqsan sifətlərlə vəsf olunmuşlar. Məhz buna görə də bütlər və Uca Allahdan başqa ibadət olunanlar nöqsanlıdır və kamillikdən məhrumdur. Onlar nə yaradır, nə ruzi verir, nə bir mülk sahibidirlər, nə (kainatın idarəsində) ortaqdırlar, nə də Allaha hər hansı bir şəkildə dəstək və köməkçidirlər. Allahın nə onlara, nə də başqasına ehtiyacı yoxdur; Əksinə, O, əl-Ğani (Heç nəyə ehtiyacı olmayan) və əl-Həmiddir (Həmd olunmağa layiqdir). Uca Allah belə buyurub: “**Allah sizin gizli saxladıqlarınızı da, aşkara çıxartdıqlarınızı da bilir. (Müşriklərin) Allahdan başqa tapındıqları (bütlər) heç bir şey yarada bilməzlər. (Əksinə,) onlar özləri yaradılmışlar. (Onlar) ölüdürlər – diri deyillər və nə vaxt dirildiləcəklərini də bilmirlər. Sizin məbudunuz Tək olan İlahdır. Axirətə inanmayanların qəlbləri (isə haqqı) inkar edir. Özləri də təkəbbürlüdürlər” (Nəhl, 19-22).**

Uca Allah digər ayədə belə buyurub: “**(Ey Peyğəmbər! Bu müşriklərə) de: “Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin yaradılmasında bir şərikliyimi var?! Əgər doğru danışanlarsınızsa, mənə bundan (Qurandan) əvvəl nazil olmuş bir kitab və ya elmdən qalan bir əsər gətirin”. Allahıqoyub Qiyamət gününədək özünə cavab verə bilməyən bütlərə dua edən kimsədən daha çox azmış kim ola bilər?! Halbuki bütlər onların dualarından qafildirlər” (Əhqaf, 4-5).**

Allahdan qeyri ibadət olunan məbudların nöqsanlı sifətləri hətta onlara ibadət edənlərə də məlumdur. Lakin onlar iddia edirlər ki, (bu

məbudlar) onlara şəfaətçi olub və ya onları Allaha yaxınlaşdırır. Bu yanlış niyyət onları Uca Allahdan  uzaqlaşdıran ən böyük səbəbdir. Çünki Allaha ancaq Onun sevdiyi şeylərlə yaxınlaşmaq olar. Ona ancaq ixlas (səmimiyyət) və saleh əməllərlə təvəssül edilər. Kim Allaha şirk qoşaraq yaxınlaşmaq istəsə, bu, onu Allahdan daha da uzaqlaşdırar və bununla da özü ilə Rəbbi arasındakı bağı qoparmış olar. Nəticədə o, odda (Cəhənnəmdə) əbədi qalmağa layiq olar və Allah Cənnəti ona haram edər. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: "***Ey insanlar, nəfsinizə hakim olun!  Çünki siz nə kar birini, nə də qeybdə olanı çağırırsınız.  Siz eşidən, sizə yaxın olanı çağırırsınız, O, (görməsi, eşitməsi, və elmi ilə) sizinlə bərabərdir".*** [180]

## Sual 105: İslamda küfr nədir?

İslamda küfr imanı inkar etmək, İslamı rədd etmək və ya Quran və Sünnədə gələn şəriət hökmlərini  rədd etməkdir. İslamla ziddiyyət təşkil edən hər şey küfrdür, o cümlədən İslamın dayaqlarından bir dayağı və ya imanın dayaqlarından bir dayağı inkar etmək və ya dində bilinməsi zəruri olan bir şeyi inkar etmək küfürdür. Böyük nifaq da bu qəbildəndir.  İnsanı İslamdan çıxaran bir küfrdür, küfr isə iki növdür:

***Birinci növ:*** daha əvvəl qeyd olunan böyük küfrdür və bu daha təhlükəlidir. Bu növün qisimləri vardır:

**Birinci qism:** Yalan saymaq küfrü, yəni haqqı inkar etmək və ya onu  yalan saymaqdır. Uca Allah buyurub: "**Allaha qarşı yalan uyduran və həqiqət ona gəldikdə onu yalan sayan kimsədən daha zalım kim ola bilər?! Məgər Cəhənnəmdə kafirlər üçün yer yoxdur?!" (Zumər, 32).**

**İkinci qism:** Təkəbbürlük küfrüdür ki, bu lovğalıq və təkəbbürlüklə haqqı inkar etməkdir. Uca Allah buyurub: **İblisdən başqa hamısı səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu" (Bəqərə 34).**

**Üçüncü qism:** Şübhə küfrüdür, yəni Uca Allaha, Onun elçilərinə, dininə və ya öldükdən sonra dirilməyə axirətə  şəkk etməkdir. Uca Allah buyurub: "**Qiyamət saatının gələcəyini də zənn etmirəm.**

[180] əl- Buxari, Hədis (2830) və Müslim, Hədis (2704) Əbu Musa əl-Əşari rəvayət etmişdir.

**Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaqdır!" Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni insan qiyafəsinə salmış Rəbbinə küfrmüedirsən?" (Kəhf, 36-37).**

**İkinci növ:** Kiçik küfrdür. Bu hansısa formada inkarı ehtiva edən lakin tövhidin və imanın əslinə zidd olmayan və İslamı rədd etmək və ya onu qəbul etməyi rədd etməkdən ibarət olmayan hər bir günahdır. Onlardan: Allahdan qeyrisinə and içmək və bir müsəlmanla döyüşmək. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: ***"Bir müsəlmanı söymək fasiqlik onunla döyüşmək isə küfürdür".***[181]

## Sual 106: İslamda nifaq nədir?

Nifaqın (münafiqliyin) mahiyyəti bir şeyi zahirən göstərib, daxildə başqa bir şeyi gizlətməkdir. İslamda bu əməl haramdır. Çünki o, mahiyyət etibarilə sözün qəlblə, zahirin batinlə, aşkarın gizli ilə və şəhadətin (dil ilə deyilənin) qeyblə (ürəkdə olanla) ziddiyyət təşkil etməsidir. İslamda nifaq iki növə bölünür:

**Birinci qism:** Böyük nifaqdır. Bu, küfrü qəlbində gizlədib, zahirən İslamı göstərməkdir. Qurani-Kərimdə münafiqlərdən bəhs edən bütün ayələr bu növə aiddir. Hətta Quranda xəbərdarlıq məqsədilə onların adını daşıyan bir surə ("Munafiqun") də vardır.

Uca Allah buyurub: "**(Ya Peyğəmbər!) Münafiqlər sənin yanına gəldikdə: "Biz sənin, Allahın Rəsulu olduğuna şəhadət veririk!"– deyirlər. Allah sənin, Onun Rəsulu olduğunu bilir. Allah, münafiqlərin yalançı olduqlarına şahiddir" (Munafiqun, 1-2).**

**İkinci qism:** Kiçik nifaqdır. Bu, asilik və günahlar qəbilindəndir. Məsələn, bir kimsənin gerçəyə zidd olaraq yalan danışması və ya qəlbindəkinin əksinə bir iş görməsidir. Riya (ibadətlərdə özünü başqasina göstərmək) və ya əs-Suma (eşitdirmək) kimi və sairə.

Nifaq həm fəsadları, həm də cəzası baxımından olduqca təhlükəlidir. Böyük nifaq daha qorxuludur. Böyük nifaq isə daha təhlükəlidir. Uca Allah buyurub: "**Şübhəsiz ki, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. Sən onlar üçün heç bir yardımçı tapa bilməzsən" (Nisa, 145).**

[181] Buxari 48-ci hədis və Müslim 64-cü hədisi Abdullah bin Məsuddan rəvayət etmişdir.

İkinci növ (kiçik nifaq) isə böyük nifaqa aparan bir əlamət və vasitədir. Allah elçisi *(sallallahu aleyhi və səlləm)* ondan çəkindirərək belə buyurub: ***"Danışdığı zaman yalan danışar. Söz verdiyi zaman sözündə durmaz. Özünə bir şey əmanət edildiyi zaman ona xəyanət edər."***[182]

Nifaq yayıldığı zaman cəmiyyəti daxildən gəmirən bir qurd rolunu oynayar. Nəticədə insanlar öz münasibətlərində, canları, namusları və malları barəsində təhlükəsizlikdə olmazlar. Məhz buna görə də nifaqdan qurtulmaq və ondan çəkindirmək zəruridir.

## Sual 107: İslamın şeytana baxışı necədir?

İslam dininə görə, cinlərin atası olan Şeytan (İblis) göydə mələklərlə birlikdə idi. Sonra o, Rəbbinə asi oldu, haqqa qarşı təkəbbür göstərdi və Adəmə səcdə etməkdən boyun qaçırdı. Üstəlik, o, Adəm və anamız Həvvanı azdıraraq onları Cənnətdən çıxarmağa çalışdı və buna nail oldu. Beləliklə, o, kafir oldu və Adəm övladının bir nömrəli düşməninə çevrildi. Uca Allah buyurub: "**Şeytan isə onları o ağaca yaxınlaşdırmaqla aldadıb olduqları yerdən çıxartdı. Biz dedik: "Bir-birinizə düşmən olaraq aşağı enin! Yerdə sizin üçün müəyyən (olunmuş) vaxtadək məskən və gün-güzəran vardır" (Bəqərə, 36).**

Şeytan oddan yaradılmış bir məxluqdur. Onun Adəm övladına yaxınlaşmaq, ona vəsvəsə vermək, nəfsinə və ruhuna hakim kəsilmək kimi xüsusi imkanları vardır. O, kafir olub Rəbbinə asilik etdikdə, Allah onu Öz rəhmətindən qovdu və onu lənətlənmiş bir qovulmuş etdi. Şeytan Allahdan (qiyamətə qədər) yaşamaq üçün möhlət istədi; Hikmət Sahibi olan Allah isə bəzi hikmətlərə görə, o cümlədən insanları imtahan etmək üçün onun bu istəyini qəbul etdi. O, insanları Allahın dinindən uzaqlaşdırmaq üçün özü və nəsli ilə birlikdə planlı addımlar atır, hissi şəhvətlərdən və xəyali şübhələrdən istifadə edir. Məqsədi isə:

• Dində şübhə yaratmaq,

• İşləri insanlara yanlış tərəfdən göstərib (həqiqəti) ört-basdır etmək,

• İnsanları azdırıb yoldan çıxarmaq,

182 Buxari 33-cü hədis və Müslim 59-cu hədisi Əbu Hureyrə rəvayət etmişdir.

• İnsanlar arasında ədavət və kin salmaqdır.

Onun vəsvəsələrindən və addımlarından qaçmağın yeganə yolu Allaha sığınmaq, Ondan kömək diləmək (istazə etmək), insanı ondan, onun nəslindən və ardıcıllarından qoruyan dua və zikrləri oxumaqdır. Hər bir insanın yanında mütləq bir cini (qarin) vardır.

Xilas olmağın Allaha sığınmaqdan başqa yolu yoxdur. Kim Allaha sığınarsa, Allah onu şeytandanqoruyar. Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir. Uca Allah buyurub: “**Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa” (Hicr, 41).**

## Sual 108: İslamda "Vəla və Bəra" nədir? Müsəlmanın müsəlman üzərindəki haqqı hansıdır ?

İslamda müsəlmana, hər kəsin imanına və dində zahir olan dərəcəsinə görə müsəlmanları dost tutmaq (vəla) əmr edilmişdir. Bu dostluğun mahiyyəti Uca Allah üçün sevmək və dinə görə sevməkdir. Bu cür bağlılıq (vəla) müsəlmandan başqasına qarşı caiz deyildir. Çünki bu, dini bir sevgi və şəri bir əməldir. Uca Allah buyurub: **“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdırlar” (Tövbə, 71).**

Eynilə, müsəlmana kafirlərə qarşı hər kəsin küfr dərəcəsinə görə düşmənçilik (bəra/uzaq durmaq) əmr olunmuşdur. Bir müsəlmanın, bir kafiri dininə görə sevməsi, onu dost tutması və ona yardım etməsi heç bir halda caiz deyildir. Uca Allah buyurub: **“Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kəs (bilsin ki,) Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq kafirlərdən gələ biləcək təhlükədən qorxmanız istisnadır. Allah sizi Özündən çəkindirir (Öz əzabı ilə qorxudur). Dönüş də (ancaq) Allahadır”(Ali İmran, 28).**

Başqa ayədə Uca Allah buyurub: “**Ey iman gətirənlər! Möminləri qoyub kafirləri (özünüzə) dost tutmayın. Allaha, öz əleyhinizə açıq-aydın bir dəlilmi vermək istəyirsiniz?!” (Nisa, 144).**

Başqa bir ayədə Uca Allah buyurub: “**Ey iman gətirənlər! Yəhudi və nəsraniləri (özünüzə) dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları (özünə) dost tutarsa, şübhəsiz ki, o da onlardan olar. Həqiqətən, Allah zalım qövmü doğru yola yönəltməz. Qəlblərində xəstəlik olanların: “Başımıza bir müsibət gəlməsindən qorxuruq”– deyərək onların (kitab əhlinin) arasında**

**olmağa can atdıqlarını görərsən. Umulur ki, Allah bir fəth nəsib etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən dolayı peşman olsunlar” (Maidə, 51-52).**

Lakin bu "Vəla və Bəra" prinsipi müsəlmanın bəzi təbii sevgilərinə (məsələn, kitab əhlindən olan zövcəsinə olan sevgisi) və döyüş halında olmayan kafirlərə yaxşılıq etməsinə mane olmur. Əksinə, müsəlmana kafir olsalar belə valideynlərinə yaxşı baxmaq, kafir qohumları ilə gözəl rəftar etmək əmr olunmuşdur. Uca Allah buyurub: “**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etməz. Şübhəsiz ki, Allah ədalətli olanları sevər. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır” (Mumtəhinə, 8-9).**

Müsəlmana vəfa göstərməyin tələblərindən biri də Allahın ona vacib etdiyi haqları, yəni dostluq və yardımı yerinə yetirməkdir. Əgər bir müsəlman şəriətə müxalif olduğu üçün təqsirkar olsa və müəyyən qədər uzaqlaşdırılmağa layiq görülsə belə, sonradan müsəlmanlardan yardım istəsə, gücləri çatdığı təqdirdə (və qarşı tərəflə aralarında əhd yoxdursa) ona yardım etmək müsəlmanların üzərinə vacibdir. Uca Allah belə buyurub: “**Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən (mühacirlər) və sığınacaq veribköməklik göstərən (ənsar) – məhz onlar bir-birinin dostlarıdır” (Ənfal, 72).**

Müsəlmanın digər müsəlman üzərində başqa hüquqları vardır, onlardan:

1 – Haqqı nəsihət etmək: Xeyiri tövsiyə etmək və ona doğru yol göstərmək Uca Allah buyurub: “**And olsun əsrə (zamana, əsr vaxtına və ya əsr namazına)! Həqiqətən, insan xüsran içərisindədir. Yalnız iman gətirib saleh əməllər edənlər, bir-birinə haqqı tövsiyə edənlər və bir-birinə səbri tövsiyə edənlərdən başqa” (Əsr, 1-3).**

2 – Mərhəmət göstərmək: Ona əziyyət verməmək və bacardığı qədər kömək etmək Uca Allah buyurub: “**Sonra isə iman gətirənlərdən, bir-birinə səbir tövsiyə edənlərdən və mərhəmət tövsiyə edənlərdən olmaqdır” (Bələd, 17).**

3 – Hər hansı bir işdə Onun xeyrinə vasitəçilik ( şəfaət ) etmək. Uca Allah buyurub: “**Kim yaxşı bir işə vasitəçilik edərsə, ona (bunun savabından) bir pay düşər” (Nisa, 85).**

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: “***Vasitəçilik (Şəfaət) edin əcr qazanın”***[183]

4 – Ona salam vermək və salamını qaytarmaq. Uca Allah buyurub: **Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya (verilən salamı) olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin hesabını çəkəndir” (Nisa, 86).**

5 – Onlardan biri xəstələndiyi zaman onu ziyarət etmək.

6 – Dəvətini qəbul etmək: Xüsusilə toy ziyafətlərinə qatılmaq və sevincinə şərik olmaq.

7 – Asqırıb Əlhəmdulilləh deyərək Allaha həmd edərsə, ona yərhəmukallah demək

8 – Əgər vəfat edərsə, dəfnində iştirak etmək və dəfnindən sonra isə ailəsini təsəlli etmək.

9 – Onun üçün cənazə namazı qılımaq

10 – Dəfn etmək və onun üçün dua etmək

Allah elçisi *(sallallahu aleyhi və səlləm)* belə buyurub: “***Müsəlmanın müsəlman üzərində beş haqqı var. “Salam verdikdə salamını qaytarmaq. Xəstələndiyi zaman ziyarət etmək. Vəfat edərsə cənazəsini müşayət etmək. Dəvət etdiyi zaman dəvətini qəbul etmək. Asqırıb “Əlhəmdulilləh” (həmd olsun Allaha) deyəndə sən də ona “Yərhəmukəllah” (Allah sənə rəhm etsin) de”.***[184]

## Sual 109: İslamın batil dinləri və məbudları söyməyə münasibəti necədir ?

İslam salam verməyi əmr edir və salamın bütün ədəblərinə riayət etməyə bizi həvəsləndirir. Belə ki, istər insanın öz evi olsun, istərsə də başqasının — evlərə daxil olarkən salam verməyi buyurmuşdur. Çünki bu, mübarək və xoş bir salamlamadır…

[183] Buxari və Muslim. Buxari, Hədis (1365) və Müslim, Hədis (2627) Əbu Musa rəvayət etmişdir.
[184] Buxari və Müslim. Buxari, Hədis (1183) və Müslim, Hədis (2162) Əbu Hureyrədən rəvayət etmişdir.

Həmçinin, İslam dini batil olsalar belə, digərdinləri təhqir etməyi, söyməyi və batil məbudlara qarşı söyüş söyməyi qadağan etmişdir. Bu, qarşılıqlı söyüşməyə və nəticə etibarilə Uca Allahın söyülməsinə yol açmasın deyə belədir. Uca Allah buyurub: "**(Müşriklərin) Allahdan başqa tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsizlikləri ucdatından, düşməncəsinə Allahı söyərlər. Biz hər bir ümmətə öz əməllərini beləcə gözəlləşdirdik. Sonra isə onların dönüşü öz Rəbbinə olacaq, Allah da nə onlara etdikləri barədə xəbər verəcəkdir" (Ənam, 108).**

Bu, haramlara aparan yolların bağlanması (səddi-zərai) və kiçik bir mənafe üçün (söyüşlə rahatlıq tapmaq kimi) böyük bir fəsadın (Allahın söyülməsinin) qarşısının alınması qaydasına əsaslanır.

Lakin bu, o demək deyil ki, biz həmin dinlərin batil olduğunu söyüşsüz və təhqirsiz bəyan etməməliyik. Əksinə, haqqı bəyan etmək və onu bütün yaradılanlara çatdırmaq vacibdir. Lakin bu, şəxsi hücumlara və nəfsi söyüşlərə yol vermədən, ən gözəl şəkildə və ən aydın ifadələrlə edilməlidir. Bütün Quranın metodu budur: Quranda kafirlərin azğınlığı, Allahın onlara qəzəbinin səbəbi və küfrdə, şirkdə davam edəcəkləri təqdirdə görəcəkləri cəzalar bəyan edilir. Lakin orada dinlərin və məbudların təhqir olunması (söyülməsi) yoxdur.Uca Allah buyurub: "**İçərilərindən zülm edənlər müstəsna olmaqla Kitab əhli ilə gözəl tərzdə mücadilə edin və (belə) deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də ilahımız, sizin də ilahınız birdir. Biz yalnız Ona təslim olanlarıq" (Ənkəbut, 46).**

Digər ayədə Uca Allah belə buyurub: "**De: "Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə (tərəf) gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar yenə üz çevirsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!" (Ali İmran, 64).**

## Sual 110: İslamın yəhudilik, xristianlıq və digər dinlərə münasibəti necədir ?

İslamın dinlərlə rəftarı aydındır və bu rəftar iki əsas amilə söykənir:

**Birinci amil:** İslamdan başqa bütün dinlərin batil (keçərsiz) olduğunun bəyan edilməsi:

Bu, vacib olan bir məsələdir və nəsihət (xeyirxahlıq) sayılır. Axirəti təhlükədə olan bir kəsə "Sən haqq yoldasan" demirik, əksinə, İslamdan başqa bir dinə etiqad etdiyi müddətcə, tutduğu yolun batil olduğunu ona izah edirik. Uca Allah  buyurub: “**Ey Kitab əhli! Nə üçün İbrahim barəsində höcətləşirsiniz? (Halbuki,) Tövrat və İncil ancaq ondan sonra nazil edilmişdir. Məgər anlamırsınız? Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barədə höcətləşirdiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barədə höcətləşirsiniz? Allah bilir, siz isə bilmirsiniz! İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif (batildən haqqa tapınan) bir müsəlman idi və müşriklərdən də olmamışdIr. Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və (ona) iman gətirənlərdir. Allah möminlərin dostudur” (Ali İmran, 65-68).**

Uca Allah  digər ayədə buyurub: “**Biz yalnız Ona təslim olanlarıq!” Kim İslamdan başqa bir din arayarsa, (bilsin ki,) o din ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar” (Ali imran, 84-85).**

Peyğəmbər (salləllahu aleyhi və səlləm ) belə buyurub: ***“Muhəmmədin ruhu əlində olan Allaha and olsun ki, bu ümmətdən istər yəhudi olsun, istərsə də nəsrani olsun, mənim haqqımda eşidərsə, sonra da mənim gətirdiyimə iman gətirmədən ölərsə, cəhənnəm əhlindən olacaqdır.”***[185]

**İkinci amil:** Qeyri-müsəlmanlarla (kafirlərlə) rəftarın izahı

İslam qeyri-müsəlmanları iki qrupa bölmüşdür:

**Birinci qrup:** Kitab əhli. Bunlar yəhudilər, xristianlar və müəyyən hökmlərdə onlara tabe olan, əslində kitabı olan məcusilər (atəşpərəstlər) kimi bəzi hökmlərdə onlara tabe olanlardır. Onlarla xoş rəftar etmək, sülh müqaviləsi bağlamaq, alış-veriş etmək, hətta kitab əhli olan qadınlarla evlənmək caizdir (icazəlidir). Uca Allah

---

[185] Müslim rəvayət etmişdir 153-cü hədis. Əbu Hureyranın hədisidir.

buyurub: “**Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri (kəsdikləri heyvanlar) sizə halal, sizin yeməkləriniz (kəsdiyiniz heyvanlar) də onlara halaldır. Mömin qadınlardan ismətli olanlar və sizdən öncə Kitab verilənlərdən ismətli qadınlar, mehrlərini verdiyiniz təqdirdə, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə sizə halaldır. Kim imanı inkar edərsə əməlləri boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar” (Maidə, 5).**

**İkinci qrup:** Kitabı əhli yəni yəhudilər və xristianlar. Məcusilər (atəşpərəstlər) kimi əslində kitaba sahib olduqları ehtimal edilən və bu səbəbdən müəyyən hökmlərdə (məsələn, cizyə və sülh məsələlərində) onlara bərabər tutulanlar da bu sıraya daxildir.Uca Allah buyurub: “**Kafir qadınları öz kəbininiz altında saxlamayın” (Mumtəhinə, 10).**

Hər iki halda, əgər qeyri-müsəlmanlar İslam diyarlarında bir əhd, sülh və ya himayə altında yaşamağa razı olsalar, onlar İslama və ya dinə girməyə məcbur edilmirlər. Çünki İslam ancaq könüllü və öz razılığı ilə qəbul edildikdə Allah qatında məqbuldur. Uca Allah buyurub: “**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?” (Yunus, 99).**

Digər ayədə Uca Allah buyurub: “**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan fərqlənir. Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir” (Bəqərə, 256).**

Allah qatında qurtuluş sadəcə adla bağlı deyil. Uğur və nicat iman və saleh əmələ bağlıdır. Mənalardan uzaq olan boş adların heç bir əhəmiyyəti yoxdur. Uca Allah  buyurub: “**Şübhəsiz ki, möminlərin, (habelə,) yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər” (Bəqərə, 62).**

Digər ayədə Uca Allah buyurub: “**Şübhəsiz ki, Qiyamət günü Allah möminlər, yəhudilər, sabiilər, nəsranilər, atəşpərəstlər və müşriklər arasında hökm verəcəkdir. Həqiqətən, Allah hər şeyə şahiddir” (Həcc, 17).**

## Sual 111: İslamın və müsəlmanların digər dinlərə mənsub insanlarla dinc yaşaması mümkündürmü?

Bu, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* həyatında və dörd raşidi xəlifənin xilafəti dövründə baş vermişdir. Qeyri-müsəlmanların öz hüquqları var idi. Namusları toxunulmaz, malları qorunan, canları isə amanda idi. Onlar müsəlmanlarla qarşılıqlı anlaşma şəraitində yaşayır, vətəndaşlıq hüquqları ilə yanaşı, qonşuluq hüquqlarından da yararlanırdılar. Eyni zamanda məbədlərində və ibadətlərində sərbəst idilər.

Buna ən bariz nümunə, yəhudilərin əhdləri pozana, Mədinədə vətənə və vətəndaşlara xəyanət edənə qədər Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* ilə birlikdə Mədinədə yaşamalarıdır. Eynilə, yəhudi və xristianlar İslamın himayəsində və müsəlman torpaqlarında yaşamışlar; Fələstin, Şam diyarı, Misir və digər yerlər buna ən yaxşı şahiddir. Uca Allah buyurub: “**Allah din uğrundasizinlə vuruşmayan və sizi öz diyarınızdan çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etməz. Şübhəsiz ki, Allah ədalətli olanları sevər. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır” (Mumtəhinə, 8-9).**

Uca Allah buyurub: **“İnsanlara xoş söz deyin” (Bəqərə, 83).**

Uca Allah buyurub**: “İçərilərindən zülm edənlər müstəsna olmaqla Kitab əhli ilə gözəl tərzdə mücadilə edin” (Ənkəbut, 46).**

İslam yalnız müsəlmanlara və ya onların dininə hücum edən, Allah yolundan sapdıran zalım və təcavüzkar kafir və müşriklərlə vuruşmağı əmr edir. Uca Allah buyurub: “**Sizə nə olub ki, Allah yolunda və: “Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) çıxart, bizə Öz tərəfindən bir himayəçi yolla, bizə Öz tərəfindən bir yardımçı göndər!”– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?! İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut (şeytan) yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir” (Nisa, 45-46).**

Uca Allah buyurub: “**Kitab verilənlərdən Allaha və Axirət gününə imangətirməyən, Allahın və Onun Elçisinin haram**

**buyurduğunu haram saymayan və həqiqi dinə (İslam dininə) etiqad etməyənlərlə, zəlil halda, öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun” (Tövbə, 29).**

Buna görə də, müsəlmanlarla vuruşmayan şəxslərin öldürülməsi caiz deyil — hətta onlar batil dinlərin rahibləri və ya din xadimləri olsalar belə. Kafirlərin qadınlarını, uşaqlarını və dinc sakinlərini öldürmək isə qətiyyən olmaz.

Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* xəlifəsi Əbu Bəkr *(Allah ondan razı olsun)* Şam əhlini fəth etməyə göndərdiyi Yezid bin Əbi Süfyanın qoşununa nəsihət edərkən belə demişdir: ***“Nə bir uşağı, nə bir qadını, nə çox yaşlı bir qocayı, nə də bir xəstəni öldürməyin. Heç bir rahibi qətlə yetirməyin. Meyvə verən ağacları kəsməyin, abad yerləri dağıtmayın. Dəvə və inəkləri kəsməyin (yalnız yemək üçün istisna olmaqla). Arı pətəklərini suya qərq etməyin və yandırmayın”.*** [186]

## Sual 112: İslam niyə insanları müsəlman olmağa çağırır və onlar necə müsəlman olurlar?

İslam insanları müsəlman olmağa çağırır. Çünki İslam haqq dindir. O, insan zəkasına tam müvafiqdir və bəşəriyyətin saf yaradılış fitrətinə (təbiətinə) tamamilə uyğundur. Bunun arxasında bir çox hikmətlər dayanır ki, onlardan ən birincisi budur: İnsanlar məhz bu məqsəd üçün yaradılmışlar.

Müsəlman olmaq – insanın bu dünyadakı əsl vəzifəsidir. Çünki insanlar bu dünyaya sadəcə onu bəzəmək, ona zahiri bir gözəllik qatmaq üçün gəlməyiblər. Əgər məqsəd sadəcə dünyanı gözəlləşdirmək olsaydı, şübhəsiz ki, Uca Allah onu indikindən qat-qat gözəl, qat-qat mükəmməl şəkildə yaratmağa qadir idi. Uca Allah buyurub: **“Əgər insanlar (kafirlərə verdiyimiz nemətlərəbaxıb küfrdə birləşən) vahid bir ümmət olmaq ehtimalı olmasaydı, Rəhmanı inkar edənlərin evlərinin tavanlarını və çıxdıqları nərdivanları da gümüşdən edərdik, evlərinin qapılarını və söykəndikləri taxtları da, zinət də (verərdik). Bütün bunlar dünya həyatının keçici zövqüdür. Axirət isə Rəbbinin yanında yalnız Allahdan qorxanlar üçündür” (Zuxruf, 33-35).**

[186] Əl-Beyhəqi, “Əs-Sünənul-Kubra”da, 18203 ci hədis olaraq rəvayət etmişdir.

Çünki dünya bir sınaq və imtahan evidir (diyarıdır). Beləcə, Uca Allah onu bu nizam üzrə yaratdı ki, Allaha itaət etmək və onun üçün yaradıldığı vəzifəni yerinə yetirmək istəyən kəsə (bu dünya) fayda versin Uca Allah buyurub: “**Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir” (Zariyat, 56-58).**

Və ona görə ki, İslam Adəmdən başlayaraq Nuh, İbrahim, Musa, İsa və Muhəmmədə (Allahın salavatı və salamı onların üzərinə olsun) qədər bütün peyğəmbərlərin dinidir. Uca Allah buyurub: “**Həqiqətən, Allah yanında (haqq) din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı ədavət üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrinə küfr edərsə, (bilsin ki,) Allah tez haqq-hesab çəkəndir. Əgər onlar səninlə mübahisə etsələr, de: “Mən özümü Allaha təslim etdim. Mənə tabe olanlar da, (həmçinin).” Kitab verilənlərə və savadsızlara (özlərində kitab olmayan ərəb müşriklərinə): “Siz də, təslim oldunuzmu?” Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Yox əgər üz döndərsələr, (bil ki,) sənin öhdənə düşən ancaq (haqqı) təbliğ etməkdir. Allah qullarını görəndir” (Ali-İmran 19-20).**

İslam insanları İslamı qəbul etməyə çağırır, çünki axirətdəki qurtuluş məhz bu səbəbə bağlıdır. Uca Allahın yanında nə soyla-nəsəblə, nə şan-şöhrətlə (məqamla), nə də başqa bir şeylə qurtuluş yoxdur. Qurtuluş yalnız tövhidi iqrar etmək (bərqərar etmək) və Uca Allaha ibadət etməklə mümkündür Necə ki bərəkəti bol olan Rəbbin dediyi kimi: “**İman gətirib saleh əməllər edənlərin məskəni isə Firdovs cənnətləri olacaqdır. Onlar orada əbədi qalacaq, oranı (başqa bir yerə) dəyişmək istəməyəcəklər. De: “Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin (suyu) qurtarardı”. De: “Mən də sizin kimi bir insanam. Mənə, sizin məbudunuzun Tək bir ilah olduğu vəhy olunur. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə,qoy yaxşı işlər görsün və Rəbbinə etdiyi ibadətlərində heç kəsi Ona şərik qoşmasın!” (Kəhf 108-110 ).**

Ona görə ki, insan ruh və bədəndən təşkil olunmuşdur (mürəkkəbdir). Bədənlərin qidası hava, yemək və içmək olduğu kimi, ruhların qidası da Uca Allahın nazil etdiyi dindir. Bu qida nə qədər saf

olarsa, gözəl həyat da bir o qədər insanın nəsibi olar. Bu qida nə qədər bulanıqlaşarsa , insan öz ruhunda bir o qədər kədər və sıxıntı tapar. Necə ki, eyni hal bədən qidasında da belədir Uca Allah buyurub: "**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.(ən-Nəhl 97)** Digər ayədə Uca Allah belə buyurub: **Allah buyurdu: "Bir-birinizə düşmən kəsilərək hamınız buradan (yerə) enin. Məndən sizə doğru yol göstəricisi gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən (bələdçimin) ardınca getsə, nə (dünyada) yolunu azar, nə də (axirətdə) bədbəxt olar. Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı daralar və Biz Qiyamət günü onu kor olaraq həşir edərik". O: "Ey Rəbbim! Məni nə üçün kor olaraq həşr etdin, axı mən (dünyada) görürdüm?" – deyəcəkdir. (Allah) deyəcək: "Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gündə sən beləcə unudulacaqsan!" Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir" (Taha, 123-127)**

Həmçinin ona görə ki, İslam sənin üçün yolu aydınladır, beləcə sən xeyir işlərdə nümunə götürülən bir çırağa çevrilirsən və dünyada xeyirlə nur saçırsan. Bununla da sən insanları tək olan Yaradan Allaha — Onu nöqsanlardan pak uca tutaraq — ibadət etməyə çağırmağa hazır olursan. Gün ərzində beş dəfə Uca Allah ilə rabitə qurursan, Onun səni hər an gördüyünü hiss edirsən (Onun nəzarətində olursan), Ona dua edirsən, Onu sevirsən, Ondan qorxursan, Ona ümid bəsləyirsən, qəlbini mübarək və uca olan Allaha bağlayırsan və Ona olan qulluğunun (bəndəliyinin) həqiqətini, həmçinin Onun sənin üzərindəki rəbbliyinin (sahibliyinin) həqiqətini dərk edirsən.

İslam insanları İslamı qəbul etməyə çağırır, çünki belə olduqda insan bir dəyər qazanır. Belə ki, hər bir söz və əməl özü ilə bərabər bir məsuliyyət gətirir və sən bunlara görə hesaba çəkiləcəksən. Həyatın isə havada uçuşan toz zərrəcikləri (həbaən mənsura) kimi boşa getməz. Sən özünü şəxsi və ictimai həyatında, ailəndə və cəmiyyətdə nizamlı (intizamlı) bir halda taparsan. Öz hüquqlarını və üzərinə düşən vəzifələri bilərsən.

İslam insanları ona daxil olmağa çağırır, çünki o, ardıcıllarının əlindən tutaraq onları fani bir həyatdan əbədi bir həyata və sonsuz

bir xoşbəxtliyə aparır. Beləliklə, sən həm dünyada bir dəyərinin olduğunu, həm də axirətdə bir dəyərinin olduğunu dərk edirsən.

Əgər insan bu deyilənlərə və daha çoxuna tam yəqinliklə əmin olmaq istəyirsə,  Məhəmməd peyğəmbərin  necə yaşadığına və onun əshabələrinin  necə yaşadığına nəzər salsın.

Bu kitabda yazılanlar barədə dərindən düşündükdə və əsl İslamı tanıdıqda, yəqin ki, ağlınızdan belə bir sual keçəcək: **"İslamı necə qəbul edə bilərəm?"**

Bunun cavabı çox sadədir: İslamın haqq din olduğuna qəti əmin olduqdan sonra, tək etməli olduğunuz şey bu dinə tabe olmaq, tövhid kəlməsini dilə gətirərək həqiqəti bəyan etməkdir. Bunun üçün: "Əşhədu ən lə iləhə illallah və əşhədu ənnə Muhəmmədən rəsulullah" (Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun elçisidir) deməlisiniz.

Daha sonra ibadətlərinizdə yalnız Allaha qarşı səmimi (ixlaslı) olmalı və kimliyindən asılı olmayaraq, heç bir varlığı Ona şərik qoşmamalısınız. Eyni zamanda Peyğəmbərə (sallallahu aleyhi və sələm ) tabe olmağı öhdənizə götürməli,dininizi Allahın kitabı olan "Qurani-Kərim"dən və Peyğəmbərin səhih sünnəsindən öyrənməlisiniz. Başlanğıc üçün sizə iki mötəbər mənbə — "Səhih əl-Buxari" və "Səhih Müslim" kitabları tamamilə kifayət edər.

Kəlmeyi-şəhadəti gətirdikdən sonra qüsl almalı, dəstəmaz almağı və namaz qılmağı öyrənməlisiniz. Namazı vaxtında qılmağa çalışmalı, onun şərtlərini, rüknlərini və qaydalarını mənimsəməlisiniz.

Həmçinin Allahın kəlamından (Qurandan) müəyyən hissələr əzbərləməyə səy göstərməlisiniz. Bununla da siz artıq İslamı qəbul etmiş sayılırsınız. Bundan sonra sizə düşən yeganə vəzifə — seçdiyiniz bu doğru yolda qətiyyətlə (istiqamətlə) irəliləməkdir."Uca Allah buyurub: “**Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutan kəslərə (ölüm anında) mələklər nazil olub (deyirlər) “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkdiyi və istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli (Allah) tərəfindən bir ziyafət olaraq” (Fussilət, 30-32).**

Sonda Uca Allahdan bizim və sizin üçün hidayət və  Uca Allahla görüşənə qədər doğru yolda sabit olmağı diləyirəm.  Peyğəmbərimiz

Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı və salamı olsun. Həmd olsun aləmlərin Rəbbi olan Allaha.

***Kitab Dr. Muhəmməd Hişam Tahiri tərəfindən Küveyt Dövlətində (Allah o şəhəri qorusun) 24/4/1445-ci il çərşənbə günü səhər yazılmışdır.***

# Mündəricat


**Giriş** ........ 2
**Sual 1: İslam nədir?** ........ 3
**Sual 2: İslam dininin mənbəyi nədir?** ........ 3
**Sual 3: İslamın özünəməxsus üstünlükləri və xüsusiyyətləri nədir?** ........ 4
**Sual 4: İslam dini nəyə çağırır?** ........ 8
**Sual 5: İslam missiyası nədir ?** ........ 10
**Sual 6: İslamın qayəsi və hədəfi nədir ?** ........ 11
**Sual 7: İslamda əməllər neçə qismdir ?** ........ 13
**Sual 8: İslamda əməllərin qəbul olunma əsasları hansılardır?** ........ 14
**Sual 9: İslam elmləri hansılardır?** ........ 15
**Sual 10: İslamda insanın Rəbbi ilə əlaqəsi nədir?** ........ 17
**Sual 11: İnsan islama necə daxil olur?** ........ 18
**Sual 12: İslam dininə görə müsəlman kimdir ?** ........ 19
**Sual 13: İslam dininə görə mömin kimdir ?** ........ 19
**Sual 14: İslamda dərəcə baxımından insanlar neçə qismə bölünür?** ........ 20
**Sual 15: İslamda qurtuluş kəliməsi nədir?** ........ 21
**Sual 16: İslamda "Əşhədu ənnə Muhəmmədən rasulullah" şəhadətinin mənası nədir?** 22
**Sual 17: İnsanın müsəlman olması üçün tələb olunan İslamın əsasları hansılardır?** .. 23
**Sual 18: İslamın əsasları hansılardır?** ........ 24
**Sual 19: İmanın əsasları hansılardır?** ........ 25
**Sual 20: İslamda ümumi qaydalar hansılardır?** ........ 26
**Sual 21: İslamın qoruyub və hifz etmək üçün gətirdiyi beş zərurət hansılardır ?** ..... 29
**Sual 22: İslam dini bu beş zərurəti hansı yollarla qoruyur?** ........ 29
**Sual 23: İslamda məxluqatın yaradılmasında məqsəd nədir?** ........ 32
**Sual 24: İslam dini Uca Allahı tanımağa necə baxır?** ........ 32
**Sual 25: İslamın Uca Yaradana olan baxışı necədir?** ........ 33
**Sual 26: İslamın Uca Allahın Rububiyyətinə baxışı necədir?** ........ 35
**Sual 27: İslamın Uca Allah ilə qulları arasında vasitəçiliyə baxışı necədir?** ........ 36
**Sual 28: İslamda Uca Allahın varlığına dəlil nədir.** ........ 37
**Sual 29: İslamda Allahı təkləşdiriməyin və ibadətə layiq olmasının dəlilləri nədir?** .. 39
**Sual 30: İslamın Allahın ucalığına (uluvv sifətinə) baxışı necədir?** ........ 40
**Sual 31: İslamın Uca Allahın zatına baxışı necədir?** ........ 42
**Sual 32: İslamda Uca Allahın adları hansılardır?** ........ 44
**Sual 33: İslamda Uca Allahın ən əzəmətli adları hansılardır?** ........ 45
**Sual 34: İslamın Uca Allahın rəhmətinə baxışı necədir?** ........ 46
**Sual 35: İslamda Uca Allahın qəhri (mütləq qüdrəti) və qəzəbinə baxış necədir?** ..... 49

**Sual 36: İslamın Uca Allahın mülkünə baxışı necədir?** .................................................. 49
**Sual 37: İslamın Uca Allahın hikmətinə baxışı necədir?** ................................................ 50
**Sual 38: İslamın Uca Allahın əfvinə və məğfirətinə (bağışlamasına ) baxışı necədir?** 51
**Sual 39: İslamın Uca Allahın ruzi verməsinə baxışı necədir?** ....................................... 52
**Sual 40:İslamda Uca Allaha olan məhəbbətin dərəcəsi nədir?** .................................... 54
**Sual 41: İslamda təvəkkülün məqamı (yeri) nədir?** ....................................................... 55
**Sual 42: İslamın mələklərə baxışı necədir ?** ................................................................... 56
**Sual 43: İslamın nazil edilmiş kitablara baxışı necədir?** ................................................ 57
**Sual 44: İslamın Elçilərə *(Onlara Allahın salamı olsun)* baxışı necədir?** ...................... 59
**Sual 45: Müsəlmanlar görə Peyğəmbərlərin möcüzələri nələrdir?** ............................... 60
**Sual 46: Peyğəmbərlərin ən böyük möcüzələri hansılardır?** ......................................... 61
**Sual 47: Müsəlmanın Allah elçisi Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* baxışı necədir?** ............................................................................................................................. 65
**Sual 48: İslamda Muhəmməd Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* möcüzələri hansılardır?** ...................................................................................................................... 68
**Sual 49: Muhammməd peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* islamdakı ən böyük möcüzəsi hansıdır ?** ........................................................................................................... 71
**Sual 50: Müsəlmanın Muhammədin *(sallallahu aleyhi və səlləm)* səhabələrinə baxışı necədir?** ............................................................................................................................. 73
**Sual 51: Müsəlmanın Axirət gününə baxışı necədir?** ...................................................... 74
**Sual 52: İslamda Qiyamətin əlamətləri hansılardır?** ....................................................... 77
**Sual 53: İslamda öldükdən sonra dirilmənin dəlilləri hansılardır?** ................................ 78
**Sual 54: Müsəlmanın Qiyamət günü insanların bölünəcəyi qruplara baxışı necədir?** 81
**Sual 55: Müsəlmanın Cənnətə baxışı necədir ?** ............................................................... 82
**Sual 56: Müsəlmanın Cəhənnəmə baxışı necədir ?** ........................................................ 83
**Sual 57: İslamın qədərə baxışı necədir ?** .......................................................................... 84
**Sual 58: İslamda əxlaqın məqamı nədir?** ........................................................................... 85
**Sual 59: İslamda ixlasın məqamı nədir?** ............................................................................ 86
**Sual 60: İslamda nəsihətin (öyüd-nəsihətin) məqamı nədir?** ........................................ 87
**Sual 61: İslamda doğruluğun (sidqin) məqamı nədir?** .................................................... 88
**Sual 62: İslamda səbrin məqamı (yeri) nədir ?** ................................................................ 89
**Sual 63: İslamda elmin məqamı nədir?** ............................................................................. 90
**Sual 64: Müsəlmanların alimlərə baxışı necədir?** ............................................................ 91
**Sual 65: Müsəlmanın yaşlı insanlara baxışı necədir?** ...................................................... 92
**Sual 66: Müsəlmanın uşaqlara baxışı necədir?** ................................................................ 92
**Sual 67: Müsəlmanın heyvanlara baxışı necədir?** ............................................................ 93
**Sual 68: Əxlaq cəhətdən orta yolda olmağın İslamda yeri nədir?** ................................. 95
**Sual 69: İslamda gözəl əxlaqın yeri nədir?** ........................................................................ 96

**Sual 70: İslamda gözəl davranmağın yeri nədir?** ........................................................... 96
**Sual 71: İslamda ən əzəmətli ibadətlərhansılardır?** ........................................................ 97
**Sual 72: İslamda namazın yeri nədir?** ......................................................................... 99
**Sual 73: İslamda namazın faydaları nədir?** ................................................................. 100
**Sual 74: İslamda zəkatın yeri nədir?** ........................................................................... 101
**Sual 75: İslamda zəkatın faydaları nədir?** .................................................................. 102
**Sual 76: İslamda orucun yeri nədir?** ........................................................................... 103
**Sual 77: İslamda orucun faydaları nədir?** ................................................................... 104
**Sual 78: İslamda Həccin yeri nədir?** ............................................................................ 105
**Sual 79. İslamda Həccin faydaları nədir?** ..................................................................... 106
**Sual 80. İslamda təmizliyin və təmizlənməyin yeri nədir?** ........................................... 107
**Sual 81: İslamda azanverməyin yeri nədir?** ................................................................. 108
**Sual 82: İslamın Kəbəyə, məscidlərə və ibadət yerlərinə baxışı necədir?** ................. 108
**Sual 83: İslamda duanın yeri nədir?** ........................................................................... 109
**Sual 84: İslam dinində müsəlmanın üzərinə düşən vacib xərclər və məsrəflər hansılardlr?** ........................................................................................................ 111
**Sual 85: İslam dininin kəsilən heyvanlara, qurbanlara və bayramlara baxışı necədir?** . 113
**Sual 86: İslam dininin yeməklərə və içkilərə baxışı necədir?** ........................................ 114
**Sual 87: İslamın cihada baxışı necədir?** ..................................................................... 116
**Sual 88: İslam dini sülhə və barışığa necə baxır?** ....................................................... 118
**Sual 89: İslamın alqı-satqıya və ticarətə baxışı necədir?** ............................................ 120
**Sual 90: İslamda evlənməyə və ailə qurmağa necə baxılır və hansı qadınlarla evlənmək olmaz?** ......................................................................................................... 121
**Sual 91: İslamın övlad tərbiyəsinə baxışı necədir?** ..................................................... 122
**Sual 92: İslam dininin mirasa baxışı necədir?** .............................................................. 123
**Sual 93: İslam dininin qadınlara münasibəti necədir?** ................................................... 125
**Sual 94: İslamın kölələrə və köləliyə baxışı necədir?** .................................................. 126
**Sual 95: İslamda qonşuya münasibət necədir?** ............................................................ 128
**Sual 96: İslamın vəfat etmiş insanlara münasibəti necədir?** ........................................ 130
**Sual 97: İslam dininin fərdlərə baxışı necədir?** ............................................................ 131
**Sual 98: İslamda rəhbərlə rəiyyət arasındakı əlaqə nədir?** .......................................... 132
**Sual 99: İsalmın dövlətlərə baxışı necədir?** ................................................................. 134
**Sual 100: İslamın hədlərə və cəzalara baxışı necədir?** ................................................ 136
**Sual 101: İslamın böyük günahlara və bu günahları işləyənlərə münasibəti necədir?** .. 139
**Sual 102: İslamı pozan amillər hansılardır ?** ................................................................ 140
**Sual 103: İslamda şirk nədir?** ........................................................................................ 142

**Sual 104: İslamın, Allahdan başqa ibadət edilən məbudlara baxışı necədir?** .......... 144
**Sual 105: İslamda küfr nədir?** .......... 145
**Sual 106: İslamda nifaq nədir?** .......... 145
**Sual 107: İslamın şeytana baxışı necədir?** .......... 146
**Sual 108: İslamda "Vəla və Bəra" nədir? Müsəlmanın müsəlman üzərindəki haqqı hansıdır ?** .......... 147
**Sual 109: İslamın batil dinləri və məbudları söyməyə münasibəti necədir ?** .......... 150
**Sual 110: İslamın yəhudilik, xristianlıq və digər dinlərəmünasibəti necədir ?** .......... 151
**Sual 111: İslamın və müsəlmanların digər dinlərə mənsub lanlarla dinc yaşaması mümkündürmü?** .......... 152
**Sual112: İslam niyə insanları müsəlman olmağa çağırır və onlar necə müsəlman olurlar?** .......... 154